

*ƏLİ TUDƏ*

# *HƏYATIM, XATİRƏLƏRİM...*



"AZƏRBAYCAN" NƏŞRİYYATI

BAKI–2020

T20(20)

*Azərbaycanın görkəmli şairi Əli Tudənin çapı latın qrafikası ilə nəzərdə tutulmuş 20 cildliyinin 17-ci cildi olan bu kitabında sənətkarın yaşadığı həyatı, illəri, gördükləri, şahidi olduğu və iştirak etdiyi hadisələr, xatirələri qələmə alınmışdır. 5 hissədən ibarət olan "Həyatım, xatirələrim..." adlı bu toplunun ikinci hissəsini sizə təqdim edirik.*

*Diqqət! Kitabdakı şəkilləri Əli Tudə Şimali Azərbaycana mühacirət etdikdən sonra, Bakıda, Hacı Xanməmmədov və yaxın dost-tanışları vasitəsilə əldə etmişdir.*

**Əli Tudə**
T20(20) Həyatım, xatirələrim... XVII cild (ikinci hissə). – Bakı, "Azərbaycan" nəşriyyatı, 2020. – 384 səh.

**T** $\frac{\textbf{4804000000–020(2020)}}{\textbf{M 670(07)–2020}}$ **Sifarişlə**

©"Azərbaycan" nəşriyyatı, 2020.

# *ƏLİ TUDƏ*

Əslən Ərdəbilin Çanaxbulaq kəndindən olan atası Qulu və anası Şahbəyim Şimali Azərbaycana köçmüş və Əli 1924-cü il yanvarın 31-də Bakıda anadan olmuşdur. Atası Qulu neft mədənində fəhləlik etmiş, sonra isə buruq ustası vəzifəsinədək yüksəlmişdir. Əli 1 yaşında olarkən atası, 5 yaşında isə anası dünyasını dəyişmişdir. O, nənəsi Qəribin himayəsində böyümüşdür. 150 saylı orta məktəbdə oxumuşdur. Bu dövrdə Bakı Pionerlər Sarayının nəzdində Osman Sarıvəllinin rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin fəal üzvü olmuşdur. Artıq 13 yaşında ikən Əlinin ilk şeirləri Heydər Rzazadə imzası ilə "Kommunist", "Yeni yol" qəzetlərində çap olunub, radioda səslənib. 1938-ci ildə həmin ədəbiyyat dərnəyinin nəşr etdiyi almanaxda da şeirləri dərc edilib. 1938-ci il repressiya dövründə 7-ci sinifdə oxuyarkən o, Cənubi Azərbaycan mənşəli olduğundan nənəsi ilə birlikdə İrana sürgün edilir. Təhsili yarımçıq qalır. İranda təsərrüfat işləri və fəhləliklə məşğul olaraq ağır həyat tərzi keçirir. Lakin şəxsi mütaliəsi, ədəbiyyata güclü meyli onda yazıb-yaratmaq həvəsini söndürmür. 50 ildən artıq bir müddət ərzində bircə gün belə olsun qələmini yerə qoymayan Əli Tudə dərəli-təpəli bir həyat

və yaradıclıq yolu keçmişdir. 1940-cı illərdə Cənubi Azərbaycanda başlanan azadlıq hərəkatına qoşulub silahı və qələmi ilə mübarizə aparır. Milli ruhlu şeirləri ilə xalqı istiqlala çağırır. 1944-cü ildə "Vətən yolunda" qəzetində Əli Tudə imzası ilə şeirləri çap olunur. 1944–1946-cı illərdə Ərdəbildə çıxan "Ziddi-faşist", "Cövdət" qəzetlərində, ədəbi almanaxlarda, Təbrizdə çıxan "Vətən yolunda", "Azərbaycan" qəzetlərində, "Şəfəq", "Azərbaycan" məcmuələrində, "Şairlər məclisi" almanaxlarında şeirləri müntəzəm çap olunmuşdur. O, "Hizbitudeyi-İran" partiyasının üzvü olur (1944). Bir ildən sonra, 1945-ci il sentyabrın 3-də Təbrizdə yaranan Azərbaycan Demokrat Firqəsi sıralarına qoşulur. İran xalq partiyası Ərdəbil vilayət komitəsində təbliğatçı (1944–1945), Milli hökumət yarandıqdan sonra Təbrizdə Maarif Nazirliyində tədris şöbəsinin müdiri (1945–1946) işləyir. "Ana dili" kitabının tərtibi və çap olunmasında xüsusi rol oynayır. Sonra isə İran tarixində ilk dəfə olaraq Təbrizdə Milli filarmoniya yaradır, onun ilk və son müdiri olur. Mahal-mahal, kəndbəkənd gəzərək istedadları bu böyük mədəniyyət ocağına cəlb edir. Əli Tudə Cənubi Azərbaycan Demokratik ədəbiyyatının yaradıcılarından biridir. İctimai-siyasi fəaliyyəti ilə bərabər şair öz qələminin qüdrətindən inqilabın nailiyyətlərinin qorunub saxlanılması üçün ustalıqla istifadə edir. Yaradıcılığını, yüksək əqidəsini, mütərəqqi fikirlərini mübarizə yollarında məşələ çevirən Əliyə Təbrizin "Şairlər məclisi"ndə müdriklər tərəfindən Tudə, yəni Xalq təxəllüsü verilir. Milli hökumət onu



ali mükafat "21 Azər" medalıyla təltif edir. O vaxt şairin cəmi 22 yaşı var idi və ilk şeirlər kitabı da çap ərəfəsində idi.

Lakin tale burda da öz qəddar hökmünü verdi. Bu xoş günlər, azadlıq və səadət uzun çəkmədi. Min bir əzabla, qanlar bahasına qurulmuş Milli hökuməti İran dövləti beşikdəcə boğdu. Şairin üsyankar ruhlu şeirlər kitabı mətbəədəcə yandırıldı. Tutulduğu anda məhkəməsiz-filansız qətlə yetirilməsi barədə şahın fərmanı verildi. Şair mübarizəni davam etdirmək və qayıtmaq məqsədilə öz məsləkdaşları ilə bir daha Vətəndən Vətənə mühacirət etmək məcburiyyətində qaldı. 1946-cı il dekabrın 12-də sərhəddə yazdığı "Mən nə gətirdim" şeiri Cənubi Azərbaycan mühacir ədəbiyyatının ilk nümunəsi oldu. O taydan gələn qardaş-bacılarımızın manifestinə, həyat məramına dönən bu şeir tez bir zamanda dillər əzbərinə çevrildi.

Milli demokratik hökumət irtica qüvvələri tərəfindən boğulduqdan sonra Bakıya mühacirət zamanı "Ədəbiyyat qəzeti" redaksiyasında ədəbi işçi vəzifəsində işləyir. Ona ali təhsil almaq imkanı yaranır. BDU-nun filologiya fakultəsini fərqlənmə diplomu ilə bitirir (1947–1952). 1958-ci ildən Azərbaycan və SSRİ Yazıçılar İttifaqının üzvü. Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Ali Partiya Məktəbində müdavim, "Azərbaycan" qəzetində (Azərbaycan demokratik firqəsinin orqanı) ədəbi-şöbə müdiri olur (1952–1962). Sonra bütün həyatını bədii yaradıcılığa həsr edir. Ümumittifaq tədbirlərində, Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə,

Tbilisidə SSRİ Yazıçılar İttifaqının plenumunda və s. iştirak etmişdir. "21 Azər" (1946), "Əməkdə fərqlənməyə görə" (1959) medalları ilə mükafatlandırılmışdır. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur (1984). Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü seçilmişdir (1960-cı ildən). Əmək veteranı (1986), Əməkdar incəsənət xadimi (1987). 50 poemanın, 40-a yaxın kitabın müəllifidir. Əsərləri özbək, qırğız, hind, ukrayna, rus, ingilis və s. dillərə tərcümə olunmuşdur. Əli Tudə ömrü boyu siyasi mühacir olaraq qaldı. Sovet pasportu daşımadı. Bir çox yüksək titul və mükafatlardan məhrum oldu.

1996-cı il fevralın 26-da Bakıda vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.



# PROLOQ

*Nə olaydı insan məhrəm sözüylə*
*Qapalı ürəyə girə biləydi.*
*Nə olaydı kamal iti gözüylə*
*Bu gündən sabahı görə biləydi.*

Həyatda az adam tapılar ki, ana təbiət ona gözəl bir məziyyət bəxş etməsin. Mənə isə möhkəm, sədaqətli bir yaddaş vermişdir. Buna görə həm ana təbiətə, həm də öz baxtıma minnətdaram. Çoxlarına qəribə görünsə də beş yaşımdan şahid olduğum hadisələrin demək olar ki, əksəriyyəti hələ də yadımdadır. Sanki bu hadisələr dünən baş vermişdir. Keçdiyim uzun ömür yoluma nəzər salanda bu xatirələr tez-tez gözlərim önündə canlanır, dil açıb mənimlə danışmaq istəyir...

Deyirlər keçmişdə atalar ya quruyan, ya da qurumaqda olan ağaca baltanın dalıyla bərk vurarmışlar. Ağac o balta zərbəsindən qorxub diksinərmiş, oyanarmış, özünə gələrmiş. Sonra nəyə qadir olduğunu yadına salarmış. Daha sonra yenidən göyərməyə başlayarmış. Millət də belədir. Millətin silkənməsi, oyanması, özünə gəlməsi üçün ya bir xəbər, ya bir soraq, ya da bir həyəcan dalğasının təkanı kifayətdir. Millət başının üstünü alan təhlükəni görüb ayağa qalxır. Sonra öz əcdadını yada salır. Daha sonra öz kökünə qayıda-qayıda bütün maneələri dəf edir. Xariqələr yarada-yarada nəyə qadir olduğunu bütün dünyaya sübut edir...

1946-cı ilin yazında Azərbaycan Milli hökuməti İran tarixində ilk dəfə Təbrizdə Azərbaycan Dövlət Filarmoni-

yası açmaq qərarına gəldi. Məni bu təzə sənət ocağına müdir təyin etdi. O zaman mənim cəmi 22 yaşım var idi. Filarmoniyada çalışan işgüzar kollektivin üzvlərinin də əksəriyyəti gənclər idi. Ancaq bu sənət ocağının az zaman içərisində nələrə qadir olduğunu müdrik xalqımız öz iti gözlərilə gördü. Qədim, əlvan, zəngin sənətinin böyük qüdrətinə bir daha inandı...

Mən sonralar yeri düşəndə Azərbaycan Dövlət Filarmoniyasının qısa ömründən hansı sənət pərəstişkarına müəyyən epizodlar danışdımsa, o riqqətlənib mənə bu maraqla dolu canlı həyat parçalarını mütləq qələmə almağı məsləhət bildi.

Azərbaycan Dövlət Filarmoniyası Milli hökumətin xalqın arzuları ilə yaratdığı neçə-neçə təzə müəssisələrdən yalnız bircəsi idi. Obrazlı ifadə ilə desək o, Milli hökumətin geniş fəaliyyət sahəsində bir sənət meydanına bənzəyirdi. Gündüz də, gecə də qaynayan həmin meydan xalq hakimiyyətinin mübariz, xeyirxah, diqqətəşayan əməllərini öz şəffaf aynasında əks etdirirdi. Milyonlarla insanın ürəyinə yatan nəcib, parlaq, gözəl əməllər isə yeni rübablarda səslənir, nəğmələrdə dillənir, alqışlarda pərvazlanırdı...

Mən qədim mədəniyyət tariximizin əlvan üfüqlərində hələ də parlamaqda olan o şəffaf aynada izlər salan mühüm ictimai-siyasi-bədii hadisələrin yalnız bəzilərindən danışacağam. Yazacağım hadisələrin arasında filarmoniya ilə əlaqəsi olmayanlar oxucuda heç də təəccüb doğurmamalıdır. Ona görə ki, həmin hadisələrin mənim həyat tarixçəmlə sıx rabitəsi vardır. Ömrümün bir ili isə Milli hökumətin mübarizələrlə dolu bir illik həyatında keçmişdir. O keşməkeşli həyatın ayrılmaz bir hissəsinə çevrilmişdir...



## SƏRAB YOLUNDA

*Yol var, səni silahla*
*Döyüşlərə aparır.*
*Yol var, səni dəmətlə*
*Görüşlərə aparır.*

Sabahı Ərdəbildəki Sovet konsulxanasının mədəniyyət işlərinə baxan əməkdaşının mənə yol yoldaşı olmağa məsləhət gördüyü kapitanla görüşdüm. O da Şimali azərbaycanlı idi. Adı Ələsgər, famili Məmmədov. Söhbətimizdən məlum oldu ki, yola “Studebeker” markalı yük maşınında çıxacağıq. Günorta naharı bir yerdə yeyib yola düşdük. Mən sürücünün yanında əyləşdim. Ələsgər isə mənim sağ tərəfimdə oturdu. Biz Ərdəbildən çıxanda günəş təbəssümlü mavi üfüqün sifəti birdən-birə bozardı. Sonra bu soyuq baxışlı rəng firuzəyi səmanın bütün üzünə yayıldı.

Nir qəsəbəsini təzəcə keçmişdik ki, noğul-noğul qar yağmağa başladı. Qar acı-acı əsən sazağın titrək qanadlarında çöllər boyunca səpələndi. Təpə-təpə qalandı. Yol uzunu qar yağır, hava qaralır, hərəkət çətinləşirdi. Maşınımız gecənin qara köynəyini yırta-yırta ulduz-ulduz ələnən qar işığında ağ şəpələri yara-yara irəliləyirdi. Ələsgər əllərimin şaxtadan üşüyüb qıpqırmızı olduğunu görüb əllərindəki içi tiftikli meşin əlcəklərini çıxarıb mənə verdi. Mən əlcəkləri əllərimə taxdım. İsti əlcəklərin hərarəti soyuqdan gizildəyən canıma da keçdi. Ələsgər zamanın isti-soyuğundan keçib dünyagörmüş bir adam idi. O mənə dedi ki,

Təbrizdən Ərdəbilə doğma qardaşını görməyə gəlibmiş. Qardaşının isə buna heç gümanı yox imiş. Ürəyi kövrəlmiş Ələsgər o gözlənilməz görüş səhnəsini təsvir edəndə gah kədərlənir, gah da sevinirdi. Sanki mənim də şaxtada donub qaya parçasına dönmək istəyən ürəyim birdən-birə kövrəldi, tərpəndi, əridi. Odlu damlalar qara kirpiklərimə düzülən qrovun ağ muncuqlarını dibdən qoparıb tökdü. Axı söhbət nisgilsiz dünyada yalnız xoşbəxt yaşamaq üçün doğulmuş canlı insanlardan gedirdi. Necə olmuşdusa, taleyin dolaşıq yollarında iki qardaş bir-birindən ayrı düşmüşdü. Biri o tayda qalmışdı, biri bu taya gəlmişdi. İndi uzun illərdən sonra iki qardaş yalnız bir arzuyla görüşürdü. Qoy həmişə görüş olsun! Vüsal olsun! Sevinc olsun!

Axşam maşınımız birtəhər gəlib Sayın gədiyinin üstə salınmış xaraba karvansaraya çatdı. Şah Abbas dövründən qalan bu karvansara qarlı tufanlara düşən yorğun karvanların gədiyin başında daldalanması üçün tikilmişdi. Lakin neçə-neçə karvanı fəlakətdən qurtaran karvansara öz tarixi rolunu çoxdan oynayıb qurtarmışdı. Karvansaranın üstü tökülmüş, divarları uçmuş, özü isə xarabalığa çevrilmişdi. Ancaq yenə də müsafirlər qarlı-çovğunlu gecələrdə bu xaraba karvansarada çətinliklə olsa da dağların boz üzlü qəzəbindən qoruna bilirdi. Biz maşını karvansaranın qabağında saxlayıb kabinədən yerə düşdük. Qarşıda bir neçə maşının da dayandığını gördük. Bu maşınlar Təbrizdən gəlmişdi. Hiss olunurdu ki, gədiyin o üzündən bu xaraba karvansaraya gələnə qədər sürücülər yaman əziyyət çəkmişlər. Bunu təkər-



lərə bağlanmış zəncirlər, pəncərələrdən asılmış sırsıralar, kuzovda qalanmış qar açıq-aşkar sübut edirdi. Biz dönüb karvansaraya baxdıq. Xarabalıqlar arasında ocaqlar tüstülənirdi. Sanki alovları qızaran ocaqların üstünə qara örtüklər salmışdılar ki, qar-çovğun odlarını dağıda bilməsin. Ocaqları dövrəyə almış müsafirlər bir-birlərinə ürək-dirək verərək Sayının üzüdönük havasından danışırdılar. Daha bilmirdilər ki, Sayının o tərəfində də, bu tərəfində də havanın üzü beləcə dönmüşdür. Mən Ələsgərlə bərabər sürücünün arxasınca karvansaraya girdim. Ocaqların birinin qırağında çömbəltmə əyləşib özümüzü oda verdik ki, bəlkə üst-başımızın donu açılsın. Aradan on dəqiqə keçməmişdi ki, eşikdə səs-küy qopdu. Ocaqdan ayrılmaq istəməsək də eşiyə çıxdıq. Karvansaranın qabağında bir yük maşını dayanmışdı. Gələnlər sovet döyüşçüləri idi. Biz yeni müsafirləri qarşılayıb karvansaraya apardıq. Karvansarada ocaq qalayanlar hardasa ehtiyatda saxlanılan təzəklərdən səbətlərə yığıb gətirdilər. Ocaqlar təzədən qalandı, alovlar təzədən gurladı, tüstülər təzədən qatılaşdı. Sovet döyüşçüləri danışır, gülür, zarafatlaşırdılar. Aralarında azərbaycanlı da, rus da, qazax da, gürcü də, özbək də, latış da vardı. Bu mübariz insanların şən əhval-ruhiyyəsi bizə də sirayət edirdi. Biz də ocaq qırağında qarı, çovğunu unudub dodağımızdan axan lətifələrin canımıza yayılan hərarətindən qızınırdıq. İndi bu xaraba karvansara bir ümid yeri axtaran yorğun gözlərimizdə dünyanın gözəl saraylarından da gözəl idi. Axı o şirin həyatımızı acı ruzgardan qoruyurdu. İndi təzək-

lərdən qalxan tünd qoxu bizə dünyanın nadir ətirlərindən də qiymətli idi. Axı o ılıq nəfəsilə sırsıra bağlamış sinəmizi isidir, qızıl şöləlrilə qaranlıq yolumuzu işıqlandırırdı. Buna görə də biz kirpik çalmadan gözlərimizi ocağa dikmişdik. Sanki onu itirəcəyimizdən qorxurduq. Ocağın acı tüstüsü gözlərimizi nə qədər yaşartsa da incimirdik. Gözlərimizdən yanaqlarımıza yuvarlandıqca sapı qırılan muncuqlara bənzəyən damlalar sevinc yaşları idi. İsti Günəşə çatmayan soyuq qollarımız bu ocağı ehtiyatla qucaqlamışdı. Qaranlıq tufanda donmaq təhlükəsinə məruz qalmış taleyimiz dilim-dilim yanan ocağın şölələrindən asılmışdı. Ocaq bizi birtəhər isitsə də titrəyirdik. Ancaq üşümürdük. Xeyr. Yalnız ocağın üstündə tir-tir titrəyirdik. Qorxurduq ki, ocaq sönər. Buna görə də havada pərdə-pərdə buğlanıb papiros tüstüsünü xatırladan nəfəsimizi də ocağın hərarətinə qatırdıq ki, o sönməsin! Havanın ağarmasını çox tez duyduq. Onsuz da dünəndən quşbaşı yağan qar ucsuz-bucaqsız qaranlıq çadırın döşəməsinə salınmış ağ rəngli nəhəng palaza oxşayırdı. Karvansaradan bayıra çıxdıq. Ətraf ağappaq idi. Səhərin ayazlı qucağında udduğumuz təmiz hava bizi dirçəltdi, gümrahlaşdırdı, cəsarətləndirdi. Gözlərimizdə təşviş buludları dağıldı, şəfəq salxımları parladı, sevinc çeşmələri çağladı. Bəli! Hərdəmxəyal təbiət artıq öz əbədi ocağını yandırmışdı. O, durulan üfüqdən bizə baxdıqca nurani üzünü təbəssümqarışıq bir qızartı bürüyürdü. Sanki haradasa gecikib qaldığından xəcalət çəkirdi. Biz isə ona minnətdarlıqla baxırdıq. Uzun gecəni soyuq çəkdiyimizə, həyəcan keçirdiyimizə, yuxusuz qaldığımıza görə sanki bu qarlı səhərdə günəşi qızaran süd gölünə düşmüşdük. Bu uğurla açılan səhər öz əllərilə qarlı-buzlu yolumuzun üstə ümid məşəli yandırmışdı. Yolçu yolda gərək deməşlər. Qabaqda sürücülər, arxada biz maşınlara sarı getdik. Maşınlar işə salındı. Hündür qarı kürüyə-kürüyə, maşına yol aça-aça, arada nəfəs dərə-dərə gədiyin o üzünə doğru bir qədər irəlilədik. İş belə getsəydi bir aya da Təbrizə çata bilməyəcəkdik. Lakin birdən əlləri kürəkli kəndlilərin qar şəpələrini yara-yara bizə sarı gəldiklərini gördük. Bu adamlar ətraf kəndlərin sakinləri idilər. Müsafirlərə yol açmaq üçün köməyə gəlmişdilər. Yox! Darda qalan insanlara yardım, qurtuluş, sevinc gətirmişdilər. Sən demə, həmişə belə olurmuş. Qarda-çovğunda bağlanan yolu qonşu kəndlərdə yaşayan kəndlilər açırmış. Onlar qar üstə səpələnmiş tüfəngli əsgərlərə bənzəyirdilər. İşə başladılar. Sanki əllərdə sürətlə hərlənən kürəklər süd gölündə dalğaları yaran avarlar idi. Kürəklərin açdığı yol isə üstüaçıq tunel idi. Tunelin bu tayında da, o tayında da yumşaq qar təpələri qalana-qalana Səraba doğru gedirdi. Qar qalaqları üstə Günəşin ılıq şəfəqləri bərq vururdu.

Bizim maşınımız yolda tək deyildi. Arxamızca bir neçə maşın da gəlirdi. Biz Səraba çatanda çıraqlar təzəcə yanmışdı. Şəhərin girəcəyində bizi tanımadığımız iki adam hörmətlə qarşıladı. Sonra yaşlısı bizdən xahiş etdi ki, maşını dediyi ünvana sürdürək. Sürücümüz Səraba yaxşı bələd idi. Bizi həmin ünvana gətirdi. Maşınımız böyük bir malikanənin qarşısında dayandı. Ulduz-ulduz

yanan malikanə sanki tamam işıqdan tikilmişdi. Malikanə öz çil-çıraqları ilə gözlərimizi qamaşdırırdı. Həyətə girdik. Həyətdə dörd cavan oğlan narahat-narahat gəzişirdi. Eyvanda bir yaşlı kişi intizarla dayanıb qapıya baxırdı. Eyvana qalxdıq. Kişi ilə görüşdük. O bizi qonaq otağına dəvət etdi. Keçib divar dibində düzülmüş stullarda əyləşdik. Otağın ortasında qoyulmuş yemək masasının üstü zövqlə bəzənmişdi. Əlvan, ləziz, gözəl nemətlər geniş süfrədə yan-yana düzülmüşdü. Kişi bizdən kimliyimizi soruşdu. Ələsgər sovet əfsəri olduğunu dedi. (Deməsəydi də kimliyi geyimindən bilinirdi). Kişi mənim şair, o biri yoldaşımızın da sürücü olduğunu biləndə fikrə getdi. Tutuldu, bozardı, qaraldı. Haçandan-haçana: – Bəs Qulam Yəhya gəlməyib? – dedi. Biz çiyinlərimizi çəkdik. Məsələ sonra məlum oldu. Sən demə, bu kişi Sərabın məşhur mülkədarlarından biri imiş. Eşidib ki, Qulam Yəhya Səraba gələcək, tez əl-ayağa düşüb, tədarük görüb ki, bəlkə Qulam Yəhyanı razı salıb öz məqsədinə çata bilsin. Necə deyərlər, qara onu basmamış, o qaranı bassın. Lakin deyəsən kişi deyən olmamışdı. Ev sahibi bizi süfrəyə dəvət etdi. Dəvətin könülsüz olduğunu duyduq. Onsuz da yeməyə meylimiz yox idi. Yorulub əldən düşmüşdük. Yatıb dincəlmək istəyirdik. Süfrəyə əl vurmadıq. Kişi narahat oldu. Haraya gedəcəyimizi soruşdu. Biz mehmanxanada gecələyib səhər Təbrizə yola düşəcəyimizi dedik. Qoymadı. Xahişlə, minnətlə, təkidlə bizi öz evində saxladı. Üçümüz də bir otaqda yatdıq. Dan yerinin qara saçına təzə dənlər düşməmiş yataqdan qalxdıq. Kişi çoxdan



oyanmışdı. Yenə bizi qonaq otağına dəvət etdi. Biz nəzakət xatirinə yüngülcə yedikdən sonra ayağa durduq. Kişi bizi maşına qədər ötürdü. Əl verib sağollaşanda ondan Qulam Yəhyaya "səmimi" salam deməyimizi bizdən xahiş etdi. Maşınımız yola düşdü. Bir qədər getdikdən sonra Sərab-Təbriz yolu üstə əli çemodanlı bir adamın dayandığını gördük. Bu adam maşın gözləyirdi. Maşını saxladıq. O, bizə yaxınlaşıb Təbrizə getdiyini bildirdi. Onu maşına mindirib yolumuza davam etdik. Yolda söhbətlərindən məlum oldu ki, bu adam Sərab firqə komitəsinin sədridir. Təbrizdə açılacaq konfransa gedir. Deyəsən konfrans yoxsul kəndlilərin işilə əlaqədar təcili çağırılmışdı. Torpaq məsələsinə baxılacaqdı. Sədr də ona görə yola tələsik çıxmışdı. Yadıma gecə evində qaldığımız mülkədarın həm özü, həm də Qulam Yəhyanı qarşılamaq üçün gördüyü tədarük düşdü. Güldüm. Başa düşdüm ki, niyə bütün zəhmətləri hədərə getmiş mülkədar intizarını çəkdiyi qonağa heç olmasa "səmimi" salam göndərirmiş... Havada şaxta dolaşsa da Günəş dan yerindən qalxmışdı. Mən maşının pəncərəsindən yol kənarındakı təpələrə baxdım. Üstündə tala-tala qar qalan təpələr yaşlı adamların ağ saçları seyrəlmiş başlarına bənzəyirdi...

Maşınımız Şibliyə çatdı. Ələsgər Şibliyə maraqla baxdı. Sonra tövsiyəylə mənə: – Şibliyə gərək yazda baxasan. Axar-baxarlı mənzərəsi sanki tamaşaçının gözlərində zəngin sərgi açır. İndi Cənubi Azərbaycanda azadlıq döyüşləri getdiyi bir zamanda Şibli sanki ağ köynək geyib cihad etmişdir – dedi. Mən qürurla Ələs-

gərə: – Mən birinci dəfə Ərdəbildən Təbrizə gələndə elə yazda gəlmişəm. Şiblini də ilk dəfə onda görmüşəm. Sonra Şibliyə bir şeir də yazmışam – dedim. Ələsgər əvvəl mənə sınayıcı nəzərlə baxdı. Sonra qətiyyətlə: – Onda o şeirdə şeiriyyət zəngin olar. Bəlkə Şibliyə salam vermək əvəzinə elə o şeiri oxuyasınız? – dedi. Mən məmnuniyyətlə: – Şeiri həm özümün, həm də sizin salamınızın əvəzinə oxuyuram – dedim. Sonra qarlı gədikdə Şibli şeirinin istisinə qızınaq deyə hərarətlə oxudum:

**Dağların qoynunda gədikdir Şibli,**
**Təbriz-Sərab yolu birləşir burda.**
**Sanma öz boyundan incikdir Şibli,**
**Min dəvə karvanı yerləşir burda.**

**Kirpik kirpik üstə qoymayan gözlər**
**Şibliyə nisgillə ətəkdən baxar.**
**Qalxanda Təbrizdən doymayan gözlər**
**Şəhərin hüsnünə yüksəkdən baxar.**

**Şiblinin başından gözəl diyarı**
**Görər təbiətin aynası kimi.**
**Eynal-Zeynaldakı nadir baharı**
**Sevər şeiriyyətin mənası kimi.**

**Az qala Günəşdən gözü qamaşar,**
**Əlini-üzünü yuyar bulaqda.**
**Bir qədər su səpər quru lavaşa,**
**Kiçik süfrə açar yumşaq otlaqda.**



**Hardasa çalınan çoban tütəyi**
**Döyüş mahnısını yada gətirər.**
**Yoxsul süfrədəki pendir-çörəyi**
**Dağlar havasıyla dada gətirər.**

**Bəlkə həmin adam böyük həsrətlə**
**Şanlı tarixini anar Təbrizin.**
**Dərin məhəbbətlə, kövrək şəfqətlə**
**Dərdinə ürəkdən yanar Təbrizin.**

**Şirin duyğularla dolu sinəsi**
**Gah qalxar, gah enər körüklər təki.**
**Udmaq istəsə də yolu sinəsi,**
**Cığırlar uzanar hörüklər təki.**

**Zənn etmə Şiblinin başından keçən**
**Təkcə karvanların həyat yoludur.**
**Yox! Yox! Bu gədiyin qaşından keçən**
**Dumanlı Təbrizin nicat yoludur.**

**Təbriz, ana Təbriz darda qalanda**
**Bu yolla igidlər gəlmiş haraya.**
**Təbrizdə özgələr məskən salanda**
**Şəhəri doğmalar almış araya.**

**Astara, Ərdəbil, Miyana, Sərab**
**– İnqilabdır! – deyə axmış Təbrizə.**
**Nə qədər sahibkar, nə qədər ərbab**
**Titrəyə-titrəyə baxmış Təbrizə.**

**Şiblinin dikini qalxdığı dəmdə**
**Asta yerisə də tövşüyür adam.**
**Hələ Günəş göydə şaxdığı dəmdə**
**İsti paltarda da üşüyür adam.**

**Ancaq fədailər hücum zamanı**
**Pilləli yoxuşda tövşüməmişdir.**
**İnam isitmişdir burda insanı,**
**Şaxtaya düşsə də üşüməmişdir.**

**Sanma dediklərim bir əfsanədir,**
**Demə nə sorağı, nə nişanı var.**
**Hər nazik cığır da bir təranədir,**
**Hər kiçik daşın da öz dastanı var!**

**Nədir o qayalar? Dilsiz şahidlər!**
**Şirin xatirəylə doludur bu yol.**
**İnqilab bayraqlı mərd mücahidlər,**
**Dönməz fədailər yoludur bu yol...**

Şeiri oxuyub qurtardım. Ələsgər qolunu boynuma salıb məni qucaqladı. Sonra səmimiyyətlə: – Sağ olun! Gözəl şeirdir! Şeirdə şeiriyyət də, ünsiyyət də, məhəbbət də, qətiyyət də, cəsarət də var. Bu gözəl torpaqlar üstdə yaşayan mübariz xalqımız təmənnasız tərifə layiqdir. Özü də vüqarlı, cəsarətli, dözümlü xalqdır. Dünyada heç bir xalq bizim xalq qədər öz torpağı, istiqlaliyyəti, azadlığı uğrunda odlu-alovlu döyüşlərdə çarpışmayıb – dedi. Mən təəssüflə Ələsgərə: – Allah bilir hələ nə qədər də çarpışacaq – dedim.



## SALAM, TƏBRİZ

*Salam, mehriban Təbriz,*
*Gəlmişəm xidmətinə.*
*Sən anasan, mən övlad,*
*Möhtacam şəfqətinə.*

Təbriz bizi qış axşamında işıq dəmətlərilə qarşıladı. Bu dəmətlər səadət ulduzlarına dönən çıraqların təbəssümündə yuyunub daha da parlayırdı.





Salam, Təbriz! Bu mənim qədim Təbrizlə ikinci görüşüm idi. Azadlığa çıxmış Təbrizləsə ilk dəfə idi ki, salamlaşırdım. Birinci kərə idi ki, oğul ananı şad görürdü, özü da anadan ilham alıb şadlanırdı. Şəhərə daxil olduq. Qədim tarixli, təzə dövranlı şəhərə!

Yadıma Təbrizlə ilk görüşüm düşdü. 1945-ci ilin yazı idi. "Vətən yolunda" qəzetinin redaksiyası Ərdəbil şairlərini Təbrizdəki "Şairlər məclisi"ndə görüşə dəvət etmişdi. Görüşə gedənlər arasında mən də var idim. Mən Təbriz şairləri ilə görüşdən əvvəl bu qədim, böyük, gözəl şəhərin özü ilə görüşdüm. Şeiriyyətlə dolu mənzərəsinə heyran qaldım. Deyilənə görə, orta əsrlərdə genuyalılar Təbrizə gəlir. Hələ o zamanlar bu əzəmətli şəhərin nadir gözəlliyinə məndən də artıq heyran qalırlar. Genuya tacirləri Təbriz ətrafındakı dağların başında qəsrlər tikmək üçün hökmdar Üveysidən pulla torpaq istəyirlər. Hökmdar nəzakət xatirinə gəlmələrin xahişini yerinə yetirir. Kim bilir, bəlkə də hökmdarın dumanlı gözlərini soyuq qızıl parıltıları qamaşdırır. Ancaq vətən təəssübü tezliklə dünya malına qalib gəlir. Hökmdar böyük səhv etdiyini başa düşüb öz laqeyd əməlindən peşman olur. Genuyalıların Təbrizin yaşıl sinəsində iftixarla qabaran yaraşıqlı bağlara dağların başından tamaşa etməsi məğrur hökmdarın qüruruna toxunur. O, tacirləri yanına çağırıb deyir ki, siz bu məmləkətdə aldığınız şeyləri öz məmləkətinizə apara bilərsiniz. Fəqət bu məmləkətdə malikanəyə çevirə bilməzsiniz. Doğrudur, aldığınız torpaqlar sizindir. İstəyirsinizsə yığıb aparın, harada qəsr tikirsinizsə tikin, bu məmləkətdə isə qəsr tikməyə ixtiyarınız yox-



dur. Öz tamahkar niyyətlərindən dönmək istəməyən tacirlər hökmdarla mübahisəyə girişir. Qəzəbdən torpaq tək bozaran hökmdar isə üzlü qonaqları cəzalandırır...

Mən Təbrizdə iki qardaşın şərikli mehmanxanasına düşmüşdüm. Qardaşlar mehmanxananın birinci mərtəbəsindəki daş pillələr altında yerləşən otaqlarında saxsı bardaqlarda piti qoyur, bürünc samovarda isə çay qaynadırdılar. Müsafirlərdən kimin nəyə ehtiyacı olsa idi, qardaşlara müraciət edirdi. Zülmkar ağaların saysız-hesabsız zülmündən təngə gəlmiş odlar diyarı indi doğrudan da barıt çəlləyinə bənzəyirdi. Bəlkə də döyüşə ilk atılan vətən oğlunun odlu nəfəsiylə partlayacaqdı. Fəqət o nəfəs tufanlı istibdad zülmətində Təbrizin işarə fişəngini gözləyirdi. Mən mehmanxanada bir piti yeyib, həm bir az təmiz hava almaq, həm də təzədəm çay içmək üçün yaxınlıqdakı çayxanaya yollandım. Çayxana ağzına qədər adamla dolu idi. Çay içən kim, çörək yeyən kim, sulu qəlyan çəkən kim, ticarətdən gileylənən kim, siyasətdən danışan kim... Keçib bir miz arxasındakı boş stulda əyləşdim. Yanğımı söndürmək üçün çayçı şagirdini çağırıb çay sifariş verdim.

Aşıq həmişəki yerində telli sazını sözlə dolu sinəsinə basıb ilhamla çalırdı. Oxuduğu qoşmanın mətni də, ruhu da, axarı da sazın avazı ilə uyuşurdu. Simlər beyinləri düşündürə-düşündürə səslənirdi, ürəkləri həyəcanlandıra-həyəcanlandıra dillənirdi, duyğuları coşdura-coşdura çağlayırdı. Sanki sazın çanağı döyüş meydanı olmuşdu. Zərblə bir-birinə dəyib şaqqıldayan gümüş simləri isə sıyrılmış yalın qılınclara dönmüşdü. Simlərin göz qamaşdıran parıltıları qılıncların saçdığı ağ

qığılcımlara bənzəyirdi. Pərdələrin ürəkləri tərpədən şaqraq sədaları döyüş marşının təntənəli notlarını xatırladırdı. Təpəsindən tüstü qalxan böyrü batmış iri samovarın yeknəsək sızıltıları döyüş meydanında vurulub atdan salınmış yaralıların həzin iniltilərinə oxşayırdı.

Bu zaman çayxananın qabağında eşşəkli bir kəndli göründü. O sol qıçını sağ qıçının üstdən aşıraraq yavaşca eşşəyin üstdən düşdü. İçərisinə saman tökülmüş qəzil torbanı eşşəyin başına keçirdi. Sonra palanın tərkinə bağlanmış köhnə xurcundan arasına nəsə bükülmüş çirkli bir dəstərxanı götürüb qoltuğuna vuraraq çayxanaya girdi. Kəndli qapıya yaxın bir yerdə oturub dəstərxanı açdı. Qabağında bir fərə yumurtası boyda şorla iki arpa cadı vardı. Boz üzlərində sarı qılçıqları açıq-aydın görünən cadlar samanla suvanmış kəndli daxmasından qopub düşmüş divarın parçalarını andırırdı. O, çay gətirtdi. Acı çayla şor-çörəyi şirin-şirin yeməyə başladı. Deyəsən cadlar qurumuşdu. Kəndli hər tikəyə bir çimdik şor sürtdükdən sonra ağzına qoyur, üstündən də bir-iki qurtum çay içirdi. Stəkan boşaldı. Çayçı şagirdi onu ikinci dəfə çayla doldurub gətirdi. Kəndlinin bütün fikri-zikri özündə idi. Sanki ətrafındakı qaynar aləmdən ayrı düşmüşdü. Ətrafındakıların isə maraq dolu baxışları şor-çörək dəstərxanına dikilmişdi. Kişi şor-çörəyi yeyib qurtardıqdan sonra dəstərxanın uclarını içəriyə qatladı. Ortasında qalan cad qırıntılarını da ovcuna yığıb ağzına atdı. Yenə də şirin-şirin çeynəməyə başladı. Sanki yediyi ləbləbi-kişmiş idi. Sonra arıq, qara, cod əllərini göyə qaldırıb dedi: – Çox şükür



mərhəmətinə ilahi, çox şükür. Mən yedim doydum, sən də acları doydur – dedi.

Sən demə, aşıq bayaqdan bəri saz çala-çala, qoşma oxuya-oxuya, eyham vura-vura kəndlinin bu avam hərəkətlərini sərraf gözlərinin ucuyla hirsli-hirsli izləyirmiş. Birdən saz susdu. Sanki nəhəng bir yanğının ətrafı qarsan alovları söndü. Yerində çayxananı silkələyən bir tufan qopdu. Bu aşığın təlatümə gələn siqlətli səsi idi. O, yoxsul dəstərxanını hələ tamam yığışdırmağa macal tapmayan şükürnemət kəndlinin başının üstünü alıb kinayə ilə: – De görüm sən nəyə şükür edirsən? De görüm sənin yeyib doyduğun nədir? De görüm sən insansan, yoxsa heyvan? Yəni bu qədər anlamazsan ki, başa düşmürsən yediyin arpa cadıdır? Sən qapıdakı eşşəyin halalca payını yeyibsən? Əvəzinə isə torbasına bir çəngə yavan saman atıb başına keçiribsən? Sənin başına noxta vuran hiyləgər ağaların isə sənin buğda payını yeyib? Heç olmasa o dilsiz-ağızsız heyvan öz payını tələb etmək üçün hərdənbir anqırır. Sən isə dilin-ağzın ola-ola öz haqqını istəməyə cınqırını da çıxarmırsan. Üstəlik səni insan yaradıb heyvan yerinə qoyanın ünvanına bol-bol şükürlər göndərməkdən utanmırsan. Kəs səsini, qanmaz kişi! Olan-qalan ətimizi də tökmə – dedi. Kəndli oturduğu yerdən dik qalxdı. Əvvəlcə zəhmli görkəmlə qarşısında məğrur dayanmış aşığa, sonra qəzəbli nəğməkarın haqlı sözlərini yalnız başlarını döşlərinə əyməklə təsdiq edən adamlara baxdı. Bu adamların tənəli gözlərində sakit-sakit qımışan rişxəndi görməmək mümkün deyildi. Kəndli bir söz demədən əllərini boz çuxasının yan ciblərinə salıb bir xeyli ax-

tardı. Nəhayət, iki mis pul tapıb çıxararaq mizin üstünə qoydu. Sanki bu pullar günahını başa düşmüş kəndlinin peşman gözlərindən axıb düşmüş iki damla sarı yaş idi. O, dəstərxanı qoltuğuna vurub iti addımlarla gur nəfəsli çayxanadan çıxdı. Sanki aşığın həqiqət dilli tənqidi kəndlinin mürgülü arzularını oyatmış, qatlı qırışlarını açmış, ətalətli addımlarını yeyinlətmişdi. Bəlkə də o, köhnə çörək dəstərxanını təzə mübarizə bayrağı ilə, qədim yük ulağını yeni döyüş atı ilə dəyişməyə gedirdi. Mən də çayxanadan çıxdım. İstiqlal, azadlıq, səadət uğrunda alovlanan inqilabın gələcək qələbəsinə möhkəm inamla mehmanxanaya doğru addımladım. O sazlı-sözlü günün sabahı Təbrizin kinoteatrlarında iki təzə bədii film nümayiş etdirilirdi. Biri məşhur Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun eyni adlı əsəri üzrə ekranlaşdırılmış “Arşın mal alan”, digəri isə ingilislərin çəkdikləri “Bağdad oğrusu” filmi idi. Əlbəttə, mən əvvəlcə “Arşın mal alan” filminə baxmaq istədim. Afişada elə “Arşın mal alan” sözlərini görəntək sevincdən gözlərim yaşarmışdı. Nisgillərim təzələnmiş, duyğularım kövrəlmişdi. Bəs necə?! Axı bu təkrarsız sənət əsəri Vətəndən Vətənə göndərilən qardaş sovqatı idi. Ancaq “Arşın mal alan” filmi göstərilən kinoteatrların qabağı adamla dolu idi. Necə deyərlər, iynə atsaydın yerə düşməzdi. Bilet tapmaq çox çətin idi. Axı filmin mövzusu Azərbaycan həyatından alınmışdı. Aktyorlar da ekranda azərbaycanca danışırdılar... Sən demə, Təbrizdə yaşayan bir şair dostumda artıq bilet varmış. Məni filmə baxmağa qonaq etdi. Keçib salonda öz yerimizdə əyləşdik. Film başlandı. Həm məzəli, həm də



mənalı kadrlar sürətlə bir-birini əvəz etdi... Gülçöhrə qızlarla danışırdı. Ancaq yanıqlı-yanıqlı danışırdı. Özü də qızların kimə gedəcəklərini qabaqcadan niyə bilmədiklərindən gileyli-gileyli danışırdı. Yox, bu giley deyildi. Alovlu şikayət idi. Elə bu zaman arxamda kiçik bir şəlalənin çağladığını eşitdim. Kimsə ağlayırdı. Deyəsən qadın idi. Hıçqırırdı. Müsəlman şəhərlərində yad qadına baxmaq qəbahət sayılsa da heyrətimi zorlaya bilmədim. Yanımdakılara sezdirmədən qanrılıb çiynimin üstdən arxaya baxdım. Bəli! Yanılmamışdım. Ağlayan qadın idi. O hönkürə-hönkürə: – Bərəkallah Gülçöhrə, sənin haqq sözlərin mənim ürək yanğıma sərin su tək çiləndi. Ancaq mən daha gönü suya vermişəm – deyirdi. Yanındakı qadın öz rəfiqəsinə təsəlli ilə: – Ağlama, niyə ağlayırsan, Allahına şükür et ki, anan namaz üstə imiş. Yaxşı qurtardın, yoxsa o sənin gününü göy əskiyə bükəcəkdi – deyirdi. Ekranda isə kadrlar yenə də bir-birini əvəz edirdi. Nəhayət, doğma Azərbaycan təranələri altında Gülçöhrə Əsgərə, Asya Süleyman bəyə, xala Soltan bəyə, Telli Vəliyə qovuşdu. Salonda işıqlar yandı. Tamaşaçılar bir nəfərtək ayağa qalxıb əl çaldılar. Sanki ekranda evlənənlərin kollektiv toyunu təbrik etdilər. Sonra təbəssümlü baxışlarını bayaq hıçqırıq gələn səmtə tərəf yönəltdilər. Mən də arxama baxdım. Arxamda iki cavan qadın ayaq üstə dayanıb əl çalırdı. Birinin gözlərində yaşla təbəssüm bir-birinə qarışmışdı. Bəli! Filmin sonunda gərgin hadisələrin xoşbəxtliklə bitməsindən elə sevinmişdi ki, gözlərinin yaşını silməyi də tamam unutmuşdu. Tamaşaçılar isə adama xoş əhval-ruhiyyə aşılayan bir filmdə bir qadı-

nın göz yaşları axıtmasına təəccüb edirdilər. Onlar hardan biləydilər ki, bu ağlayan qadının başına həyatda nələr gəlmişdir. Kinoteatrdan çıxdıq. Yaz ətri ilə dolu xiyabanda işıqdan qamaşan gözlərimizdə sevinc ilə kədər bir-birinə qarışmışdı. Mən dostumun üzünə baxıb təəssüflə: – Hələ də görməzdən-bilməzdən evlənmək qaydası müsəlman dünyasında davam edir – dedim. Dostum mənim sözlərimi başıyla təsdiq edib: – Hələ bu gördüyün nədir ki? Təbrizdə dövlətli bir tacir var. Nəinki İranda, hətta xaricdə də məşhurdur. Beş il bundan qabaq hansı təmənnaya görəsə, oğluna öz qohumunun qızını aldı. Gəlinini böyük dəbdəbə ilə gətirdi. Ancaq oğlan qızla bir neçə gün yaşadıqdan sonra Tehrana qaçdı. Ordan atasına yazdığı məktubda qızı istəmədiyini bildirdi. Sonra da Tehrandan Ankaraya getdi. Orda evləndi. Bir türk qızı aldı. İndi iki uşağı da vardır. Atası isə gəlinini hələ də öz evində saxlayır. Axı gəlini öz qohumudur – dedi.

O zaman qədim mədəniyyət mərkəzi, o boyda Ərdəbildə kinoteatr olmadığı üçün film də göstərilmirdi. Düşündüm ki, Təbrizə gəlmişkən elə “Bağdad oğrusu” filminə də baxım. Kassadan bilet alıb tamaşa salonuna daxil oldum. Filmə baxmağa gələnlər çoxdu. Mən də öz yerimdə əyləşdim. Xalq arasında qədim bir məsəl var - “Çərçi qabındakını çağırar”. Əgər sevdaya düşmüş Əsgər arşınıyla “Arşın mal alan” filmində öz sevgisinin keçdiyi yolu ölçürdüsə, cahangirlik iddiasında olan ingilislər isə arşınları ilə “Bağdad oğrusu” filmində əsarət daşıdıqları ölkələrin dağını-dərəsini hesablayırdılar. Doğrudur, ingilislər bu filmdə mahir artistlərdən, əlvan



rənglərdən, nəhəng dekorlardan bacarıqla istifadə etmişdilər. Sanki filmdə mətləbdən çox şəkillər nəzərə çarpdırılırdı. Əslində isə şəkillər də mətləblərə xidmət edirdi! Bəli! İngilislər insanlara rəşadət arxasında cinayət aşılayırdılar. Bu təlqini Təbrizin müdrik adamları daha tez duyurdular. Üzlərini “Arşın mal alan” gedən kinoteatra tuturdular. Bu filmə baxmağa tələsirdilər. Varlılar “Arşın mal alan”dan ləzzət, yoxsullar isə ibrət alırdılar. Sanki Əsgər öz arşını ilə kinoteatrlara axışan tamaşaçı nəhrlərinin səmtini yalnız bir məcraya yönəldirdi. “Arşın mal alan”a! Axı dünya görmüş xalqın sevdiyi bu film rəvayət deyildi, həyat dastanı idi!

Ələsgərlə xudahafizləşib ayrıldıq. O, xidmət etdiyi hərbi hissəyə getdi. Mən isə Tərbiyət xiyabanındakı “Bahar” mehmanxanasına düşdüm. Dincəldim. Səhər Milli məclisə getdim. Məni Maarif nazirliyinin sərəncamına göndərdilər. Nazirlikdə tədris şöbəsinin müdiri təyin olundum. İş otağım Təbrizin yaraşıqlı xiyabanlarından birində yerləşən böyük, qaynar bir mətbəədə idi. Bu mətbəədə yalnız Azərbaycan dilində dərsliklər çap olunurdu. Birinci sinifdən onuncu sinfə qədər proqram üzrə tərtib edilmiş kitabların səhifələrini həm klassik, həm də müasir söz ustalarının əsərləri bəzəyirdi. Mənim şeirlərimə də özlərində səxavətlə yer verən dərsliklər şagirdlərə vətənpərvərlik, insanpərvərlik, maarifpərvərlik duyğuları aşılayırdı. Mətbəənin gündüzlü-gecəli işləyən çarxları da sanki mübarizləşmişdi. Elə mərdlik, bəxtiyarlıq, xeyirxahlıq nəğmələri oxuyurdu. Mən kiçik, sadə, narahat iş otağımda ətraf kəndlər-

dən, qəsəbələrdən, şəhərlərdən dərsliklər almaqdan ötrü gələn nümayəndələri qəbul edirdim. Özləri yorğun, lakin ürəkləri şən olan adamlar kitabları götürüb sevinclə öz doğma yerlərinə qayıdırdılar. Maşının ağzından çıxan, rəngi əməlli-başlı qurumayan, qatları tamam açılmayan ana dilli kitablar isti təndirdən qoparılan sarı buğda çörəyi qədər şirin, əziz, müqəddəs idi! İş o qədər çox, qızğın, gərgin, lakin fərəhli idi ki, mən nahar fasilələrində də şəhərə çıxmayıb elə yeməyimi də yaxındakı restoranlardan iş otağıma gətirtdirirdim. Yanıma gələn qələm dostlarımı da burada nahara qonaq edirdim. Halbuki, Təbrizdə yüksək keyfiyyətli əlvan xörəkləri, mehriban davranışlı həssas xidmətçiləri, könül oxşayan məlahətli təranələri ilə məşhur olan müasir tipli restoranlar az deyildi. Mən yanıma gələn əziz qonaqları istədiyim restorana dəvət edə bilərdim. Həm maddi imkanım, həm də əylənmək həvəsim var idi. Lakin gündüzlü-gecəli xalqın səadəti naminə işlədiyimiz əmək meydanında hamının hünər bayrağına dönən ümumi arzu xüsusi istəkləri üstələyirdi...

Günorta idi. Yenə öz iş otağımda nahar edirdim. Birdən qapı açıldı. Təbrizin məşhur yazıçılarından biri otağa girdi. Hələ də vüqarını saxlamağa çalışan yaşlı yazıçı qocaman qayaya, ağ dalğalı saçı isə qayanın başında parlayan şəlaləyə bənzəyirdi. Mən dərhal ayağa qalxdım. O, yaşına uyğun olmayan çəldliklə mənə doğru yeriyib nəzakətlə sağ əlini çiynimə qoydu. Sonra mehriban-mehriban: – Xahiş edirəm əyləşəsiniz. Süfrə başından durmaq günahdır – dedi. Əyləşdim. Özüm



çilo-kabab yediyimə görə qonaq üçün də çilov-kabab gətirtdim. O əvvəl etirazla mənə: – Siz qələm dostumuz olsanız da Təbrizdə qəribsiniz. Gərək biz sizi evimizə qonaq çağıraq – dedi. Mən hörmətlə qonağıma: – Mən Təbrizin qonağıyam. Təbriz isə sizin şəhərdir – dedim. Qonağım nəzakətlə mənə: – Yox! Sizdən üzr istəyirəm. Bir balaca səhv elədiniz. Təbriz hamımızın şəhəridir. Eybi yoxdur. Səni qonaq çağırmaq məsələsini sürətləndirərik – dedi. Naharı bir yerdə etdik. Sonra mən qonağımın yazısı çıxmış dərslik kitabını gətirib qarşısına qoydum. O kitabı varaqlayıb öz yazısını tapdı. Sonra ucadan, sevinə-sevinə oxudu. Sanki o yazı heç öz qələmindən çıxmamışdı. Yox! O yazısının çapına sevinmirdi. Ustadın yazıları mətbuat səhifələrində çox dərc olunmuşdu. Ancaq fars dilində. O yazısının öz dilində işıq üzü görməsinə tamarzı idi. İndi yazısı öz dilində çap olunmuşdu. O da buna sevinirdi. Mən kitabı ustada bağışladım. O təşəkkür edib kitabı götürdü. Bir də varaqlayıb öz yazısına baxdı. Sanki yazısının kitabda öz dilində çıxmasının qətiliyinə inanmaq istədi. Sonra təbəssümlə əlimi sıxıb getdi. Mən iş otağımın pəncərəsindən xiyabana baxdım. Xiyabanda asta-asta yeriyən yazıçı qoltuğunda kitabı elə bərk-bərk tutmuşdu ki... Pəncərə dalından çəkilib mizimin arxasında əyləşdim. Qarşıma bir ağ varaq qoyub yazdım:

**Həyat mənzil-mənzil, yollar dağ-dərə,**
**Bir qoca nisgillə yeriyir ancaq.**
**O, çətin səfərdə çəliyi yerə,**
**Ömrü son mənzilə dirəyir ancaq.**

**Başına yağdısa bağında meyvə,**
**Taladı şah, vəzir, sahibkar onu.**
**Nəyinə gərəkdir ya at, ya dəvə,**
**Qarışqaya minsə aparar onu.**

**Yox! Qaya siqlətli müdrik qocanın**
**Sənət yollarında izləri vardır.**
**O ürəyi geniş, başı ucanın**
**Bu şəhərdə cild-cild sözləri vardır.**

Günlər keçirdi... Mən Ələsgəri bir daha görə bilmədim. Nədənsə bir-birimizi axtarıb tapmadıq. Bəlkə də bu axtarışın yolunu sellənən işlər kəsdi. Ancaq bəstəboylu Ələsgər mənim yaddaşımın fövqündə həmişəlik qaldı. Şaxtada qızarmış mərd sifətilə, iti baxışlı xırda gözlərilə, şəvə parıltılı qısa qaşlarıyla, balaca, yaraşıqlı, yumru burnuyla, kiçik, qəşəng ağzıyla, ağ mirvari dişlərilə, nazik, gödək, qara bığı ilə qaldı. Deyirlər bir nəfərdən soruşublar ki, qardaşın necə adamdır? Cavab verib ki, bilmirəm, yol yoldaşı olmamışam. Ələsgər mənim qardaşım deyildisə də yoldaşım olmuşdu. Özü də qar sovruqlu günlərdə, zülmət çətirli gecələrdə, buz pilləli yoxuşlarda! Ələsgər məni təbəssümüylə isidir, dözümüylə cürətləndirir, inamıyla qanadlandırırdı...

Təbrizdəki qələm dostlarım demək olar ki, hər axşam mehmanxanaya yanıma gələrdilər. Əyləşib söhbət edər, şeir oxuyar, çay içərdilər. Ərdəbildən gələn dostlarım, tanışlarım, qohumlarım da mənim otağımda gecələyərdilər. Belə gecələrdə otağa əlavə çarpayılar gətirtdirərdim. Qonaq çox olanda döşəmədə



xalça üstə yer salıb yatan da olurdu. Mən gündüzlər idarədə işlər, gecələr isə dostlarım mənzilimdə başımdan dağılandan sonra şeir yazardım.

Hələ uşaq ikən kiçik çillə haqqında nənəmdən bir rəvayət eşitmişdim. Guya kiçik çillə deyib ki, əgər mənim ömrüm böyük çillənin ömrü qədər olsaydı gəlinlərin əlini un çuvalında dondurardım. Kim bilir, bəlkə də kiçik çillə bu sözləri deyərkən Təbrizin iqlimini nəzərdə tuturmuş. Axı Təbrizdə kiçik çillə hər şeyi öz şaxtalı nəfəsilə dondurub buza döndərmək istəyir. Adam qıpqırmızı köz dolu manqalı qucağına çəksə də yenə qızına bilmir. Əlləri, sinəsi, üzü isinsə də, kürəyi donur. Hardasa, hansı sümüyüsə gizildəyir. Gecələr isə şaxta daha da sıxlaşır. Belə şaxtalı gecələrin birində mən yenə şeir yazırdım. Bəli! Soyuq havalı "Bahar" mehmanxanasında "Bahar" şeirini yazırdım. Axı həyatda artıq bahardı. Təbiətdə isə bahara az qalırdı... Birdən otağımın qapısı döyüldü. Qapını açanda gözlərimə inanmadım. İki əziz qonağım gəlmişdi. İkisi də Ərdəbil şairi idi. İbrahim Zakir, Ələkbər Səyyah. Görüşdük, öpüşdük. Qonaqlarım soyundu, rahatlandı, danışdı. Məlum oldu ki, Milli hökumət satirik məcəllə nəşr etmək fikrindədir. Qələm dostlarım da məcəllənin nəşrində iştirak etmək üçün Ərdəbildən Təbrizə dəvət olunublar. Zakir məcəlləyə satirik şeirlər yazmalı, Ələkbər də bu mövzularda şəkillər çəkməlidir. Mən də qələm dostlarıma qoşulub belə gərəkli bir məcəllənin tezliklə dünyaya gələcəyinə sevinirdim. Bu məcəllə təkcə işlərimizdəki nöqsanları tənqid etməklə kifayətlənməyə-

cəkdi. Həm daxili, həm də xarici irticanın hiylələrini ifşa edəcəkdi. Çay içə-içə söhbət etdik. Yatmaq vaxtı gələndə otağa iki çarpayı gətirtdim. Mən də, Ələkbər də soyunub yerimizə girdik. Zakir soyunmadı. Elə kostyumda yorğanın altına girdi. Məni gülmək tutdu. Ha özümü saxladım, mümkün olmadı. Qəhqəhə çəkdim. Zakir gülüşümün səbəbini başa düşdü. Qəribədir ki, indi o özü məndən bərk gülürdü. Sən demə, Ərdəbildə də hava soyumağa başlayanda Zakir elə kostyumla yatarmış ki, xəstələnməsin. Hətta ayazdan pəncərə şüşələri bir azca qrov bağlayanda Zakir boynundakı qalstuku da açmazmış ki, boğazı soyuqlamasın. Qonaqlarım yorğun olduqları üçün tez yuxuya getdilər. Axı Ərdəbildən Təbrizə qədər yol gəlmişdilər.

Səhər üçümüz də "Vətən yolunda" qəzetinin redaksiyasına getdik. Redaksiyanın yerləşdiyi binada yeməkxana var idi. Bu yeməkxana ancaq redaksiya əməkdaşlarına xidmət edirdi. Biz də arabir bu yeməkxanaya gəlirdik. Necə deyərlər, həm ziyarət, həm ticarət. Həm redaksiya işçilərilə görüşürdük, həm də nahar edirdik. Yeməkxananın aşbazı təbrizli idi. Mahir aşbaz ləzzətli Azərbaycan xörəkləri ilə yanaşı gözəl rus xörəkləri də bişirirdi. Xörəklər həm qoyun, həm də mal ətindən hazırlanırdı. Əvəz Sadıq isə elə bilirdi ki, Zakir donuz əti yeməz. Çünki müsəlmanlar donuz ətini haram sayırlar. Ona görə də tez-tez şairə sataşırdı. Ancaq Zakirin köhnə ateist olduğunu həmyerliləri çoxdan bilirdilər. Bir dəfə yeməkxanada Əvəz ilə Zakir arasında belə bir dialoq yarandı:



– Zakir!

– Bəli, yoldaş Əvəz.

– Xəbərin var?

– Nədən?

– Yediyin borş donuz ətindən hazırlanıb.

– Eh, canım, gör mən nə fikirdəyəm, sən nə fikirdəsən.

– Sən nə fikirdəsən, Zakir?

– Mən bu fikirdəyəm ki, aşbazdan xahiş edim, bu dadlı borşdan mənə bir nimçə də versin.

Yeməkxanada elə bir qəhqəhə qopdu ki, danışanların söhbəti də, qazanların pıqqıltısı da, qaşıqların cingiltisi də bu qəhqəhə içində eşidilməz oldu. Bu əhvalatdan sonra daha Zakir Əvəzə sataşırdı. Harda rastlaşsa idilər deyərdi: – Yoldaş Əvəz, haçan yeməkxanada donuz ətindən borş bişirilsə mənə xəbər verməyi unutmayın! – Əvəz daşın haraya atıldığını yaxşı bilirdi. Ancaq dinmirdi. Təbəssümlü gözlərini Zakirin ağ saçının nuruyla işıqlanan üzünə dikib sakit-sakit düşünürdü. Kim bilir, bəlkə də təzə bir zarafat haqqında düşünürdü...

Ələkbər də zarafatda Zakirdən geri qalan deyildi. Bunu Zakir də bilirdi, mən də. Ərdəbildə haçan Ələkbərə rast gəlsəydim soruşardım: – Ələkbər, necəsən? – Bilərdim ki, Ələkbər indi bir gülməli cavab verəcək, mən də güləcəyəm. O özünü tox tutub təmkinlə mənə: – Əşi, necə olacağam? Qırılırıq kef çəkməkdən – deyərdi.

Kef çəkməkdən qırılmasaq da Ələkbərin bu tənəli zarafatından qırılıncaya qədər gülərdik. Bir dəfə idarədə oturub Ələkbərlə söhbət edirdim. Bir dostumuz gəlib bizə dedi ki, durun gedək Təzə meydana. Özümə bir nimdaş pencək almaq istəyirəm. Qəribə idi. Təzə meydanın adı ilə matahı arasında bir təzad var idi. Təzə meydanda köhnə şeylər satılırdı. Qalxıb Təzə meydana gəldik. Bir dəllaldan nimdaş bir pencək istədik. O gətirib dostumuza pencək verdi. Dostumuz pencəyi alıb o üzünə, bu üzünə baxandan sonra qiymətini soruşdu. Dəllal pencəyin qiymətini çox baha dedi. Dostumuz etiraz edib dedi ki, pencək bu qiymətə dəyməz. Görmürsən çox geyilib? Ələkbər pencəyi onun əlindən alıb göyə qaldırdı. Pencək günəşli havada açılmış qara yelkənə döndü. Ələkbər pencəyin bu üzündən o üzünə baxdı. Diqqətli baxışlarıyla pencəyin süzülüb-süzülmədiyini yoxlamaq istədi. Deyəsən pencək bir neçə yerdən süzülmüşdü. İçərisindən baxanda bayırı ulduz-ulduz işıldayırdı. Ələkbər qımışdı. Biz iki dost gözlərimizi intizarla Ələkbərin ağzına dikmişdik ki, görəsən indi nə deyəcək? Ələkbər pencəyi dostumuza qaytarıb laqeyd-laqeyd: – Sən də gör nəyin fikrini çəkirsən, guya pencək çox geyilib. Nə olsun? Sən də az geyərsən – dedi. Məsələ aydın oldu. Bu sözlər Ələkbərin iradla dolu eyhamlı məsləhəti idi. Nimdaş pencəyi köhnə dəllalın qollarının üstünə atıb Təzə meydandan çıxdıq. Bəli! Ələkbərin bütün keşməkeşli həyatında yeganə təsəlli, zarafat idi. Öz mübariz taleyinə nikbin baxan



Ələkbərin qaynar həyatında bir neçə peşəsi var idi: sürücülük, sazəndəlik, rəssamlıq, şairlik, artistlik...

Ələkbər Ərdəbildə buraxılan "Ziddi-faşist" qəzetində satirik şeirlər yazırdı, şəkillər çəkirdi. Şəhər səhnəsində tamaşaya qoyulan komediyalarda tapşırılan yumoristik rollarda uğurla çıxış edirdi, maşın sürürdü... Ancaq bu qədər peşənin sahibi çox yoxsul yaşayırdı. Mən sonralar "Sən indi hardasan?" adlı poemamı Ələkbərin həyatına həsr etdim. Ələkbər mehriban, sadiq, xeyirxah dost idi. Sözün əsl mənasında fədakar idi. Özündən böyüklərin də qulluğunda durardı, kiçiklərin də. Uşaq qədər sadə, təmiz, təvazökar idi. O, Milli hökumətdən qabaq da Ərdəbildəki "Şairlər məclisi"nin fəal üzvlərindən biri idi. 1945-ci ildə "Vətən yolunda" qəzetinin redaksiyası Ərdəbil şairlərini Təbrizdə görüşə dəvət edəndə Ələkbər də bizimlə getmişdi. Təbrizdə çıxan "Şairlər məclisi"nin son nömrəsində şairin həm şəkli, həm də xeyli şeiri verilmişdir.

Yuxarıda dedim ki, Ələkbər də, Zakir də mənim mehmanxanadakı otağıma düşmüşdü. Bir axşam çay içib dincəldikdən sonra Zakir dedi ki, nəşr olunacaq satirik məcəllə üçün artıq sifarişlər almışlar. Bu mövzuda Zakir şeir yazmış, Ələkbərsə şəkil çəkmişdir. Mən şəklə baxdım. Doğrudan da Ələkbərin rəssamlıq məharəti bu işində də açıq-aşkar görünürdü. O, imperializmin tamahkarlığını, qəsbkarlığını, cinayətkarlığını kəskin boyalarla əks edən maraqlı bir karikatura yaratmışdı.

Sonra Zakirin bu mövzuya həsr etdiyi şeirini oxudum. Sözün doğrusu, şeir məni qane etmədi. Susdum. Nədənsə, qocaman sənətkarın bu şeirindəki kəsər əvvəlki şeirlərindəki qədər iti deyildi. Susduğumu görən Ələkbər sanki cürətləndi. Dedi ki, icazə verin, mən də bu mövzuda yazdığım bir şeiri oxuyum. Sən demə, Zakir bu şeirdən xəbərsiz imiş. Ona görə də Ələkbərə təəccüblə baxdı. Dedim oxu, Ələkbər, növbə sənindir! Ələkbər şeirini oxudu. İnsafən şeir həm bədii cəhətdən, həm də müasirlik baxımından təqdirəlayiq idi. Mən ata qədər xətrini istədiyim Zakirin həmişə hörmətini saxlasam da Ələkbərin istedadla yazılmış şeirindən keçə bilmədim. Dedim: – Ələkbər, ay zalım, sənin şeirin tufan eləyir. – Mənim bu sözlərimi eşidən Zakir pərt olsa da üzə vurmadı. Ancaq amiranə səslə dedi: – Yox! Ələkbər, şeiri mən yazmalıyam. Sən ancaq şəkil çəkməlisən! – Məni gülmək tutdu, özümü zorla saxladım. Bu anda Ələkbərin Ərdəbildəki Təzə meydanda nimdaş pencək almaq istəyən dostumuza dediyi "sən az geyərsən" sözləri yadıma düşdü... İndi bu yumorlu ifadənin müəllifinin özü pərt olmuşdu. Atalar demişkən, daş qayaya rast gəlmişdi...

Nədənsə nəzərdə tutulan satirik məcəllənin nəşri baş tutmadı. Ələkbər Zakirlə bərabər Ərdəbilə qayıtdı. Günlər keçdi. Mən sonralar Ələkbərə məktub yazıb onu Azərbaycan Dövlət Filarmoniyasında işləməyə dəvət etdim. O, məmnuniyyətlə gəldi. Mehriban kollektivimizin səmimi bir üzvü də artdı. Ələkbərin yanıqlı kamançası da milli orkestrdə həzin-həzin çağladı, çağlaya-çağlaya duruldu, durula-durula parladı...



## MƏHRƏM MƏKTUB

*Məktub quşdur! Həmişə*
*O, yollarda yaşayır.*
*Mənzillərə gah sevinc,*
*Gah da kədər daşıyır.*

Təbiətdə də, cəmiyyətdə də yazdı. Mənim həyatımda da yazdı. Körpə azadlıq isə qundağında hələ bir neçə aylıqdı. Təbrizdə şıdırğı yağış yağırdı. Belə havada adam otaqda tək olanda darıxır. Şəhərin narahat mənzərəsinə baxmaq, əylənmək, çevikləşmək istəyir. Mən də Təbrizin yağışlı mənzərəsinə tamaşa etmək məqsədilə otağımın pəncərəsini taybatay açdım. Meh ətir dolu sərin nəfəsilə gecədən yığılıb qalan havanı vaxtı qurtarmış müsafir tək otağımdan çıxartdı. Sığal çəkən əllərilə döşəməni də, tavanı da, divarları da mehriban-mehriban silib təmizlədi. Mən də yazın meyxoş havasından uda-uda təravətləndim. Göyə baxdım. Göydə sıx buludlar axışırdı. Yerə baxdım. Yerdə seyrək yolçular qaçışırdı. Hər şey leysandan qorunmaq üçün tələsirdi. Hətta xiyabandakı kiçik sellər də leysanın şiddətli təkanından qorxub daldalanmaq üçün özlərini söyüdlü arxların büllur qucağına atırdı. Kimsə, hardasa sanki xəbərdarlıqla oxuyurdu:

**Hələ uzundur gecə,**
**Ulduz ağ, hilal incə...**
**Budağı qoruyaq ki,**
**Qönçədir çiçək, qönçə.**

Bəli! Bayatı oxuyan düz deyirdi. Biz hər yerdə, hər an sayıq olmalıydıq. Yoxsa qapısı açıq olan məscidə it də girə bilərdi. Mən fikirli-fikirli Eynal-Zeynal dağına baxdım. Sanki dağın başına yağış yox, gümüş yağırdı. Eynal-Zeynalın hüsnü gümüşlə yuyulduqca ilahi gözəlliyi daha aydın nəzərə çarpırdı. Mən heyrət dolu gözlərimi dağa zilləyə-zilləyə bir həftə əvvəl yazdığım Eynal-Zeynal adlı şeirimi pıçıltıyla oxudum:

**Yazda dağ-daş yuyulanda şəfəqlərdə,**
**Gözəlliyin sorağıdır Eynal-Zeynal.**
**Elə bil ki, gözişləməz üfüqlərdə**
**Nəhəng lalə qalağıdır Eynal-Zeynal.**

**Gecə gözü yumulanda hər ülkərin,**
**Yolu üstdə dayananda Ay səhərin,**
**Elə bil ki, Təbriz boyda bir şəhərin**
**Günəşləşən çırağıdır Eynal-Zeynal.**

**Bu dağlara söykəyərək arxasını,**
**Təbriz açmış güllələrə yaxasını...**
**Qaytardıqca şimşəklərin dalğasını,**
**Bilmiş möhkəm dayağıdır Eynal-Zeynal.**

**Məzarda da yuxusu yox, nigaranın,**
**Buludları yellənəndə asimanın,**
**Sanki mavi üfüqlərdə Səttarxanın**
**Dalğalanan bayrağıdır Eynal-Zeynal.**



**Öz ətrini duya-duya hər gülzarın,**
**Yanaqları qızaranda ilk baharın,**
**Baxışları təbəssümlü bir diyarın**
**Sanki yaqut dodağıdır Eynal-Zeynal.**

**Düşməmişsə heyrət dolu bir sənətə,**
**Məni salmış özü boyda bir heyrətə.**
**Çatmamışsa zirvələrlə bir şöhrətə,**
**Zirvələrin növrağıdır Eynal-Zeynal.**

Pəncərəsi ancaq yağış damcılarıyla naxışlanan otağımla üzbəüz duran, aynabəndində əlvan daş-qaşlar yanan, leysanda da müştəri gözləyən zərgər dükanının qabağında iki gənc şax dayanmışdı. İkisi də başdan-ayağa qədər su içində idi. Sanki soyuq su altında çimirdilər. Su şırıltıyla başlarından tökülüb, ayaqlarından süzülürdü. Lakin ikisinin də gözlərində təbəssüm parıldayırdı. Sanki yağışın nurla dolu damcıları gənclərin gözlərinə də yağırdı. Qızın qara telləri islanıb al yanaqlarına yapışmışdı. Hətta qönçə dodaqlarının bir yanını da örtmüşdü. Qızın dodağı qaranlıqda yarı çıxmış günəşi xatırladırdı. Oğlanın qara saçına, qaşına, kirpiyinə büllur damlalar səpilmişdi. O uzaqdan qoca kişiyə oxşayırdı. Lakin əllərini ölçə-ölçə qıza hərarətlə nəsə danışması odlu gəncliyindən xəbər verirdi. Qız oğlana o qədər heyranlıqla qulaq asırdı ki, hətta tellərini dodağından kənara çəkməyi də unutmuşdu. Bəlkə bu lazım da deyildi. Axı qız özü danışmırdı. Yalnız oğlanı dinləyirdi. Köhnə zaman olsaydı, mövhumat dünyasında göz açan cahillər bu sevgililərə həqarətlə baxardı. Bəs ne-

cə? Sakit havada gizli görüşə çıxanları həyasız adlandıranlar leysanda açıq-aşkar yanaşı çimən sevgililərə divanə deyərdilər. Milli hökumət isə sevgini də, görüşü də, şəraiti də azad elan etmişdi. Sanki leysan da öz nəğməsində bu elanda yazılmış sözləri oxuyurdu. Vaxt vardı ağ məftillərə bənzəyən yağış sevgi dünyasında qara barmaqlıqlar hörərdi. Soyuq ürəklə sevəni sevəndən ayırardı. İndi isə göydən ələnən iri, şəffaf, təmiz damlalar gah gümüş sapa, gah da parlaq iynəyə dönürdü. Sevgini də, görüşü də, şəraiti də iti əllərilə ətirləndirə-ətirləndirə bir-birinə tikirdi. Leysan yağış altında sevgi, sədaqət, səadət mücəssəməsinə dönən gənc sevgililər isə bu nadir əməliyyatın ilk qaranquşlarını andırırdı. Oğlan yağışdan islanmış əlini uzadıb nəzakətlə qızın qolundan tutdu. Sevgililər zərgər dükanına girdilər. İçəridə çox ləngidilər. Gənclər dükandan çıxanda artıq leysan dayanmışdı. Daha havada büllur damcılar parlamırdı. Yalnız qızın barmağına təzəcə taxdığı üzüyün almas qaşı parıldayırdı. Üfüqdə göy qurşağı uzanmışdı. Sanki ana təbiət yağışdan sonra asdığı əlvan ipdə öz yaş paltarlarını sərib qurudurdu. Sevgililərin əyinlərindəki paltarlar isə hələ yaş idi. Ancaq gənclər yaş paltarların içində üşümürdülər. Qızın barmağındakı üzüyün almas qaşının şöləsi hər ikisini isindirirdi. Bu şölə sevgililərin nəmli paltarlarını da qurudacaqdı, dumanlı yollarını da işıqlandıracaqdı. Ömrün sınaqlı illərində cilalana-cilalana parlayan nişan üzüyü məhəbbət kəhkəşanında sədaqət ülkərinə dönəcəkdi.

Yadıma Ərdəbildə Gülənbərlə son görüşüm düşdü. Qız uçuna-uçuna: – Təbrizdən mənə məktub yazın – 



dedi. Ancaq işim başımdan elə aşdı ki, Gülənbərə məktub yaza bilmədim. Axı həssas bir qıza məktub yazmaq o qədər də asan deyil. Şeiri birnəfəsə də yazmaq olar. Ancaq belə məktubu yazmaq üçün düşünüb-daşınmaq gərəkdir. Gecələr yuxuma girən Gülənbər pıçıltıyla deyirdi: – Mən dəfələrlə siz yuxuya gedəndə gəlib başınızın üstündə dayanıram. Səssiz-səmirsiz ağlayıram. Gözlərimin büllur yaşları açıq sinənizin üstündə ulduz-ulduz yanırlar ki, bəlkə qaranlıq otaq işıqlana. Siz də gözlərinizi açıb görəsiniz ki, yanınıza gəlmişəm. Ancaq siz o qədər yorğun olursunuz ki, gözlərinizi aça bilməyirsiniz. Mən isə peşiman-peşiman geriyə qayıdıram. Gözlərimin büllur yaşları ulduz-ulduz yanır ki, gəldiyim yolu işıqlandırsın...

Mən pəncərənin arxasından çəkilib mizə doğru getdim. Qabağıma qələm-kağız qoyub Gülənbərə məktub yazmaq istədim. Qaydadır, məktubu nəsrlə yazırlar. Amma mən məktubu nəsrlə yox, şeirlə yazmaq qərarına gəldim. Gülənbər şair qızı idi. Uşaqlıqdan evlərində şeir eşitmişdi. Tanışlığımızdan sonra mənim şeirlərimi də dinləmişdi. Neçə-neçə şeirimin uğuruna sevinmişdi. Təəssüf ki, bu məktubumu oxuyandan sonra sevinməyəcəkdi. Eşikdə yağış yağırdı. Mən də buluda dönmüşdüm. Yağacaqdım. Amma şıdırğı yox, həzin-həzin yağacaqdım. Eşikdəki yağışla içəridəki yağış birlikdə bir hicran simfoniyası bəstələyəcəkdi. Mən yazdıqca sanki gözlərimdən yox, dodaqlarımdan kağız üstə yağış yağırdı. Qəribə yağış idi. Nə qədər yağırdısa kağızı bir zərrə də islatmırdı.

Salam söz sərrafı, Gülənbər, salam!
Sən dedin Təbrizdən məktub yaz mənə.
Laqeyd taleyimdən küssə də ilham,
Məktubu şeirlə yazıram sənə.

Mən çox şeir yazdım! Bilir bu torpaq,
Könlümdə dünyanın sevinci dindi.
Sənə göndərdiyim bu şeiri ancaq
Əzab çəkə-çəkə yazıram indi.

Unutmaq olmaz ki, tək ozan deyil,
Dünyada şair də dərviş kimidir.
Unutmaq olmaz ki, tək dövran deyil,
Dünyada sevinc də gərdiş kimidir.

Sənət dedikləri maraqlı aləm
Həyatda kiməsə məşğuliyyətdir.
Sənət dedikləri növraqlı aləm
Həyatda kiməsə əbədiyyətdir.

Amandır! Sən demə "niyə bir tikə
Sevgim ürəyinə insaf salmadı?"
Boynuma alıram, dünyada bəlkə
Məni sənin qədər sevən olmadı.

Qohumum çox idi... Görürdüm ancaq
Məni sənin qədər ananım yoxdur.
İstər yaxın olaq, istərsə uzaq,
Mənə səndən başqa yananım yoxdur.



Səni sevdiyimi düzdür, bir yol da
Sənə bildirmirdim bir aşiq kimi.
Sən isə görürdün otaqda, yolda
Gözümə dolubsan gur işıq kimi.

Gözlər nəmlənsə də bulud içində
Şəvəsi közlərə dönür, közlərə.
Sevgiylə yüklənmiş sükut içində
Heç baxa bilməyir gözlər gözlərə.

Sənin o ecazkar gözlərinə də
Heç baxa bilmədim, yox, utandım mən.
Bir qızın füsunkar gözlərinə də
Tamaşa etməyə çox utandım mən.

Yox! Yox! Utanmadım! Gözlər ülfətlə
İstər gözəllikdən daim zövq ala.
Mənsə istəmədim sevgi cürətlə
Gözlər arasında körpülər sala.

Günəş gündüz yanır... Dağın ətrinə
Batıb gecə itir necə də, gülüm!
Sənsə öz içində sevgi xətrinə
Gündüz də yanırdın, gecə də, gülüm!

Günəş yanır... Ancaq indiyə qədər
Günəşdən qaçmamış bir canlı insan.
Mən sənin oduna yanıb birtəhər
Sonra alovundan qaçırdım, inan.

Gülüm! Sevgi nədir? Ecazkar yazı!
Tamam oxumamış mətnini zaman.
Özündən də artıq sevdiyin qızı
Öz atasına da qısqanar oğlan.

İstidə kim qaçsa aran torpaqdan,
Özünü göstərər isti dağda da.
Üstü şehlə dolu yaşıl budaqdan
Bir yelpik diləyər insan bağda da.

Üzünə dəyəndə bağda bir budaq,
Səni budağa da qısqanardım mən.
Başına o kölgə salanda ancaq
Xeyirxah budaqdan utanardım mən.

Görüş ehtiyacı tez-tez artanda
Səni, yalnız səni arardı gözüm.
Eh, mən sənə doğru addım atanda
Özüm dayanardım arada, özüm.

İşıqsız havaya gecə deyərlər,
Nə ocağım vardı, nə dəki qorum.
Bəli! Çox kasıbdım, necə deyərlər
Nə kəfənim vardı, nə dəki gorum.

Keşməkeşlə dolu həyat yolunda
Sənətim karvandı, özümsə sarban.
Bilmirdim qarşıma arzu dalında
Günəş çıxacaqdı, yoxsa ki, tufan.



Mən razıydım özüm bədbəxt olsam da
Səni xoşbəxt edim dünyada, gülüm!
Düşündüm, murada meyil salsam da
Meyillə kim çatıb murada, gülüm!

Bilirəm, dözərdin sən hər zillətə,
Mən də baş əyərdim sədaqətinə.
Ancaq mən qıymazdım düşüb zəhmətə
Sən dərd çəkdirəsən məhəbbətinə.

İnan hər sözümdə dinən duyğuma,
Ağlama! Gözündə ulduzlar sönər.
Bir damla göz yaşın düşsə yuxuma,
Yatağım tufanlı dənizə dönər.

Qoy azad sevgimiz çıxsın girovdan,
Faciə olsa da belə yaxşıdır.
Birdəfəlik yanıb sönən alovdan
Həmişə titrəyən şölə yaxşıdır.

Dərdlənmə! Onsuz da talan dünyada
Hər gün bir faciə doğurur zaman.
Sonra faciədən yalan dünyada
Yadigar abidə yoğurur zaman.

Sanki sevda dolu bir hekayətə
Zaman abidə yox, göz dağı qoyur.
O göz dağınısa ilk məhəbbətə
Zamanın başı yox, ayağı qoyur.

**Ürəyimə damıb, balsa da sevgi,**
**Mənimki sevgidə gətirməyəcək.**
**Kimlə aramızda olsa da sevgi,**
**O ömrünü başa yetirməyəcək.**

**Bəli! Öz sevgimi gərək dünyada**
**Hansı səbəbəsə qurban verəm mən.**
**Təklikdən darıxsa ürək dünyada**
**Ona xatirəmi həyan verəm mən.**

**Gülənbər! İnan ki, bir nadir gül tək**
**Sən ömrümdə izsiz olmayacaqsan!**
**Yazda da, qışda da bir qadir gül tək**
**Münbit yaddaşımda solmayacaqsan!**

**Zəngin yaddaşımı döyəndə tufan,**
**Səni dönə-dönə yoxlayacağam!**
**O günlər yadıma düşəndə, inan,**
**Səni məmnun-məmnun qoxlayacağam!**

**Mənə şehli-şehli dərdiyin güllər**
**Nəmli gözlərimdə gülşənləşəcək.**
**Mənə dəstə-dəstə verdiyin güllər**
**Qərib xəyalımda Vətənləşəcək.**

**İndi hər şeirimi körpə uşaq tək**
**Kağıza yox, oda bələyirəm mən.**
**Sənəsə nəğməylə dolu bulaq tək**
**Həmişə xoşbaxtlıq diləyirəm mən.**



Şeiri qurtarandan sonra bir dəfə başdan-ayağa oxudum. Nə gizlədim. Özümün yazdığımdan özüm təsirlənmişdim. Şeiri mizin üstə qoyub pəncərəyə doğru getdim. Havaya baxdım. Yaz ki, yaz... Yağışı da özünə bənzəyir. Gələndə hay-harayla gəlir, keçəndə səssiz-səmirsiz keçir. Hava açılmışdı. Göy özü boyda firuzə olmuşdu. Mən yenə otağa qayıdıb məktubu götürdüm. Sonra zərfə qoyub üstünü yazdım. Geyinib poçtxanaya yollandım. Gülənbərə gələn məktubları nə atası, nə anası oxumazdı. Valideynləri qıza inanırdı. Gülənbər o evdə başdan-ayağa büllur qüdsiyyət mücəssəməsi idi. Poçtxanaya bir ayağım gedirdi, bir ayağım yox. Sanki çiynimdə ağır yük aparırdım. Düşünürdüm ki, qız məktubu oxuyandan sonra ağlamasa da, məni o ki var, qınayacaq. Deyəcək şairlər həmişə gözəllərin vəfasızlığından dad çəkib, yazıqları rüsvay edirlər. Ancaq demirlər ki, öz aralarında elə vəfasızlar var ki, yanlarında vəfasız gözəllərə min şükür! Yox! Gülənbər haqlı deyil. Məcburiyyət elə əzablı körpüdür ki, üstündən şəstlə keçmək olmaz! Mənə də bu məktubu məcburiyyət yazdırmışdı...

Məktubu yola salıb mehmanxanaya qayıtdım. Qəribədir. Yolda daha rahat yeriyirdim. Sanki yükümü poçtxanada qoyub çıxmışdım...

## "ŞAİRLƏR MƏCLİSİ"

*Şairlər sınağından*
*Keçə-keçə məclisin,*
*Qalibləri olublar*
*Neçə-neçə məclisin...*

Şair-alim Cəfər Xəndanın sədrlik etdiyi bu məclisdə İran Azərbaycanı şairlərindən başqa ordu sıralarında Sovet Azərbaycanından gələn tanınmış yazıçılardan Ənvər Məmmədxanlı, Qılman Musayev (İlkin), Əvəz Sadıq, Seyfəddin Abbasov (Dağlı), qocaman jurnalistlərdən Rza Quliyev, Qulam Məmmədli, İsrafil Nəzərov da iştirak edirdilər. Biz hər məşğələdə əbədi söz ustadımız Məhəmməd Fizulinin bir qəzəlini səbrlə, diqqətlə, heyrətlə təhlil edirdik. Sonra növbə ilə öz yeni şeirlərimizi oxuyub, rəy söyləyirdik. Bu rəy sorğusunda yuxarıda adlarını çəkdiyim qələm sahibləri də öz fikirlərini bildirirdilər. Bəyənilmiş şeirlər həm "Şairlər məclisi" məcmuəsində, həm də "Vətən yolunda" qəzetində dərc olunurdu.

O vaxt İran Azərbaycanı ədəbiyyatında nəsr, dramaturgiya, tənqid yox dərəcəsində idi. Şeir xalqın şüurunda inqilabi fikirləri işıqlandırmaqda sənətin yeganə çırağı idi. Şeir döyüşdə bayraqdar, arxada məsləhətçi, əməkdə yardımçı idi. Mən Maarif Nazirliyində işarası öz kabinetimə qapanıb şeir yazırdım. Sən demə, bunu kimsə nazirə çatdırıbmış. Bir gün "Şairlər məclisi"nin növbəti məşğələsi qurtaranda Cəfər Xəndan mənə üz tutub: – Sən getmə, dayan. İkilikdə söhbətim var – dedi. Məclis üzvləri tamam çıxıb getdikdən sonra o özünə



xas olan bir təbəssümlə: – Sizin nazir mənə şikayətləndi ki, sən iş zamanı şeir yazırsan – dedi. Mən marağımı gizlətmədən: – Bəs siz nə dediniz? – deyə soruşdum. Cəfər müəllimin dodaqlarındakı təbəssüm dərhal yox oldu. Üzü ciddiləşdi. Sonra qürurla: – Nazirin özündən-özünə şikayətləndim ki, bəs şeir yazmaq özü ən böyük iş deyilmi? – dedi. Onun dodaqlarındakı bayaqkı təbəssüm indi mənim heyrətdən donmuş dodaqlarıma qondu. Güldüm. Cəfər müəllimin şeirə necə yüksək qiymət verdiyinə, necə qayğıkeş insan olduğuna bir daha inandım.

Qatara düzülmüş illərin arada uzun körpü salmasına baxmayaraq, "Şairlər məclisi" abidələşib hafizəmdə həmişəlik qalmışdır. Elə bil dünən idi. Məclisimizin fəal üzvlərindən biri cəngavər görkəmli Kaşif idi. Bu seyrəksaçlı, qarabuğdayı, dolubədənli şair canlı mehribanlıq timsalı idi. Gümrah səsli Kaşifin iri gözlərindən həmişə məhəbbət yağırdı. O, şeirlərini kağızdan oxumazdı, sinədən deyərdi. Bir dəfə Kaşif yeni yazdığı bir şeiri öz adətincə sinədən hərarətlə oxudu. Şeir başı min müsibət çəkmiş bir təbrizli gözəlin arzularından söz açırdı. Məclis riqqətə gəlmişdi. İlk rəyi Ə.Məmmədxanlı dedi. Qeyd etdi ki, şeir romantik pafosla yazılsa da real həyatın bir parçasıdır. Şeirin süjet əsasında qurulması isə şairin yaradıcılığında yeni hadisədir. Ənvər müəllim bilirdi ki, İran Azərbaycanında hələlik gündəlik hadisələrlə səsləşən tribun şeirlər yazmaq dəbdədir. Lakin bu vəziyyət uzun sürməməlidir. Şeirdə canlı həyat lövhələri öz əksini tapmalıdır. Kaşifdə belə lövhələr yaratmaq meyli duyulurdu...

Məclisin fəal iştirakçılarından biri fəhlə Məmmədbağır Niknam idi. Gənc şairin çəkic vurmaqdan qabar-qabar olmuş fəhlə əllərindən elə şeirlər çıxırdı ki, ağ saçlı alimləri belə heyrətə salırdı. Niknamın hər şeirində bir fəhlə ocağının odu-közü var idi. Həmişə deyib-gülən dostcanlı şairin inamlı səsində həzin bir qüssə duyulurdu. Bu qardaş həsrətilə dolu bir qüssə idi. Niknam istəyirdi ki, dünyada hər arzusu vətənlə qönçələnib, vətənlə pardaxlansın! Qəribə idi ki, Təbriz boyda bir şəhərin kiçik, yoxsul, ucqar otaqlarından birində tək-tənha yaşayan bu fəhlə şair dostsuz dilinə bir tikə çörək də vurmurdu.

Sədi Yüzbəndi öz atəşli şeirləri ilə məclisdəkilərin könlünü isindirsə də bir ayağı kənddə idi. O, xalq arasında qəhrəmanlıq, azadlıq, vətənpərvərlik ideyalarının yorulmaz carçısı idi. Hər dəfə məclisə gələndə özü ilə bərabər yeni soraq, yeni mövzu, yeni nəfəs gətirirdi...

Bu yeni yazan şairlərin arzuları qədim şeirimizin əlvan üfüqləri qədər geniş idi. Onlar milli azadlıq hərəkatının salnaməsində öz öhdəliklərinə düşən səhifələri yazıb tamamlamaq əzmində idilər. Lakin xalqın qəddar düşmənləri bu salnaməni yarımçıq qoydular. O tamamlanmadı. Milli hökumətin Xalq qoşunları bütün dünyanın dincliyi naminə silahı yerə qoyduqdan sonra azğınlaşmış şah sərbazları əl-qol açdılar. Onlar Kaşifin evinə soxulub şairi həbs etdilər. Qəzəbli nəğməkarın üsyankar səsindən lərzəyə düşən şahpərəstlər taxt-tac düşmənini zindana aparmadan elə öz evinin qabağındaca vəhşicəsinə güllələdilər. Ana Vətənin köksünə şair oğlunun dağını çəkdilər. Keşməkeşli dünyada şərəflə



yaşayan inqilabçı sənətkar son nəfəsində də dünyadan mətanətlə köçdü. Niknamı qohum-əqrəbasından xəbərsiz, vaxtı ilə yanıqlı şeirlər oxuduğu “Şairlər məclisi”nin yerləşdiyi binanın qarşısında qətlə yetirdilər. Hələ toy görməmiş bu gənc şairin cəsədi üstündə bütün Təbriz hönkürə-hönkürə ağladı. Vüsal aşiqi Niknam həyatdan nakam getdi. Milli hökumətin son günlərində Yüzbəndi Qaradağ kəndliləri arasında ictimai-siyasi iş aparırdı. Düşmənlər bu fədai şairi hiylə toruna salıb ələ keçirdilər. Onlar bu həyat tərənnümçüsünün məğrur başını bədənindən ayırıb Təbrizə gətirdilər. Gecə-gündüz oğul intizarında qovrulan ağ saçlı ananın qapısını təpiklə açdılar. Bəşər tarixində az təsadüf olunan ən qəddar bir cinayətə əl ataraq oğulun kəsik başını ananın qarşısına tulladılar...

Mən “Şairlər məclisi”ndə döyüş, sənət, məslək dostu olduğum bu qəhrəmanlar haqqında şeirlər yazıb çap etdirdim. Bununla öz dostluq borcumu yerinə yetirmək istədim. Lakin bu müqəddəs şəhidlərə olan dostluq borcum ödənilməzdir. Nə qədər həyatda varamsa, onlar da mənim nisgil dolu ürəyimdə vardırlar. Çünki o unudulmaz sənət əsgərləri vətənin, xalqın, zamanın xatirələrində yaşayırlar...

Mən Mirzə İbrahimovu da ilk dəfə Təbrizdəki “Şairlər məclisi”ndə görmüşəm. Özü də elə indiki ülfəti ilə, təmkini ilə, təbəssümü ilə görmüşəm. Deyirlər ki, sevinc kədər ilə əkiz bacıdır. İnsan ürəyində həmişə qoşa addımlayırlar. Ancaq mən M.İbrahimovun düşüncəli gözlərini heç zaman təbəssümsüz görməzdim. Hələ müharibə odlu-alovlu cəbhələrdə davam edirdi. Sanki

uzaq döyüşlərdəki yanğınların qara tüstüləri Təbrizdə yazıb-yaradan sənətkarların baxışlarına da kölgələr salırdı. Lakin M.İbrahimov ılıq təbəssümü ilə kölgəli baxışları işıqlandırırdı. Şübhəli ürəklərə hünər, cürət, inam qığılcımları səpələyirdi. Məclis iştirakçılarının yazılarını diqqətlə dinləyib dəyərli məsləhətlər verən mayor rütbəli yazıçının çiynindəki ulduzun altında günəş hərarətli bir ürək yanırdı... Bir gün küçədə "Vətən yolunda" qəzetinin təzə nömrəsini alıb vərəqləyərkən ikinci səhifədə "Qarı iman gətirdi" adlı bir poema gördüm. Müəllifin imzasına baxdım. Poema M.İbrahimovun idi. Doğrusu, gözlərimə inanmadım. Mən M.İbrahimovun pyeslərini, hekayələrini, məqalələrini oxumuşdum, şeirin sirlərinə dərindən bələd olduğunu da bilirdim. Amma şeir yazmağından xəbərim yox idi. Sən demə o, ədəbiyyata elə şeirlə gəlibmiş. Həmin günlərdə yazıçı müasir mövzuda "Nakam məhəbbət" adlı bir povest də yazırdı. Əsər Əjdəroğlu imzası ilə "Vətən yolunda" qəzetində hissə-hissə çıxırdı. Povest Təbrizdə yaşayan bir ailənin həyatından danışırdı. Təbrizlilər povestin ardını oxusunlar deyə qəzetin yeni nömrəsini səbirsizliklə gözləyirdilər. Çoxlarına qəzet çatmırdı. Yaxın qonşular bir evə toplaşırdılar. Biri əsəri ucadan oxuyur, digərləri maraqla, diqqətlə, həyəcanla qulaq asırdı. O zaman Təbrizdə bəlkə də M.İbrahimovu tanımayanlar olsa da, Əjdəroğlunu hamı tanıyırdı.

1946-cı ilin gözəl may günləri idi. Gül nəfəsli Təbriz nəhəng bir əttar dükanına bənzəyirdi. Sovet qoşunları Təbrizdən çıxırdı.







Qan qardaşlarımız da bizdən ayrılırdılar. Nisgilli ürəklərdə qaysaqlanmış yaralar təzədən qövr eləyirdi. Məclis qabağında iri bir tribuna qurulmuşdu. Ətraf Təbriz gözəllərinin göyərçin əlləri ilə toxuduqları əlvan xalçalarla bəzədilmişdi. Döyüşçülər dəstə-dəstə keçib gedirdi. Geniş xiyabanın hər iki tayı adamla dolu idi. M.İbrahimov da mayor paltarında tribunadakılar arasın-

da idi. Desəm ki, camaatın gözləri yaşarmışdı, çox az olar. İnsanların üstünə elə bil su ələnmişdi. Uzun sıralardan tək-tək qadın hönkürtüsü, qız hıçqırığı eşidilirdi. M.İbrahimov mikrofona yaxınlaşdı. Üzünü izdihama tutub yenə təmkinlə, inamla, təbəssümlə: – Əziz bacılar, möhtərəm qardaşlar! Biz sizdən həmişəlik ayrılmırıq. Biz yenə də görüşəcəyik!.. – dedi.

İzdiham natiqin təbəssümünün arxasındakı yanğını aydın görürdü. Bayaqdan üstünə su ələnmiş adamlar indi gözlərindən xiyabanın təşnə sinəsinə su ələyirdi. Qadınlar da ağlayırdılar, kişilər də. Sanki qardaş yolunu göz yaşları ilə yuyub təmizləmək istəyirdilər. Sən demə, dolmuş gözlərini boşaldan insanların həssas ürəyinə nəsə damıbmış. Bu, gələcəkdə Vətənin başında qopacaq faciə tufanının ilk göz yaşları idi.

## SARI SİM

*Mizrab var, nəğmələşir*
*Simlərə baş əyəndə.*
*Mizrab var, yanğın salır*
*Sarı simə dəyəndə...*

Simlər təkcə sazda, udda, tarda olmur. Sarı sim də yalnız saza, uda, tara məxsus deyil. Günəşin odlu şəfəqləri, Ayın işıqlı şüaları, dənizin nəğməli dalğaları, ağacın musiqili budaqları, ürəyin ritmli telləri də notlarla dolu simlərdir. Ancaq bu simlərin arasında bir sarı sim də vardır. Bu sim elə həssas, elə incə, elə kövrəkdir ki, zamanın sərt mizrabı ona dəyəndə tək bircə sim



öz yanğısı ilə başqa simləri də təlatümə gətirir. Sovet hökuməti ilə İran hökuməti arasında bağlanmış müqaviləyə əsasən müharibə qurtardıqdan sonra Sovet qoşunları İrandan çıxırdı.





Təbrizdə hələ gözəl may günləri idi. Mavi örpəkli, lalə yanaqlı, nərgiz gözlü may günləri... Şəhər sakinləri gündüzlər təbiətin cazibədar tamaşasından doymur, gecələr isə

məstedici rayihəsilə şirin yuxuya gedirdilər. Belə füsunkar yaz günlərində qan qardaşlarımız doğma diyarlarına qayıdırdılar. Bircə ay üzünə öyrəndiyin, səsini eşitdiyin, ülfətinə isnişdiyin adamdan ayrılmaq çətindir. O ki ola neçə il bir redaksiyada görüşdüyün, "Şairlər məclisi"ndə yanaşı əyləşdiyin, fikir mübadiləsi etdiyin, nəhayət bir masa arxasında duz-çörək kəsdiyin mehriban adamlar. Özü də sənin doğma dilində danışan adamlar! Qan qardaşların!Gec tapıb, tez itirdiyin adamlar!

"Vətən yolunda" qəzetinin kollektivi bu ayrılıq münasibətilə redaksiyada görüş təşkil etmişdi. Əslində bu görüş vida mərasimi idi. Təkcə təbrizlilərin deyil, bütün azərbaycanlıların yaxşı tanıdıqları, yazılarını sevə-sevə oxuduqları söz ustaları Mirzə İbrahimov, Rza Quliyev, Cəfər Xəndan, İsrafil Nəzərov, Ənvər Məmmədxanlı, Əvəz Sadıq, Qulam Məmmədli, Qılman Musayev (İlkin), Seyfəddin Abbasov (Dağlı) məclisdəkilər arasında idilər. Otaq papiros tüstü-dumanı ilə dolmuşdu. Fikirli-xəyallı adamlar papirosu papirosun oduna yandırırdılar. Tüstü-duman içində közərən papiroslar dumanda alışan ümid şamlarına bənzəyirdi. Aşıq Hüseyn Cavanın bu duman içində tüğyana gələn sazı göy gurultusuna oxşayırdı. Aşığın şimşək nəfəsində, şəlalə zənguləsində, ilhamlı barmaqlarında inamla dolu nəğmələr çağlayırdı. Ancaq elə ki, mizrab sazın adi simlərinin üstündən sürüşüb sarı simə dəyirdi, ürəklərdəki sarı simlərdə əks-səda verirdi. Sanki sazdan qopan şimşək parçaları məclisdəkilərin başlarına ələnib ayaqları altında sönürdü. Sonra yenə sarı simlərin yanıqlı təranələri altında məğrur başlar yırğalanırdı. Sanki başlar yelpik-yelpik olub



ürəklərdə təzədən közərməyə başlayan odu söndürmək istərkən daha da alovlandırırdı. Başlar ağır-ağır yırğalandıqca sanki vüsalla hicran arasındakı yolu aram-aram gedib qayıdırdı. Qaşlar çatılırdı, hicran misrasına dönürdü. Sonra düyünlənirdi. Sanki ayrılmış yolları bir-birinə bağlayıb vüsal misrasına çevirmək istəyirdi...

Nimçədəki bala bıçaq vuranda o ani olaraq ayrılır. Sonra yenə dərhal bitişir. Həcmi azalsa da şirinliyi itmir. Vüsalın da şirinliyi belədir. Araz zağlı xəncərə dönüb doğma torpağı ayıranda da sevinci azaltmışdı. Vüsalın şirinliyini isə itirə bilməmişdi. Qardaşlar yenə görüşmüşdülər, şirin-şirin söhbətlər etmişdilər, şirin-şirin gülmüşdülər, şirin-şirin arzular bəsləmişdilər! İndi zaman bal dolu nimçəyə təzədən bıçaq vururdu...

Kürd şairi Hejar masa arxasında mənimlə üzbəüz əyləşmişdi. Düşmənlər zaman-zaman mehriban qonşuluq şəraitində yaşayan qardaş xalqlarımız arasında nifaq salmaq üçün dəridən-qabıqdan çıxırdılar. Hejar öz qardaş məhəbbətli şeirlərilə bizim nəğmələrimizə səs verirdi. İndi isə qan qardaşımız olan Şimali Azərbaycanın söz ustalarını yola salmağa gəlmişdi. Mən Hejarın bir kürd körpəsi haqqında yazdığı gözəl bir şeiri xatırladım. Bələkdə qolları sarınmış körpə qışqırır, dartınır, ağlayır. Qollarını açmaq istəyir. Şair isə ona deyir ki, ay bala, tək sənin yox, bütün xalqın qolları zəncirlə bağlanmışdır. Gərək xalq öz qollarının zəncirini qıra ki, sənin də qolların açıla! Mübariz şair öz çiyninə, belinə, döşünə güllə dolu qatarlar bağlamışdı. Bu qatarlar fədai nəğməkarı cəbhələrə aparan kələ-kötür döyüş yollarına bənzəyirdi. Bəli! O, doğma xalqının qollarındakı paslı

zəncirləri əbədi açmaq üçün özü bərk-bərk güllə dolu qatarlarla sarınmışdı! Tək Hejar deyil, məclisdəkilərin çoxu silahlı idi. Sanki ziyafət qurtarandan sonra bu adamlar Vətən, vüsal, səadət uğrunda döyüşlərə gedəcəkdilər. Gecədən xeyli keçmiş məclis dağıldı. Tanışlarla, dostlarla, qardaşlarla görüşüb küçəyə çıxdım. Gülüstan bağının yanında yerləşən mənzilimə sarı addımladım. Ulduzlarla dolu kəhkəşana bənzəyən Gülüstan bağı Təbrizin füsunkar guşələrindəndi. Burda hər gülün öz rəngi, öz ətri, öz hüsnü var idi! Bu gözəl güllərin hər biri bir nəğmə idi! Lətafətli, təravətli, şeiriyyətli nəğmə! Ancaq hələlik bu nəğmədə yanıqlı hicran notları var idi. Güllərin büllurlaşan göz yaşları da bu yanğını söndürə bilmirdi. Artıq mənzilimə çatmışdım. Fəqət yenə də qulaqlarıma sarı simlərin ürəklərə od salan səsi gəlirdi...

Səhər işə getdim. Günorta çağı Təbrizli şair dostlarımdan biri yanıma gəldi. Dedi ki, bu axşam Sovet mədəniyyət evində təntənəli iclas olacaq. İclas Sovet Ordusunun faşizm üzərində qələbə çalmasının birinci il dönümünə həsr ediləcəkdir. Şairlər şeir oxuyacaqlar. Sən də çıxış edəcəksən. Şair dostum getdi. Fikirləşdim ki, yaxşı olardı belə əzəmətli yığıncaqda təzə bir şeir oxuyum. Axı təbrizlilər şeir sərrafıdırlar. Həmişə mətbuatda çıxan şeirləri diqqətlə izləyirlər. Yaxşısına da, pisinə də açıq-aydın, mərd-mərdanə qiymət verirlər. Qəribədir ki, yaxşısını da əzbərləyirlər, pisini də. Yaxşısını tərifləmək üçün, pisini lağa qoymaq üçün. Tərif etməkdə səxavətli olan təbrizlilər yumorsuz da yaşaya bilmirlər. Qapını arxadan bağlayıb masamın arxasında



əyləşdim. “May səhəri” adlı şeirimi yazmağa başladım. Bir azdan şeiri tamamladım. İki dəfə oxudum. İstədim ki, bir qələm dostuma da oxuyum. Ancaq bu mümkün olmadı. Nə mən işdən çıxa bildim, nə də şair yoldaşlarımdan yanıma gələn oldu. Axşam şeiri cibimə qoyub iclasa yollandım. Sovet mədəniyyət evi Gülüstan bağında yaraşıqlı, əzəmətli, səliqəli bir imarətdə yerləşirdi. Bu bağ doğrudan da öz adına layiq idi. Təbrizin həmişəbahar bir guşəsi idi. Bağın yaşıl ağaclarının sakit kölgəsində əyləşib dincələn insanlar dumduru sulara baxdıqca özlərinin də düşüncələri durulardı, duyğuları təmizlənərdi, ürəkləri sərinləyərdi. Mən həm ana Vətənim Azərbaycanın, həm də başqa diyarların neçə-neçə bağını, parkını, meydanını görmüşəm. Qoynunda dincəlib hüsnünə tamaşa etmişəm. Lakin Gülüstan bağı həmişə xəyalımda öz hüsnü ilə başqa bağlardan seçilmişdir! Təsadüfi deyil ki, Azərbaycanda xalq inqilabı qələbə çalandan sonra milli qəhrəman Səttarxanın heykəlini harada qoymaq məsələsi müzakirə edildikdə Gülüstan bağı ən gözəl ünvan olmuşdu.





Bu bağda ölməz sərkərdənin büstünün açılışında Milli hökumətin baş naziri S.C.Pişəvəri unudulmaz qəhrəmana hörmətlə dolu odlu nitq ilə çıxış etmiş, şairlər Sərdara həsr etdikləri hərarətli şeirlər oxumuşlar.



O zaman mən heykəlləşən Səttarxana baxırdım. Məğrur babamın dodaqlarındakı təbəssümü qalın, uzun, eşmə bığları örtə bilmirdi. O, bizim gözlərimizdəki se-



vincə tamaşa etdikcə gülürdü. Bəlkə də qolları olsaydı əlini qaldırıb qürurla eşmə bığlarına çəkərdi. Sonra üzünü görüşünə gəldiyi insanlara tutub deyərdi: – Baxın, bu gözüyaşlı güllərə yaxşı baxın, görün sevincdən necə ağlayırlar! Bu güllər sizin pardaxlanmış arzularınızdır! Bu gülləri sevin, oxşayın, əzizləyin! Ən ümdəsi düşmənlərin zəhərli nəfəsindən qoruyun!



Mən o zaman "Gülüstan bağı"na hərarətlə yazdığım şeiri məmnuniyyətlə xatırladım:

**Biz ömrün dadını odlu fişənglə**
**Vətənə azadlıq gələndə duyduq.**
**Daş heykəli atdıq... Şehli çələnglə**
**Yerində Sərdara tunc heykəl qoyduq.**

**Sən yerin başında əlvan örtüksən,**
**Tarixdə azadlıq yaşındır sənin.**
**Sanki bağ deyilsən, nəhəng üzüksən,**
**O heykəl qiymətli qaşındır sənin.**

**Hər gün işdən sonra nə qədər adam**
**Tələsik yollanır doğma gülzara.**
**Ay Səhəndin üstdə doğanda axşam,**
**Kim hesabat vermir şanlı Sərdara?**

**Sərdar yaxşı görür axşam çağları**
**Toplaşan dostların görüşlərini.**
**Gizlədə bilməyir eşmə bığları**
**Qalın dodağının gülüşlərini.**

**Deyirəm ki, Sədi – böyük sənətkar**
**Görsəydi hər güllü xiyabanını,**
**Kim bilir, bəlkə də ölməz nəğməkar**
**Sənə həsr edərdi "Gülüstan"ını.**

**Gözəlsən! Baxışın yaz səhəridir,**
**Çox da nə çayın var, nə də kəhrizin.**
**"Gülüstan" Sədinin şah əsəridir,**
**Yeri var, desəm ki, sən də Təbrizin!**

Mədəniyyət evinin işıqlı iclas salonu Təbrizin ən böyük salonlarından biri idi. İclası Təbrizin qocaman maarif xadimlərindən biri şair Məmmədəli Səfvət açdı. O, bəstəboy, enlikürək bir kişi idi. Yaşı ötsə də ağ çöhrəsində ağ zanbaq təravəti var idi. Səhnədə rəyasət heyətinin masası arxasında dayanıb salondakılara müraciət edən Məmmədəli Səfvətin dümağ saçları Ay işığında parıldayan Səhəndin peşmək qarına bənzəyirdi. Təbəssümlə dolu mehriban gözlərində hikmət çeşmələri çağlayırdı. O, Təbrizdəki Sovet-İran mədəni



əlaqələr cəmiyyətinin yaradıcılarından biri idi. Məmmədəli Səfvət Sovet Ordusunun bəşəriyyəti faşizm taunundan xilas etməsindəki böyük xidmətlərindən ürək dolusu danışdı. Sürəkli alqışlar altında çıxışını tamamlayan məruzəçidən sonra söz şairlərə verildi. Mən də rəyasət heyətində əyləşmişdim. Burada sənət yollarında saç-saqqal ağartmış şairlərlə yanaşı Təbrizin gənc şairləri də əyləşmişdilər. İclası aparan Məmmədəli Səfvətin bir yanında Azərbaycan Milli Məclisinin sədri Hacı Mirzəəli Şəbüstəri, bir yanında isə mədəniyyət evinin müdiri Əhəd Bağırzadə əyləşmişdi. Mən salona baxırdım. Salon ağzına qədər adamla dolu idi. Qabaq sıralarda nazirlər, generallar, rəislər əyləşmişdilər. Büllur çil-çıraqdan axan nur damcıları Təbriz gözəllərinin mavi gözlərində bərq vururdu. Şəvə saçlarında ağ çiçəklərə dönürdü. Maraqla dolu baxışlar intizarla səhnənin qırağındakı kürsüyə dikilmişdi. Doğrusu, yaman həyəcan keçirirdim.



Bəli! Bir zamanlar Ərdəbilin yollarında, küçələrində, meydanlarında şah sərbazlarının sinəmə tuşladığı müsəlsəl qabağında qorxunun nə olduğunu bilmədən hərarətlə şeirlər oxusam da, indi rahat bir salonda çıxış etməkdən çəkinirdim. Niyə? Ona görə ki, Ana Təbriz təkcə yetirdiyi böyük şairlərlə məşhur deyil, özü də başdan-başa elə şeiriy-

yətdir! Hələ bu qədim şəhərin ecazkar mənzərəsi bir yana qalsın, bəs onun könüllər ovlayan məlahətli gözəlləri, insanlara qayğıyla yanaşan mehriban baxışlı gəncləri, ağlı heyran qoyan sinədəftər qocaları hikmət dolu canlı şeir deyilmi? Mən bu haqda düşünərkən adımın çəkildiyini eşitdim. Bəli! Söz mənə verilmişdi. Yerimdən qalxıb titrək addımlarla sürəkli alqışlar altında kürsüyə doğru getdim. "May səhəri" şeirimi oxumağa başladım. Şeir heca vəznində yazılmışdı. Salondakılara mövzu da, vəzn də, hiss də təzə idi. Sanki illər boyu əruz vəznində yazılmış qəliz ərəb-fars tərkibləri ilə doldurulmuş şeirləri dinləməkdən yorulmuş qulaqlar indi dincəlməyə imkan tapmışdı. Sanki salondakılar Ana Vətənin doğma sinəsindən çağlayıb axan şaqraq çayların, şəlalələrin, bulaqların səsini eşidirdilər. O axarlar bu adamlara məhrəm idi. Hiss edirdim ki, salondakılar diqqətlə qulaq asırlar. Arada gözlərimi bir anlıq vərəqdən ayırıb qarşımdakı adamlara baxdım. Mənə dikilən gözlərdə maraq, sevinc, heyrət bir-birinə qarışmışdı. Demək doğma Azərbaycan dilində də sadə, aydın, dərin şeirlər yazmaq olarmış! Mən şeiri oxuyub qurtardım. Salonda isə daşlaşmış sükut hökm sürməkdə idi. Sanki adamlar öz xəyallarında hələ şeirin dəyərini müəyyənləşdirmək istəyirdilər. Birdən hamı qəti bir rəyə gəldi. Yaxşıdır! Doğma dildə yazılan şeir doğrudan da gözəldir! Hərarətli əllərdən qəfil pərvazlanıb uçan alqışlar daşlaşmış sükutu parçaladı, sükut əridi, təlatümlü ümmana dönüb çağladı... Keçib öz yerimdə əyləşdim. Ancaq alqışlar susmaq bilmirdi. Bir neçə dəfə yerimdən qalxaraq minnətdarlıqla salona baş əyib təşəkkür etdim.



Rəyasət heyətində məni tanıyanlar da, tanımayanlar da ürəkdən gələn sözlərlə çıxışımı təbrik edirdi. Hətta tanımayanların çoxu məni təbrik etməklə kifayətlənməyib haralı olduğumla, nə iş gördüyümlə, harada yaşadığımla da maraqlanırdı. İclas gedirdi... Mən rəyasət heyətində Məmmədəli Səfvətin arxasında əyləşmişdim. Ona görə də həm Hacı Mirzəəli Şəbüstəriyə, həm də Əhəd Bağırzadəyə yaxın idim. Hər ikisi ilə çoxdan tanış idim. Hacı Mirzəəli Şəbüstəri azca çiyni üstə qanrılaraq mənə pıçıldadı ki, arada bir vaxt tapıb Milli Məclisə gəlim, görüşək, söhbət edək. Mehriban çöhrəsi həmişə təbəssümlə işıqlanan Əhəd Bağırzadə isə məni sabah mədəniyyət evindəki kabinetində gözləyəcəyini bildirdi. İclas qurtarandan sonra uğultuyla dolu salona endim. Tanıdığım, tanımadığım adamlar məni mehriban baxışlarla araya aldılar. Təbriklər təzədən başlandı. Təvazökarlıqdan uzaq olsa da deməliyəm ki, sanki o şeir gecəsində təbrizlilər yeni bir şair kəşf etmişdilər. Həm öz kəşflərinə, həm də şairin uğuruna sevinirdilər. Radioda işləyən bir qələm dostum elə oradaca həmin şeiri məndən aldı ki, sabahkı verilişdə oxusunlar. Bu zaman adamları yara-yara Həsən Cövdət mənə yanaşdı. O indi Təbrizdə yaşayırdı. Əmək naziri idi. İftixarla mənə: – Sağ ol, Tudə! Ərdəbillilərin üzünü ağ, başını uca elədin! – dedi. Dərhal düşündüm ki, Milli hökumətin qurulduğu ilk günlərdə Ərdəbildə mənim işsiz, pulsuz, mənzilsiz qaldığımı Vilayət firqə komitəsinin sədri Həsən Cövdət bəs niyə görmürdü? Üzümü Həsən Cövdətə tutub təbəssümlə: – Ağayi Cövdət! Mən yalnız Ərdəbilin deyil, bütün Azərbayca-

nın övladıyam! Həmişə övladın anaya, ananın da övlada ehtiyacı olmuşdur. Sizə isə ehtiyacınız olan adam gərəkmiş! – dedim. Deyəsən mənim bu kövrək uğuruma şərik çıxmaq istəyən Həsən Cövdət fikrimi başa düşdü. Sanki həqiqət kəsərli dilim ittiham mizrabına dönüb nazirin ürəyinin sarı siminə dəymişdi. O heyrətdən yerində donmuşdu. Mən qollarıma girən qələm dostlarımın əhatəsində papiros tüstü-dumanı ilə dolmağa başlayan salondan Ay işığında yuyulan təmiz havalı xiyabana çıxdım...

## MƏSULİYYƏT HİSSİ

*Məsuliyyət duyanda*
*İnsan da cürətlənir.*
*Arzu da ülviləşir,*
*Əməl də vüsətlənir.*

Səhər işə deyil, Sovet mədəniyyət evinə yollandım. Təbriz radiosu gündüz verilişlərini çoxdan başlamışdı. Evlərdə, bazarlarda, meydanlarda adamlar dəstə-dəstə toplaşıb radioya qulaq asırdılar. Hətta yoldan keçənlər də xiyaban boyu dirəklərə vurulmuş reproduktorlardan axıb ürəklərdə əks-səda verən qayğı, fərəh, ümid dolu sözləri dinləyə-dinləyə yollarına davam edirdilər. Bəli! İnqilabçı xalq gərgin döyüşlərdə inamla arxasınca getdiyi müdrik firqəsinin təxirəsalınmaz tədbirləri ilə maraqlanırdı. Sevə-sevə yaratdığı doğma hökumətinin siyasətini nəinki hər gün, hətta hər saat izləyirdi. Son xəbərlər oxunduqdan sonra efirdə mənim “May səhəri”



adlı şeirim səsləndi. Şeiri oxuyan diktor deyildi, gənc şairlərdən biri idi. Ancaq çox yaxşı oxuyurdu:

**Bu gün lalə-lalə qızarır səhər,**
**Şəfəqdə yuyunur hər kənd, hər şəhər,**
**Döyür qapıları sabahın yeli,**
**Bayram müjdəsilə oyadır eli,**
**Deyir gözlədiyin əziz may gəlib,**
**Tarixin zinəti gözəl ay gəlib,**
**Hər yerə baxırsan əlvan görünür,**
**Sanki təbiət də cavan görünür,**
**Bəzən şirin-şirin danışır xəyal,**
**Deyir sən şairsən, yaxşı nəzər sal,**
**Bu qızartı nədir, bu şəfəq nədir?**
**Bu gün asiman da şairanədir,**
**Bu rəngi o nədən alıbdır, nədən,**
**Günəş ki, çıxmamış hələ yerindən?..**

Sən demə, elə bu dəqiqələrdə Tehranda İran dövləti ilə danışıqlar aparan Azərbaycan nümayəndə heyətinin başçısı, Milli hökumətin baş naziri S.C.Pişəvəri də fasilə zamanı mehmanxanada mənim bu şeirimə qulaq asırmış. Şeir onun xoşuna gəlibmiş (o sonralar bir neçə yığıncaqda bu şeir haqda təqdirəlayiq sözlər də dedi).

“May səhəri” şeiri “Azərbaycan” məcmuəsinin 1946-cı il 5-ci nömrəsinin ilk səhifələrində dərc edildi.

Mən Əhəd Bağırzadənin kabinetinə daxil oldum. O, iş masasının arxasından qalxıb məni adəti üzrə təbəssümlə qarşıladı. Bir qədər şeirdən, sənətdən, mətbuatdan danışdıq. Əhəd Bağırzadə sözü incəsənətdən salıb dedi ki, Milli hökumət Təbrizdə Dövlət Filarmoniyası

təsis etmək fikrindədir. Bu gələcək sənət ocağının rüşeymləri mədəniyyət evinin nəzdində təşkil olunub, fəaliyyət göstərən milli orkestr olacaqdır. O zamanlar Təbrizdəki Sovet mədəniyyət evində coşğun fəaliyyət göstərən gənc, lakin olduqca istedadlı bəstəkar Cahangir Cahangirov həm işi, həm də yaradıcılığı ilə Cənubi Azərbaycan incəsənətinə ləyaqətlə xidmət etmişdir. Milli orkestrin yaranmasında, formalaşmasında, fəaliyyətində Cahangir Cahangirovun səmərəli əməyi olmuşdur. O, Azərbaycan Milli hökumətinin sürudunu (himnini) yaratmış, "Fədailər marşı"nı bəstələmiş, "Təbrizim" mahnısını nota salmışdı. Hər üç musiqi əsərinin sözləri Mirmehdi Etimadındı. (Sonralar Cahangir Cahangirov "Arazın o tayında" adlı simfonik poema yazdı. Əsərdə mənim Arazın o tayında yazdığım şeirlərimdən də istifadə etdi. Dinləyicilər tərəfindən hərarətlə qarşılanan bu simfonik poema SSRİ Dövlət Mükafatına layiq görüldü).

Əhəd Bağırzadə sözünə davam edərək dedi: – Lakin bu orkestrdəki rüşeymləri becərib pardaxlanmış əlvan nəğmə gülüstanına çevirmək gərəkdir! Yeni-yeni istedadları axtarıb taparaq bu sənət ocağında birləşdirmək gərəkdir! Qədim Azərbaycan mədəniyyətinin nələrə qadir olduğunu nümayiş etdirmək gərəkdir! Ancaq bütün bunlar hələlik böyük bir arzudur. Həm də təzə, kövrək, şirin arzudur! Mən filarmoniyanın müdirliyinə səni məsləhət görürəm. Biz öz təcrübəmizlə lazım olanda sənə kömək edəcəyik. Lakin bu mühüm hökumət işində bütün məsuliyyət sənin üzərinə düşəcək. Unutma ki, bu, İranın mədəniyyət tarixində ilk



filarmoniyadır! Bu şərəfli iş səndən böyük bacarıq, enerji, zəhmət tələb edəcəkdir. Sənin əməllərinin mükafatı isə xalqın qədirdanlığı olacaqdır!

Əhəd Bağırzadə danışdıqca düşünürdüm ki, madam o yaranacaq əzəmətli sənət abidəsi xalqın şöhrətini daha da ucaldacaq, onda həmin xeyirxah iş uğrunda bütün cəfalara qatlaşıb dözməyə dəyər. Mən kiməm? Məgər himayəsində boya-başa çatdığım bir xalqın öz övladı deyiləmmi? Ümmandakı damla heç qurumaqdan qorxarmı? Nədən çəkinməliyəm? Mənim naşılıq ucbatından edə bilmədiklərimi dünyagörmüş xalqım özü edəcəkdir! Bir də axı mən firqənin carçısı, hökumətin şairi, sənətin fədaisiyəm! Əhəd Bağırzadə ilə söhbətdən sonra işi boynuma götürməyə razılıq verdim. Azərbaycan Dövlət Filarmoniyası Maarif Nazirliyinin nəzdində yaradılacaqdı. (Sonra nazirlik idarəyə çevrildi).

Mən nazirliyə gəldim. O zaman Maarif naziri şair Məhəmməd Biriya idi. Nazirliyin rəhbərləri ilə danışıqlar zamanı mənə dedilər ki, filarmoniyanın büdcəsinin layihəsi hazırdır. Ümumi məbləğ də müəyyən edilmişdir. Lakin büdcə hələ Milli Məclis tərəfindən təsdiq olunmamışdır. Buna baxmayaraq, büdcənin təsdiqinə qədər filarmoniyanın xərcləri üçün nazirin imzasıyla dövlət bankından pul almaq olar. Filarmoniyanın harada yerləşəcəyi məsələsinə gəldikdə isə Səttarxan xiyabanındakı Firdovsi mədrəsəsinin binasını məsləhət gördülər. Doğrudan da bu bina xiyabanın axar-baxarlı yerində idi. Şəhərin mərkəzində olduğuna görə öz görkəmi ilə hətta ətrafdan gələnləri də maraqlandırırdı.





Ancaq binanın əməlli-başlı təmirə ehtiyacı vardı. Həm də bu təmir binanın həm xaricini, həm də daxilini filarmoniya üçün yararlı şəklə salmalı idi. Bunun üçün ustaları tapmaq, qiymətləri danışmaq, tikinti materiallarını almaq mənim boynuma idi. Mən eyni zamanda binada təmir işləri gedə-gedə gələcək filarmoniyanın bədii işləri ilə də məşğul olmalı idim. Təbrizdə



tanınan, tanınmayan oxuyanların, çalanların, oynayanların sorağına düşüb istedadı olanları bu sənət ocağına dəvət etməli idim. Həm də bu işin qiymətini, xeyrini, mənasını sabahın məşhur sənətkarlarına başa salmalı idim. Filarmoniyanın içərisini bəzəmək üçün mebellər, xalçalar, payəndazlar, şəkillər, stullar almalı idim. Lakin bütün bunlardan başqa böyük zəhmət tələb edən bir çətinlik var idi. Bu, səhnəyə çıxan xanəndələrin, sazəndələrin, rəqqasələrin, aşıqların, nəzarətçilərin, xidmətçilərin geyəcəkləri paltarlar üçün parçalar almaq, sonra da istənilən cür tikdirmək idi. Bu paltarların əksəriyyəti milli Azərbaycan geyimləri formasında tikilməli idi. Buna görə də qədim, zəngin, əlvan mədəniyyətimizə dərindən bələd olan ustad dərzilər tapmaq lazım idi. Fəqət belə sənətkarları axtarıb tapmaq özü də ayrıca bir müşküldü. Rəqs ansamblında çıxış edəcək boylu-buxunlu oğlanlara, qəşəng qızlara milli formada yumşaq çəkmələr, başmaqlar, çustlar gərəkdi. Bunların hazırlanmasını da hər ustaya tapşırmaq olmazdı. İşi bilən, incəliklərindən həssaslıqla baş çıxaran ustalar tapmaq lazımdı. Filarmoniyada fəaliyyət göstərəcək incəsənət işçilərinin büdcə layihəsindəki sayı isə 200 nəfərə çatırdı.

Söhbət zamanı məlum oldu ki, Maarif Nazirliyi Sovet mədəniyyət evinin müdiriyyətindən xahiş etmişdir ki, Azərbaycan Dövlət Filarmoniyasına kömək məqsədilə Bakıdan bir bəstəkar göndərtsin.

Mən bütün görüləcək işlərin məsuliyyətini dərindən duya-duya büdcənin layihəsini alıb qovluğuma qoydum. Elə günü bu gündən işə başlayacağımı deyib nazirlikdən çıxdım. İşə girişdim. İşi filarmoniyanın

təmirindən başladım. Təbrizli dostlarımın köməyi ilə tanınmış ustalar tapdım. Qiymətləri danışdım. Təmirin başa çatması vaxtını qətiləşdirdim.

## İLHAMLI MƏŞQLƏR

Filarmoniyaya solo oxuyan, saz çalan, rəqs edən qızlar lazımdı. Bu qızları soraqlaşıb tapmaq zəhməti bir yana qalsın, səhnəyə gətirmək bacarığı özü böyük hünər tələb edirdi! Neçə-neçə inqilabın səngəri olmuş Təbrizin başı üstündən mövhumat hələ də ətalətlə yüklənmiş qara qanadlarını yığmamışdı. Bu qızların ata-anaları ilə dil tapıb övladlarının səadətinə inandırmaq adamdan nə qədər səbr, enerji, qılıq tələb edirdi. Gözəl səsli utancaq Təbriz qızlarını doğma, milli, gənc səhnəyə dəvət etmək üçün mən özüm həm tək, həm də ağsaqqallarla birlikdə hər evə dəfələrlə ayaq döyməli olurdum. Bəlkə müsəlmançılıq ətalətinə batmış mühafizəkar valideynlərin hörümçək toruna bənzəyən caynaqlarından nadir istedadları çəkib qoparam. Qızların pərvazlanıb qonacaqları sənət meydanına gedən cığırda yaşıl işıq yandıram! Bu cığır isə yumşaq çəmənlərdən deyil, qranit qayalardan keçirdi. Xurafat dünyasında saç-saqqal ağartmış möminlər bu cığırdan keçənlərə qəzəblə baxırdılar. Mən elə etməliydim ki, yandırdığım yaşıl işığın halələri möminlərin çılğınlaşmış əsəblərini də sakitləşdirə bilsin. Hələ gündə bir neçə dəfə də binaya baş çəkib təmir işlərinin keyfiyyətini yoxlamalı olurdum. Ustalara məsləhətlər verir, ehtiyaclarını öyrənir, yardım göstərirdim. Cəhd edirdim ki, köhnə bina təzə sənət ocağına layiq təmir olunsun. Necə deyərlər, forma məzmuna yaraşsın! Aktyorlara, xüsusilə rəqs ansamblında iştirak edəcək gənc oğlanlara-qızlara milli paltarlar tikməyə parçalar almaq üçün məsləhətçilərlə bərabər Təbrizin böyük, zəngin, əlvan bazarlarını gəzib axtardığım parçaları tapmadıqda dükanların top-top mallarla dolu rəflərini ələk-vələk etdirirdim.





Ömrünü-gününü bazarda keçirib dükanın ağ divarları arasında saç-saqqal ağartmış, üzü üzlər görmüş tacirlərlə danışıqlar aparmaq o qədər də asan deyildi. Mən bəlağətlə danışan "şirindil" tacirlərin uzun-uzadı çək-çevirindən təngə gəlib əsəbiləşirdim. Nə vasitə ilə olursa-olsun pul qazanmaq istəyən bu sərvət hərisləri isə mənim könlümü alsınlar deyə saxtakarlıqla üzümə irişirdilər. Ticarətdə naşı olan bir gənci bu ticarət ustaları bir şirin sözlə, bir bardaq pitiylə, bir stəkan çayla

aldada bilərdilər. Biz isə xalqın halal pulu ilə xalqa layiq mal almalı idik! Həm də çalışmalıydıq ki, bu üstü-örtülü bazarlardakı açıq sövdalarda uduzmayaq! Xalqın bir şahısının da qədrini bilək! Milli hökumət yarandıqdan sonra Cənubi Azərbaycanda Tehran dövlətinin buraxdığı əskinaslar azalmışdı. Yerli varlılar küllü miqdarda kağız pulları yığışdırıb Tehrana qaçmışdılar. Doğma məmləkətdə əskinas çatışmazlığını görən Milli hökumət öz gerbi ilə təzə kağız pullar buraxmışdı. Lakin bazarlardakı hiyləgər, tamahkar, mühafizəkar tacirlər bu pulları xoşluqla qəbul etmək istəmirdilər. İran dövlətindən çəkinən bu hərdəmxəyallar hələ də Tehranın yardımına ümid bağlayırdılar. Belələrinə bu pulları götürmək üçün hədə-qorxuya keçməli olurduq. İstədiyimiz parçaları gizlədib: – Bizdə yoxdur! – deyə bu pullara məhəl qoymayan tacirləri göz ağartmaqla, baş bulamaqla, çənə döyməklə yola gətirirdik. Sözünün üstündə durub inad göstərənlərə isə yaddan çıxmayan qulaqburması verirdik. Ancaq elə tacirlər də vardı ki, dükana nə məqsədlə gəldiyimizi bildikdə sevinirdilər. Bu adamlar gözəl parçaları top-top qabağımıza töküb əmrə müntəzir dayanırdılar. Seçdiyimiz parçanı: – Mübarəkdir! – deyə ölçüb kənara qoyurdular. Milli hökumətin pullarını da təbəssümlə götürürdülər. Dükan xidmətçiləri ayrılmış parçaları səliqə-sahmanla büküb bağlayırdılar. Sanki gözləri, qulaqları, barmaqları yalnız pula öyrənmiş bu adamların hər şeyə laqeyd olan ürəklərində Milli mədəniyyətə hörmət duyğuları baş qaldırırdı. Sanki indi bu gözlər əlvan səhnə tamaşaları



görmək, bu qulaqlar zəngin musiqi səsləri eşitmək, bu barmaqlar mahir sənət xadimlərini saymaq istəyirdilər...

Atalar nə vaxtsa deyiblər ki, çox yemək insanı az yeməkdən də qoyar. Ancaq nədənsə bu sözləri deməyi unudublar ki, çox işləmək də insanı az işləməkdən qoyar. Yəni insan bütün qüvvəsini geninə-boluna sərf edib tükəndirsə taqətdən düşə bilər. Mən isə ciddiyyətlə gündüz də, gecə də işləyirdim. Qaynar gəncliyimə, coşğun həvəsimə, parlaq inamıma arxalana-arxalana işləyirdim. Firqənin siyasətini, xalqın mənafeyini, sənətin təntənəsini düşünə-düşünə işləyirdim...

İsti yay günlərindən biri idi. Sovet mədəniyyət evindən filarmoniyaya zəng edib dedilər ki, hələlik sizin incəsənət işçilərinə bədii cəhətdən rəhbərlik etmək üçün Bakıdan bəstəkar Hacı Xanməmmədov gəlmişdir. Mən Hacı Xanməmmədovla görüşmək üçün mədəniyyət evinə yollandım. Gülüstan bağına daxil olanda mədəniyyət evinin qabağındakı gül ləklərinin arasında bir adamın gəzişdiyini gördüm.



Bu arıq, uzun, səngin bir gənc idi. Əynində ağ nazik milləri olan göy kostyum var idi. Arxaya daranmış dalğalı qara saçları günəş işığında parıldayırdı. Uzaqdan qət etdim ki, Hacı Xanməmmədov elə bu olacaq. Çünki mədəniyyət evinin həndəvərində

mən bu gənci ilk dəfə görürdüm. Fikrimdə yanılmamışdım. Bu gənc, Hacı Xanməmmədov idi!

O məni doğma qardaştək hərarətlə qarşıladı. Təbəssümlü gözlərində sanki Xəzərin mavi dalğaları çağlayırdı. Biz elə ilk görüşdə dostlaşdıq. Bütün rəsmiyyətləri qatlayıb bir yana qoyduq. İçəriyə – mədəniyyət evinə getməyi də unutduq. Əlvan güllüklər arasında ucalmış bir sərv ağacının kölgəsində əyləşdik. Sanki mən bir kitab idim, o da bir kitab. Başımız üstə sərv ağacının yarpaqlarını çevirən sərin meh bizi vərəqləyirdı. Mən Hacı Xanməmmədovun arzuları ilə, o da mənim duyğularım, fikirlərim, niyyətlərim ilə tanış olurdu. Təbrizdə yaranacaq təzə sənət ocağı haqda ikimizin bir uğurlu diləyimiz vardı! Bu diləyin bir qanadı mən, bir qanadı Hacı Xanməmmədov idi. Qarşıda isə geniş üfüqlər açılmışdı. Mən filarmoniyada artıq görülmüş və hələ sonra görüləcək işlərdən Hacı Xanməmmədova məlumat verdim. O da öz planlarından mənə danışdı. Əlbəttə, hələlik qarşıda duran əsas məsələ filarmoniyanın təntənəli açılış proqramı idi. Bu proqram elə hazırlanmalı idi ki, əks-sədası bütün İrana düşsün. Biz bu kiçik məsləhət-məşvərətdən sonra ayrıldıq. Hər kəs öz öhdəsinə düşən işlə məşğul olmağa başladı...

Gənc bəstəkar elə məşqlərin əvvəlindən kollektivdə coşğun həvəs, isti ülfət, möhkəm intizam yaratmışdı. Kollektivin tərkibi başqa-başqa şəhərlərdən, hətta Tehranın özündən gələn sənətkarlar hesabına zənginləşirdi. Əvvəllər biz onların sorağına düşüb axtarırdıq, indi isə elə bir sənət ocağı yaratmışdıq ki, onlar özləri bu ocağın işığına gəlirdilər.



Hələ filarmoniyanın açılışından qabaq Tehrandan xanəndə Sahib Ruhi (Şükürov), Ərdəbildən sazəndə Seyfi, Yəhya, İsmayıl, Ələkbər, Yədulla doğma xalqa xidmət etmək məqsədilə Təbrizə gəldilər. Sonra ana torpağın başqa-başqa mahallarından filarmoniyaya sənət fədailərinin axını başladı. Sanki, Təbrizin axar-baxarlı qoynunda təravətlə dolu təzə bir bağ salınmışdı. Bu bağın güllərinin ətri məmləkətin ayrı-ayrı guşələrində yurdsuz-yuvasız qalmış nəğməkar quşları öz məhrəm ağuşuna çağırırdı. Bu quşlar da pərvazlanıb fərəh, səadət, ümid nəğmələri oxuya-oxuya bu bağa gəlir, istədikləri budaqda özlərinə rahat yuva qururdular...

Təmiri yenicə qurtarmış filarmoniyanın rəng ətirli binasında qızğın məşqlər gedirdi. Səttarxan xiyabanına açılmış geniş pəncərələrdən yolçuların üzlərinə şaqraq musiqi səsləri çilənirdi. Bu səslər üzlərdəki tozu da, yorğunluğu da, kədəri də yuyub suları durulmuş arxlara tökürdü. Ancaq yolçular bu səslərin hansı müəssisəyə mənsub olduğunu hələ bilmirdilər. Onlar bilmirdilər ki, bu səslər sabah bütün İranı heyran qoyacaq bir sənət ocağının yaranmasında fədakarlıqla çalışanların məsuliyyət hissinin pərvazlanmış melodiyalarıdır...

İyun ayının 12-si idi. Hələ Azərbaycan Dövlət Filarmoniyası rəsmi surətdə açılmamışdı. Ancaq kollektivin üzvləri yeri gələndə ayrı-ayrı konsertlərdə, şənliklərdə, tədbirlərdə fəal iştirak edirdi. İşə təzəcə gəlmişdim ki, mizimin üstdəki telefon səsləndi. Dəstəyi götürdüm. Zəng edən MK-nın məsul işçilərindən biri idi. O mənə dedi ki, günorta saat 2-radələrində Təbriz Dövlət darülfünunun yeni binasının tikiləcəyi sahədə

təməl daşları qoyulacaqdır. Qərara almışıq ki, bu fərəhli mərasimdə Azərbaycan Milli hökumətinin sürudunun əzəmətli nidaları təməl daşlarının şaqraq səslərinə qarışsın! Bəli! Gərək milli varlığımızı bir daha sübut edən dövlət sürudumuz bu tarixə yazılacaq tədbirdə hərarətlə səslənsin! Sən də bu təntənədə filarmoniyanın seçmə sazəndələri ilə birlikdə iştirak etməlisən!

Hava çox gözəl idi. Göydə Günəş, yerdə insan gülürdü. Təməl daşlarının qoyulacağı sahədə toplanan adamların gözlərində təbəssüm çağlayırdı. Bünövrəyə ilk təməl daşlarını S.C.Pişəvəri qoydu. Bu mənzərədən ilhama gələn Milli orkestr Azərbaycan Milli hökumətinin sürudunu ləyaqətlə ifa etdi. Sanki o ehtişamlı sürudun əks-sədası Səhəndin, Büzgüşün, Savalanın zirvələrinə düşdü. Sonra Muğanın ucsuz-bucaqsız qoynuna səpələndi. Dalğa-dalğa axıb Arazın coşğun sularına qarışdı. Axı bu gün qədim ürfan şəhəri olan ana Təbrizin hikmətlə dolu sinəsində yalnız daş-torpaqla ucaldılacaq bir darülfünunun binasının özülü qoyulmurdu. Xeyr! Neçə-neçə möcüzələr yaradacaq elmlərin qapılarına geniş yollar açılırdı. Azad Vətənin xoşbəxt övladları bu elmlərlə silahlanıb insanların səadəti uğrunda səfalətlə, cəhalətlə, ətalətlə döyüşəcəkdilər! Hamar sinəsi dağ silsilələrilə naxışlanmış doğma torpaqda elm günəşilə parlayan zirvələr yüksələcəkdi! Müdrik xalqımız bu zirvələrə qartal xəyalının geniş açılmış qanadlarıyla qalxacaqdı! İti gözlərilə elmlər dünyasının sonsuz üfüqlərinə bu zirvələrdən baxacaqdı...



S.C.Pişəvəri üzünü ətrafındakı adamlara tutub dedi: – “Bizim darülfununu təsis etməyimiz bütün İranda mədəni-elmi inqilab olacaqdır. Bu darülfunun xalqımızın ehtiyacını gələcəkdə təmin etməklə ona yardım göstərəcəkdir. Gələcəkdə darülfununun hər ilki açılış mərasimində bu günü iftixarla xatırlayacağıq. Bu darülfunun bizim üçün ən mühüm həyati, sənəti, elmi müəssisə olacaqdır. Vətənimizin şanlı tarixinin gələcək səhifələrini yazacaq mübariz gənclərə burda təlim-tərbiyə verəcəyik”.

## İRANDA İLK DƏFƏ

*İlkin var, qədəmiylə*
*Ülfət qaranquşudur.*
*İlkin var, rübabıyla*
*Sənət qaranquşudur.*

Sentyabrın 2-də Təbrizdə Azərbaycan Dövlət Filarmoniyası təntənə ilə açılacaqdı. Sabahı, sentyabrın 3-də isə Azərbaycan xalqı öz sınanmış bayraqdarı – Demokrat Firqəsinin yaranmasının ildönümünü fəxrlə, sevinclə, qürurla qeyd edəcəkdi. Atalar deyib ki, bir tikəni bilməyən min tikəni də bilməz. Xalq da Azərbaycan Demokrat Firqəsinin gördüyü işləri qədirdanlıqla dəyərləndirmiş, bu dəyəri Mərkəzi komitəyə göndərdiyi məktublarda, teleqramlarda minnətdarlıqla açıqlamışdı. Xarici ölkələrdən Cənubi Azərbaycana gələn qonaqlar da Azərbaycan Demokrat Firqəsinin məmləkətdə apardığı islahatları gözlərilə görüb vicdanla təsdiqləyirdilər.

Sonra öz ölkələrinə gözəl təəssüratla qayıtdıqda yerli qəzetlərdə bu haqda məmnuniyyətlə yazırdılar. Bu dəyəri yalnız Tehran, bir də onun havadarları inkar etməkdən çəkinmirdi. Deyirlər şair öz dövrünün övladıdır. Mən də bu dəyəri qazanmış islahatları gözlərimlə görürdüm. Yox! Görürdüm nədir? Özüm bu dəyəri qazanmış islahatların içində yaşayırdım. Ona görə Azərbaycan Demokrat Firqəsinin bir illik yubiley təntənəsinə əliboş gəlmək istəməmişdim. Şeir yazmışdım:

**Bir yandan hökmdar, bir yandan vəzir,**
**Bir yandan əcnəbi, bir yandan tacir,**
**Bir yandan mübaşir, bir yandan darğa,**
**Bir yandan əmniyyə, bir yandan ağa,**
**Bir yandan xəfiyyə, bir yandan ajan,**
**Bir yandan məhkəmə, bir yandan zindan**
**Dönə-dönə soydu Azərbaycanı,**
**Yaman günə qoydu Azərbaycanı.**
**Miyandab fəhləsi bir oda möhtac,**
**Soyuq karxanada həftələrlə ac,**
**Ərbaba tonlarla qənd hazırladı,**
**Lakin özününsə ağzının dadı**
**Toz-torpaq içində zəhərə döndü,**
**Könlündə sevinci kədərə döndü.**
**İşıqsız gözləri batdı quyuda,**
**Yavan çörəyi də, təmiz suyu da**
**Doyunca tapmadı...**
**Ac, susuz, xəstə**
**Can verdi bir parça həsirin üstə...**



**Dağların döşünü tutdu qar-şəpə,**
**Qaradağ kəndlisi çiynində heybə**
**Daxmasından çıxıb qar yağa-yağa**
**Düşdü iş gəzməyə, pul axtarmağa.**
**Dondu ayaqları, əlləri yolda,**
**Dönüb daldalandı qalın bir kolda.**
**O öldü... Könlündə ağır möhnəti,**
**Yolunu gözlədi başsız külfəti.**
**Aldılar, satdılar şeiri-sənəti,**
**Düşdü ayaqlara sözün hörməti.**
**Öz ana dilində iki söz yazan**
**Nəmli kamerada çürüdü pünhan...**
**Yalnız ağaların ziyafətində**
**Danıb dilini də, millətini də,**
**Tümənə satılmış tək-tək "sənətkar"**
**Qəsri, hökmdarı mədh etdi "naçar".**
**Elə ki, bir səhər yandı Reyxstaq,**
**Tüstülər içində susdu təmtəraq.**
**Sən də o tarixlə əkiz yarandın,**
**Arzun, çağırışın, şüarın, andın**
**Gəzdi dönə-dönə obada-eldə,**
**Bir nəğməyə döndü ağızda-dildə...**
**Araz qırağından Zəncana qədər**
**Səsinə səs verdi hər kənd, hər şəhər...**
**Ayağında çarıq, başında təsək,**
**Pənahsız kəndlilər yollar keçərək**
**Sənin ünvanına gəldi, axışdı,**
**Məslək sirdaşları burda tapışdı.**
**Sən xalqın adından danışdın ancaq,**
**Dedin kəndlinindir bu su, bu torpaq!**

Sabahdan ip tutub bölsün torpağı,
Yerinə dəyməsin ərbab ayağı!
Nə tiryək görünsün, nə tiryəkxana,
İş, çörək lazımdır quran insana!
Sevib-sevilməyə haqlıdır hər kəs,
Məhəbbət sərvətə qul ola bilməz!
Dedin dağıdılsın nəmli zindanlar,
Azadlığa çıxsın məhkum insanlar.
Qara zindanların yerində ancaq
Məktəblər tikilsin... Minlərlə uşaq
Öz ana dilində yazsın, oxusun,
Nə falaqqa görsün, nə də ki, qorxsun.
Qoy azad gurlasın şairin səsi,
İsitsin qəlbləri şeirin nəfəsi...
Dinsin, dilə gəlsin aşığın sazı,
Bu dövrü əks etsin sözü, avazı!
O gündən başladı təzə bir aləm,
Azad oldu ömür, söz, vicdan, qələm...
İstanbuldan tutmuş Tokioya qədər
Şimşək sürətilə gəzdi bu xəbər.
Keçdi üzərindən uzaq yurdların,
Satqın əmirlərin, həris lordların
Qəlbinə od düşdü, canına qorxu,
Gözündən göylərə çəkildi yuxu.
Sənin qəlbin geniş, ağlınsa dərin,
Gözlərdə nurun var, qəlblərdə yerin!
Qarşını kəssə də zülmət, boran, sel,
Sənin arxandakı hər oba, hər el
Zəfərdən-zəfərə çatacaq müdam.
O böyük günlərə indidən salam!



Sənə arxalanır hər bir sənətkar,
Mənim də boynumda haqqı-sayın var.
Sən ağır günlərdə açdın dilimi,
Doğma balam deyə sıxdın əlimi.
Sən qatdın təbimə sönməz odu da,
Başçısı olduğun böyük orduda
Mən də sənə sadiq kiçik əsgərəm,
Borcumu şeirlə vermək istərəm!
Əgər çoxalsa da saçlarımda dən,
Dünyada ən xoşbəxt bir adamam mən,
Ki, sənin şairin çağrılır adım,
Nə könlüm, nə fikrim, nə istedadım
Sənin məqsədindən deyildir ayrı,
Tarix nəhayətsiz, ömürsə yarı...
Qəti vuruşlarda bir əsgər kimi,
Sənin hər əmrinə səfərbər kimi,
Səngərlər, cəbhələr yarmasa şeirim,
Fatehlər səfində olmasa yerim,
Bu borcu şərəflə ödəməsəm mən,
Adımı nifrətlə yad etsin Vətən.
Xeyr, qarşıdadır hələ zəfərim,
Çünki hər addımda sənsən rəhbərim!

Bəli! Zaman-zaman matəm libasını əynindən çıxara bilməyən doğma məmləkətdə bayram-bayrama qarışacaqdı...

Təbrizdəki təzə incəsənət ocağı binasının qarşı divarından əlvan afişalar, iri çıraqlar, yağlı boyalarla işlənən şəkillər asılmışdı. Filarmoniyanın rəssamı Əsgər Zarepurun ustalıqla çəkdiyi bu şəkillərdə sazəndələrin, müğənnilərin, aşıqların, rəqs edən qızların konsert zamanı səhnədəki çıxışlarından nümunələr göstərilmişdi.

Biz zərif naxışlarla bəzədilmiş xüsusi dəvətnamələr çap etdirmişdik. Bu dəvətnamələri Təbrizdəki xarici konsulluqlarda işləyən məğrur diplomatlara, gözlərində təəssüb qığılcımları yanan tacirlərə, mülklərini könüllü olaraq Milli hökumətin sərəncamına verən vətənpərəst sahibkarlara göndərmişdik. Dəvətnamələrdə filarmoniyanın cəmiyyətdəki mövqeyi, istəyi, xidməti haqqında izahlar da vardı.



Axşam, ağzına qədər dolu olan salon az qala partlayacaqdı. Nəinki oturmağa, heç ayaq üstə durmağa da yer yox idi. Burada təəccüblü bir şey də yox idi. Axı, bu təkcə Təbrizdə deyil, bütün İranda açılan ilk filarmoniya idi. Düzü salondakılar arasında xalq kütlələrinin nümayəndələri az idi. Bu vəziyyəti özümüz qəsdən yaratmışdıq. Bilirdik ki, filarmoniya xalqın özünündür. Onsuz da o həmişə xalqa xidmət edəcəkdir. Xalq da öz sənət ocağının uğurlarından istədiyi qədər bəhrələnəcəkdir. Hələlik isə filarmoniyanın açılışına bu xalqın mənəvi qüdrətinə inanmayanları çağırmaq lazımdır.



Qoy elə əcnəbi cənablar da gəlsinlər! Görsünlər ki, bu xalq öz istedadı ilə sənət dünyasında necə xarüqələr yarada bilər! Salondakılar gah intizarla səhnəyə baxır, gah da əllərindəki konsert proqramını dönə-dönə oxuyurdular. Ancaq proqramda yazılmamış bir çıxış da var idi. Bu da konsert başlamazdan əvvəl S.C.Pişəvərinin edəcəyi nitq idi. Bu tədbiri yalnız filarmoniyanın müdiriyyəti bilirdi.

Salonun işıqları söndü. Zərli, yumşaq, iri pərdələri açıldı, səhnənin işıqları yandı. Sanki mənim xəyalımda daşlaşmış tarixin qaranlıq aləminə gedən yollar da işıqlandı... Maarif idarəsinin rəisi Əsgər Dibayan salondakılara nə məqsədlə dəvət olunduqlarının səbəbini bir neçə kəlmə ilə dedikdən sonra firqənin MK sədri Pişəvəriyə söz verdi.

Mikrofon arxasına keçən S.C.Pişəvərinin əlvan işıqlar altında parıldayan saçı yağışdan sonra üfüqdə sayrışan göy qurşağına bənzəyirdi. Ancaq göy qurşağı doğsa da yağış yağmamışdı. Yağışın yağması konsertlə birlikdə başlanacaqdı. Özü də salondan səhnəyə yağacaqdı. Bu yağış sənətsevərlərin bərəkətli əllərinin alqış yağışı olacaqdı. Atalar öz müqəddəs arzuları uğrunda döyüşlərə atılanda müşküllə də qarşılaşmışlar, ölümlə də pəncələşmişlər. Ancaq öz qara köynəkli ölümlərini belə gözlərinin qabağına gətirərək inadlı mübarizəni yenə də davam etdirmişlər. Qaradan o yana rəng yoxdur demişlər. Lakin sən demə, qaradan da o yana hələ neçə-neçə rəng mövcud imiş. Mübarizələrdə ağarmış saçların rəngi! Fəqət bu ağ rəng də son rəng deyilmiş. Axı ağ saçlar gah soyuq səngərlərdə boz torpaq rəngi-

nə batır, gah qəti hücumlarda yaylım atəşinin göy tüstüsünə boyanır, gah alovlu meydanlarda başın aldığı yaranın qanıyla qızarır, gah da taleyin üfüqlərində doğan səadət günəşinin al şəfəqlərilə yuyunur. S.C.Pişəvərinin də mübarizələrdə ağarmış saçı belə saçlardan idi! O, mikrofon arxasında təmkinlə, qürurla, inamla dayanıb özünəməxsus hərarətlə danışmağa başladı. S.C.Pişəvəri dünya xalqları arasında ləyaqətli yer tutan Azərbaycan xalqının qədim mədəniyyətindən böyük fəxrlə danışırdı. Azərbaycan torpağının dünya incəsənətinə bəxş etdiyi dahi sənətkarların adlarını iftixarla çəkirdi. O, xalqlar arasındakı mədəni əlaqələrin qonşuluğa, dostluğa, qardaşlığa nə dərəcədə gərək olduğunu, uğurlar gətirdiyini, bəhrələr verdiyini parlaq misallarla göstərirdi. Deyirdi ki, bu əlaqələr təkcə milli mədəniyyətlərin çiçəklənməsinə deyil, həm də beynəlmiləlçilik duyğularının inkişafına kömək edir. Biz çalışmalıyıq ki, təzəcə açdığımız bu sənət ocağı əlvan mədəniyyətimizin salnaməsində yeni bir səhifə açsın! Xalqımızın adına layiq olsun! Azərbaycanda yaşayan başqa xalqların övladlarına da bədii zövq versin! İnsanlara təzə, azad, şən tarənələrilə keçmişin ağrılarını, acılarını unutdursun! Gözəl həyat eşqilə çırpınan ürəkləri gələcəyin parlaq işıqlarıyla doldursun.

Pişəvəri danışırdı... İndi onu təkcə salondakılar deyil, bütün dünya dinləyirdi. Bəli! Bütün dünya eşidirdi ki, Azərbaycan xalqı nələrə qadirdir! Bu xalq azadlığa çıxandan bəri öz dilində danışan radiostansiya yaratmış, darülfunun açmış, teatr təsis etmişdir. Bu xalq öz zəngin incəsənətini nümayiş etdirmək üçün milli muzey



açmışdır. Bu xalq öz balalarının doğma dildə təhsil almaları üçün kitablar nəşr etmişdir! Bu gün isə İranda ilk dəfə Təbrizdə filarmoniya açır...



Pişəvəri danışırdı... Mən ona efirdə qulaq asan bütün dünyanı görmürdüm. Ancaq salondakıları yaxşı görürdüm. İlk sırada əyləşən əcnəbi diplomatlar natiqi tərcüməsiz də çox gözəl başa düşürdülər! Bu məğrur cənablar Azərbaycan xalqının əzəmətini, ləyaqətini, həqiqətini çeşmək arxasından da aydın görürdülər.

Hamının böyük intizarla gözlədiyi konsert başlandı. Bəstəkar Hacı Xanməmmədov əlində dirijor çubuğuyla səhnəyə gəldi. O, salonda əyləşənlərə xəfifcə baş əydikdən sonra üzünü milli orkestrə çevirdi. Orkestrin üzvləri isə gözlərini dirijor çubuğuna dikdi. Orkestr əzəmətlə dilə gəldi. Azərbaycan Milli hökumətinin sürudu təntənə ilə səsləndi. Salondakılar ləngərli hərəkətlə ayağa qalxdılar. Başlarını dik tutub ön sırada əyləşən Amerika, İngiltərə, Fransa, Türkiyə, İraq... konsulları da rahat yerlərindən ayağa durmalı oldular. Konsert davam etdi...

Mən indiyə qədər qavalın konsertlərdə yalnız başqa musiqi alətlərini müşayiət etdiyini dönə-dönə görmüşdüm. Sən demə, qavalın öz müstəqilliyi daha uğurlu olurmuş! Qızıl suyuna salınmış dəmir halqalarla naxışlanmış girdə qaval özünün nadir, əlvan, zəngin avazlarıyla qəlbləri ehtizaza gətirdi.



Mahmudağa Fərnamın odlu ürəyinin bütün hərarətilə isitdiyi qızıl pullu qaval mahir bir sənətkarın qaynar ilham kürəsinə bənzəyirdi. Ustad musiqiçi bu kürədə əlvan Azərbaycan ritmlərini əridib yenidən öz istədiyi qəliblərə salır, daha da təkmilləşdirir, gözəlləşdirir, sevdirirdi. O, arıq, uzun, möhkəm barmaqlarıyla havada atıb-tutduğu qavalla doğma vətən təranələrini pərvazlandırıb sənətin yeni-yeni zirvələrinə qaldırırdı.

Aşıq Hüseyn Cavanın başçılıq etdiyi aşıqlar ansamblı səhnədə göründükdə salonda qopan gurultulu alqışlar tamaşaçıların başları üzərindən çağlaya-çağlaya axıb qabarmış sinələrə sığınmış sazlarda diqqətlə kök-



lənən gümüş tellərə səpələnirdi. Sanki bu sürəkli alqışlar sehirli sazların yanıqlı, hikmətli, qürurlu səslərinə qarışıb indicə dil açıb oxuyacaq nəğməni daha da coşduraraq təlatümə gətirmək istəyirdi.



Aşıq Hüseyn Cavan bu ansamblın həm banisi, həm müəllimi, həm də dirijoru idi. Ansamblın repertuarı təzə, zəngin, əlvan idi. Aşıqlar xalqın, firqənin, dövlətin məqsədlərini ifadə edən siyasi qoşmalarla yanaşı məhəbbət lirikasının gözəl nümunələri olan gəraylılar, bayatılar, qıfılbəndlər, dodaqdəyməzlər, deyişmələr də oxuyurdular. Vəfalı sevgilidən, sədaqətli dostdan, dəyanətli qonşudan söz açan gözəlləmələr qaynar, gərgin, məsul işdən sonra yorulmuş əsəbləri nəvazişli sığallarla dincəldirdi. Aşıq Hüseyn həm mahir aşıq, həm də gözəl şairdir! Ansambl məhəbbətdən danışanda klassik aşıqlara, siyasətdən deyəndə Aşıq Hüseynin yaradıcılığına müraciət edirdi. Səhnədə nizamla düzülmüş aşıqlar əzəmət dolu məğrur azadlıq sürudundakı uzun bir misraya, öndə vüqarla dayanmış Aşıq Hüseyn isə uca, möhtəşəm, şax bir nidaya bənzəyirdi. O, dırnaq boyda mizrabıyla telli sazını dilə gətirərək oxuyurdu. Arada

şaqraq səsilə yalnız özünəməxsus, cingiltili zəngulə vururdu. Sanki Səhəndin sinəsində bitib-tükənmək bilməyən nəğmələrlə dolu qədim bir bulaq çağlaya-çağlaya ətrafa nadir sənət inciləri səpələyirdi. Elə bu zaman ansamblın digər üzvləri Aşıq Hüseynin səsinə yer-yerdən səs verirdilər. Sanki təzə bulaqlar axıb qədim bulağa tökülürdü. Başlanan nəğmə daha da gurlaşır, şaxələnir, yayılırdı. Nəğmə şəlalələri filarmoniyanın möhtəşəm divarları arasına sığmayıb Səttarxan xiyabanına tökülürdü. Aylı gecədə Təbrizin büllurlaşmış küçələrindən nəğmə selləri axırdı...

Maraqla, həyəcanla, sevinclə dinlənilən konsertdə fasiləyə ehtiyac duyulmadı. Salondakılar hər şeyi unudub yalnız bir-birindən cazibədar çıxışları izləyirdilər. Arada bir neçə idarənin, müəssisənin, təşkilatın nümayəndələri çıxış edib yeni sənət ocağına uğurlar dilədi. Səhnə yarış meydanına çevrilmişdi.



Qızlar növbə ilə həm gözəlliklərini, həm də istedadlarını nümayiş etdirirdilər. Raziyə də, Puran da, Fat-



ma da, Zümrüd də salondakıların hərarətli alqışlarına məlahətli nəğmələri ilə cavab verirdilər.

Ələsgər Rizvanın, Səməd Dəbbağın, Hidayət Məmmədzadənin birlikdə oxuduqları “Qarabağ şikəstəsi” Qarabağın durna gözlü bulaqlarını, göyərçin qanadlı çaylarını, gümüş saçlı şəlalələrini xatırladırdı... Bu axarların büllur damcıları yanıqlı ürəklərə səpilib alovlanmaqda olan hicran odlarını səngidirdi. Salondakılar səyyar xəyalın qanadlarında qardaş torpağın füsunkar qoynunda dolaşırdı.





Böyük İbadinin, Qulamhüseynxanın, İsmayıl Tigin, Asatur Səfəryanın ifa etdikləri “Dəşti”nin əzəməti salon-

dakılara vüqar, təmkin, ülviyyət aşılayırdı. Bu muğamdakı qürur, məna, vüsət dinləyiciləri düşündürürdü...

Sahib Ruhinin (Şükürovun) oxuduğu segah muğamı mübarizələrlə dolu həyat yollarında daşa dönmüş ürəkləri kövrəldirdi. Bu segahda vüsalla hicran, sevinclə kədər, mətinliklə kövrəklik bir-birinə qarışırdı...

Rəqs ansamblının oynadığı “Yallı” səhnədə əlvan göy qurşağına bənzəyirdi. O, bir qalanın divarlarına, bir dənizin dalğalarına, bir zəncirin halqalarına bənzəyirdi. İnsanları xoşbəxtlik uğrunda birliyə çağırırdı!







Solo ifa edən rəqqasə Naidə xanım öz maraqlı oyunu ilə salondakıları yalnız əyləndirmək xatirinə səhnəyə çıxmamışdı. Xeyr! O, səhnədə sənət imtahanı verən məharət, ləyaqət, sədaqət mücəssəməsi idi. Lakin o, donmuş mücəssəmə deyildi. Hər kiçik hərəkətilə bir məna daşıyıb sənət uğrunda alovlanan bir məşəl idi! Sanki o, bir əlində yellətdiyi yaylıqla gedən uğurlu günləri yola salır, o biri əlində yellətdiyi yaylıqla gələn sirrli günləri qarşılayırdı. Rəqqasə qız bu görkəmdə qatarları qəbul edib yola salan dəmiryol növbətçisindən fərqli olaraq zamanın qayğıyla yüklənmiş qatarlarının hərəkətlərini nizamlayırdı. Sonra əllərində yellənən yaylıqlar havada bir ağ göyərçinin qoşa qanadlarına dönüb narahatlıqla çırpınırdı.

Sülh! Yalnız sülh həsrətilə pərvazlanırdı! Bəli! Həyatın da, sənətin də, arzunun da gül açıb pardaxlanması üçün əvvəlcə sülh gərəkdir!

## ƏKS-SƏDA

*Canlı sənət yaşamaz*
*Düşüncəsiz, duyğusuz.*
*Günəş olsa, parlamaz*
*Dəyanətsiz, qayğısız...*

1945-ci ilin 12 dekabrında mübariz xalqın arzusu, iradəsi, hünərilə yaradılıb doğma diyarın qədim tarixində ciddi dönüşə təkan verən Milli hökumət həyatın bir sıra sahələrində, o cümlədən ədəbiyyat aləmində də yeni tədbirlər gördü. Bu tədbirlər yalnız xalqın mənafeyi-

nə xidmət etmək məqsədi daşımağa başladı. Təbrizdə "Şairlər və yazıçılar cəmiyyəti"nin təsis edilməsi tədbirlər silsiləsinin müjdəçisi oldu. Bu cəmiyyət Milli hökumətin söz ustalarına təkcə qiymətli hədiyyəsi deyildi, həm də sənətə, sənətkara yeni ictimai quruluşun qayğısının, ehtiramının, məhəbbətinin parlaq ifadəsi idi. Milli hökumət söz ustalarını nəinki bir təşkilatda birləşdirməyə təşəbbüs göstərmişdi, hətta harada daha səmərəli fəaliyyət göstərə biləcəkləri haqqında da düşünmüşdü. Bu məqsədlə Təbrizin məşhur xiyabanlarından birində yerləşən gözəl bir imarət həmişəlik cəmiyyətin ixtiyarına verildi. İmarətin bahar nəfəsli həyəti sanki bir sənət gülşəninin timsalı idi. Rəngarəng güllər, büllur fəvvarələr, əlvan mərmərli döşəmələr dahi bir rəssamın yer üzərində çəkdiyi nadir bir lövhəyə bənzəyirdi.

Mən Milli hökumətin başçısı S.C.Pişəvəri ilə də elə cəmiyyətin növbəti iclaslarından birində tanış oldum. O, cəmiyyətin işi ilə yaxından maraqlanırdı. İşi başından aşsa da arada vaxt tapıb iclaslarda iştirak edirdi. Pişəvəri oxunan əsərlərə diqqətlə qulaq asır, suallara dəqiq cavablar verir, təkliflərə qəti rəylərini bildirirdi. Sonra özü də cəmiyyətin üzvlərinə suallar, təkliflər, məsləhətlər verirdi... Pişəvəri həm məşhur inqilabçı, həm görkəmli ictimai-xadim, həm də təcrübəli söz ustası idi. Hələ saysız-hesabsız ictimai-siyasi məqalələri bir yana qalsın, o, neçə-neçə dərin məzmunlu bədii əsərin müəllifi idi!..

1946-cı ilin gözəl may günlərindən biri idi. S.C.Pişəvərinin başçılığı ilə Tehranda İran hökumətinin nümayəndə heyətilə danışıqlar aparan Azərbaycan Milli



hökumətinin nümayəndə heyəti Təbrizə təzəcə qayıtmışdı. "Şairlər və yazıçılar cəmiyyəti"ndə növbəti iclas gedirdi. Birdən Pişəvəri icazə ilə iclasın getdiyi böyük salona daxil oldu. Hamı ehtiramla ayağa qalxdı. Baxışlarda həm sevinc, həm də həyəcan duyulurdu. Firqə sədri cəmiyyətin iclasına xəbərsiz gəlmişdi. Həm də gecikmişdi. Deyəsən o özü də bunu hiss etdi. İclasın gedişinə mane olmasın deyə sədrdən üzr istəyib elə aşağı başda, qapının yanında əyləşdi. Gənclər tez ayağa qalxıb hörmətli qonağı yuxarı başa aparmaq istədi. Lakin bu sadə insan təşrifata məhəl qoymadı. Sonra ağsaqqal yazıçılar Pişəvərinin qolundan yapışıb onu yuxarı başda, iclasın sədrinin yanında əyləşdirdilər. İclas davam etdi... Söhbət şeirin vəznlərindən gedirdi. Müasir həyatda gündəlik məsələlərdən yazmağa hansı vəznin daha yararlı olduğundan danışılırdı. Şeirdə sadəlik, təbiilik, aydınlıq sevən gənclər heca vəznini, ibarə, bəlağət, təmtəraq xoşlayan qocalar əruz vəznini müdafiə edirdilər. Mübahisə getdikcə qızışırdı. Bayaqdan sakitcə əyləşib mübahisələri diqqətlə dinləyən S.C.Pişəvəri söz alıb ayağa qalxdı, hər iki vəznin məziyyətlərindən hərarətlə danışdı. Dedi mən çox təəssüf edirəm ki, niyə bizim hörmət bəslədiyimiz yaşlı söz ustalarımız heca vəzninə ögey gözlə baxırlar. Biz klassik ədəbiyyatımızda əruzun əlvan vəznlərilə yazılmış gözəl şeir nümunələrini sevirik, əzizləyirik, qiymətləndiririk. Xoşumuza gələn qəzəli, qəsidəni, rübaini əzbərləyirik... Ancaq heca vəzni bizim milli, doğma vəznimizdir! Bu vəzndə yazılmış şeirlər daha aydın, rəvan, sərrast olur. Sanki heca vəznində yazılmış hər şeir bir çaydır, hər misra da

bu çayın ayrılmaz bir qoludur. O həmişə çağlaya-çağlaya axır. Ancaq axarına mane ola biləcək hər şeyi də sahilə atır... Yəni qəliz sözləri, ifadələri, tərkibləri qəbul etmir. Unutmamalıyıq ki, ilk dəfə anamızın təbəssümlü dodaqlarından südlü dodaqlarımıza süzülən həzin laylalar məhz heca vəznində yaranmışdır. Əgər belə olmasaydı, bu daş ürəkli dünyada məsum uşaqlarımız ana laylalarındakı incə mətləbləri duya bilməzdilər. Təkcə laylalarımız deyil, bayatılarımız, qoşmalarımız, ağılarımız da heca vəznində yaranmışdır. Biz Tehranda danışıqlar aparanda da Təbriz radiosunun verilişləri ilə maraqlanırdıq. Fasilələrdə mehmanxanaya qayıdanda nə qədər yorğun olsaq belə, Təbrizə qulaq asmağı unutmurduq. Bir dəfə Təbrizə qulaq asanda bir şeir dinlədim. Heca vəznində yazılmışdı. Yaxşı şeir idi. Xoşuma gəldi. Bu, Əli Tudənin "May səhəri" şeiri idi. Özü burdadırmı?

Mən dərhal hörmətlə ayağa qalxıb: – Bəli, burdayam – dedim... Bir an o mənə, mən də ona baxdım. Biz ilk dəfə beləcə əyani tanış olduq. Böyük söz ustasının doğma vətən rayihəli nəfəsi isə iclasda qızışan mübahisələri səngitdi... Gənclər də, qocalar da bu müdrik insanı dərindən duya bildi...

Hələ Milli hökumət gənc idi. Qocaman diyarın isə ehtiyacları saysız-hesabsız. Təbrizdə çap olunan mətbuat orqanlarından yalnız "Azərbaycan" qəzetinin qonorarı var idi. Başqa mətbuat orqanları hələ müəllif haqqı verməyə qadir deyildi. Axı o vaxtadək Təbrizdə ana dilində bu qədər qəzet, jurnal, kitab çıxmamışdı. Qədim Odlar yurdunun mətbuat tarixindəki bu misilsiz nailiy-



yətləri mədəniyyət sahəsində Milli hökumətin qələbəsi, mübariz xalqın bayramı, söz ustalarının fərəhi idi. Vətənpərvər sənətkarlar gərgin bədii yaradıcılıq zəhməti müqabilində Vətəndən nə haqq, nə töhfə, nə təşəkkür umurdular. Öz yuxusuz gecələrinin bəhrəsi olan əsərlərini iftixarla Vətənə hədiyyə verirdilər.

İlk aylarda cəmiyyətin səksənə qədər üzvü var idi. Qarşıda böyük, çətin, ağır sınaqlar dururdu. Bu sınaqlara dözmək, sənətin enişli-yoxuşlu yollarında cəsarətlə, təmkinlə, inamla irəliləmək lazım idi. Bir gün mən bir şair dostumla cəmiyyətin iclasından qayıdarkən yolda ona dedim: – Bizim "Şairlər və yazıçılar cəmiyyəti" dəvə karvanına oxşayır. Təsəvvürünə gətir ki, qarşımızda bir ucsuz-bucaqsız səhra açılmışdır. Göydən Günəş od ələyir, yerdə isə nə bir yaşıl ot, nə də bir içimlik su var. Göz işlədikcə sac üstə qovrulmuş buğdalara bənzəyən yanıq qumlar uzanıb gedir. Mənzil isə hələ uzaqdır. Bu şəraitə dözməyənlər karvandan qırılıb yarı yolda qalacaq, dözənlər isə inamla mənzil başına addımlayacaqlar.

Doğrudan da sonralar həyat mənim bu fikrimi təsdiq etdi. Bəziləri vətən, xalq, azadlıq uğrunda gedən şiddətli mübarizənin nəhəng dalğalarına tab gətirə bilməyib təlatümlü məcradan kənara çəkildilər. Daha doğrusu, məcranın tüğyana gəlmiş dalğaları tərəddüd içərisində donub qalmış mühafizəkarları qayalı sahillərə çırpıb öz yoluna davam etdi...

Yadımdadır. S.C.Pişəvəri cəmiyyətin iclasında yazıçıları Tehran hökuməti ilə aparılan danışıqların mahiyyəti ilə tanış etdikdən sonra dedi: – Mən Tehranda

Azərbaycan mətbuatını həyəcanla izləyib, Təbriz radiosuna diqqətlə qulaq asarkən, yeni səpgili, yüksək ideyalı, dolğun məzmunlu əsərlərimizlə fəxr edirdim. Bu əsərlər hər cür təqliddən, mədhdən, ibarədən çox-çox uzaq olan sənət nümunələridir. Zərər yoxdur, qoy bu əsərlər hələlik bədii cəhətdən kamil olmasın, lakin tuşlandığı hədəfə sərrast dəysin! Qoy bu əsərlər hələlik gülün, bülbülün nisgilinə laqeyd qalsın, ancaq xalqın ürəyində yuva salmış arzuları nəzərdən qaçırmasın! Qoy bu əsərlər pərvanəni atəşlərə yaxan şamın istisini hələlik duymasın, fəqət azadlıq günəşinin hərarətində qızınsın! Qoy bu əsərlər öz tilsimli əfsanələri ilə oxuculara yuxu gətirməsin, həqiqət dünyasının qapılarını taybatay açsın!

Mətləb aydın idi. Cəmiyyətin geniş salonunda bu alovlu sözləri dinləyənlər öz vəzifələrinin mahiyyətini bir daha dərk etdilər. Söz ustaları başa düşdülər ki, sənətin xidməti firqənin, hökumətin, xalqın çoxsahəli fəaliyyətinin ayrılmaz bir hissəsidir. Ədəbiyyat öz doğma yurdunun mübarizələrlə dolu tarixinin bədii salnaməsi olmalıdır.

S.C.Pişəvərinin bu məşhur fikirlərindən sonra elə məqamlar gəlirdi ki, firqəyə, məsləkə, sənətə öz odlu-alovlu sətirlərilə bağlanan şairlər hər gecədə bir, hətta bir neçə şeir yazırdılar. Hər şeir isə ədalət kürsüsündən bir düşmən iftirasına ittiham oxuyan hakimə bənzəyirdi. Necə deyərlər, dəmiri isti-isti döyürdü. Axı o dövrdə şeir ədəbiyyatın əsas zərbə qüvvəsi idi.







“Şairlər və yazıçılar cəmiyyəti” bir ordu qərargahını, qələmə sarılan üzvlər isə sənət əsgərlərini xatırladırdı. Bu fədakar əsgərlər gündüzlər xidmət etdikləri təşkilatlarda, idarələrdə, müəssisələrdə öz öhdələrinə düşən vəzifələri şərəflə yerinə yetirir, gecələr isə günün tələblərinə cavab verən tutarlı əsərlər yazırdılar. Özlərinin gərgin əmək fəaliyyətlərində iş mizinin arxasından ev masasının arxasına keçən söz ustaları məslək döyüşlərində səngərdən-səngərə adlayan döyüşçülərə oxşayırdılar. Bu azadlıq döyüşçülərinin hücum zamanı

oxuduqları nəğmələr şahın qanlı faciələr törədən amansız sitəmlərinə, imperializmin əsarət gətirən ehtirasla dolu tamahlarına qəzəb atəşləri yağdırırdı...

Cəmiyyətin üzvlərinə mövzu seçməkdə uzun-uzadı axtarış aparmaq, xəyala dalmaq, götür-qoy eləmək lazım deyildi. Onların əsərlərinin başlıqlarını yeni ictimai-siyasi quruluşun özü diqtə edirdi. Təzə yazılan sənət nümunələrində Milli hökumətin zəhmətkeş xalqa əvəzsiz bəxş etdiyi gözəl nemətlərin hamısı ucdantutma razılıqla, həvəslə, məhəbbətlə tərənnüm olunurdu. Beləliklə də, təzə dövranın öz təzə realist ədəbiyyatı yaranırdı. Bu ədəbiyyat mübarizələrdə boy ata-ata formalaşırdı. Mənim nəslimdən olan sənətkarlara o dövrdə yazdıqları əsərlər çox əziz, nadir, müqəddəsdir. Çünki o hərarətli əsərlərdə vaxtın təngliyi üzündən yüksək bədiilik normaları gözlənilməsə də dövrün döyüşlü, qayğılı, həyəcanlı hadisələrinin canlı mənzərələri vardır. İndi kamillik dövrünü keçirən mübariz, humanist, demokratik ədəbiyyatımızın sərhədlər aşan əzəmətli səsi o hərarətli əsərlərin doğma əks-sədasıdır...

## “AZƏRBAYCAN” QƏZETİ

*Naşılar dinlədikcə*
*Müdriklərin sözünü,*
*Hikmətin qarşısında*
*Unudubdur özünü...*

Hər xalqın mədəniyyət xəzinəsindəki ən qiymətli inci doğma ana dilidir. Bu parlaq inci öz əlvan şəfəqlərilə xalqın iqtisadi, ictimai, mədəni, siyasi həyatının



bütün yollarını işıqlandırır. Dil xalqın ən böyük, ən müqəddəs, ən nadir mənəvi sərvətidir. Dil ananın südü ilə yoğrulur, laylasıyla boy atır, xeyir-duasıyla pərvazlanır! Əlbəttə, xalqın digər mənəvi sərvətləri də olur. Məsələn qalalar, abidələr, heykəllər, məbədlər, hasarlar... Lakin bu sərvətlər bəzən təbii hadisələrin axınında əriyib gedir. Qarın, yağışın, küləyin soyuq nəfəsilə uçulub dağılır, xarabalara çevrilir. Yaxud da gözləri qızmış laqeyd qəsbkarların təpikləri altında yerlə-yeksan olur. Dil isə çağlaya-çağlaya, durula-durula, parlaya-parlaya nəsildən-nəslə əmanət qalır. İnsanın bütün sərvətlərini əllərindən alsalar, o yenə yaşayar, işləyər, qazanar. Fəqət dilini əlindən alsalar o yaşaya bilməz, ölər. Axı dil insanlar arasında yalnız ünsiyyət vasitəsi deyil, həm də bütün ictimai, iqtisadi, mədəni, tarixi sərvətlərini fədakarlıqla qoruyan qüdrətli mənəvi silahdır! Nə üçün palıd həmişə məğrurluq, möhkəmlik, möhtəşəmlik timsalı olub. Çünki o, tikanlı sazaqlara rişxəndlə sinə gərib! Leysan yağışların altında təbəssümlə çimib! Qarlı tufanlarda donmayıb! Alovlu şimşəklərdə yanmayıb! Ona bu qüdrət haradan gəlib? Palıd bütün rişələri ilə doğma torpağa bağlanıb. Bu rişələr isə torpağın özündən çox-çox aşağıdakı qatlarına işləyib. Palıd gücü də, vüqarı da, cəsarəti də o qatlardan alıb! Dil də belədir! Onun məlahətli, hərarətli, şeiriyyətli kökləri ürəyin ən dərin guşələrinə gedib çıxıb. Bu köklər vətənin vətəni olan ürəklə dil arasında qüvvət, hünər, ağıl tellərídir. Bu tellərdə xalqın arzusu da, əməli də, inamı da nəğmə-nəğmə səslənir, həm də tükənmək nə olduğunu bilmir. Axı bu tellərə hər zaman ünsiyyəti də, dəyanə-

ti də, qətiyyəti də ürək özü verir. Dil ipə-sapa yatmayan azadlıq fədaisidir. Bu nəfəsi alov saçan cəngavərin qollarına zəncir vurmaq olmaz. Vursan da xeyri yoxdur. O ürəyin hökmü ilə elə ataş püskürər ki, qollarındakı zəncir halqa-halqa əriyib tökülər...

Dil qılıncdan iti, oxdan yeyin, nizədən sivri olur. O öz niyyəti uğrunda son nəfəsinə qədər fədakarlıqla döyüşür. Dil dənizdən ləngərli, şəlalədən daşqın, çeşmədən duru olur. O öz səadəti naminə mübarizə himni oxuyur. Dil zəkalar, hikmətlər, möcüzələr xəzinəsinin canlı açarıdır. Bu açar olmasa insan o zəngin xəzinənin sərvətləri ilə can evini əlvan naxışlarla bəzəyə bilməz. Ürəyini gözəl duyğularla varlandıra bilməz. Xəyalını şirin arzularla qanadlandıra bilməz. Niyyətini parlaq əməllərlə pardaxlandıra bilməz. Dil təsəlli də, həyan da, arxa da olur. Dil xalq da, vətən də, istiqlal da olur. Dil hünər də, cürət də, zəfər də olur. Dil vətəndə sakinə, qürbətdə vətənə çevrilir.

Su saflığı ilə, gül ətri ilə, üzük qaşı ilə, ulduz işığı ilə, qılınc kəsəri ilə tanınır. Dil isə ahəngi ilə, şirinliyi ilə, zənginliyi ilə, hərarəti ilə, təsiri ilə...

Azərbaycan dili bütün dünyada qürurla səslənən belə qədim dillərdən biridir. Azərbaycan xalqı öz doğma dilində elə qiymətli sənət inciləri yaradıb ki, onlar neçə-neçə başqa xalqın dilinə tərcümə edildikdə belə öz dərin mənasını, zərif gözəlliyini, sərrast dəqiqliyini itirməyir. Nəsillərdən-nəsillərə yadigar qalıb bu gün də dodaqlarda hikmətlə səslənən laylalar, bayatılar, zərbiməsəllər dediklərimizə parlaq sübutdur. Bu yığcam, ahəngdar, oynaq sənət nümunələri zaman-zaman dillər



əzbəri olub. İnsanlar arasında təsəlliyə, ibrətə, örnəyə çevrilib. Azərbaycan dilində yaranan bayatılarda xalq həyatında baş verən həm sevincli, həm də kədərli hadisələr öz canlı əksini tapıb. İnsan azadlığını həyatdakı bütün nemətlərdən müqəddəs sanan Azərbaycan xalqı o nadir nemətin dəyərini bircə sətirdə yığcam, aydın, dəqiq ifadə edib: "Bülbül ol, qəfəsdə olma!" Nə qədər dərin, nə qədər ülvi fikirdir! Səadəti əməkdə, xeyirxahlıqda, mehribanlıqda, sədaqətdə, dəyanətdə görən Azərbaycan xalqı zər-ziba içərisində ömür sürən, lakin ehtiyac içində çırpınan insanların taleyini düşünməyən, gec-tez ölümə məhkum olunan istismarçılara üz tutaraq tənə ilə deyib: "Neyləyirəm qızıl teşti, içinə qan qusam".

Həmişə mərd, cəsur, igid olan Azərbaycan xalqı öz övladlarını da mərd yaşamağa, namərdlərə baş əyməməyə çağırıb:

**"Keçmə namərd körpüsündən,**
**Qoy aparsın sellər səni.".**

Sanki bu sınanmış sətirlərin üzərindən həyatın döyüşlərlə dolu enişli-yoxuşlu uzun yolları gəlib-keçib. Bu yollarda insanların səadəti naminə öz şirin canlarını qurban verən igidlər isə unudulmayıb.

Azərbaycan xalqı car çəkib: "İgid ölər, adı qalar!". Ancaq bu xalq hər igidi əsl igid adlandırmayıb. O qət edib

**"İgid odur hər cəfaya qatlana,**
**Döyüşlərdə atdan düşsə atlana.".**

Həyatı ürəkdən-candan sevən, zəhmətkeş əlləri ilə dəyişən, incə zövqü ilə gözəlləşdirən Azərbaycan xal-

qı insanın şəxsiyyətini, məhəbbətini, ləyaqətini yüksək qiymətləndirib. O Vətənə sədaqətlə xidmət edən insanın həyatdan getməsinə nəinki ürəkdən kədərlənib, hətta bu faciəyə yanıqlı misralar da həsr edib:

**"Bu dağlar ulu dağlar,**
**Çeşməli sulu dağlar,**
**Burda bir igid ölmüş,**
**Göy kişnər, bulud ağlar".**

Azərbaycan xalqının dilindən qopan bu məşhur bayatı nə qədər həzin, nə qədər kövrək, nə qədər təsirlidir! Lakin daim səadət eşqi ilə yaşayan bu xalq ömrün bütün ağlı-qaralı günlərinin hamısını təntənəyə çevirməyə çalışıb. O özünün doğma dilində yaratdığı gözəl nəğmələrlə qız köçürmək, oğul evləndirmək istəyib. Arzuya-kama çatan ağbirçək analar toylarda ağızdolusu oxuyublar.

**"Əzizinəm, qız-gəlin,**
**Əli-ayağı düz gəlin,**
**Yeddi oğul istərəm,**
**Bircə dənə qız gəlin".**

Dilin zənginliyinə, ifadənin genişliyinə bax! Bu dördcə misralıq bayatıda dünyagörmüş analar gəlinin həm yaraşıqlı, həm də düz, təmiz, sədaqətli olmasını arzulayır. Həm də Vətənin etibarlı oğullara ehtiyac duyduğunu nəzərə alaraq belə oğulların daha çox olmasını diləyirlər. Bəs niyə axırda bircə dənə qız istəyirlər? Çünki onsuz da Vətən qızlarının hörmətini gözləri üstündə saxlayan Vətən oğulları tək qızın ehtiramını göyün gözləri olan ulduzların fövqünə qaldırar. Bu xalq



igid qızları rəşadətdə, cəsarətdə, şücaətdə heç zaman mərd oğullardan ayrı təsəvvür etməyib. Məhz buna görə də qətiyyətlə deyib: – "Aslanın erkəyi, dişisi olmaz". Qoca Şərqdə öz xeyirxahlığı, mehribanlığı, qayğıkeşliyiylə tanınan bu xalq öz qonşusunun ülfətinə, şəfqətinə, hörmətinə yüksək qiymət verib: – "Yaxın qonşu uzaq qohumdan əfzəldir".

Azərbaycan xalqının öz doğma dilində təbiət, həyat, cəmiyyət hadisələrinə dair yaratdığı söz sənəti inciləri saysız-hesabsızdır. Mən həmən bitib-tükənməz xəzinənin qiymətli incilərindən yalnız bir neçəsini göstərməklə kifayətlənirəm. Elə nümunə gətirdiyim misallarda da Azərbaycan dilinin söz sənətində şəfəq saçan inciləri öz parlaqlıqları ilə gözləri qamaşdırır. Nələrə qadir olduqlarını deyir.

Mən öz sənətimdəki az-çox uğurlara görə atalar sözlərinə minnətdaram. Mənə yüklü atalar sözlərində həm hikmət, həm də şeiriyyət var. Təsadüfi deyil ki, atalar sözlərinin çoxlarının sonları qafiyələnib. Özü də yalnız rəvanlıq xatirinə yox, həm də tez əzbərlənmək, yadda qalmaq xatirinə. Atalar sözləri əlvan nemətlərlə dolu zəngin süfrədir. Əlini uzadıb bu zəngin süfrədən istədiyin neməti götürə bilərsən. Mən də öz əsərlərimdə atalar sözlərindən geninə-boluna istifadə etmişəm. Atalar sözləri haqqında bir neçə şeir də yazmışam. Oxuyan filosof-alimlərin sözləri kitablardan sənətə gəlibsə, oxumayan filosof ataların sözləri həyatdan sənətə gəlib. Özü də ağır sınaqlardan çıxa-çıxa, oxuyan filosof alimləri heyran qoya-qoya gəlib.

Ataların bir sözü bir xalqa istiqamət də, ruh da, təpər də verə bilər. Nə gizlədim. Mən də arzulamışam ki, gələcəkdə o atalardan biri ola bilim. Ona görə də sənətin həm uzun, həm çətin yollarında sözlərimin siqlətini çiyinlərimdə daşımışam ki, bəlkə atalar sözləri səviyyəsinə qaldıra bilim. Mən oxumayan filosof ataların müdrik ruhları qarşısında hörmətlə baş əyirəm...

Yaşadığımız dünya nəhəng bir xalqlar məclisinə bənzəyir. Bu məclisdə hər xalqın öz yeri var. Bu məclisdə ülfət də, məhəbbət də, hörmət də qarşılıqlıdır. Beynəlmiləlçi xalqlar həmişə bu məclisin nəzakət qaydalarını vicdanla qorumağa çalışıb. Bu məclis həm də böyük bir orkestrə oxşayır. Bu orkestrdəki hər səs bir dildir. Bu dillərdən biri də Azərbaycan xalqının mehriban, mübariz, müqtədir dilidir. Bu dil tarix yaranandan dünya xalqlarının böyük ailəsində qürurla, əzəmətlə, hünərlə səslənib, zaman keçdikcə yenə də həmin vüsətlə səslənəcəkdir!

Azərbaycan Demokrat Firqəsinin mübariz orqanı olan "Azərbaycan" qəzeti Təbrizdə nəşrə başladığı gündən geniş oxucu kütlələrinin dərin hüsn-rəğbətini qazandı. Axı bu qəzet fəhlə ilə də, kəndli ilə də, ziyalı ilə də doğma Azərbaycan dilində danışırdı. Həm də şirin-şirin, məhrəm-məhrəm, isti-isti danışırdı. Daha istismarçı ağalarla, rüşvətxor məmurlarla, tamahkar möhtəkirlərlə mübarizəni genişləndirmək olardı. "Azərbaycan" qəzeti get-gedə milli azadlıq hərəkatının nəhəng, şəffaf aynasına çevrildi. Qəzet tez-tez öz səhifələrində ağır güzəranlı kəndlilərin qəddar mülkədarlarla şiddətli döyüşlərindən bəhs edən təzə xəbərlər,



fotoşəkillər, hərarətli məqalələr dərc edirdi. Bu işdə fədakar kənd müxbirləri yorulmaq bilmədən fəaliyyət göstərirdilər. Mən o zaman Ərdəbildə yaşayırdım. Şeirlərimi "Ziddi-faşist" qəzetində çap etdirirdim. "Azərbaycan" qəzeti Ərdəbilə də gəlirdi. Mən şair olduğum üçün qəzeti əlimə alan tək əvvəlcə şeirləri oxuyurdum. Bu şeirlərdə doğma Vətənə məhəbbət, ana dilimizə hörmət, qəddar düşmənə nifrət hissləri qürurla səslənirdi. Hələ sənətkarlıq cəhətdən püxtələşməmiş bu şeirlərdə sağlam bir ideya vardı. Qəzetin hər nömrəsində təzə bir imzaya rast gəlmək olardı. Bunların arasında fəhlə də, kəndli də, həkim də, mühəndis də, rəssam da vardı. Mən öz şeirlərimi Təbrizə – qəzetin redaksiyasına göndərirdim. Hər dəfə öz imzamı qəzetin səhifəsində görəndə sevincimdən yerə-göyə sığmırdım. Təbrizə gəldiyim günün sabahı "Azərbaycan" qəzetinin redaksiyasına getdim. Redaksiya heyətilə yaxından tanış oldum. Yeni şeirlərimi təqdim etdim. Təbrizdə yerli şairlərlə görüşür, fikir mübadiləsi edir, material toplayırdım. Qədim şəhərdə nadir bir canlanma vardı. Sanki təbrizlilər illərdən bəri həsrətini çəkdikləri işlərin hamısını elə bir gündəcə görüb qurtarmaq istəyirdilər. Necə deyərlər, baş qaşımağa da macal yox idi. Buna baxmayaraq, mən hər gün işarası vaxt tapıb redaksiyaya baş çəkirdim. Hansı mövzuya ehtiyac duyulduğunu, nədən yazmağın lazım gəldiyini öyrənirdim. Hər yeni şeirimi qəzetdə gördükdə sanırdım ki, düşmənlərin sinəsinə yeni bir atəş açmışam. Şanlı firqəmizin sədri, Milli hökumətimizin başçısı, söz ustalarımızın ağsaqqalı S.C.Pişəvəri "Azərbaycan" qəzetinə böyük qayğı

göstərirdi. O təkcə qəzetə dərin məzmunlu, yüksək ideyalı, geniş əhatəli yazılar verməklə kifayətlənmirdi, həm də hər nömrəni ilk sətirdən son sətirə qədər diqqətlə oxuyub öz lazımi məsləhətlərini verirdi. O, bədii parçalarla daha çox maraqlanırdı. İşinin həddən artıq çox olmasına baxmayaraq qələm sahiblərilə görüşüb fikir mübadiləsi etməyə imkan tapırdı.

Soyuq payız günlərindən biri idi. Qəzetin növbəti nömrəsi çapdan çıxmışdı. Yubileyə oxşar bir yığıncaq keçirilirdi. İclasa ancaq şairlər, yazıçılar, jurnalistlər, bir də mətbuat işçiləri çağırılmışdı. Natiqlər növbə ilə danışıb qurtardıqdan sonra söz Pişəvəriyə verildi. O həyati dəlillərlə, inandırıcı sübutlarla, maraqlı məsəllərlə qəzetin qarşısında duran vəzifələrdən danışmaqla bərabər, qələm sahiblərinin öhdəsinə düşən məsuliyyəti də nəzərlərə çatdırdı. O, şirin xatirələrlə dolu olan Bakıdakı jurnalistlik fəaliyyətindən dedikcə salondakılar heyran-heyran qulaq asırdılar. Aydın, mənalı, yığcam danışırdı. Çalışırdı ki, dinləyiciləri yormamaq üçün fikirlərində təkrara yol verməsin. Şirin danışırdı. Gecə yarıdan keçirdi. Biz isə hələ də hərarətlə danışan alovlu natiqdən ayrılmaq istəmirdik. Ancaq səhər hər kəs iş başında olmalı idi. Sabahın nəfəsini öz üzündə duyan S.C.Pişəvəri sözlərinə ara verdi. Həssas baxışlarını yığıncaqdakıların üzündə dolandıraraq yarıciddi, yarızarafat: – Daha bəsdir, qalanı da qalsın sonraya – dedi. Bununla da yığıncaq öz işini qurtardı. Yığıncağa toplananlar da dağılışdı.

Əgər Demokrat Firqəsinin mərkəzi komitəsi bir qərargah idisə, “Azərbaycan” qəzeti redaksiyası mühüm



postlardan biri idi. Ana torpaq bizdən düşmənlərə cavab olan odlu-alovlu şeirlər istəyirdi. Bu şeirlər qəzet vasitəsilə hər yana yayılır, fəhlələri də, kəndliləri də, ziyalıları da mübarizəyə ruhlandırırdı. Hətta Tehrandakı şahpərəstlərə də çatırdı. Mənim o ağır günlərdə yazdığım “Günəş”, “Bura Azərbaycandır”, “Vətən çağırışı”, “And”, “Yaxşıdır” və s. şeirlərim ilk dəfə “Azərbaycan” qəzetində çap olunmuşdur.

## OXŞAR ZÖVQLƏR

*İnsanlar hər uğura*
*Dayaq olmasa birgə,*
*Çiyinləri üstündə*
Ucala bilməz ölkə.

İnsan alova dönsə də yenə insandır. Mən də insandım. Mənə də baxan gərəkdi. Yaxın qohumlarım Çanaxbulaqda idi. Valideynlərimi tez itirdiyimdən məni nənəm böyütmüşdü. O da Çanaxbulaqda yaşayırdı. Ancaq daha ahıllaşmışdı. Onu Təbrizə gətirmək olmazdı. Təbrizdə isə nə yemək-içməyimi hazırlayan, nə paltarlarımı yuyub-ütüləyən, nə də qonaqlarıma xidmət edən vardı. Axı hələ evlənməmişdim. Subay idim. Mən Çanaxbulaqda yaşayan doğma xalam Gəlinxanıma məktub göndərib Təbrizə gəlməsini xahiş etdim. O böyük oğlunu nənəmin yanında qoyub qucağındakı körpə oğlu ilə əri İsrafilə qoşulub Təbrizə gəldi. İsrafil mənim bibimin yeganə oğlu idi. Xalam evdə mənim yemək-içməyimi hazırladı. Paltarlarımı yuyub-ütülədi. Qonaqla-

rıma xidmət etdi. İsrafil isə Filarmoniyada baş nəzarətçi vəzifəsində işlədi...

Bir gün işdən çıxıb evə gedəndə xiyabanda ayaq üstdə dayanan bir gəncin tabaqda gilas satdığını gördüm. Kəhrəba gilaslarla qalaqlanmış tabaq qürub yerindən qopub yol üstdə düşən Günəşə bənzəyirdi. Gilası satan gənc müştəri gözləyən baqqaldan çox Günəşin keşiyini çəkən əsgəri andırırdı.

Mən gilas dolu tabağa yaxınlaşanda gənc məni təbəssümlə qarşıladı. Mənə elə gəldi ki, gəncin təbəssümü də kəhrəba rənginə boyanmışdır. O gilas alıb-almayacağımı soruşmadan nəzakətlə: – Ağa, nə qədər çəkim? – dedi. Mən gülə-gülə gəncə: – Mən ağa deyiləm – dedim. O mənə diqqətlə baxdı. Birdən hərarətlə: – Tanıdım! Siz doğrudan da ağa deyilsiniz. Əziz şairimizsiniz. Şəkillərinizi də, şeirlərinizi də ruznamələrdə, məcəllələrdə, kitablarda görmüşəm. Şeirlərinizi də dönə-dönə oxumuşam – dedi. Mən maraqla gəncdən: – Savadın var? – deyə soruşdum. O hörmətlə: – Bəli, var – dedi. Mən heyrətlə: – Bəs niyə özünə münasib bir işdə çalışmırsan? Xiyabanda gilas satırsan – dedim. O utana-utana: – Özümə münasib bir iş tapa bilmirəm – dedi. Mən qayğıyla gəncdən: – Adınız nədir? – deyə soruşdum. O məhrəm-məhrəm: – Adım Lətifdir – dedi. Mən mehriban-mehriban: – Sabah gələrsən filarmoniyaya. Deyərsən məni müdir çağırtdırıb. Onda səni mənim yanıma gətirərlər. Sonrasına baxarıq. İndi isə mənə iki kilo gilas çək – dedim. Lətif iki kilo gilas çəkib kağız torbaya tökdü. Mən cibimdən bir qırmızı iki tümənlik çıxarıb tabağın qarşısına



qoydum. Lətif pulu görəndə qəti etirazla mənə: – Yox! Pul götürməyəcəyəm – dedi. Mən həlim etirazla: – Onda mən də gilası aparmayacağam – dedim. O dedi, mən dedim. Axırda Lətif iki tümənlikdən gilasın pulunu çıxmağa məcbur oldu. Mən gilas dolu kağız torbanı qoltuğuma vurub yola düzələndə sabah səni gözləyəcəyəm dedim. Evdə yeməkdən sonra xalam gilasları yuyub büllur qaba yığdı. Qabı da mizin üstünə qoydu. Xalam mənim gilaslara mənalı-mənalı baxdığımı görüb qarşımda əyləşdi. Üstlərində büllur damlalar parıldayan gilaslar almaslarla naxışlanmış kəhrəbalara oxşayırdı. Xalam maraqla mənə: – Bulqavar* gilasları yadındadır? Çanaxbulaqda Bulqavara kənd yox, gilas bağı deyərdilər. Gilas vaxtı kimi atla, kimi ulaqla gilas gətirmək üçün Bulqavara gedərdi. Ancaq bu ilki gedənlər boş qayıtdılar. Sən demə, bulqavarlılar gilaslarını daha satmırlar. Milli hökumətin sayəsində yaxşı dolandıqları üçün gilaslarını şəhərdəki uşaq evlərinə hədiyyə aparırlar – dedi. Mən yarıciddi -yarızarafat xalama: – Onda bu gilasların da dadına baxaq. Görək Təbriz gilası ləzzətlidir, yoxsa Bulqavar gilası? – dedim. Qəribədir. Gilaslar saplaqlarda tək-tək yox, qoşa-qoşa olur. Sanki əkiz taydır. Biz bir neçə əkiz tay gilas yesək də haranın gilasının daha ləzzətli olması haqqında qəti qərara gələ bilmədik. Axı necə gələ bilərdik? Bulqavar gilası da, Təbriz gilası da Azərbaycan torpağının bəhrəsi idi... Dilə gəlib səsini yalnız mənə eşitdirən ürəyim Bulqavar gilası haqqında bir şeir yazmaq qərarına gəldi. Axı

*Meşkinlə Sumərin arasında kənd.

nankorluq yaxşı şey deyil. Mən Çanaxbulaqda Bulqavar gilasını az yeməmişdim. Xalam qalxıb öz otaqlarına getdi. Mən də qalxdım. Qələm-kağız gətirib təzədən miz arxasında əyləşdim. Bulqavar gilasına bir şeir yazdım:

**Gözəl Bulqavarı kim istər dana,**
**O miskin deyildir, məğrurdur daha.**
**Kəhrəba buğdası qalsın bir yana,**
**Büllur gilasıyla məşhurdur daha.**

**Sanki adi bağlar deyildir bağlar**
**Bu başdan o başa büllur bağıdır.**
**Əmək uğuruyla yüklənmiş şaxlar**
**Həm qayğı, həm sevinc, həm nur bağıdır.**

**Yarpağın yamyaşıl ovcunu haçaq**
**Yandırıb-yaxsa da gilas köz kimi,**
**O dözür... Gilası atmayır ancaq**
**Mərhəmət gözləyən məsum göz kimi.**

**Yaxşı yadımdadır, kəndlilər haçan**
**Dəryazla örüşdə otu biçərdi,**
**Sanki neçə-neçə çəmən o zaman**
**Mənim yaşadığım kəndə köçərdi.**

**Tanınmış əttarın dükanı kimi**
**Hər ot tayası da ətir saçardı.**
**Dağın avazımış dumanı kimi**
**Yorulmuş gözlərdən yuxu qaçardı.**



**Qızıl saçlarının son saçağını**
**Ay hələ yumamış bulaq gözündə,**
**Qatıb qabağına öz ulağını**
**Kəndlilər gedərdi aran düzündə.**

**Gilas! Nə Dəməşqdə yetişən püstə,**
**Nə də ki, Bağdadın xurmasıydı o.**
**Yox! Yox! Bulqavarın budaqlar üstə**
**Ulduz-ulduz qonan səmasıydı o.**

**Sağ-salamat gəlib yolu səbətlər**
**Ulaqlar üstündən enərdi kənddə.**
**Ətirli ulduzla dolu səbətlər**
**Gilas bağlarına dönərdi kənddə.**

**Ağanın xanımı baxıb ərinə**
**Yekə qulağına almas taxardı.**
**Qızlar, kasıb qızlar sırğa yerinə**
**İncə qulağına gilas taxardı.**

**Yox! Yox! Öz gilaslı təcəssümüylə**
**Zarafatla dolu əməldi qızlar!**
**Axı Günəş dolu təbəssümüylə**
**Elə sırğasız da gözəldi qızlar!**

**Bəli! Qiymətliydi qızların özü**
**Dünyanın ən iri almasından da!**
**Məhəbbət oduyla alışan gözü**
**Parlaqdı Bulqavar gilasından da!**

**Milli hökumətin qərarlarını**
**Qızlar da rəğbətlə qarşıladılar.**
**Əlvan xalılara şüarlarını**
**Göyərçin əllərlə aşıladılar.**

**Bir gün boş qayıtdı karvan... Bəs gilas?**
**Bu sözdən uğundu nə qədər adam.**
**Dedilər hər səfər uğurlu olmaz,**
**Bulqavar özü də dəyişib tamam.**

**Sanma Bulqavarlı çalışır yenə**
**Diləyini sata gilaslar təki.**
**Yox! Azadlıq eşqi alışır yenə**
**Qaranlıqda yanan almaslar təki.**

**Bəli! Bulqavarın öz karvanları**
**Üzünü şəhərə döndərir indi.**
**Gilası toplayıb kənd cavanları**
**Uşaq evlərinə göndərir indi.**

Mən xalamgilin otağına getdim. Şeiri xalama oxudum. Şeir xalamın xoşuna gəldi. O qürur dolu heyrətlə mənə: – Sən bir oxla iki nişan vurubsan – dedi. Mən maraqla: – Necə bəyəm? – deyə soruşdum. Xalam təbəssümlə: – Sən məni əvvəl Çanaxbulağa, sonra isə Bulqavara apardın – dedi.

Səhər işə gedəndə xalama Lətifdən danışdım. Xalam bilirdi ki, mən hələ onun bir sözünü də yerə salmamışam. Ona görə təkidlə mənə tapşırdı ki, əlimdən gələn köməyi Lətifdən əsirgəməyim. Mənim körpə ikən valideynlərimi itirdiyimi,köməksiz qaldığımı, ehtiyac içində yaşamağımı xalam unuda bilmirdi. Bəli!



Hətta böyüyüb indi öz istedadım sayəsində yuxarı vəzifədə işlədiyim zamanda da sanki xalam mənim yetimlikdə çəkdiyim əziyyətləri yadından çıxarmaq istəmirdi. Həmişə mənə xeyirxahlıq duyğuları aşılayırdı. Xalama söz verdim ki, Lətifə mütləq yardım göstərəcəyəm. Sonra işə yollandım. Filarmoniyanın binasına daxil olub xidmətçilər ilə salamlaşa-salamlaşa iş otağıma keçdim. Elə təzəcə mizimin arxasında əyləşmişdim ki, qapı döyüldü. – Buyurun! – dedim. Qapı açıldı. Lətif içəri girib salam verdi. Ona əyləşmək üçün qarşımda yer göstərdim. Əyləşdi. O gözlərində donub qalmış intizar buludlarını ümidin odlu nəfəsilə dağıda bilmirdi. Mən dəftərxana rəhbərini yanıma çağırtdırıb dedim ki, bu gənci filarmoniyada nəzarətçi vəzifəsinə götürmək lazımdır. Özü də bu gündən. Dəftərxana rəisi hörmətlə mənə: – Yaxşı, yoldaş müdir! – dedi. Sonra Lətifi özüylə dəftərxanaya apardı... Qəribədir. Gecə konsertdən sonra evə qayıdanda həyət qapısını açan xalama həmişəki kimi salam verdim. O salamıma cavab vermək əvəzinə dərhal Lətifi işə götürüb-götürmədiyimi soruşdu. Hiss etdim ki, xalam mən işdən qayıdana qədər nigarançılıq keçirirmiş. Ona görə hərarətlə: – Lətifi filarmoniyada nəzarətçi vəzifəsində işə götürdük – dedim. Xalam narahatlıqla: – Ağır iş deyil ki? – deyə soruşdu. Mən təbəssümlə: – Yox! Konsertlərə gələnlərin biletlərini yoxlayacaq – dedim. Xalam məmnun-məmnun güldü. Qolunu boynuma salıb məhəbbətlə üzümdən öpdü. Sonra qabağımdan çəkilib məni həyətə buraxdı...

Mübarizələrlə dolu həyatda bir anlıq sevinc də səadətdir. Hayıf ki, sevincin ömrü qısa olur. Sevincin ürəkdə qalan kövrək izi kəpənəyin ovucda qalan tozlu zərini andırır. Bizim Lətifi işə götürməyimizə təkcə o özü yox, xalam da, mən də sevinmişdik. Ancaq xəyalımıza da gətirməmişdik ki, sonralar biz bir-birimizin kədərli taleyindən heç xəbər də tuta bilməyəcəyik. Bir-birimizi yuxularda görəcəyik. Özü də Təbrizdə necə görmüşüksə elə görəcəyik...

Paltarımı dəyişib mizin kənarında əyləşdim... Xalam armudu stəkanda təzədəm çay gətirdi. Xalamın əməyini dəyərləndirmək məqsədilə stəkanı əlimə götürüb burnuma yaxınlaşdırdım. Ətrini uda-uda: – Bəh, bəh! – dedim. Sonra stəkanı işığa tutub büllurlaşan qəhvəyi rənginə baxdım. Minnətdarlıqla xalama: – Sağ ol, xala! Varam sənin zövqünə! – dedim. Xalam mənalı-mənalı mənə: – Deyirlər istedad, ilham, dözüm insanda taleydənmi, fələkdənmi, Tanrıdanmı nadir vergidir. Məncə, insanda ən dəyərli vergi zövqdür. Zövqsüz insan nə istedadla, nə ilhamla, nə dözümlə uğurlu bir şey yarada bilməz. Ona görə ki, zövq insanın yaratdığı bütün şeylərə nəzarət edir. Nəyin yaxşı, nəyin pis olduğunu insana sözsüz bildirir. İnsanın qabiliyyətini özünə tanıtdırır. Bəli! Zövq elə bir süzgəcdir ki, insanın yaratdığı nə varsa, hamısı o süzgəcdən keçir. İnsan yaratdığı bütün nadir gözəlliklər üçün hər vergidən əvvəl öz zövqünə minnətdar olmalıdır. İnsanın yaratdığı nadir gözəlliklər isə o qədərdir ki... Xüsusilə də əlvan abidələr! Sənətkar insan başa düşüb ki, ancaq tamaşaçıda heyrət doğura bilən abidə sənət əsəri sayıla bilər. Bu isə sənətkar insandan, istedaddan da, ilhamdan da, dözümdən də əvvəl zövq istəyir. Bu gün Göy məscidə baxmağa getmişdim. Doğrusu, doyunca baxa bilmədim. Gərək yenə gedəm. Bu yaraşıqlı məscid öz parlaqlığı ilə gözləri elə qamaşdırır ki, gözəl naxışların hamısını görmək mümkün olmayır. Əhsən belə məscidi tikən ustanın zəngin, həssas, nadir zövqünə! Yox! O yalnız məscid deyil. Həm də təkrarolunmaz sənət əsəridir.







Sən Göy məscidə şeir yazıbsanmı? – dedi. Mən güldüm. Sonra gedib əlyazmalarımın arasından Göy məscidə yazdığım şeiri tapıb gətirdim. Yerimdə əyləşəndən sonra xalama oxudum:

**Səhər gün çıxanda bilməzdim ki, mən,**
**Mavidi, sarıdı, aldı Göy məscid.**
**Axşam Ay doğanda bilməzdim ki, mən,**
**Bəyazdı, yaşıldı, çaldı Göy məscid.**

**Elə alovlanıb yandı ki, özü,**
**Yerdə bir Günəşə döndü hər közü...**
**Dünyada yeddi rəng olsa da, düzü,**
**Bir gündə min rəngə çaldı Göy məscid.**

**Bəli! Öz bakirə naxışlarıyla,**
**Göyə ulduz-ulduz baxışlarıyla,**
**Yerə əlvan-əlvan yağışlarıyla**
**Rəngbərəng işıqlar saldı Göy məscid.**

**Sanki Acı çayın qıraqlarında,**
**Anam Azərbaycan torpaqlarında,**
**Gözəl Təbrizimin yanaqlarında**
**Nəhəng, əlvan, nadir xaldı Göy məscid.**

**Həmişə öyünüb mərd balasıyla,**
**Çarpışdı taxt-tacın min bəlasıyla,**
**Bahadir sinəli Ərk qalasıyla**
**Səngərdə baş-başa qaldı Göy məscid.**



**Göydə qızıl ocaq çatdı ulduzlar,**
**Alışdı, parladı, batdı ulduzlar,**
**Sabah oyanmaqçın yatdı ulduzlar,**
**Yatmadı, xəyala daldı Göy məscid.**

**Yaddaşına yazdı kəlamlarımı,**
**İnqilab çağrışlı eyhamlarımı.**
**Sədaqətlə dolu salamlarımı**
**Əlvan təbəssümlə aldı Göy məscid.**

**Gəlmədi təyyarə, tank, top eyninə,**
**Fədai paltarı geydi əyninə.**
**Döyüşlərdə Ərklə çiyin-çiyinə**
**Şahı öz taxtından saldı Göy məscid.**

Şeiri oxuyub qurtarandan sonra xalama baxdım. O elə diqqətlə qulaq asmışdı ki, mehriban üzü gərilmişdi. Ancaq gözlərində iki büllur ulduz parlayırdı. O büllur ulduzlar qürur yaşları idi. Sanki o büllur ulduzlar dodaqlarına axıb parlaq təbəssümə döndü. Xalam səxavətlə mənə: – Çanaxbulağın çörəyi də, suyu da, havası da sənə halal olsun! Özü də dönə-dönə! Maşallah, həssas zövqün varmış. Səni Milli hökumət o boyda sənət ocağına nahaq başçı qoymayıb – dedi. Mən zarafatla: – Deyirlər qoç igid dayısına, xanım qız xalasına oxşayar. Ancaq görünür mən zövqdə xalama oxşamışam – dedim. Xalam həm sevindi, həm də kövrəldi. Yerindən qalxıb boynumu qucaqladı. O üzümdən, bu üzümdən hərarətlə öpdü. Bu zaman aşağı otaqdan körpə Südeyfin incə səsi gəldi. O, beşikdə yuxudan oyanıb ağlayırdı. Xalam getdi. Mən isə dünən gecədən yarımçıq qalmış şeirimi qarşıma qoyub tamamlamaq istədim...

# UZANAN YOL

*Sanma ki, zaman axır,*
*Dövlət isə qalandır.*
*Yox! Yox! Dövlət də gedir,*
*Sənət isə qalandır.*

Təbrizdə payız başlasa da salxım-salxım yasəmənlərin, dəstə-dəstə nərgizlərin, topa-topa qızılgüllərin ətri şəhəri özü boyda əttar dükanına döndərmişdi. İnsan dərindən nəfəs aldıqca, sanki adi hava yox, nadir təravət udurdu. Daha da gümrahlaşırdı, mətinləşirdi, çevikləşirdi.



Bir gün Azərbaycan Dövlət Filarmoniyasında mənim bədii hissə üzrə müavinim, məşhur tarzən Həsən Üzzari iş otağıma gəldi.

O məsləhətlə mənə: – Tehranda bir ustad xanəndə var. Özü də Bakılıdır. Adı Seyid, famili Mirbabayevdir. 1920-ci ildə bolşeviklər Şimali Azərbaycana gəldikdən sonra xaricə gedənlərdəndir. Axı İranın hər yerindən oxuyanlar, çalanlar, oynayanlar axışıb bura gəlir. Bəlkə onu da oxumağa dəvət edək? – dedi. Mən Həsən Üzzarinin bu təşəbbüsünü təqdir etdim. Ancaq Seyid Mirbabayev haqqında



heç olmasa qısa bir məlumat almaq üçün Tehrandan gəlib Təbriz filarmoniyasında çalışan sənətkarlardan tarzən Vaqifi yanıma çağırtdırdım. İntizarla dolu baxışlarını üzümə dikən Vaqifə maraqla: – Siz Tehranda bakılı xanəndə Seyid Mirbabayevi tanıyırdınız? – dedim. O etirafla: – Bəli, çox yaxşı tanıyırdım. Nişanlarda, toylarda, ziyafətlərdə tez-tez görüşürdük. Mən onu oxuyanda tarla müşayiət etmişəm. O da öz tərcümeyi-halını mənə danışıb – dedi. Mən tarzən Vaqifə məsləhətlə: – Ağayi Üzzari təklif edir ki, Seyid Mirbabayevi Təbrizə çağırıb filarmoniyada işə götürək – dedim. Tarzən Vaqif danışmadı. Hiss etdim ki, sözlü adama oxşayır. Mən maraqla: – Niyə susursunuz? – deyə soruşdum. O qətiyyətlə: – Seyid Mirbabayev Təbrizə gəlməz – dedi. Mən heyrətlə: – Niyə gəlməz? – dedim. O məhrəm-məhrəm mənə: – Onda icazə verin Seyid Mirbabayevin macəralarla dolu həyatından sizə bir neçə epizod danışım – dedi. Mən məmnun-məmnun: – Buyurun! – dedim. O aram-aram başladı: – Seyid Mirbabayev Bakıda anadan olub. Ailəsi istəyib ki, yaxşı səsi olduğuna görə o mərsiyəxan olsun. Ancaq Seyid Mirbabayev buna qəti etiraz edir. O elə uşaqlıqdan oxuyarmış. Oxuya-oxuya bir də görür ki, tanınmış bir xanəndədir. Toylara gedir. Bir rus qızıyla evlənir. Seyid Mirbabayev nişanlarda, toylarda, ziyafətlərdə oxuya-oxuya məşhurlaşır. 1910-cu ildə Bakı milyonçularından Şıxbalayev bir dəstə oxuyub-çalanla birlikdə Seyid Mirbabayevi də öz məclisində oxumağa dəvət edir. O elə gözəl oxuyur ki, ifası həm məclis sahibinin, həm də

iştirakçıların xoşuna gəlir. Başqa oxuyub-çalanlar isə heyrət içində donur. Bunu görən Şıxbalayev məmnun-məmnun Seyid Mirbabayevin yanına gəlib səxavətlə ona: – Məndən nə istəyirsən de, utanma, verəcəyəm – deyir və keçib yerində əyləşir. Seyid Mirbabayev istəyir ki, Şıxbalayevdən bir parça torpaq alsın. O torpaqda öz xanəndəlik ruhuna uyğun gül əksin, ağac basdırsın, oranı gülşənə döndərsin. Ancaq Seyid Mirbabayevi tarda müşayiət edən Şirin ona deyir ki, sən Şıxbalayevdən buruq istə. Seyid Mirbabayevin burnuna neft iyi gəlir. Sonra düşünür ki, neft neçə-neçə yoxsul adamı milyonçu edib. Ancaq Seyid Mirbabayev tərəddüd keçirir. Sonra həsrətlə Şirinə: – Yox! Şıxbalayev buruq verməz – deyir. Şirin etirazla ona: – Yox! Verər! Məgər görmürsən sənin oxumağın onu necə vəcdə gətirmişdir – deyir. Sən demə, Şıxbalayevin bir neçə buruğu neft vermədiyinə görə ümidsiz buruqlar siyahısına düşübmüş. Şirin də bunu bilirmiş. Şıxbalayev ikinci dəfə Seyid Mirbabayevin yanına gəlib şəstlə: – Hə, de görüm, məndən nə istəyirsən? – deyir. Seyid Mirbabayev də çəkinə-çəkinə ona: – Ağa, mümkünsə o ümidsiz buruqlardan birini mənə verin – deyir. Şıxbalayev canıyananlıqla: – Axı o buruqlardan bir şey çıxmır – deyir. Seyid Mirbabayev nəzakətlə: – Ağa, baxtımı sınayıram. Nə olar-olar – deyir. Şıxbalayev məmnuniyyətlə: – Neynək, sabah gəl kontora. O buruqlardan birini keçirdim sənin adına – deyir. Sabahı Seyid Mirbabayev kontora gedir. Şıxbalayev ümidsiz buruqlardan birini onun adına keçirir. Seyid Mirbabayevin bankda bir



qədər pulu varmış. O pulla bir neçə fəhlə tutur. Quyunu qazdırır. Ancaq fəhlələr quyunu nə qədər qazırlarsa bir damla da neft çıxmır. Seyid Mirbabayevin pulu qurtarır. Daha fəhlələrə əmək haqqı verməyə də pulu qalmır. Fəhlələr onun evinə gəlib əmək haqlarını istəyəndə o çarpayının altında gizlənir. Qadını fəhlələri birtəhər yola salır. Ancaq qəribə də olsa fəhlələr quyuda qazma işlərini davam etdirirlər. Bir gün bir fəhlə sevinc dolu harayla Seyid Mirbabayevin evinə gəlib ümidsiz buruqda neftin fontan vurduğunu xəbər verir. Bəli! Seyid Mirbabayevin də gözəl günləri o gündən başlayır. O "neftxuda" olur. Əcnəbilərə satdığı neft gəmi-gəmi xaricə daşındıqca evindəki yaraşıqlı mücrülər də cəvahiratla dolur. Bir axşam o ağ kostyum geyib dəniz kənarındakı kazinoya gedir. Orda milyonçu dostlarıyla kef məclisi qurur. Məclisdəki dostlarına yeni bir neft fontanı gözlədiyini deyir. Elə bu zaman Seyid Mirbabayevin fəhləsi bir vedrə təzə neftlə kazinoya girir. Buruqda neftin fontan vurduğunu təntənəylə ağasına xəbər verir. Seyid Mirbabayev sevindiyindən əlini vedrənin içindəki neftə salıb sonra təzə ağ kostyumuna çəkir. Bəli! Milyonçu Seyid Mirbabayev qiymətli ağ kostyumunu qara neft ləkələri ilə bəzəyir...

Qara neft ona həm sərvət, həm də şöhrət gətirir. O şəxsi faytonunda qıçını qıçının üstünə aşırıb Bakı küçələrindən keçəndə o boyda şəhəri diqqətlə dinləyir. Qulaqlarına hansı evdənsə vaxtıyla oxuduğu muğamların vallara yazılmış səsləri gələndə özünü təhqirolunmuş sanır. Həmin valları neçəqat artıq qiymətinə alır. Bütün evlərdən

yığışdırır. Daha oxumayır. Oxumağı özünə əskiklik sayır. Dəniz kənarında, indi "Azneft"də Neft Şirkətinin yerləşdiyi əzəmətli binanı alıb özünün yaşayış mənzilinə çevirir.

Bir gün yenə Seyid Mirbabayevi bir toy məclisinə dəvət edirlər. Bu dəfə o məclisə xanəndə tək yox, milyonçu tək gedir. Yenə xanəndələr bir-birilə yarışa-yarışa oxuyurlar. Ənamlar, xələtlər, töhfələr qalibləri gözləyir. Vaxtiylə Seyid Mirbabayevə buruq bağışlayan milyonçu Şıxbalayev yerindən qalxır. Sonra şəstlə Seyid Mirbabayevin yanına gəlir. Ağzını keçmiş xanəndənin qulağına tutub: – Ağa, bir "Çahargah" oxuyun – deyir. Seyid Mirbabayev özünü itirir. Ancaq qürurunu saxlayır. Qətiyyətlə Şıxbalayevə: – Mən daha oxumuram – deyir. Şıxbalayev nə qədər təkid edirsə, Seyid Mirbabayev oxumur ki, oxumur. Toy məclisində əyləşənlər bu təmasın nə ilə bitəcəyini intizarla gözləyirlər. Qəzəbdən içi alışan Şıxbalayev üzdə özünü təmkinli aparır. Nəhayət, keçmiş xanəndəyə eyhamla: – Qulağını bəri tut – deyir. Seyid Mirbabayev narahat-narahat qulağını Şıxbalayevin şərab qoxulu ağzına yaxınlaşdırır. Şıxbalayev kinayə dolu tövsiyəylə keçmiş xanəndəyə: – Qavalından muğayat ol – deyir. Toy məclisi dağılır. Seyid Mirbabayev xəyal ümmanında boğula-boğula evinə gedir. Evdə hiddətlə nökərə: – Mənim qavalımı gətir – deyir. Ağasının vəziyyətindən heç nə anlamayan nökər qavalı gətirir. Seyid Mirbabayev nəsə düşünə-düşünə qavalı məhrəm-məhrəm sığallayır. Nökər isə heyrətlə baxır. Sabahı isə keçmiş xanəndə qavalını usta yanına aparır ki, sağanağını qızıla tutdursun.



XI Qızıl ordu Şimali Azərbaycana gələndə Bakı dövlətliləri əllərinə keçən vəzndə yüngül, qiymətdə ağır şeyləri götürüb şəhəri tərk edirlər. Seyid Mirbabayev də yeni çiçəklənməyə başlayan həyatının yönünü əvvəlki məcraya salmaq üçün cəvahiratla dolu neçə-neçə mücrüdən yalnız ikisini götürür. Qalanlarını gələcəyə ümidlə qadınının yanında qoyur. Götürdüyü cəvahiratdan bir qədər fransızlara rüşvət verib Fransa gəmisinin yük yerində yolunu Parisə salır. Bir müddət Bakıdan apardığı cəvahiratı xərcləyə-xərcləyə keyfi istədiyi tərzdə yaşayır. Qəmi dəmlə dağıtmağa çalışır. Elə ki, buz parıltısıyla Seyid Mirbabayevin gözlərini qamaşdıran cəvahirat qürbətin yanğısında əriyir, onda keçmiş xanəndənin yadına həmişəyaşar sənət düşür. O bir gün Parisin vallar satılan mağazalarının birinin qarşısından laqeyd-laqeyd keçirmiş. Birdən öz səsini eşidir. Dayanıb dinləyir. Özü özünə heyran-heyran qulaq asır. Sonra titrəyə-titrəyə mağazaya girir. Ciblərini dönə-dönə axtarıb olan-qalan pullarını çıxarır. Sonra satıcıya yanaşıb potefonda səslənən valı istədiyini bildirir. Satıcı valı potefondan çıxarıb nimdaş geyimli müştəriyə verir. Seyid Mirbabayev satıcının təəccüb dolu baxışları altında valı bağrına basandan sonra pulunu ödəyir. İndi keçmiş xanəndə ən əziz, ən şirin balasını itirib sonra tapan ataya bənzəyir. O mağazadan bir qədər aralanandan sonra vala yaxşı-yaxşı baxsın deyə yaşla dolmuş gözlərinin qabağına tutur. Bu zaman əlləri şiddətlə titrəməyə başlayır. Valı saxlaya bilmir. Val yerə düşüb çilik-çilik olur. Qara tikələri Seyid Mirbabayevin ömrünün qürbətə səpələnmiş qara günlərini andırır. Keçmiş xanəndə yenə titrəyə-tit-

rəyə mağazaya gəlir. Satıcı tanış müştərini əliboş görüb məəttəl qalır. Ancaq bir söz demir. Seyid Mirbabayev məzlum-məzlum satıcıdan: – O valdan sizdə yenə varmı? – deyə soruşur. Satıcı təəssüflə keçmiş xanəndəyə: – Yox! O yeganə val idi – deyir. Seyid Mirbabayev peşiman-peşiman mağazadan çıxıb gedir. Sonra Parisdən də gedir. Axı şərq mühitinə alışan bir adam qərb mühitində sönür. O adi adam deyildi. Gözəl səsə malik mahir xanəndə idi. Ona görə də vəfalı qavalı ilə yol pulu qazana-qazana gəlib Tehrana çıxır. Daha sərvət qazanmaq eşqinə yox, çörək pulu tapmaq fikrinə düşür. Seyid Mirbabayev yaşlı olmasına baxmayaraq Tehranda da oxuyurdu. Ancaq nadir hallarda öz sənətinə müraciət edirdi. Kübar ailələr onu öz məclislərinə dəvət edəndə o da məmnuniyyətlə gedirdi. Daha məğrurluğu itmişdi, məşhurluğu qalırdı. Sərvətli ağalar məşhur xanəndəni bir-iki ağız oxutduqdan sonra qarşısına səxavətlə özünə layiq töhfə qoyurdular. Seyid Mirbabayev o töhfələrlə yaşayırdı. Mən Tehrandan Təbrizə gələndə onu da özümlə gətirmək istədim. Ancaq o gəlmədi. Dedi ki, Təbriz Bakıya yaxındır. Bakıda isə bolşeviklər yaşayır. Mənim gözlərim bolşeviklərdən yaman qorxub. Hələ də özümə gələ bilməmişəm...

Mən Həsən Üzzariyə baxdım. O yerində elə donmuşdu ki, sanki başdan-ayağa heyrət mücəssəməsi idi. Tarzən Vaqif bizdən icazə alıb məşqə getdi. Mən yeni hazırladığımız konsert proqramını mizimin siyirməsindən çıxarıb üstünə qoydum. Proqramı Həsən Üzzari ilə bir də nəzərdən keçirdik. O təbəssümlə mənə: – Zəngin proqramdır – dedi. Sonra ayağa qalxıb iş otağına



getdi. Mən proqramı yenidən siyirməyə qoydum. Divardan asılmış İran xəritəsində Tehrana baxdım. Dalğın gözlərimin qarşısında bir yol uzandı. O yol qürbətdən çıxıb qürbətə gedirdi. O yolda qavalını qoltuğuna vuran yaşlı bir xanəndə ağır-ağır addımlayırdı. Qarşıdakı son mənzili isə hələ görünmürdü.

## SƏNƏTKAR NÜFUZU

*Sənətkar var, minnətlə*
*Ətəklərdə qocalır,*
*Sənətkar var, qayğıyla*
*Zirvələrə ucalır...*

Azərbaycan Dövlət Filarmoniyasının ən böyük dəstəsi xalq çalğı alətləri orkestri idi. Bu dəstə şəhərdəki qırx nəfərə qədər çalğıçını bir yerə toplamışdı. Bunlar tar (həm Azərbaycan, həm də İran tarı), kamança, klarnet, tütək, qara zurna, nağara, qarmon, qaval, balaban çalanlardan ibarət idi. Orkestrin heyəti içərisində Qulamhüseynxan, Mahmud ağa, Yaqub, Asatur, İsmayıl, Rza, Bəhlul, Yədulla, Seyfi, Ələkbər, Arakel və başqa tanınmış sənətkarlar fəaliyyət göstərirdilər. Orkestrin heyətinə santurun daxil edilməsi musiqi sənətində böyük bir yenilik idi. Gənc sənətkarlardan Böyük İbadi santurda məharətlə çalırdı. Orkestr muğamlar, xalq mahnıları, oyun havaları ilə yanaşı, Azərbaycan bəstəkarlarının ən mürəkkəb əsərlərini də ("Leyli və Məcnun", "Arşın mal alan", "Şah İsmayıl", "Koroğlu") müvəffəqiyyətlə ifa edirdi.



Filarmoniyada böyük uğur qazanan dəstələrdən biri xalq aşıqları ansamblı idi. Xalq artisti Aşıq Hüseyn Cavanın rəhbərliyi ilə təşkil edilmiş bu ansambla Aşıq Ələsgər, Aşıq Qulu, Aşıq Hüseyn, Aşıq Ələddin, Aşıq Qulamrza və başqa söz ustaları daxil idilər. Bu gözəl ansambl sədəfli sazlarda çalıb xorla qoşma, təcnis, qıfılbənd, gəraylı, diltərpənməz, dodaqdəyməz oxuya-oxuya tamaşaçıların dərin məhəbbətini qazanırdı. Bu məhəbbət pərvazlana-pərvazlana salondakıların alqışlarında əks-səda verirdi...





Filarmoniyanın ən böyük xidmətlərindən biri sazçı qızlar dəstəsinin yaradılması idi. Məlumdur ki, keçmişdə Təbriz səhnəsində Azərbaycan qızları görünə bilməzdi. Biz isə yüzlərlə tamaşaçı qarşısında məharətlə saz çalıb mahnı oxuyan qızlardan ibarət gözəl bir ansambl yaratmağa nail olduq!




Qızlardan ibarət rəqs ansamblı da səhnədə müvəffəqiyyətlə çıxış edirdi. Bu cazibədar ansamblda Naidə xanım, Puran xanım, İsmət xanım, Hökümə xanım, Məryəm xanım, Səhər xanım, Siranuş xanım və başqaları ifa etdikləri zəngin rəqs proqramları ilə sənət ocağımızı daha da şöhrətləndirirdilər. Yeni yaradılmış rəqs dəstəsində yalnız qızlar deyil, oğlanlar da oynayırdılar. Bəhmən Heydərzadənin rəhbərlik etdiyi bu ansamblda Həzi, Novruz, Məmməd, Sabir öz çevik, gümrah, mənalı rəqsləri ilə tamaşaçıların sevimlisinə çevrilmişdilər. Həm bir yerdə, həm də ayrı-ayrı rəqs edən oğlanlar və qızlar “Qazağı”, “Muleyli”, “Ceyranbala”, “Qaytağı”, “Ləzginka”, “Dəsmalı” və s. oyun havalarını ustalıqla ifa edirdilər...





Filarmoniyada istedadlı, təcrübəli, nüfuzlu sənətkarlardan ibarət böyük bir müğənnilər dəstəsi var idi. Solistlərdən Ələsgər Rizvan, Sahib Ruhi (Şükürov), Səməd Dəbbağ, Səid Zaman, Hidayət Məhəmmədzadə, Kəklik xanım, Fatma xanım və başqaları öz əlvan ifaları ilə tamaşaçıların gözlərinə işıq, ürəklərinə hərarət, xəyallarına qanad verirdi...



Müdriyyət filarmoniyanın yarandığı ilk günlərdən başlayaraq artistlərin istedadını, qürurunu, nüfuzunu qətiyyətlə qorumağı qərara aldı. Sənətkarların müxtəlif ehtiyaclarının ödənilməsi məsələsini tabe olduğu idarənin qarşısında ciddiyyətlə qoydu...

Milli hökumət sənət ustalarına layiqli maaşlar təyin etdi. Filarmoniyada fəaliyyət göstərən sənətkarlar toylara, məclislərə, ziyafətlərə təkrar-təkrar dəvət olunsalar da getmirdilər. Yalnız doğma kollektivin gənc üzvlərindən kimsə özünə ailə qurmaq fikrinə düşəndə müdiriyyətə müraciət edib kömək istəyirdi. Onda bütün kollektiv bəylə gəlinin təntənəli toy məclisində iştirak edirdi. Toy məclisi də unudulmaz bir konsertə çevrilirdi. Belə toylardan biri gənc, istedadlı solist Sahib Ruhiyə (Şükürova) nəsib oldu. Təbrizin aylı gecələrindən birində xeyir-dua dolu sağlıqların müşayiətilə başlanan toy meydan otaqların dilsiz divarları arasına sığmayıb gül ətirli geniş həyətə qədər uzandı. Nəhəng çilçırağa bənzəyən kəhkəşandan asılmış parlaq ulduzların büllur şəlaləsi altındakı təntənəli musiqi məclisində ürəklərə yatan nəğmələr, sümüklərə düşən havalar, əlləri isidən alqışlar Günəş üfüqdən qalxana qədər davam etdi. Sanki Günəş də hədiyyə yerinə öz əlvan şəfəqlərini iki gəncin gələcək həyat yoluna səpdi. Bu toy işgüzar kollektivin mehriban üzvlərinin səmimiyyət dolu ürəklərində şirin, əziz, unudulmaz xatirəyə çevrildi...

İncəsənət tarixində bəzən tamaşalar arasında, bəzən tamaşalardan sonra səhnə arxasında ikinci bir "tamaşa" olduğunu yazanlar da var. Axı dünya səhnələrinin arxasında belə "tamaşalar" az olmayıb. Lakin

biz kollektivdə dəmir intizam yaratmışdıq. Qocaların cavanlara qayğısı, cavanların qocalara hörməti qanun idi! Bəli! Biz sənətkar nüfuzu haqqındakı təbliğatı elə filarmoniyanın öz içərisində başlamışdıq.





Buna görə də sənət ustalarımız filarmoniyadan xaricdə də özlərini ləyaqətlə aparırdılar. Bəzən incəsənət xadimləri "ilhama gəlmək" üçün ya spirtli içkilər içir,



ya da narkotik maddələr qəbul edirlər. Bizim kollektivdə bir dəfə də olsun belə bir hadisə baş vermədi. Mən yaşca gənc, təbiətcə çılğın olmağıma baxmayaraq özümə qoca təmkini, davranışı, qayğısı təlqin edirdim.

Filarmoniyada işləyən sənət xadimlərinin demək olar ki, hamısı firqə üzvü idilər. Məmləkətdə hələ də həm açıq, həm gizli sinfi mübarizə getdiyi üçün firqəçilərə odlu silah verilmişdi. Bu vətəndaş paltarlı döyüşçülər hər ehtimala qarşı öz silahlarını yanlarında gəzdirirdilər. Hətta yolda da, məşqdə də, konsertdə də! Geniş proqramlı əlvan konsert həmişə gecəyarı qurtarırdı. Sonra hər qızı bir silahlı kişi öz evlərinə qədər müşayiət edirdi. Bəli! Qıza təhkim olunmuş şəxs onu Təbrizin zülmət pusqulu küçələrindən sağ-salamat keçirib öz ailəsinə təhvil verirdi. Axı qız sabah güllərlə dolu həyətlərində yenə əl-üzünü Səhənddən axıb şəhərə tökülən günəş şəfəqlərində yuyub axşam filarmoniyanın ulduzları sayrışan əlvan səhnəsinə çıxmalı idi!..

## MİNNƏTDAR QƏLƏMLƏR

*Qələm var, sənətilə*
*Ecazkardır özü də!*
*Qələm var, sənətkara*
*Minnətdardır özü də.*

Azərbaycan Dövlət Filarmoniyasının işgüzar kollektivi təkcə mənsub olduğu sənət ocağının binasında deyil, radio verilişlərində, teatr tamaşalarında, bayram şənliklərində, yubiley təntənələrində, fəhlə müəssisələ-

rində, əsgər düşərgələrində, bir sözlə bütün ictimai-siyasi, mədəni tədbirlərdə fəal iştirak edirdi.

Azərbaycan Demokrat Firqəsinin orqanı olan "Azərbaycan" qəzetinin əməkdaşı Rza Azəri Azərbaycan Demokrat Firqəsinin Səttarxan bayraqlı Təbriz şəhər komitəsinin nəşriyyəsi "Demokrat" məcəlləsinin 1325-ci il (1946) Aban ayında çıxan III nömrəsində "Filarmoniya, ya Milli orkestr" məqaləsilə çıxış etdi. Əlinə səmimi niyyətlə qələm alan müəllif yazırdı: "Milli orkestrin birinci və ikinci pərdələrinin konsert, rəqs, musiqi, avaz və solo hissələri çox zəngindir. Bu hissələri ifa edən aktrisa, aktyor, çalğıçı və s. yüz nəfərdən artıqdır. O, nümayişləri və rolları ifa edənləri bir-bir yazıb şərh vermək üçün bir kitabça lazımdır. Fəqət nümunədən ötrü bir neçəsini zikr etmək kifayət edər. Çünki möhtərəm tamaşaçıların o xüsusdan daha yaxşı məlumatları vardır. Birinci pərdədə "Qərəmani", musiqisi Hacı Xanməmmədovundur. Bu musiqini təqribən qırx nəfər mahir milli çalğıçımız ifa edir. Çalğı alətlərinin növləri tar, kamança, viola, qara ney, santur, fleyta, qaval və sairədən ibarətdir. Konsertin başlıca növləri bunlardır:

Cəngi – musiqidir. Bəstəkarı Üzeyir Hacıbəyovdur.

Qazağı – rəqs. İfa edilir ağayi Bəhmən Heydərzadənin rəhbərliyi ilə.

Qarabağ şikəstəsi – xalq musiqisi. Orkestrin müşayiətilə ifa edilir.

Solistləri: – Səmədağa Dəbbağ, ağayi Hidayət Məmmədzadə.



"Bayatı-türk" – Ağayi Böyük İbadi santur ilə bədii bir surətdə ifa edir.

Solo – qaval. Azərbaycanın qocaman qaval çalanı ağayi Mahmud Fərnam yalnızlıqla böyük bir məharətlə çalır.

"Get Ay batandan sonra gəl, ay oğlan" – bu hissədə məşhur tarzən ağayi Yaqub Nəvapərəsin tar çalmasından tamaşaçılar çox məhzun olmaqda idilər.

Muleyli – rəqs. Musiqisi kompozitor Hacı Xanməmmədovun, sözləri şair Əli Tudənindir.

Sonra xalq artisti Aşıq Hüseyn Cavanın rəhbərliyi ilə el aşıqları dəstəsinin oxuduqları Azərbaycan el mahnıları.

Təbriz qızı – musiqisi Hacı Xanməmmədovun, sözləri ağayi Mirmehdi Etimadındır. "Sevgilim", "Ala gözlər", "Qaragilə", "Gülgəz" xalq mahnıları və rəqsləri sazçalan qızlar dəstəsi və sair aktrisa və aktyorlar tərəfindən ifa edilir. Onların başlıca solistləri Fatma xanım Zərgərli, Hökümə xanım Dəmavəndi, Naidə xanım, Puran xanım, on iki yaşlı İsa Əlizadə. "Şeyx Şamil"i məharətlə oynayan Yunis Nisan və sairədən ibarətdir. Həqiqətən bu az müddətdə böyük nailiyyətlərə müvəffəq olan bütün istedadlı aktrisa və aktyorlarımız təbrik və təqdir olunmalıdır. Bunların müvəffəqiyyətləri ağayi Hacı Xanməmmədov, milli orkestrin müdiri gənc milli şairimiz ağayi Əli Tudə və bədii müəllim Həsən Üzzarinin fəaliyyət və zəhmətlərinin bəhrəsidir".

Başdan-başa dörd səhifəsində Azərbaycan Dövlət Filarmoniyasından iftixarla danışan "Demokrat" məcəllə-

si verdiyi böyük materialı musiqi xadimlərinin coşğun fəaliyyətini səhnədə əks etdirən fotoşəkillərlə bəzəmişdi...

Demək olar ki, Azərbaycanın bütün guşələrindən Təbrizə, filarmoniyaya minnətdarlıqla dolu məktublar, teleqramlar, sifarişlər gəlirdi. Həm də tək-tək deyil, axın-axın gəlirdi. Təbrizdə yaşayan qələm sahibləri filarmoniyanın qaynar həyatını mətbuat səhifələrində məmnuniyyətlə işıqlandırırdılar. "Azərbaycan" qəzetində filarmoniyanın hər konserti haqqında məlumat dərc olunurdu. Qəzet öz səhifələrində filarmoniyanın konsertləri barədə kiçik məlumatlar verməklə kifayətlənməyib tanınmış jurnalistlərin bu mövzuya həsr edilmiş iri məqalələrini də çap edirdi.

Savalanlı imzasıyla yazan bir müəllifin "Milli orkestrimizin əxlaqi və ictimai əhəmiyyəti" adlı məqaləsində deyilirdi: - "Milli nehzətimizin ən dadlı və müfid nömrələrindən birisi də xalqımızın ruhunu yüksəldəcək olan "Milli orkestr"in təsisidir. Miyanəsiz demək olar ki, hər məmləkətdə xalqın ruhunu və mənəviyyatını tərbiyət etmək üçün filarmoni, universitə ilə çiyin-çiyinə gedə bilər və həm də milli orkestr incəsənət şöbələrinin ən incəsi hesab olunur. Bir çox orta və yaxın şərq ölkələrində və hətta Tehranda belə bu günə qədər filarmoni təsisinə müvəffəq olmadıqları halda, firqəmizin rəhbərliyi ilə istedadlı millətimiz sair müəssisələri yoxdan vücuda gətirdiyitək, bu ali milli orkestr müəssisəsini də yaratmağa müvəffəq oldu. Bu il şəhrivərin on birində, yəni bir ay bundan əvvəl milli orkestrimiz üç ay hazırlıq aparandan sonra rəsmən təntənəli surətdə iftitah olundu. O vaxtdan indiyə qədər həm şəhərimizin



sakinlərinə, həm də şəhərimizə gələn qonaqlara 10-dan artıq ali və bədii konsert verilib. Milli orkestr xaricdən gələnlər nəzərində xalqımız və şəhərimizin baisi-iftixarı ola bilər. Bu müəssisə bizim milli şüurumuzun milli aynası və mədəniyyət lövhəmizdir. Onu mənimsəməli və ona rəğbət göstərməliyik. O, bizim zövqümüzü oxşar və yorğun fikirlərimizə nəvaziş verər. Yeri gəlmişkən söyləmək lazımdır ki, gecə-gündüz gənc vücud və canlarını xalqımızın yolunda yorub fərsudə edən gənc aktrisa və aktyorlarımıza hörmət və məhəbbət nəzəri ilə baxmalı və mədəni millətlərtək heyəti-camiə arasında artistlərimizə onların bədii sənətləri xatirəsinə xüsusi hörmət qail olmalıyıq.

Bu müəssisə öz-özünə vücuda gəlməmişdir. Bunun təsisi üçün nə qədər zəhmətlər çəkiləndən sonra fəqət onun 10-aylıq büdcəsi üçün Maarif idarəmiz 250 min tümən pul müəyyən etmişdir. Milli orkestrdə iki yüz nəfərə qədər aktrisa, aktyor, muziçi və işçi vardır. Milli orkestri idarə edən hörmətli sənətkar Hacı Xanməmmədovdur. Onun ümumi müdiri cavan, istedadlı şairimiz ağayi Əli Tudədir. Bədii rəhbəri isə ağayi Həsən Üzzaridir.

Milli Orkestrin verdiyi konsertlər çox vaxtlar iki pərdədən və hər pərdə də on-on bir hissədən ibarətdir. Proqram çox tez-tez dəyişilməkdədir. Həqiqətdə onun proqramı çox mətnun və zəngindir. Onu bir dəfə gedib görən hər gün gedib tamaşa etməyi arzu edər. Milli orkestrin başlıca istedadlı aktrisa və aktyorları hamısı öz rollarını ifa etməkdə böyük məharət göstərməkdədirlər. Bu az müddətdə çox böyük müvəffəqiyyətlərə nail

olmuş və xalqımız tərəfindən gözəl surətdə istiqbal edilmişlərdir. Gələcəkdə daha da artıq müvəffəq olmalarını arzu və ümid edirik. Bu xüsusda yenə də yazılacaqdır...

**"Azərbaycan" nömrə 24313**
**II dövrə 1325 il (1946) 10 mehr 4 şənbə.**

Qəzetin "Milli orkestr"də "təntənəli bir konsert" başlıqlı yazısında oxuyuruq: "Düşənbə günü mehr ayının 15-də Azərbaycan milli orkestri tərəfindən xalq qoşunlarının əfsər və əsgərlərinə təntənəli bir konsert verildi. Bu konsertdə Milli orkestrin bütün aktyor, aktrisa və müzikçiləri iştirak etdilər. Xalq qoşununun əsgərləri, yəni xalqımızın ən cəsur balaları bu nümayişlərə çox sevincli əlaqə ilə tamaşa etdilər. Həqiqətən sevimli və istedadlı aktyor və aktrisalarımız da Hacı Xanməmmədovun ustadanə rəhbərliyi altında milli bir ruh yüksəkliyi və böyük bir eşq və məharətlə öz rollarını ifa etdilər. Çünki onların tamaşaçısı yeni Milli orkestrə gələn qəhrəman xalq əsgərləri idi. Milli orkestrimiz iftitah olunan gündən bəri yorulmadan gecə-gündüz çalışmaqda və hər gündən bir proqramını əvəz etməklə xalqımızı daha da artıq məmnun etməkdədir".

**"Azərbaycan" nömrə 31320**
**II dövrə 1325 il (1946) 18 mehr 5 şənbə.**

Yenə də "Azərbaycan" qəzeti "Cümə günü Milli orkestrdə" adlı məqaləsində yazırdı: "Cümə günü Abanın 10-da Azərbaycan Milli orkestrinin növbəti konserti verildi. Həm Azərbaycanın sair şəhərlərində, həm də Təbrizdə hamının arzusuna görə orkestrin bütün musiqili xor, avaz və sair hissələri Təbriz radiosu vasitəsilə yenə də nəşr olurdu. Konsert salonu başdan-başa adamla dolu idi. Milli orkestrimiz gündən-günə daha da artıq xalqımız tərəfindən istiqbal edilməkdədir. İstər rəqslərdə, istər xorlarda, istərsə də mahnılarda cavan, istedadlı kompozitor Hacı Xanməmmədovun ifa edilən bədii əsərləri xalqımız tərəfindən böyük rəğbətlə qarşılandı. Milli orkestrin kollektivi tərəfindən nümayişlərin sonunda böyük bir gül dəstəsilə, bir neçə dənə də qabilhədiyyə ilə tamaşaçıların coşğun ehsasatı və gurultulu alqışları arasında Milli orkestrin ciddiyyətli gənc müdiri ağayi Əli Tudənin vasitəsilə ağayi Hacı Xanməmmədova təqdim edildi. Bu aşağıda yazılan xitabə də orkestr kollektivi tərəfindən ağayi Əli Tudə təvəssütüylə radio ilə deyildi: "Möhtərəm xanımlar və ağalar! Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi sayəsində əncümənimizin, maarifimizin təşəbbüsüylə Təbrizdə təzə təşkil olunmuş Milli orkestr az müddət ərzində böyük hörmət qazanmışdır. Onun kollektivinin təşəbbüsü, məqsədi, arzusu yalnız öz xalqına, Azərbaycan xalqına sadiq ürəklə xidmət etmək olmuşdur! Buna görə də xalq onu sevir, xoşlayır, dəfələrlə alqışlayır! Çünki xalq bu səhnədə öz milli mədəniyyətinin ənənələrinin parlaq nümunələrini görür, öz doğma dilini eşidir, zəngin mənəvi sərvətilə iftixar edir. İndi biz cəsarətlə deyə bilərik ki, Milli orkestrimiz təkcə İranda

deyil, bəlkə bütün orta şərq ölkələrində yeganə sənət ocağına çevrilmişdir...

**“Azərbaycan” nömrə 51340**
**II dövrə 1325 il (1946) 12 aban 1 şənbə.**

“Azərbaycan” məcəlləsi də özünün 1946-cı il 10-cu (oktyabr) nömrəsinin 4 səhifəsini bütünlüklə Təbriz filarmoniyasına həsr etdi. Bu səhifələrdə mənim “Təbriz filarmoniyası” adlı məqaləm, filarmoniyanın binasının fotoşəkli, bəstəkar Hacı Xanməmmədovun dirijorluq etdiyi orkestrin müşayiətilə müğənninin ifa zamanı çəkilmiş şəkli dərc olunmuşdu. Başqa şəkillərdə mənim portretimin, aşıqlar ansamblının, oğlanların, qızların ayrı-ayrı rəqs dəstələrinin, solistlərin, üçlüyün təsviri vardı...

Biz Təbriz filarmoniyasında hörmətli qonaqları tez-tez qarşılayırdıq. Bu qonaqlar arasında istər İrandan, istərsə də dünyanın böyük ölkələrindən, şəhərlərindən gələnlər də olurdu. Növbəti qonağımız məşhur nəğməkar Süreyya xanım Qacar idi. O, həyat yoldaşı ilə Tehrandan gəlmişdi. SSRİ-yə gedəcəkdilər. Yolüstü Təbrizdə əyləmişdilər. Biz sənətkar qonaqlarımızın çıxışlarını da konsertimizin proqramına daxil etdik. Mahir tarzən Sergey Sergeyevin müşayiətilə Süreyya xanım Azərbaycan xalq mahnılarını özünəməxsus ustalıqla ifa etdi. Salondakılar isə hər iki sənətkarı hərarətli alqışlarla müşayiət etdilər. Bizim gənc sənət ocağımız təcrübəli sənət xadimlərinə böyük təsir bağışladı. Süreyya xanım bacı məhəbbətilə nəğməkar qızlarımızı bağrına basıb öpdü. Sevindi, kövrəldi, gözləri yaşardı...



Zarafat deyildi! İranda ilk dəfə Təbrizdə filarmoniya yaradılmışdı! Müğənniliyi İranda nadir hadisə sayılan Azərbaycan qızları daha tək-tək deyil, dəstə-dəstə oxuyurdular. Azad, sərbəst, gözəl oxuyurdular. Süreyya xanım filarmoniyanın gələcək planları haqqında həm mənə, həm də Hacı Xanməmmədova maraqlı suallar verdi. Hər ikimizin inamla dolu cavablarımızdan razı qaldığını bildirdi.

Üç gün sonra filarmoniyanın geniş salonunda qonaqlar daha çox idi. İlk sıralardakı yerlərdən bir neçəsini İranın baş nazirinin müavini Müzəffər Firuzun başçılığı ilə Tehrandan gələn İran hökumət nümayəndə heyəti tutmuşdu. Konsert alqışlarla başladı, alqışlarla da qurtardı. Mən Tehrandan gələn nümayəndə heyətini çay içmək üçün iş otağıma dəvət etdim. Söz yox ki, hər şeydən əvvəl konsertin qonaqlara necə təsir bağışlaması ilə maraqlandım. Tehranlılara bir neçə sualla müraciət etdim. Müzəffər Firuz dedi ki, həm mən, həm də səfər yoldaşlarım sizin zəngin proqramlı konsertinizdən olduqca məmnun qaldıq. Biz Tehranda bilirdik ki, Təbrizdə belə bir incəsənət ocağı açılacaqdır. Açığını deyim ki, Tehranda sizin verilişləri müntəzəm dinləyənlər çoxdur. Ancaq dinləmək hara, görmək hara? Sonra baş nazirin müavini zarafatla əlavə etdi ki, görünür biz xoşbəxt adamlarıq. Sizin ecazkar sənətinizin məharətinə həm şahid olduq, həm də vurulduq. Atalar haçansa deyiblər ki, eşit, amma inanma! Ancaq biz eşitdiyimizə inandıq! Axı atalar həm də deyiblər ki, yüz dəfə eşitməkdən bir dəfə görmək yaxşıdır. Biz də qulaqlarımızla yüz dəfə eşitdiyimizə gözlərimizlə bir

dəfə görüb inandıq. Özü də qəti inandıq! Mən rəqibin təriflərlə dolu etirafını öz dilindən eşidəndə dodaqaltı pıçıldadım:

**Rəqibin etirafı**
**Təslimə bərabərdir.**
**Rəqibə baş əydirən**
**Bir sənət müzəffərdir.**

O gecə Tehranlı qonaqlar filarmoniyadan dərin təəssüratla getdilər...

Təbriz filarmoniyası hələ kövrək, lakin sərrast addımlar atan fərasətli uşağa bənzəyirdi. Ancaq bu uşağın sütül əllərindən möhkəm yapışan qadir əllər lazım idi. Axı bu uşaq gələcəkdə sənətin enişli-yoxuşlu yollarını keçməli idi, uğurlar qazanmalı idi, zirvələr fəth etməli idi! Buna görə də bu istedadlı uşağa daim həm maddi, həm də mənəvi yardım gərək idi. Kollektivimizin arzusu filarmoniyamızı dünyanın ən zəngin, ən tanınmış musiqi ocaqlarından birinə çevirmək idi. Mən filarmoniyanın işlərilə əlaqədar Milli hökumət rəhbərlərilə görüşəndə bütün tənqidlərə, danlaqlara, tapşırıqlara baxmayaraq bu arzumuzu var qüvvəmlə müdafiə edirdim. Bakı filarmoniyasını nümunə göstərirdim. Müsahiblərim isə hələ iqtisadiyyatımızın yenicə dirçəlməyə başladığını deyib, səbr etməyimi məsləhət görürdülər. Mən dinlədiyim sözlərdəki bugünkü həqiqəti görür, sabaha isə inamla baxırdım! İnanırdım ki, doğma diyarda acı həqiqətlər şirin həqiqətlərlə əvəz olanda bizim də ülvi arzumuz zirvələşəcəkdir!..

Atalar deyiblər: Sən saydığını say, gör fələk nə sayır... Ancaq atalar bu sözləri mövhumatın hökm sürdüyü bir güzəranda deyiblər. Yazıq atalar bilməyiblər ki, dünyada nə fələyin özü var, nə də saydığı... Xeyiri də, şəri də fələyin adıyla törədən insanlar özləridir! Bəli! İnsanlar iki cəbhəyə ayrılmışlar. Xeyirxah insanlar! Şərəşür insanlar! İmperialistlər, şahlar, vəzirlər ikinci qəbil insanlardandırlar. Bu yırtıcılar milyonlarla insanın arzularını nisgilli gözlərində qoymuşlar. Bu yırtıcılar sonralar bizim də pərvazlanmaq istəyən arzumuzun kövrək qanadlarını qanlı sərnizələrlə qırıb tökdü...



## MƏZƏLİ ADAM

*Təbrizlilər kədəri*
*Sevinclə darayandır.*
*Göz yaşı içində də*
*Təbəssüm arayandır!*

S.C.Pişəvərinin ictimai-siyasi işi çox olduğuna görə mən ara-sıra Təbriz filarmoniyasına dair məsələlər barədə Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin sədr müavini Sadıq Badikanla görüşürdüm. S.Badikandakı qayğıya, təmkinə, nəzakətə heyrət edirdim. O ürəkdə təlatümə gəlmiş qəzəbi belə öz nəvazişiylə, təsəllisiylə, məsləhətiylə yatıra bilirdi. Mən sədr müavininə hamının dediyi tək hörmətlə ağayi Badikan deyərdim. Ancaq bu atam yaşında kişi mənə məhəbbətlə Əli dadaş deyərdi. Bu ikicə sözdə məhrəmlik də, mehribanlıq da, munislik də duyulurdu. Ona görə də sədr müaviniylə aramız açıq idi. Onun yanında sıxılmazdım. Fikirlərim də, sözlərim də, hərəkətlərim də

sərbəst olardı. Mən Təbriz filarmoniyasının az zaman içərisində daha da inkişaf etməsi üçün bəzən vaxtı çatmamış tədbirlər həyata keçirmək istərkən o təmkinlə mənə: – Hələ tələsmə, ayağını yorğanına görə uzat. Vaxt gələr istədiyin məqsədə çatarsan – deyə toxdaqlıq verərdi... Mən isə tələsməkdə davam edərdim.

Bir gün firqə aktivi iclasında bir nəfər məni tənqid etdi. İclasdan çıxıb birbaş S.Badikanın yanına getdim. Sədr müavini həmişəki tək məni təbəssümlə qarşıladı. Mən şikayətimi ona hirsli-hirsli dedim. Sədr müavini mənə mülayimliklə: – Əsəbiləşmə! – dedi. Mən: – Axı neyləyim? Yanıram! – dedim. Bu zaman o, masa arxasından qalxdı. Otağın küncündə dolabça üstə qoyulmuş su dolu sürahini stəkanqarışıq götürüb gətirdi. Düz qarşıma qoyub: – Yanırsan, su var, buyur, yanğın sönənə qədər iç! – dedi. Mən təzədən şikayətləndim: – Bəs mən nə edim? – dedim. – Heç nə, başqa tənqid olunanlar necə, sən də elə! Bəlkə sən yüz il yaşamalı oldun, indidən belə başlasan, bəs sonra nə edəcəksən? – deyə sədr müavini gülümsündü. – Deməli məclisə girdin, gördün hamı gözüqıpıq, sən də gözüqıpıq, hə? – deyə mən suala sualla cavab verdim. – Gözüqıpıq dedin, yadıma bir əhvalat düşdü – deyə S.Badikan ucadan güldü. Mən isə daha da əsəbiləşdim. Sədr müavini iri, yumşaq, isti əlini masanın arxasından uzadıb əlimin üstə qoydu, buludlanmış gözlərimə baxıb: – Mənə qulaq as, – dedi – sənə bir təfrih danışacağam. Axı təbrizlilər təfrihsiz keçinə bilmir. – Mən nəzakət xatirinə sədr müavininin təfrih danışmasına etiraz etmədim. Ancaq özlüyümdə “heç təfrihin yeridir?” – deyə düşündüm.



S.Badikan isə özlüyündə mənim eşidəcəyim təfrihlə doğrudan da maraqlandığımı zənn edib dedi: – Bəli! Təbrizdə varlının da, yoxsulun da ən ümdə neməti təfrihdir. Qəribədir ki, təbrizlilər qərib adamları da tez tanıyırlar. Naşı, avam, maymaq adamları isə ələ salmaqdan həzz alırlar. Naşıya, avama, maymağa rast gəlməyəndə isə bir-birlərini dolamaqdan belə çəkinmirlər. Hətta möminləri də məsxərəyə qoyurlar. Bir gün Təbrizin məşhur rejissorlarından biri məhərrəmlikdə öz evində təziyə məclisi qurur. Bu yandan şəhərin çəpgöz mollalarından birini məclisdə moizə oxumağa dəvət edir. O yandan da şəhərin nə qədər çəpgöz möminləri varsa, məclisdə moizə dinləməyə çağırır. Molla hamıdan əvvəl gəlib öz yerini tutur. Qabağına xörək, çay, qəlyan gəlir. Sonra otağa bir-bir möminlər daxil olur. Molla içəri girənlərin hamısının ona çəp-çəp baxdığını görüb hirslənsə də birtəhər dözüb üstünü vurmur. Gələnlər keçib divarların dibində salınmış fərşlərin üstündə bardaş qurub əyləşirlər. Otaq moizə dinləməyə gələnlərlə tamam dolduqdan sonra molla minbərə qalxır. Rejissor isə qapı dalında dayanıb qurduğu tamaşanın aqibətini gözləyir. Molla üzünü möminlərə tutub: – Bir salavat xətm eləyin! – demək istəyəndə səsi boğazında, sözü ağzında, əli havada donur... Hörmətli din xadimi nə görsə yaxşıdır? Otaqda iki cərgə əyləşmiş möminlərin hamısı ona çəp-çəp baxır... Mollanı dəhşət götürür. Elə zənn edir ki, möminlər möhtərəm din xadimini ələ salırlar. Molla təkəbbür dolu hiddətlə uzun əbasının ətəklərini yığışdırıb minbərdə dikəlir. Sonra: – Ev sahibi hanı? – deyə qışqırır. Rejissor sakit-

cə otağa daxil olur. Gözlərinin gülüşünü kirpiklərilə gizlədir: – Axund ağa nə buyurur? – deyə mollaya itaətlə müraciət edir. Molla rejissorun yalandan səcdəyə qapılan gözlərinə çəp-çəp baxıb: – Gədə, adam da öz evində öz qonağını məsxərəyə qoyar? İllah da ki, həmin qonaq Allah-taalanın öz sadiq xadimi ola. Bilirsən Allah-taala belə nadürüstə necə qəzəb eləyər? – deyir. Rejissor öz işindən arxayın halda mollaya: – Axund ağa, siz nahaq yerə əsəbiləşirsiniz – deyir. Məgər görmürsüz ki, bu zavallılar da sizintək elə anadangəlmə gözlərindən şikəstdirlər. Zamanın hansı zaman olduğunu, həyatın necə dəyişdiyini görə bilmirlər... – Molla rejissorun məqsədini yalnız indi anlayır. Daha bir söz demir. Yumşaq ləleyinlərini tələsik ayaqlarına keçirib otaqdan çıxır... Moizə dinləməyə gələn möminlər isə təəccüblə bir-birinin üzünə çəp-çəp baxırlar. Öz yeni quruluşundan məmnun qalan rejissor isə ucadan qəhqəhə çəkib gülür. Doğrudan da, gülməli əhvalat idi. Sanki indi mən də o məzəli rejissora qoşulub uğunurdum. Özü də elə uğunurdum ki, bütün bədənim əsirdi. Bəli! Bayaq acıqdan əsən bədənim indi gülüşdən titrəyirdi. Ancaq S.Badikan birdən-birə yaman ciddiləşdi. Heç elə bil o təfrihi danışan adam bu deyildi. Sədr müavini əlini əlimdən çəkib: – Mən bu təfrihi sənin könlünü açmaq üçün danışdım – dedi. Lakin tənqidə də çəp gözlə yox, düz gözlə baxmaq lazımdır. Sən tənqidin düz olub-olmamasını öz işinin meyarıyla bilməlisən!



# SÖZ GÜNƏŞİ

*Söz var, ayaq altına*
*Atılar boz küləş tək,*
*Söz var, sənət fövqünə*
*Ucalar al Günəş tək.*

Babalarımız hər şeyin təzəsi, dostun köhnəsi demişlər. Lakin qədim poeziyamız unudulmaz əcdadlarımızın köhnə dostu olsa da, müqəddəs ulularımız hər yaranan şeirdən təzə fikir, duyğu, məna ummuşlar. Bizim yeni ruhlu demokratik poeziyamız müasirlərimizin qapısını köhnə dost məhəbbətilə açır, təzə sovqatlar gətirirdi. Bu təzə sovqatlar təzələnmiş insanların təzə düşüncələri, arzuları, əməlləri ilə naxışlanmış təzə misralar idi! Bu misralar dillərdə nə qədər ucalsa da kökləri vərəqləri əprimiş kitablarda deyil, qönçələri yarpaqlanmağa başlayan həyatın özündə idi! Gözəlliyi isə zəhmətkeş insanlar arasında hərarətlə sevilməsində idi!

Milli hökumətin Baş prokuroru Firudin İbrahimi istedadlı jurnalist idi. İctimai-siyasi, ədəbi məqalələrlə mətbuatda tez-tez çıxış edirdi. O, Tehran universitetinin hüquq fakultəsini bitirmişdi. Fransız dilində təmiz danışırdı. Parisdə keçirilən sülh konfransından təzəcə qayıtmışdı. Orda fransız dilində çıxış edib dinləyicilərini heyran qoymuşdu. Firudin İbrahimi "Şairlər və yazıçılar cəmiyyəti"nin iclaslarında fəal iştirak edirdi. Bir dəfə mübahisələr ucbatından iclas gecə yarısı qurtardı. Mən Balaş Azəroğlu ilə iclasdan çıxıb evə gedirdim. Biz bir həyətdə olurduq. Yorulsaq da evdə dincəlməyə tələsmirdik. Geniş xiyabanda Təbrizin ətir dolu təmiz

havasını uda-uda aram-aram addımlayırdıq. Axı tüstü-dumanla dolu böyük iclas otağından çıxmışdıq. Birdən kimsə arxadan bizi çağırdı. Dönüb baxdıq. Firudin İbrahimi idi. O da iclasdan çıxmışdı. Dayandıq. Gəlib bizə çatdı. Sonra aramıza girib sol əlilə mənim, sağ əlilə Balaşın qoluna girdi. Xiyaban boyu yanaşı addımlamağa başladıq. Firudin İbrahimi iftixarla bizə: – Sizin bu gün çıxan "Azərbaycan" ruznaməsindəki şeirlərinizi məmnuniyyətlə oxudum. Çox xoşuma gəldi. Mən sizin həm pərəstişkarınızam, həm də təbliğatçınız. Təbrizdə də, Tehranda da, Parisdə də şeirdən söz düşəndə sizdən ağızdolusu danışmışam. Sizin gələcəyiniz parlaqdır – dedi. Sonra başını yuxarıya qaldırıb göydə par-par parlayan on dörd gecəlik bədrlənmiş Aya baxdı. İnamla bizə: – O par-par parlayan Aydan da parlaqdır – dedi. O qürurla dolu dəqiqələrdə nə mənim, nə də Balaş Azəroğlunun xəyalına gəlməzdi ki, İran qoşunu Təbriz üstə yeriyəndə nəyinsə ucbatından mən şəhəri tərk etməli olacağam. Balaş Azəroğlu gizlənəcək. Firudin İbrahimi ələ keçəcək. Azərbaycan xalqının qatilinə çevrilən Məhəmmədrza şah Firudin İbrahimini Təbrizdə dar ağacından asdıracaq. Mən də içimdən yana-yana şəhid dostuma yanğıyla dolu misralar həsr edəcəyəm...

Təbrizin qaynar, şən, füsunkar günlərindən birində şəhər firqə komitəsinin sədr müavini Mirrəhim Vilayi mənə zəng vurub dedi ki, "Günəş" adlı ictimai-siyasi-bədii bir məcəllə çıxartmağı qərara almışıq. İstəyirik ki, ilk nömrəsində vətənpərvərlik mövzusunda yazılmış mübariz ruhlu şeirlər getsin. Müəlliflərin şəkillərini də



şeirləri ilə birlikdə verək ki, xalq öz şairlərini əyani surətdə tanısın. Sən də öz töhfəni gətir. Gözləyirəm. Mən azadlıq, humanizm, beynəlmiləlçilik duyğuları ilə aşılanmış təzə bir şeirimi əksimlə bərabər hələ dünyaya gəlməmiş məcəllənin redaksiya heyətinə təqdim etdim. "Günəş" çıxdı. Sanki öz şəfəqli təvəllüdü ilə Təbrizin qızılgüllər boylanan əngin üfüqlərini bir qədər də genişləndirdi. Məcəllənin sabaha açılan təzətər nəfəsli səhifələrindəki bədii parçalar oxucuların dərin rəğbətini qazandı, vətən torpağının günəş rəngli gül dəmətinə dönüb əllərdə dolaşdı...

Biz "Şairlər və yazıçılar cəmiyyəti" tərəfindən yazıçı Maksim Qorkiyə həsr edilmiş xüsusi bir ədəbiyyat səhifəsi buraxdıq. Səhifədə mənim də söz ustasına ithaf etdiyim şeirim çap olundu. Səhifə çıxan gün cəmiyyətin sədri Kamil Tütünfüruş onu cəmiyyətə gələn şairlərin və yazıçıların gözləri qarşısında göyə qaldırıb qürurla yelləndirdi. Sanki bu mübariz sözlərlə dolu səhifə qələm ordumuzun döyüş bayrağı idi! Kamil iftixarla deyirdi: – Bu insan bizim üçün Maksim Qorkidir, düşmənlərimizə isə Maksim "Qorxu"dur. O zaman nədənsə yaşlı nəsillə yanaşı əruz vəznində yazan gənc şairlər də susurdu. Açıq demək lazımdır ki, demokratik poeziyamızın bütün ağırlığı mənim və Balaş Azəroğlunun çiyinlərinə düşmüşdü. Bir yandan məsuliyyətli ictimai vəzifə daşımaq, bir yandan da poeziyanın gündəlik tələblərinə cavab vermək şərəfli olduğu qədər də çətin idi. Şairdən vaxt, istedad, enerji tələb edirdi. Biz isə vətən qarşısındakı bu müqəddəs borclarımızı yalnız

səhhətimizin hesabına ödəyirdik. Vaxtı keçmiş yeməklərin, unudulmuş gəzintilərin, yuxusuz gecələrin sayı-hesabı yox idi. Ancaq sən demə, bizim bu fədakarlığımız qələm dostlarımızın nəzərindən qaçmayıbmış. Axı bütün söz ustaları dövrü mətbuatı izləyib bizim yazılarımızı tez-tez oxuyurdular. "Şairlər və yazıçılar cəmiyyəti"nin növbəti iclaslarından birində demokratik poeziyamızın ağsaqqalı qocaman şair Əli Fitrət bizim sənət cəbhəsindəki gecəli-gündüzlü fəaliyyətimizi səmimi duyğularla etiraf etdi. O, məhəbbətlə dolu ağıllı gözlərini iclasda əyləşənlərin düşüncəli üzlərində dolandıraraq etirafla: – Biz iki gənc, istedadlı qələm yoldaşımıza öz minnətdarlığımızı bildirməliyik. Dediyim gənclər Balaş Azəroğlu ilə Əli Tudədir! Bu şairlər bizim görəcəyimiz, lakin nədənsə görmədiyimiz işləri də görüblər. Yəni bizim əvəzimizdə də qələm çalıblar – dedi.

Sanki bizim təmənnasız əməyimizə verilən bu ağsaqqal qiyməti iclasdakıların hamısının ürəyindən oldu. Ustadın mehribanlıqla dediyi sözlərdən sonra bütün qələm dostlarımız bizə iftixarla baxdı. Biz də o baxışlara təşəkkürlə dolu təbəssümlə cavab verdik. Lakin bu təşəkkürdə bir qürur da vardı. Bu qürur firqənin müqəddəs ideyalarını xalq arasında söz sənətinin ecazkar qüdrətilə yayan hökumət şairlərinin qüruru idi!

Biz nə şöhrət gözləyirdik, nə də çıraqla mükafat axtarırdıq. Vətəndaşlıq borcumuzu ləyaqətlə yerinə yetirmək bizə həm şöhrət, həm də mükafat idi! Şöhrət sözü bir kəlmədən ibarət olsa da iki məna daşıyır. Bir



xüsusi, bir də ümumi məna! Xüsusi şöhrət təkcə özünü düşünür. Məşhurlaşmaq naminə özünü təbliğ etmək üçün ora-bura rişələr atır. Axırda özü də hiss etmədən iyrənc xərçəngə dönür. Ümumi şöhrət isə özünü əsla fikirləşmir. Başa düşür ki, o xalqına məxsusdur. Palıd ağacına çevrilib torpaqda elə köklər salır ki, imkanı daxilində xalqın ləyaqətini əbədiləşdirə bilsin. Zamanın amansız tufanları ilə döyüşdə özü mərdliklə həlak olsa da, yerində təzə-təzə pöhrələr boy atsın. Öz kövrək çiyinlərində yenə də xalqın şərəfini ucaltsın. Biz ikinci şöhrət yoluna keçmişdik. Xırda mövzular dalınca qaçıb əbəs vaxt itirmirdik. Böyük ideyalar uğrunda qələm çalırdıq. Bilirdik ki, arzunu da, əməli də, şəxsiyyəti də böyütməyə yalnız böyük ideallar qadirdir! Elə şairlər var ki, istər vətənində, istərsə də dünyada gedən hadisələr içərisində yalnız özünü maraqlandıran məsələlərdən yazır. Biz isə həm doğma diyarımızda, həm də beynəlxalq aləmdə baş verən əlamətdar hadisələrin hamısını izləyirdik... Hər hadisəyə öz münasibətimizi dərhal öz imkanımız daxilində yeni şeirimizlə bildirməyə çalışırdıq.

Belə ülvi hisslərlə yaşadığımız günlərin birində mənə dedilər ki, Şimali Azərbaycanın məşhur tənqidçisi, ədəbiyyatşünası, tərcüməçisi Məmməd Arif Dadaşzadə Təbrizə gəlmişdir. Bu axşam onunla Sovet mədəniyyət evində görüş olacaqdır. Mən də bu görüşdə çıxış edib şeir oxumalıyam. Doğrusu, çox sevindim. Əvvəla ona görə ki, qardaş diyarından gəlmiş doğma bir insanı görəcəkdim! Sonra da ona görə ki, ustad bir tənqidçi-

nin gənc demokratik ədəbiyyatımız haqqında səmimi mülahizələrini eşidəcəkdim. Məmməd Arif tanınmış rus şairi Aleksey Surkovla birlikdə Sovet yazıçılarının nümayəndəsi sifətilə İran yazıçılarının Tehranda keçirilən birinci qurultayında iştirak etmişdi. Qurultay qurtardıqdan sonra Tehrandan birbaşa Təbrizə gəlmişdi.

Həsrətdənmi, yanğıdanmı, tələbdənmi qısa görüş məclisi uzun şeir gecəsinə çevrildi. Ancaq görüşün keçirildiyi böyük ziyafət salonunda kürsü qoyulmamışdı. Şairlər növbəylə öz yerlərindəcə ayağa qalxıb şeir oxuyur, sonra əyləşirdilər. Məmməd Arif təbəssümlü gözlərini şeir oxuyan şairlərin həyəcandan titrəyən dodaqlarına dikib çox diqqətlə qulaq asırdı. Növbə mənə də çatdı. Qısıla-qısıla ayağa qalxdım. Təzəcə yazıb "Azərbaycan" qəzetində çap etdirdiyim "Günəş" adlı şeirimi oxumağa başladım:

**Ey göylər pərisi, ey əlvan Günəş,**
**Sənindir bu diyar, bu məkan, Günəş!**
**Nolar ki, hərdən bir qonaq gəl bizə,**
**Yaxından şərik ol sevincimizə!**
**Sən ağ günümüzü öz gözünlə gör,**
**Odundan ecazkar bir çələng də hör**
**Bu od torpağının başına Günəş,**
**Gəlsən bir xalq çıxar qarşına, Günəş!**
**Bilirəm gəlsən də, gəlməsən də sən**
**Bizi özümüzdən yaxşı görürsən...**



**Sənsən həqiqətin sönməz çırağı,**
**Sənsən səadətin uca bayrağı...**
**Sənsən bu torpağın ən yaxın dostu,**
**Aranın, yaylağın ən yaxın dostu...**
**Sənin hər telində milyon həyat var,**
**Uçan şəfəqində sanki qanad var.**
**Diyardan-diyara qonur quş kimi,**
**İnsan cəlalına vurulmuş kimi...**
**Xəyal çata bilmir o ülviyyətə,**
**Şöhrətin sığışmır hər şeiriyyətə.**
**Gözüm səhər-səhər görəndə səni,**
**Fikrim uzaqlara aparır məni.**
**Yadıma qorxulu zamanlar gəlir,**
**Sonra buz nəfəsli zindanlar gəlir.**
**Zindanda donanda sənət çeşməmiz,**
**Yenə susmayırdı cəsur nəğməmiz.**
**Sən açıb baxırdın pəncərəmizdən,**
**Tez-tez hal tuturdun hər birimizdən...**
**Nə zaman könlündə daşırdı dərdin,**
**Buludlar içində görünməyirdin.**
**Sən gah tutulurdun, gah ağlayırdın,**
**Gah da şəhidlərə yas saxlayırdın...**
**Tarixdən söz açıb bir insan təki,**
**Nələr deməyirdin bir ozan təki?**
**Bilirəm, yorğunsan sən də ey pəri,**
**İpək tellərini topla, gəl bəri.**
**Gəl, uzaqda durma, yaxın gəl, Günəş,**
**Gəl, öz Vətənində bir dincəl, Günəş!**

**Ay da, ulduzlar da ensin səninlə,**
**Mehriban-mehriban sinsin səninlə!**
**Dolansın bu yeri işıq karvanı,**
**Öz qoynuna alsın Azərbaycanı!**
**Gözəl yaranıbsan təbiətdə sən,**
**Əfsus, tək-tənhasan ünsiyyətdə sən.**
**Məni düşündürür bu halın sənin,**
**Bir gün görünməsə camalın sənin,**
**And olsun zamanın sonsuz səbrinə,**
**And olsun Babəkin əziz qəbrinə,**
**And olsun Sərdarın öz tüfənginə,**
**And olsun Saibin söz ahənginə,**
**And olsun namusa, eşqə, ismətə,**
**And olsun qayğıya, mehrə, ülfətə,**
**And olsun gecələr beşik başında**
**Əyləşən ananın çatıq qaşında**
**Oxunan arzunun qüdsiyyətinə,**
**Əzəmətlə dolu ülviyyətinə,**
**Biləyimə yığıb hər diləyimi,**
**Əlimdə qaldırram öz ürəyimi**
**Qaranlıq göylərə bir məşəl kimi,**
**Təki solmayasan sən xəzəl kimi...**

Bu şeir tamamilə yeni məna daşıyırdı. Axı biz Günəşi həmişə görürdük. Ancaq uzaqdan-uzağa tamaşasına dalırdıq. Günəşə nə əlimiz çatırdı, nə səsimiz yetirdi. Nə könlümüz isinirdi, nə taleyimiz işıqlanırdı. İndi isə gərgin döyüşlər, böyük qurbanlar, unudulmaz qələbələr bahasına Günəşi Ana Vətənimizin mehriban qucağına özümüz gətirmişdik. Bu təbiətin qocaman



Günəşi deyil, həyatın cavan Günəşi idi! Səadət Günəşi idi! Bu Günəş könlümüzü də isitmişdi, taleyimizi də işıqlandırmışdı! Üstəlik, sənətimizi də rövnəqləndirmişdi! Mən də bu təntənəli görüşdə hərarətlə oxuduğum "Günəş"in işığında öz əllərimizlə qurub yaratdığımız təzə həyatın növrağını şimaldan gələn doğma qardaşımıza göstərmək istəyirdim. Axı qardaş-qardaşın cəlalını görəndə sevinməyə bilməz! Mən şeiri vərəqlərdə oxuyurdum. Lakin arabir gözlərimi şeirdən çəkib qarşımda əyləşən Məmməd Arifə baxırdım. Təbiətcə sakit, mehriban, həlim bir insan olan Məmməd Arifin qayğılı gözləri sevincdən dolmuşdu. Bu sevinc yaşlarını "Günəş"in hərarəti də quruda bilmirdi...

...Söz Məmməd Arifə verildi. O dedi ki, mənə İran yazıçılarının birinci qurultayında nümayəndə sifəti ilə iştirak etmək səlahiyyəti veriləndə çox sevindim. Ancaq yoldaşlardan xahiş etdim ki, mənə Təbrizi görmək imkanı da verilsin. Gözəl Təbrizi görmək, qədim abidələrinə baxmaq, həssas sənətkarları ilə danışmaq mənim çoxdankı arzum idi! Taleyin qismətinə bax ki, zaman-zaman ürəyimdə qalan arzum indi gözlərimin qarşısında yerinə yetir. Kaş bütün arzular çin olmaqda mənim arzuma bənzəyəydi! Şeirinizə gəlincə deyə bilərəm ki, poeziyanızdakı forma yeniliyi, məzmun əlvanlığı diqqətəlayiqdir! Həyat nəfəsli şeiriniz inkişaf yolundadır. Döyüşkən poeziyanıza böyük uğurlar diləyirəm. Bakıya təzə doğulmuş şeirinizin unudulmaz təsiri ilə qayıdacağam.

Ayrılarkən Məmməd Arif mənim "Günəş" şeirimdən təsirləndiyini söylədi. Mən dedim ki, şeirimiz hələ

nə bağban, nə qayçı, nə də gübrə görən bir tənəyə bənzəyir. Bizdə də ədəbi tənqid yaransa, poeziyamız həm ideya, həm də sənətkarlıq cəhətdən getdikcə daha da dolğunlaşar. Yanımızdakı yaşlı şairlərdən biri Məmməd Arifə mənim Təbrizdə Azərbaycan Dövlət Filarmoniyasının müdiri olduğumu dedi. O, gənc bir şairin belə mühüm vəzifədə işləməsindən məmnun qaldı. Sonra gülə-gülə mənə dedi ki, Bakıda da Azərbaycan Dövlət Filarmoniyasının müdiri şair Zeynal Xəlildir.

Görüşə toplaşanlar gecəyarısı dağılışdı. Mən də xiyabana çıxdım. Sinəm dolusu dərindən nəfəs aldım. Həmişəbahar Gülüstan bağının ətri ciyərlərimə doldu. Başımı qaldırıb göyə baxdım. Təbrizin üstündə sayrışan ulduzlar necə də iri, şəffaf, yaxın idi. Onlar xoşbəxt insanların fərəhlə dolu gözlərinə bənzəyirdi. Sıraya düzülmüş ulduzlar qədim poeziyamızın misralarında cərgələnmiş sözlər qədər dərin, parlaq, müqəddəs idi! Sanki bu sakit ulduzların hərəsi sabah tüğyana gələn bir söz günəşinə dönəcəkdi...

## "QƏZƏL DÜKANI"

*Qəzəl var, taxçalarda*
*Toz-torpağa qarışır,*
*Qəzəl var, masa üstə*
*Ulduz-ulduz alışır.*

Yanğı təkcə döyüş meydanında olmur. Sənətdə də yanğı var. Özü də bu yanğı iki cürdür. Biri gur, biri həzin! Ancaq elə gur yanğı var ki, həmişə alovlana bilmir. Belə yanğının sönməyi də yanmağına bənzəyir.



Yəni birdən alovlanan yanğı birdən də səngiyir. Lakin elə həzin yanğı var ki, həmişə yanır da, yandırır da! Sanki ifrata qətiyyən yol vermir. Öz odunun nə zaman, harada, necə yanacağını bilir. Yananda da üzdə alovlanıb öz odunu havaya sovurmur. Odlu rişələrini dərinlərə atır. Həmin odlu rişələr insanların sümüyünə – iliyinə işləyə-işləyə yanır da, yandırır da!

Məmmədəli Məhzun da belə yanğılı şairlərdəndi. Kövrək ürəkli, xəfif təbəssümlü, həzin yanğılı şair! Bəlkə elə ona görə də Məhzun sözünü özünə təxəllüs seçmişdir. Söz yox ki, hər şair təzə fikir, təşbeh, obraz sorağında axtarışlar aparır. Bunsuz nə şairin öz yaradıcılığı, nə də mənsub olduğu ədəbiyyat zənginləşə bilməz! Məmmədəli Məhzun təzə fikirləri, təşbehləri, obrazları milli zəmində tapırdı. Yaşadığı, gördüyü, bildiyi mühitdən alırdı. Şair adi bir gülün, yarpağın, şehin təsvirində elə incə boyalar işlədirdi ki, oxucunu öz səriştəsinə, səmimiyyətinə heyran qoyurdu... Biz Məmmədəli Məhzunun Səttarxan xiyabanındakı züruf dükanına tez-tez gedərdik. Yolumuz düşəndə də, düşməyəndə də. Şair bu girintili-çıxıntılı dükanda ticarətdən daha artıq şeirlə məşğul olardı. Piştaxtanın üstə həmişə Məhəmməd Füzulinin "Divanı", Əliağa Vahidin "Qəzəllər" kitabı olardı. Məmmədəli Məhzun bu qəzəllərin əksəriyyətini əzbərdən bilirdi. Lakin yenə də könlünə düşəndə məna dolu vərəqləri çevirib məşhur qəzəllərdən hansınısa ləngərlə oxuyardı. Şairin başı mütaliəyə o qədər bərk qarışardı ki, müştərilərin haçan dükana daxil olduqlarından xəbər tutmazdı. Əgər tut-

saydı da gülərüzlə qarşılamağı tamam unudardı. Kim bilir, bəlkə də hikmətli beytlərdən ayrıldığı üçün müştərinin bu gəlişindən narazı da qalardı. Ancaq pərtliyini büruzə verməzdi. Dükana gələn qələm dostları şairin qonaqlığı çay dəstgahı ilə sovuşdurmaq istəməsilə razılaşmayıb yeni yazdığı qəzəllərini oxumağı təkid edərdilər. Təvazökar sənətkar da tərəddüdlə yeni qəzəllərini kitablarının arasından çıxarıb özünə xas olan məhzun bir səslə aram-aram oxuyardı. Məmmədəli Məhzunun dükanının xiyabana açılan qapısı bircə gün də örtülməzdi. Yazın leysanında da, yayın bürküsündə də, payızın sazağında da, qışın çovğununda da açıq olardı...

Bir gün yenə də günorta çağı bir neçə qələm dostumla Məmmədəli Məhzunun dükanına getdik. Tez-tez görüşməyimizə baxmayaraq yenə də bir-birimizdən hal-əhval tutduq. Ətri dükanı dolduran məxməri çay içə-içə dostumuzun yeni qəzəllərinə qulaq asdıq. Ayağa qalxıb şairlə xudahafizləşmək istəyəndə mən qələm dostlarıma dedim ki, gərək biz yeni yazmağa başlayanlara da yardım əli uzadaq. Bəli! Yardım əli! Elə bu vaxt dükanın qabağından keçən əli çomaqlı, ayağı çarıqlı, çiyni xurcunlu bir kəndli cəld içəri girib dedi: – Bəli! Ağa, nə buyurursunuz? – dedi. Biz heyrətlə bir-birimizin üzünə baxdıq. Mən nəzakətlə kəndlidən soruşdum: – Bağışlayın, sizi kim çağırdı? O arxayın-arxayın mənə: – Kim çağıracaq? Siz! Mənim adım elə Yardıməlidir də! Özü də doğma ata-anamın əzizləyə-əzizləyə qoyduğu ad!.. Sizin də dilinizdən pərvazlanan söz – dedi.



Bayaqdan üzümüzdə donub qalan heyrət dodağımızda qəh-qəhəyə çevrildi. Güldük. O ki var, güldük. Niyə güldüyümüzün səbəbini sonradan bilən kəndli də bizə qoşulub qəhqəhəylə güldü. Yardıməlinin gülüşündə bir kəndli sadəliyi vardı. Lakin bu sadəlikdə bir dağ çeşməsinin duruluğu, şəffaflığı, təmizliyi duyulurdu. Yardıməli dükana gələndə bizə yad adam təmasıyla yanaşmışdı. Gedəndə isə dost ülfətilə ayrıldı...

Sonralar Məmmədəli Məhzun dükanı buraxıb Milli hökumətin qərarıyla yaradılmış "Azərbaycan şairlər və yazıçılar cəmiyyəti"ndə katib vəzifəsində işlədi. O zaman söz ustaları cəmiyyətin Tərbiyət xiyabanındakı imarətinə hər gün baş çəkərdi. Məmmədəli Məhzunla görüşərdi. Qələm dostları görüşə gəlməyəndə kövrək ürəkli şair cəmiyyətin axar-baxarlı imarətində darıxırdı, inciyirdi, gileylənirdi. Həssas sənətkar səmimiyyətlə dolu əsərlərində ana Vətəni, doğma dilimizi, qardaşlığı, azadlığı, xeyirxah qayğını ilhamla tərənnüm edirdi. Şair qədim tarixli qəzəlin köhnə formasına təzə məzmun verməyə çalışırdı. Məmmədəli Məhzunun hər yeni qəzəli oxucular tərəfindən rəğbətlə qarşılanırdı. Öz doğma diyarında ana dilində çıxan ilk kitabı nadir nemətə dönmüşdü. Həsrətli yanğılı, ümidli qəzəlləri Təbrizdə Azərbaycan Dövlət Filarmoniyasının məşhur xanəndələrinin repertuarlarını daha da zənginləşdirirdi. Pərvazlanan qəzəllər sərhədlər aşıb yarandığı diyardan uzaqlarda da müğənnilərin ifasında, qəzetlərin sütunlarında, məcəllələrin səhifələrində əks-səda verirdi...

## NADİR İQBAL

*Tale var, varaqlanır*
*Yarımçıq əsər kimi.*
*Tale var zirvələşir*
*Yüksələn hünər kimi.*

Əbülhəsənxan İqbal təkcə ömrün deyil, həm də sənətin iqbalı idi! O, əzəmətlə çağlayan muğamatı cilalayır, mənalandırır, zənginləşdirirdi! Ustadın oxuduğu muğamlarda doğma yurdun dağlarının siqləti, düzlərinin vüsəti, çaylarının şeiriyyəti vardı! Mahir sənətkarın ecazkar səsi gah şəlalə coşğunluğuyla zəngulə vurardı, gah da bulaq həzinliyilə zümzümə edərdi. Ustad oxuyardı. Göydə buludlar hönkürər, şimşəklər çaxar, yağışlar yağardı. Yerdə atlar kişnəyər, qılınclar şaqqıldayar, qanlar axardı. İgidlər Vətən uğrundakı müharibədə acgöz qəsbkarlarla döyüşərdilər... Sonra göydə parçalanmış buludlar öz qanlı yaralarını soyutsun deyə qarlı dağların başına səpələnərdi. Günəş doğardı. Buludların odlu-günəşli qanını qurudardı. Lakin məşəqqətdən ağarmış pənbə saçlarını təzədən xına rənginə boyaya bilməzdi. Dağınıq saçlar eləcə ağappaq qalardı. Yerdə titrəyə-titrəyə baş qaldırıb körpə gözlərini açan güllər-çiçəklər kövrək təbəssümlə Günəşə boylanardı... Torpağın təlatümlü qəlbindəki həyəcanlar yavaş-yavaş sakitləşərdi. Bu muğamda dünyagörmüş bir xalqın kədəri də, sevinci də rübablaşardı. Bu muğamda ağsaçlı bir diyarın hünəri də, cürəti də, zəfəri də qanadlanardı!..



Ona muğamat ustası demək az idi. O, muğamat allahıydı! Bəli! O, muğamatı təzədən yaradırdı. Firdovsi, Xəyyam, Sədi, Hafiz İran poeziyasında hansı mövqedə dururdusa, Əbülhəsənxan İqbal da Azərbaycan musiqisində elə bir məqamda dayanırdı! Buna görə də qocaman sənətkar Vətən üçün, xalq üçün, sənət üçün olduqca doğma, əziz, müqəddəs idi! Bu məğrur sənətkar yaşa dolduqdan sonra nadir hallarda oxuyardı. Ancaq elə oxuyardı ki, hər ifası uzun müddət yadda qalan bir hadisəyə çevrilərdi.

Tələbkar ustadın cavan bir xanəndəyə qiymət verməsi də hadisə sayılardı. Sanki böyük nəğməkar hər xanəndəyə musiqinin qadir dililə xeyir-dua verəndə günəş dolu nəfəsilə enişli-yoxuşlu sənət yollarında dumanları parçalayıb təzə bir sənətkara uğurlu yol açırdı. Bu nəcib əməldən sonra həmin xanəndəyə zaval yoxdu. Bu düzgün qiymət həm də ustad qarşısında şagirdin məsuliyyətini qat-qat artırmış olurdu. Etikaya görə toyda, ziyafətdə, konsertdə heç bir xanəndə, hətta özünə arxayın olan xanəndə də Əbülhəsənxandan icazə almadan ağzını açmağa cürət etmirdi. Çünki bütün Şərqin hörmətini qazanan ustad xanəndənin yanında oxumaq böyük sənət imtahanı idi. Bu baxışları ciddi adam uzaqdan sakit, ağır, bir az da zəhmli görünürdü. Lakin ona yaxınlaşıb kəlmə kəsmək istəyən adam dərhal işıq saçan təbəssümlü gözlərlə qarşılaşırdı. Əbülhəsənxanın nə qədər sadə, təvazökar, mehriban bir insan olduğunu yaxından duyurdu.

Təbrizlilər danışırdılar ki, 1941-ci ilin payızı idi. Avropa başdan-başa nəhəng bir döyüş meydanına çevrilmişdi. Cəbhələrdə ölüm-dirim savaşları gedirdi. Şimali Azərbaycanın incəsənət ustaları Təbrizə gəlmişdi. Şəhər sakinləri böyük bir salonu qonaqların ixtiyarına vermişdi. Sovet mədəniyyət xadimləri əlvan, zəngin, cazibədar proqramlarla çıxış edirdilər. Salon başdan-başa tamaşaçılarla dolu idi. Boş yer olmadığına görə çoxu ayaq üstə qalmışdı. Şeiri, nəğməni, musiqini ürəkdən sevən təbrizlilər çıxış edən bakılı müğənniləri sürəkli alqışlarla, ətirli güllərlə, hərarətli sözlərlə müşayiət edirdilər. Oxumaq növbəti məşhur nəğməkar Bülbülə çatır. O həmişəki tək sərbəst, gümrah, şən oxuyur. Lakin bu adi görünən insanın qeyri-adi səsi, nəfəsi, zənguləsi salonu heyran qoyur. Bülbülün təbəssümlü dodaqlarından qopan nəğmənin son akkordları gurultulu alqışların hərarətli axarında əriyir. O, səhnə arxasına keçir ki, konferansye növbəti mahnının adını tamaşaçılara elan etsin. Bu zaman kimsə Bülbülə çatdırır ki, Əbülhəsənxan İqbal salonda əyləşib sənə diqqətlə qulaq asır. Mahir müğənni təəssüflə başını bulayıb: – Yox, onda mən heç nə oxumamışam! – deyir. Əlbəttə, bu düzgün bir etiraf deyildi. Sənətkarın sənətkara bəslədiyi hörmətdən doğan səmimi təvazö idi!

Yaşı ötdüyünə görə ustad daha heç oxumurdu. Lakin biz qocaman sənət bahadırını filarmoniyanın təntənəli açılışına dəvət etdik. Ona xüsusi yer ayırdıq. Bir-birindən maraqlı, cazibədar, zəngin olan konsert nömrələrini alqışlayan salon təlatümlü ümmana, Əbülhəsənxan isə bu ümmanda əzəmətli sənət zirvəsinə bənzəyirdi! Sanki səhnədə hərəkət edən təpələr o sakit, məğrur, qoca dağa arxalanırdı. Axı o, sənət tarixində vüsətli bu günümüzün şöhrətli dünəni idi! Ustad sevinirdi, gülürdü, kövrəlirdi...

Əbülhəsənxan filarmoniyanın qaynar həyatında iştirak etmirdi. Qədim, doğma, əziz şəhərinin neçə-neçə məclisini öz gəlişilə sevindirən, öz alovlu səsilə isindirən, öz ecazkar ifasıyla zinətləndirən böyük müğənni guşənişin olmuşdu.

Bir gün Sovet mədəniyyət evində Əbülhəsənxan ilə görüş təşkil etdik. Ustadı görüşə Həsən Üzzari gətirmişdi. Görüşdə başda Hacı Xanməmmədov olmaqla filarmoniyanın sazəndələri, müğənniləri, rəqqasələri iştirak edirdilər... Kollektiv ustadla birlikdə şəkil çəkdirəcəkdi. Əbülhəsənxanın özü nə qədər sadə olsa da məğrur sənətinin zəhmi şəkil çəkdirməyə gələnləri basmışdı. Hamı qısılırdı. Lakin böyük müğənniyə yaxın olmağa çalışırdı. Axı ustadla bir yerdə şəkil çəkdirmək hansı şagirdə fəxr deyil?



Lakin Əbülhəsənxan öz mehriban baxışlarıyla, incə gülüşləriylə, nəcib təmaslarıyla aradakı quru rəsmiyyəti

ütüləyib qırışlarını açırdı. Açılışmış şagirdlər dağ vüqarlı ustada sığınırdı. Ustadla bir parça dilsiz kağız üzərində tarixə dönəcəkləri ilə qürrələnirdilər. Ancaq xəbərləri yox idi ki, ustad da öz istedadlı şagirdləri ilə öyünür. Bu kövrək, doğma, isti hissləri ustadın təbəssümlü gözlərində müşahidə etmək o qədər də çətin deyildi.

Saysız-hesabsız illərin axınında ustadın tamaşaçıların hərarətli alqışlarına təbəssümlə cavab verən düşüncəli gözlərinin nuru azalmışdı. Bir cüt sənət ulduzunun sönmək təhlükəsi vardı. Bu dünya görmüş gözləri təcili müalicə etdirmək lazımdı. Biz bir yerə toplaşıb məsləhətləşdik. Yığıncaq mənim iş otağımda keçirildi. Qərara aldıq ki, ustadın nəfinə filarmoniyada böyük bir konsert verək. Ancaq elə edək ki, o özü bunu bilməsin. Toplanan pulla ustadı Tehrana müalicəyə göndərək. Belə də etdik. Böyük nəğməkarın nəfinə təşkil olunmuş konsertə onun özünü də dəvət etdik. Gəldi. Ancaq məqsədimizi duymadı. Ustad birinci sırada əyləşmişdi. Gözlərində qara çeşmək vardı, dodaqlarında təbəssüm... Səhnədəki nəğməylə dolu qaynar həyat çeşməyin şüşələrində təntənəylə əks edirdi. O çeşmək sanki adi şüşə deyil, sənət aynası idi! Ustad ağır başını arabir xəfifcə nəğmə dolu sinəsinə endirib qaldırırdı. Sanki nələrisə təsdiq edirdi. Deyəsən konsert xoşuna gəlmişdi. Həmin gecənin səhəri biz qocaman sənətkarı Tehrana yola saldıq. Ona bu uğurlu yolda şəfa dilədik. Tezliklə görüşəcəyimizi səbrsizliklə gözləyəcəyimizi bildirdik. Haradan biləydik ki, bu, möhtərəm ustadla son görüşümüz olacaqdır və bir daha o fədakar, ecazkar sənətkarla görüşə bilməyəcəyik?!



## QARDAŞ PİŞVAZI

*Qardaş var, gəlişinə*
*Qurban kəsir qardaşı.*
*Qardaş var, vüsalının*
*Üstə əsir qardaşı.*

Atalar deyiblər ki, dost gəlişi bayram olar. Bəs onda qardaş gəlişi nə olar? Özü də illərlə deyil, qərinələrlə bir-birindən ayrı düşmüş iki qardaşdan birinin gəlişi! Qardaş bu boyda dünyanı ələk-vələk eləmişdi, lakin öz qardaşını tapa bilməmişdi. Halbuki axtardığı qardaşı yaxından da yaxın idi! Aradakı səddin eni cəmi beş arşın idi. Həm də nə daş idi, nə dəmir. Su idi! Aydınlıq timsalı! Ancaq bu aydınlıq qardaşların taleyində qaranlığa dönmüşdü. Bu qaranlıqda nə ümid çırağı közərirdi, nə də görüş cığırı ağarırdı...

İndi isə qardaş Arazın beş arşınlıq su səddini keçib qardaşın görüşünə gəlirdi. Bu isə adi bayram deyildi, möcüzə ilə dolu vüsal bayramı idi! Biz maşın karvanında təyyarə meydanına gedirdik. Üzünü görmədiyimiz, səsini eşitmədiyimiz, əlini sıxmadığımız qardaş pişvazına çıxırdıq. Bizə demişdilər ki, Bakıdan bir dəstə incəsənət xadimi Təbrizə qonaq gəlir. Mən başıaçıq idim. Maşına minəndə başım içəridə səqfə dəydi. Yadıma bir əhvalat düşdü. Təqribən bir həftə əvvəl mənə demişdilər ki, Parisdən Təbrizə incəsənət xadimləri gələcək. Mən də qonaqları qarşılayanlar arasında olmalıyam. Ən təzə kostyumumu geyməliyəm, başıma da panama qoymalıyam. Mən isə hələ indiyə qədər başıma panama qoymamışdım. Buna ehtiyac da duymurdum. Ona görə

ki, ilin çox vaxtı başıaçıq gəzirdim. Sən demə, bəzi ziyalılar arasında panama yalnız isti-soyuq üçün deyil, həm də "mədəniyyət" xatirinə qoyulurmuş. Yadıma şair Osman Sarıvəllinin Təbrizdə olarkən yazdığı "Panamalı dilənçi" şeiri düşdü. Şair dilənçiyə müraciətlə yazmışdı:

**Qəmli gözlərində qaraldı cahan,**
**Məhəl qoymadılar axan yaşına.**
**Sən çörək istədin hökmdarından,**
**O, panama qoydu sənin başına...**

Biz isə təzə dövranda dilənçilərin ağalardan sədəqə aldıqları köhnə panamalarını yığıb tonqallarda yandırdıq. Elə yandırdıq ki, acı tüstüsü gedib ağalara da çatdı. Ağaların nəfəsi təngidi, gözləri yaşardı, burunları tutuldu. Bəli! Ağalar öz "şirin" əməllərinin acı bəhrələrini daddılar. Biz isə dilənçilərə çörək də, paltar da, iş də, mənzil də, hüquq da verdik! Ancaq indi mən mədəniyyət xatirinə başıma panama qoymalı idim. Nə etmək olardı? Bazara getdim. Bir paltar mağazasına girdim. Mağaza sahibindən xahiş etdim ki, özü mənə panama seçsin. O, bir panama götürüb əvvəl o üz-bu üzünə baxdı. Sonra tərifləyə-tərifləyə iki əli ilə başıma qoydu. Sən demə, bu qədər ədalar bir tacirə bəs deyilmiş. O, panamanı başımda sığallamağa başladı. Sanki əmlik quzu tumarlayırdı. Mən isə bədənnüma aynada bir özümə, bir də başımdakı panamaya baxıb gülürdüm. Mağaza sahibinin mənfəət xatirinə yağlı dilindən başıma yağdırdığı müftə tariflərdən təngə gələrək panamanın pulunu verib küçəyə çıxdım. Məni gözləyən maşına sarı addımladım. Yoldaşlarım məni maşında gözləyirdi. Tələsik maşına minəndə başım səqfə dəydi. Panama əzilib xirtdəyimə keçdi. Sən demə, panama başıma yekə imiş. Mən isə tacirin tərif yağışının altında bunun fərqinə varmamışdım. Əsəbiləşirdim. Yol yoldaşlarım isə gülürdülər. Panamanı başımdan çıxarıb dizimə geydirdim. Bir də təyyarə meydanında fransız qonaqları qarşılayanda başıma qoydum. Qonaqlarla birlikdə maşınlarda şəhərə yollandıq. Fransızlar Təbrizin yeni həyatı ilə maraqla tanış olurdular. Bir axşam da qonaqları filarmoniyanın növbəti konsertinə dəvət etdim. Fransızlar şərq konsertinə heyran-heyran baxırdılar. Dillərini bilmədikləri müğənnilərə diqqətlə qulaq asırdılar. Deyəsən Azərbaycan xalq mahnılarının çevik, gümrah, şaqraq ritmləri qonaqlarda şən əhval-ruhiyyə yaratmışdı. Sarıbəniz incəsənət xadimlərinin mavi gözlərində ulduz-ulduz təbəssüm parlayırdı. Rəqqasə qızlar milli geyimlərdə səhnəyə çıxıb "Muleyli" oyununu ifa edəndə ulduz-ulduz parlayan təbəssüm mavi gözlərdə yayıla-yayıla kəhkəşana döndü. Qonaqlar baxışlarında donub qalan dərin maraqla rəqqasə qızların kiçik bir hərəkətini də gözdən qaçırmırdılar. Sanki fransızlar "Min bir gecə" nağıllarındakı gözəllər arasına düşmüşdülər. Ancaq bu sadə gözəllər ürəkləri əsrarəngiz Bağdad sarayında deyil, adi Təbriz salonunda fəth edirdilər. Bəli! Təbriz haqqında dürüst təsəvvürləri olmayan qonaqlara bu konsert sənətin zəngin dililə çox şeylər danışırdı. Həm də uzaq, quru nağıllardan deyil, yaxın, canlı həqiqətlərdən danışırdı. Fransızlar konsertə heyrətlə baxırdılar. Mən isə fransızlara qürurla baxırdım.

Yadıma haçansa eşitdiyim bir əhvalat düşürdü. Bilmirəm rəvayətdir, yoxsa həqiqət?! Deyirlər Məmmədəli şah ilk dəfə Parisə gələndə Fransa prezidenti təntənəli ziyafətdən sonra şahın şərəfinə böyük bir konsert təşkil etdirir. Sazəndələr müəyyən musiqi parçalarını şaha layiq səsləndirmək üçün əvvəlcə çalğı alətlərini yaxşı-yaxşı kökləyirlər. Sonra bir-birinin dalınca dünya musiqi korifeylərinin məşhur əsərlərindən parçaları məharətlə ifa edirlər. Hərdən arada prezident şahdan: – Bu musiqi parçası xoşunuza gəlirmi? – deyə soruşur. – Şah: – Yox! – deyə başını bulayır. Prezident ürəyində şahın böyük sənət bilicisi olduğu qənaətinə gəlir. Xidmətçilərdən birini yanına çağırır. Sazəndələrin hörmətli qonaq üçün daha gözəl musiqi parçaları çalmalarını əmr edir. Sazəndələr prezidentin əmrini daha gözəl musiqi sədaları ilə yerinə yetirirlər. Yenə arada prezident şahdan: – Bu musiqi parçası xoşunuza gəlirmi? – deyə soruşur. Şah yenə: – Yox! – deyə başını bulayır. Prezident ilə şah arasındakı belə sual-cavab sonra da təkrar olunur. Sazəndələr isə çalırlar... Nəhayət, çala-çala əldən düşürlər. Çalğı alətlərini təzədən köklməyə başlayırlar. Ancaq bu zaman Məmmədəli şah oturduğu yerdən əlini sazəndələrə tərəf uzadıb – Bax, bu musiqi xoşuma gəlir, – deyə sevinclə gülür. Prezident də ürəyində şahın savadsızlığına, mədəniyyətsizliyinə, zövqsüzlüyünə gülür. Lakin üzə vurmur. Yorulmuş sazəndələrin halına acıyan prezident nəzakətlə şahın qoluna girib hansı bir sərgininsə tamaşasına aparır...

İndi isə öz məğrur səsilə Məmmədəli şahın arxalı qoşunlarının içərisinə zəlzələ salan ölməz Səttarxanın



mübariz övladları elə bir sənət ocağı yaratmışlar ki, ecazkar hüsnüylə təkcə fransızları deyil, bütün millətləri heyran qoyur... Fransızlar gedəndə Təbrizdən unudulmaz xatirələrlə ayrıldılar...

Biz Təbriz təyyarə meydanına çatanda pişvaza çıxan adamlar Bakıdan gələn qonaqları əlləri üstdə atıb-tuturdular. Sanki bu səfər tərənnümçüsü olan sənətkarları canlı zəfər fişənglərinə döndərmək istəyirdilər. Mən belə səhnəni Sovet kino xadimlərinin Berlində Reyxstaq alınan zaman çəkdikləri lentlərdə görmüşdüm. Almaniyanın paytaxtında da Sovet əsgərləri zəfər münasibətilə öz döyüş yoldaşlarını beləcə atıb-tuturdular. İndi Azərbaycanın paytaxtı Təbrizdə də qardaşlar qardaşları əllərindən yerə qoymaq istəmirdilər. Sanki qorxurdular ki, Arazın dalğaları şahə qalxıb hücum çəkərək qardaşları təzədən əllərindən qoparar. Bu, körpə vüsalın qoca, sərt, lal hicranın üzərindəki təntənəli zəfəri idi!

İnsan dünyaya gələndə tələsir. Qaranlıq dünyadan işıqlı dünyaya qədəm qoyan körpə gözlərini açıb Günəşi tez görmək istəyir. Günəş təzə sakininin gözlərini qamaşdırsa da sanki kirpiklərini qırpmadan Günəşi axtarır. Günəşi salamlamaq həsrətilə çırpınır. Ancaq insanın birinci dünyası anadır! O, gözlərini açanda ilk dəfə anasının üzünü görür. Bu ana – Vətəndir! Qardaşlar isə bu Vətən adlı ananın yalnız bir üzünü görmüşdülər, o biri üzü haqqında heç təsəvvürləri də yox idi. Ona görə də indi ananın görmədikləri üzünü də görməyə tələsirdilər. Əvvəlcə yanğılı dodaqlarıyla mehriban ananın o

biri üzündən öpmək, sonra isə həsrətdən saralmış yanaqlarını bu müqəddəs varlığın göz yaşında islanmış ağ birçəklərinə söykəmək istəyirdilər...

Biz təyyarə meydanında şimallı qardaşlarımızla maşınlara əyləşib şəhərə yollandıq. Yol boyu əziz qonaqlarımızdan doğma Bakını soruşurduq. Qardaşlarımızın dilləri bizə cavab versə də gözləri Təbrizin ətrafındakı mənzərələrdən ayrılmırdı...

Axşam bakılı qonaqları filarmoniyanın konsertinə dəvət etdik. Müvəffəqiyyətlə keçən konsertdə salonun daş divarları alqışlardan titrəyirdi. Salondakılar həm cazibəli konsert nömrələrini, həm də hörmətli bakılı qonaqları hərarətlə alqışlayırdı. Bakılı qonaqlar dedilər ki, doğrusu nə qədər Təbrizi gəzirdik, maraqlı həyatı ilə tanış olurduq, istər-istəməz Bakını müvəqqəti unudurduq. Ancaq bu axşam sizin konsert salonunda Təbrizi unudub elə bildik ki, Bakıdayıq! Dinlədiyimiz ritmlər bir, sözlər bir, deyimlər bir, təkcə ifa edənlər ayrı! Ancaq hərdən Təbrizdə olduğumuz da yadımıza düşürdü. Bu hiss o zaman baş qaldırırdı ki, orkestrdə İran tarı da varlığını öz şaqraq səsilə car çəkirdi. Siz bu kollektivdə Azərbaycan tarı ilə İran tarını məharətlə birləşdiribsiniz! Bu tarlar isə muğamları həm Azərbaycan, həm də İran xalqları ilə naxışlamaqla daha da zənginləşdirə bilib. Obrazlı desək, siz dinləyicilər üçün əlvan melodiyalardan nəhəng bir musiqi çələngi hörübsünüz. Həm də bu çələngi çox az bir müddətdə hörübsünüz!..



## FİLARMONİYANIN YARDIMI

*Yardım var, ya təmənna,*
*Ya da mərhəmət olur.*
*Yardım var, həm etibar,*
*Həm də dəyanət olur.*

Günorta düşmüşdü. Təbrizin restoranlarında səhərdən səslənib kökdən düşmüş çalğı alətləri təzədən köklənib zilə qaldırılırdı. Çilopəzxanalara, kababxanalara, pitixanalara tanış müştərilər dolurdu. Sanki pəncərələrdən müştərilərə təbəssümlə baxan Günəş – Nuş olsun! – deyə iştah diləyir, sonra şəfəqlərilə masaların üstdəki ləziz nemətləri daha da əlvanlaşdırırdı. Bizim isə başımızı iş o qədər qatmışdı ki, nahar tamam yadımızdan çıxmışdı. Mən bəstəkar Hacı Xanməmmədovla kabinetdə oturub növbəti konsertin proqramını nəzərdən keçirirdim. Birdən mizimin üstəki telefon qısa fasilələrlə səsləndi. Dəstəyi götürdüm. Danışan S.C.Pişəvəri idi. Dedi ki, ermənilər Təbrizdə bir məktəb açmaq istəyirlər. Lakin maddi vəsaitləri çatışmır. Mənə müraciət edib yardım diləyirlər. Kim bilir, bəlkə bu da bir siyasətdir. Axı ermənilər heç zaman siyasətsiz keçinə bilməmişlər. Elə ona görə də bəziləri inqilabda bizə qoşulub şaha qarşı döyüşdü. Ola bilsin indi də bizi yardım göstərməkdə sınaqdan keçirirlər. Bəli! Gözə görünməyən yaxşılıqlarının əvəzini görmək istəyirlər. Biz gərək bir an da unutmayaq ki, ermənilər milçəkdən fil düzəltməyi "bacarırlar". Özün yaxşı bilirsən ki, Milli hökumət çox gəncdir. İqtisadiyyatımız da hələ qənaətbəxş deyildir.

Olmazmı filarmoniyada verilən konsertlərdən birindən yığılan pulları ermənilərə hədiyyə göndərək?

Mən S.C.Pişəvəriyə söz verdim ki, konsert təşkil edib, ondan toplanan maddi vəsaiti ayırarıq. Narahat olmayın! Mən "narahat olmayın" sözlərini təsadüfi demədim. Doğrudan da həmin günlər S.C.Pişəvəri çox narahat idi. Gənc bir dövlətə başçılıq etmək, özü də hər işi yalnız yorğun, kasıb, lakin mübariz bir xalqın qüvvəsinə arxalanıb təkbaşına görmək asan deyildi. Hələ mədəniyyət, səhiyyə, müdafiə, diplomatiya, ədliyyə, ideologiya... sahələrində də görüləsi işlər vardı. Dövlət başçısı hətta gecələr də dincələ bilmirdi. O yalnız müəyyən obyektlər arasında maşında gəzərkən arabir gözlərinin acısını ala bilirdi.

...Mən Pişəvərinin tapşırığı ilə əlaqədar Hacı Xanməmmədovla məsləhətləşib filarmoniyanın baş mühasibi Məcid Tütünfüruşu yanıma çağırdım. Birlikdə götür-qoy elədik. Növbəti konsert proqramını tamam dəyişib daha əlvan nömrələrlə zənginləşdirdik. Qərara aldıq ki, bu konsertə şəhərin dövlətli sakinlərini də çağıraq. Buna görə də gələcək tamaşaçılara xüsusi kağızlarda çap olunmuş biletləri proqramlarla birlikdə hörmətlə, naxışlı zərflər içərisində göndərdik. Bu işi Məcidə tapşırdıq. Məcid işgüzar, səriştəli, mehriban bir insan olduğu qədər də Vətəninə, xalqına, əqidəsinə sədaqətli idi. Ağıllı, təbəssümlü, işıqlı gözlərindən həmişə mərdlik yağırdı. O "Şairlər və yazıçılar cəmiyyəti"nin sədri Kamil Tütünfüruşun kiçik qardaşı idi. Mən Məcidi işə zəmanətlə götürsəm də o özünü çoxdan doğrultmuşdu. O boyda sənət ocağının bütün maddi işlərini zərgər dəqiqliyi ilə təkbaşına idarə edirdi. Bir sözlə, Məcid dəyanətli bir işçi, fəxr etməli bir dost idi.



Filarmoniyanın əməkdaşları arasında ermənilərdən çalan da, oxuyan da var idi... Ermənilərin nəfinə verdiyimiz konsert çox təntənəli keçdi. Bu konsert Milli hökumətin təkcə mədəniyyət sahəsində deyil, həm də siyasət aləmində növbəti bir nailiyyəti idi. Qərbin gurultulu mədəniyyətinə pərəstiş edən, hələ də şübhəli baxışlarını Tehranın dəbdəbəli həyatından çəkə bilməyən ağalar bu konsertdə Milli hökumətin nəyə qadir olduğunu öz dillərilə bir daha etiraf etməli oldular. Filarmoniyanın kassasına xeyli pul toplandı. Biz həmin pulların hamısını ermənilərin nümayəndələrinə verdik. Bu pullarla Təbrizdəki erməni məktəblərinin sayının biri də artdı. Məktəbin açılışına bizi də dəvət etdilər. Səhər ermənilər öz təşəkkürlərini yazılı surətdə S.C.Pişəvəriyə göndərdilər...

## YAXŞI YOL

*Dost səfərə çıxanda*
*Uğurlar diləyər dost!*
*Yoluna gözlərindən*
*Şəfəqlər çiləyər dost!*

Sənət ocağımızın ən mahir rəqqasələrindən sayılan Naidənin atası-anası bolqar idi. Haçansa Bolqarıstandan köçüb Təbrizə gəlmişdilər. Naidə Təbrizdə doğulmuşdu. Qənirsiz Təbriz gözəllərindən biri olmuşdu. Uca boylu, nazik bədənli, ağ çöhrəli qızın ləhcəsi də Təbriz

ləhcəsi idi. Sanki anası onu ancaq rəqs etmək üçün doğmuşdu.



O, sənət ocağımızın ürəklərə hərarət yayan oynaq bir şöləsi idi. Bu nadir şöləni biz kəşf etmişdik. Bolqarıstanda xalq azadlığa çıxandan sonra Naidənin ata-anası öz qohumları ilə məktublaşırdı. Qohumları onları azad Bolqarıstana çağırırdı. Naidənin atası, anası getməyə hazırlaşırdı. Səfər günü yaxınlaşdıqca qızın iri qara gözlərində yığılan kədər də sıxlaşırdı. O getmək istəmirdi. Necə gedəydi? Bu sənət ocağında özünə gözəl dostlar tapmışdı. Üstəlik, sənətin uğurlu cığırıyla şöhrətin zirvəsinə doğru addımlayırdı. Hələ ürəyində pardaxlanmış qönçə sevgisi! Bir dəfə Naidədən niyə belə kədərli olduğunu soruşdum. O Bolqarıstana getmək istəmədiyini, ancaq valideynlərindən keçə bilmədiyini dedi. Mən qıza təsəlli verib dedim ki, fikir eləməyin! Milli hökumət azadlığa çıxmış məmləkətlərlə diplomatik münasibətlər yaratmağa çalışır. Bundan sonra azadlığa çıxmış məmləkətlərdə bizi rəsmən tanıyacaqlar. Arada get-gəl də olacaqdır. Onda siz də Təbrizə gəlib sizi böyüdən, şöhrət zirvəsinə qaldıran bu şəhərdə konsertlər verərsiniz. Biz də gəlib Sofiyada konsertlər verərik. Beləliklə, tez-tez görüşərik. Naidə güldü. Ancaq danışmadı. Sonra Kəklik mənə Naidə haqqında danışdı. Sən demə, Naidə qonşuluqlarındakı Nurəddin adlı yaraşıqlı bir oğlanı se-



virmiş. Nurəddin yaxşı tar çalırmış. O, gecələr Ay işığında eyvanda sədəfli tarı sinəsinə basıb dilləndirəndə Naidə də eyvana çıxıb sevgilisinin mahir barmaqlarından süzülən yanıqlı melodiyalara qulaq asarmış. Naidə öz yaxın rəfiqələrinə Nurəddindən ağızdolusu danışırmış. Nurəddinin yanağında iri bir xal var imiş. Sanki anası Alagöz onu doğanda öz gözlərinin şəvə bəbəklərindən iri bir gilə qoparıb oğlunun sol yanağına yapışdırıb ki, ciyərparası qəşəng görünsün. Min oğlanın içində də seçilsin. Naidə hərdən öz sevgilisinə sataşıb: – Sən xalı neyləyirsən? Onu mənə ver! – deyirmiş. Nurəddin gülürmüş. Sonra: – Məmnuniyyətlə xalımı sənə verirəm! Qopar, yapışdır öz üzünə! – deyirmiş. Nurəddinin bu səmimiyyətlə dolu sözlərindən Naidə qəhqəhə çəkib gülürmüş. – Yox! Qoy qalsın! Mən elə bilərdim ki, xal yalnız qızlara yaraşır. Sən demə, xal oğlanları da qəşəng göstərirmiş – deyirmiş. Naidə Təbrizin Aylı gecələrində Nurəddinlə görüşə çıxırmış. Ancaq öz sevgisini həya pərdəsinə bükübvalideynlərindən gizli saxlayırmış. Kim bilir, bəlkə də öz təmiz sevgisini ata-anasına açmaq üçün bir məqam gözləyirmiş.

1946-cı ilin yazında Milli hökumət bir dəstə gənci hərbi təhsil almaq üçün Bakıya göndərmişdi. Nurəddin də Təbrizdən Bakıya gedən gənclər arasında idi. Nurəddin təzə tanışlarıyla Bakıya yola düşəndə Naidə valideynlərindən gizli Təbriz vağzalına gəlir. Nurəddini yola salanda – Bax! Yaxşı oxu! Darıxma! Sənə tez-tez məktub yazacağam. Sən də tez-tez məktub yaz! Təbrizə dərin biliklə qayıt! Mən səni gözləyəcəyəm – deyir. Hələ Nurəddinə təsəlli olsun deyə tanışlarının yanında

onun xallı yanağından öpməkdən də utanmır. Eh! Nə utanmaq? Sevən də utanar? Sevgi oğurluq deyil ki, utanasan! Sevgi Günəşdir! Gərək aşkar yansın! Ona baxanların gözləri qamaşsın! Ancaq Günəşdə ləkə olsa da gərək sevgidə ləkə olmasın! Bəlkə də Naidə Nurəddinin xallı yanağından qəsdən öpür ki, o, ayrılıq günlərində əlini yanağındakı xala çəkəndə onu xatırlasın. Ancaq sən demə, bu cəsarətli öpüş Naidənin sevgi dastanının son nöqtəsi olacaqmış. Bəli! O xal Naidənin dodaqlarından sürüşüb ürəyinə qonacaqmış. Əbədi hicran xalına dönəcəkmiş. Nurəddin Bakıdan qıza məktublar göndərir. Yazır ki, burada həyat gözəldir. Dilimiz, adətimiz, ənənəmiz birdir. Axı biz bir vətənin, bir xalqın övladlarıyıq... Ancaq bilmirəm niyə yenə Təbrizdən ötrü darıxıram. Bəlkə də bu ona görədir ki, sən Təbrizdəsən. Gecələr səni yuxuda görürəm. Sanki çoxdan ayrılmışıq. Sən də, mən də yaşa dolmuşuq. Ancaq görüşə bilmirik. Belə hallarda yuxudan hərasan ayılıram.

Naidə öz sevgilisinə yazdığı məktublarda deyir ki, sən elə uğursuz fikirləri başından at! Təbriz Bakıdan o qədər də uzaq deyil! İnşaallah görüşərik! Onda sən öz yanlış fikirlərinə gülərsən. İndi elə bir zamandır ki, istədiyin adamla dünyanın hər yerində görüşə bilərsən. Ancaq Naidə bilmirdi ki, bəzən nazik bir cığırda mümkün olan bir görüş bu boyda dünyada mümkün olmur. Naidəgil Bolqarıstana yola düşməmişdən bir gün əvvəl biz onunla filarmoniyada vida görüşü təşkil etdik. Hər kəs sevimli rəqqasəyə aldığı hədiyyəni kövrələ-kövrələ təqdim edirdi. Bir neçə qız hədiyyəni Naidəyə verərkən gözlərindən hədiyyənin üstə bir neçə damcı yaş



da düşdü. Rəqqasə özü də kövrəlmişdi. Sanki bu qız şən rəqslərilə tamaşaçıları sevindirən sənətkar deyildi. Kəklik də öz rəfiqəsinə qiymətli hədiyyə almışdı. Təqdim etdi. Sən demə, Kəkliyin ikinci hədiyyəsi də varmış! O bükülü bir qəzeti açdı. İçindən iki ipək yaylıq çıxartdı. Yaylıqlar elə ağ idi ki, sanki südlə boyanmışdı. Kəklik yaylıqları əlində tutub üzünü Naidəyə çevirdi: – Mənim sevimli rəfiqəm! Bilirəm ki, yaylıq əbədi ayrılıq rəmzidir. Ona görə də ayrılanlar bir-birinə yaylıq verməz. Ancaq mən bilə-bilə sənə yaylıq verirəm. Əbədi ayrılıq üçün yox, ayrılan yolları birləşdirmək üçün! Axı sən həmişə qoşa yaylıqla rəqs edirsən. Sanki əllərində çırpınan qoşa qanadla nəyisə nizamlayırsan. Mənim də arzum budur ki, sən bu yaylıqlarla uzun, çətin, toran yolların yönünü məqsədlərinə doğru çevirəsən – dedi. Naidə ayağa qalxdı. Kəkliyi qucaqlayıb öpdü. Kəklik də onu öpdü. Bu mənzərəyə baxanların gözləri yaşardı...

Səhər biz Naidəni ötürmək üçün Təbriz vağzalına gəldik. Hərə bir dəstə qızılgül gətirmişdi. Hamı gətirdiyi gülləri Naidəyə təqdim etdi. Qız qızılgüllərin arasında itdi. İndi o, qızılgüllər arasında canlı bir heykələ bənzəyirdi. Deyilənə görə, Bolqarıstan qızılgüllər diyarıdır. Ancaq sən demə, Təbrizin qızılgülləri Bolqarıstandakından az deyilmiş. Naidə bizə baxıb həm gülür, həm də ağlayırdı. Sanki qız öz dostları arasında bu qədər hörmət qazandığına görə sevinib gülür, ancaq belə tez ayrıldığına görə ağlayırdı. Hərdən qızılgüllər arasından boylanıb harasa baxırdı. Sanki nəsə axtarırdı. Axı

kimi axtara bilərdi? Hamı onu yola salmağa gəlmişdi. Bir nəfər də gəlməyən yox idi. Yox! Var idi! O, Nuraddin idi. Naidə də onu axtarırdı. O isə gəlib çıxa bilmirdi. Qızılgüllər arasında ətrafa boylanan Naidə isə öz sevgisi uğrunda tonqala atılmış bir gözələ bənzəyirdi...

Qatar hərəkət etdi. Naidə qaçıb qatara mindi. Qapıda dayanıb bizə baxdı. Titrək dodaqlarımızdan qopan "Yaxşı yol!" sözlərini eşidəndən sonra əlini cibinə salıb Kəkliyin verdiyi qoşa ağ yaylığı çıxartdı. Yelləməyə başladı. Qatar vağzaldan uzaqlaşanda qapısında çırpınan qoşa ağ qanadlar da gözlərdən itdi. Naidə getdi. Yaxşı ki, getdi. Sonralar Təbrizdə baş verən hadisələri öz gözləriylə görmədi. Yoxsa təbrizlilərin müsibətlə dolu faciəsinə bolqar qızı dözə bilməzdi. Bəli! Naidənin uzaqda öz sevgilisinin həsrətilə yaşaması, yaxında dəhşətlə qovuşacağından daha yaxşı idi...

## MÜMKÜNSÜZ XAHİŞLƏR

*Xahiş var, bir nəfərin*
*Xeyrini güdür ancaq,*
*Xahiş var, bir milləti*
*Bəxtiyar edir ancaq.*

İş otağımda Hacı Xanməmmədovla yenə növbəti konsertin proqramını hazırlayırdıq. Qapı döyüldü: – Buyurun! – dedim. İçəriyə gözləmədiyim iki adam daxil oldu. Heyrətləndim. Gələnlər öz kəndimiz Çanaxbulaqdan idilər. Kənddən çoxdan ayrılsam da gələnləri dərhal tanıdım. Biri molla Mərdalı, biri də Məşədi Sərməst



idi. Əyləşdilər. Kənddəkiləri soruşdum. Salamat olduqlarını dedilər. Çay gətirtdim. İçdik. Hacı Xanməmmədov durub məşqə getdi. Biz söhbəti davam etdirdik. Məlum oldu ki, həmyerlilərim yanıma xahişə gəliblər. Özü də necə xahişə?! İcrası mümkün olmayan xahişə! Artıq torpaqları əllərindən alınıb torpaqsız kəndlilərə verilməsin. Mən bu haqda Milli hökumətdən xahiş edim. Bu isə qətiyyən mümkün deyildi! Bu xahişin yerinə yetirilməsində təkcə mənim yox, neçə-neçə dövlət xadiminin, sənət fədaisinin, hörmət sahibinin təcrübəsi də, istedadı da, nüfuzu da aciz idi! Bu həm Milli hökumətin, həm də xalqın iradəsinə qarşı çıxmaq idi.

Min dəfə sizdən xahiş edirəm, mən həyatda böyük bir nailiyyət də qazanmış olsam, təbiətin gülünü onun səxavətli əlindən qoparıb təbrik xatirinə mənə bağışlamayın. Yox! Onsuz da dərilmiş gül öz ömrünü başa vurmadan solub gedir. Mənə ilham verin! Alovlu ilham! Könlümü isidən, yolumu işıqlandıran, sabahımı parladan bir ilham! Mən o ilhamla istədiyimi edə bilərəm. Yolu yola calayaram. Çayı çaya qovuşduraram. Dağı dağ üstə qoyaram. İlhamı daha da coşdurmaq, təlatümə gətirmək, qarşıdakı əngəlləri yuyub aparmaq üçün mənə sel vəd etməyin! Yox! Gərək deyildir! El gücü sel gücü desələr də axırda sel də kükrəyib, köpürüb, quruyur. Mənə inam verin! Cürətli, hünərli, arxalı inam! Mən o inamla bütün keçilməz təhlükələrdən sağ-salamat sovuşub neçə-neçə ünçatmaz zirvəni aşa bilərəm! Mən yollarda yorulub əldən düşəndə mənə sakit, dinc, rahat el göstərməyin. Yox! Sükuta qərq olmuş

həyat axı bir həyat deyil! Mənə dil verin, şirin dil! O həmişə mənimlə olsun! Yorğunluğumu sığallasın, nisgilimi ovundursun, həvəsimi təzələsin, duyğumu pərvazlandırsın, əməyimi qiymətləndirsin, istiqbalımı tərənnüm etsin! Mən o noğullu-şəkərli istiqbalda bu şirin dillə ən şiddətli küləkləri yatırar, ən zəqqum meyvələri dada gətirər, ən zəhərli ilanları yuvadan çıxarar, ən vəhşi heyvanları ram edərəm! Yalnız bir şərtlə: – O dilin özünün əti şirin, çəyirdəyi acı olmasın! Mən gözləmədiyim qonaqları da şirin dillə başa salmaq istədim. Dedim ki, Milli hökumət olduqca ədalətli hökumətdir! O istəyir ki, hamı yaxşı yaşasın! İnsan insana möhtac olmasın! Qürurla səslənən ülvi insanın sözü qiymətdən düşməsin! Torpaq yalnız onu əkib-becərənin olsun! Kəndli yoxsulluğun daşını biryolluq atsın!

Əlbəttə, bu sözlər zəngin torpaqlarını itirəcək qonaqlara sərfəli deyildi. Ancaq mən bu sözləri deməli idim. Qanun naminə həm Milli hökumətin, həm də xalqın adından deməliydim! Başa düşmək istəməyənlərə Milli hökumətin qərarını başa salmalı idim! Axı bu qərarı Milli hökumət yazmış olsa da, altında xalq özü qol çəkmişdi! Lakin mən elə bil bu sözləri kar qayaya deyirdim. Molla Mərdalı bütün dediklərimi qulaqardına vurub yenə öz xahişinə davam edirdi. Göy damarları çıxmış qara əllərini miz üstdən uzadıb boynumu qucaqlamaq, əllərimdən öpmək, ətəklərimdən tutmaq istəyirdi. Bəli! Molla Mərdalı mənə yalvarırdı. Mən isə Molla Mərdalının kənddə məhərrəmlikdə şəbehdə oynadığı şümür rolunu xatırlayırdım...



Şümür Molla Mərdalı kənd məscidinin qabağında suyun yolunu zəhmlə kəsir, ayaqlarını yerə əda ilə döyür, arada vüqarla gəzirdi. O kişilərin qibtəli nəzərlərində əzəmət, qadınların heyrətli baxışlarında ülviyyət timsalı olmağa çalışırdı. Lakin imamın təşnə övladlarının halına yanan gözəl-göyçək qadınlar büllur göz yaşlarında boğula-boğula yanlarında sakit dayanan məsum ərlərindən çəkinmədən istəyirdilər Molla Mərdalının ətəklərindən tutub yalvarsınlar ki, suyun yolunu kəsməsin. Molla Mərdalı isə özünü o yerə qoymurdu. Bütün məharətini meydanda təkəbbürlə nümayiş etdirirdi. İşə bax ki, dünənki məzhəb sərkərdəsi bu gün sərvət əsiri olmuşdu. Bəli! O sərvət xatirinə alçalmaqdan çəkinmirdi. Hətta o qədər alçalırdı ki, az qalırdı otaqda ayaqlarıma döşənsin. Molla Mərdalının kənddə qoyub gəldiyi əzazilliyinə məndən də yaxşı bələd olan Məşədi Sərməstin özü də deyəsən yol yoldaşının eybəcər vəziyyətinə ikrahla baxırdı. Öz torpaq sərvətini həmişəlik ixtiyarında saxlamaqçın dəridən-qabıqdan çıxan bu heysiyyətsiz adam mənim də yalnız nifrətimi qazanırdı...

Molla Mərdalıgil yeddi qardaş idilər. Bir qardaşının oğlu Mədədin anası ilə mənim anam doğma əmiqızı idilər. Deməli, Mədədlə mən doğma əminəvəsi idik. Mədəd orta boylu, dolu bədənli, enli kürəkli, dodağı təbəssümlü bir gənc idi. Mehriban təbiətli Mədəd həm işgüzar, həm mərd idi. Kənddə təkcə öz qohumlarının deyil, başqalarının da xeyirinə-şərinə yarayırdı. Yetim Mədəd hamının mədədinə yetirdi, ancaq öz taleyi öz mədədinə çatmırdı. O atadan qalma evində tək yaşayır-

dı. Mədəd Muğan kəndlərindən köçüb kəndimizdə sakin olan Əbi bəyin qızı ilə nişanlanmışdı. Qızın adı Süfeyrə idi. Tacir təbiətli Əbi bəy təcrübəli adam idi. Həmişə müsahibi ilə danışanda gülümsəməyə çalışırdı. Qarabuğdayı sifətini işıqlı təbəssüm parladırdı. Ağzında cərgələnmiş qızıl dişləri par-par yanırdı. Sanki Əbi bəyin simasında parıltı-parıltıya qarışırdı. Süfeyrə də qarabuğdayı qız idi. Sonra birdən-birə ağarmağa başladı. Kimsə bilmədi ki, bu qız sinəsi mərmərli Savalanın qonşuluğunda yaşadığındanmı, kəndimizin yanından keçən Neştəri çayının gümüş ləpələrində yuyunduğundanmı, yoxsa "Qəcəl" bulağının büllur sularından içdiyindənmi belə ağarıb? Ancaq hamı gördü ki, Süfeyrə arandan yaylağa köçəndən sonra ağ mayaya dönüb. Acı rəftarlı Əbi bəy şirin dili ilə Mədədi soyub talamışdı. Yazıq oğlan hətta su dəyirmanında atasından qalma mülk payını da satıb qıza lazım olan bəzək şeylərinə xərcləmişdi. Ancaq atalar deyib ki, sən saydığını say, gör fələk nə sayır? (Ancaq fələk yox, tale!). Sən demə, Süfeyrə Mədədin nişanlısı ola-ola Məşədi Sərməsin qardaşı Məhəmmədlə gizli-gizli görüşürmüş. Məhəmməd arıq, uzun, laqeyd bir oğlan idi. Həmişə deyib gülməyi, gəzib dolanmağı, kef çəkməyi xoşlayırdı. Əbi bəyin evi kəndin qırağında, Neştəri çayına enən yolun üstündə idi. Çaydan baxanda ev zirvədə tikilmiş külafirəngiyə bənzəyirdi. Bu külafirəngidə nələr baş verdiyini kənardan baxanlar aşkar görə bilirdi. Məhəmmədin bu külafirəngidə Süfeyrə ilə dəfələrlə görüşdüyünün şahidi olanlar az deyildi. Lakin sadə Mədəd mahir qızın



xəyanətinə inanmaq istəmirdi. Nəhayət, zavallı oğlan tamam var-yoxdan çıxıb, bir qədər də borca düşüb toy etdi. Günlər keçdi... Kənddə yenə də Məhəmmədin Süfeyrə ilə görüşdüyü haqqında söz-söhbət gəzdi. Mədədsə yenə də inanmaq istəmədi. Lakin toydan heç üççə ay keçməmiş kənddə heyrətli bir xəbər yayıldı. Süfeyrə biçinin qızğın çağında Mədədi içəridə biçinçilərlə süfrə başında qoyub qapını daldan bağlayıb, sonra Məhəmmədə qoşulub qaçıb. Qaçanların sorağı qonşuluqdakı Barı kəndindən gəlib. Bu xəbər qəzəb dalğasına dönüb bütün kəndi çulğadı. Ağsaqqallar araya girib tayfa davasının qarşısını zorla ala bildilər. Dedilər ki, qoy qan düşməsin. İşə divan özü baxsın...

Gec olsa da, Mədəd yalnız indi ikiüzlü qızın xəyanətinə inanıb talağını verdi. Təzədən borc-xərc eləyib öz xalası qızı ilə evləndi. Sən demə, qız da Mədədi çoxdan sevirmiş. Mədəd isə əsl sevgiyə laqeyd imiş! Mənə həddindən artıq təəccüblü görünən o idi ki, Molla Mərdalı öz qardaşı oğlunun rəqibinin qardaşı ilə birləşmişdi! Bəli! Xüsusi mülkiyyət onları ümumi işdə birləşdirmişdi. Sərvət qeyrətə qalib gəlmişdi...

Qonaqları nəzakət xatirinə axşam konsertə dəvət etdim. Dedim ki, qoy Molla Mərdalı öz xırda gözlərilə səhnəmizin böyük cəlalını görsün. Sonra öz aləmində kənddə çıxartdığı şəbehlə müqayisə etsin.

Axşam doğrudan da baxışlarını səhnəyə zilləyən Molla Mərdalının ağzı açıla qalmışdı. Sanki o, səhnədə çağlayıb salona tökülən nəğmə şəlalələrini udmaq istəyirdi ki, qayıdanda kəndin toz-torpaqlı küçələrinə səpə-

ləsin. Sanki o şövqlə çalan sazəndələri, ilhamla oxuyan müğənniləri, həvəslə oynayan rəqqasələri gözlərinin aynasına köçürüb kəndə aparmağa çalışırdı ki, hamıya göstərsin... Deyəsən Molla Mərdalı bu vasitəçiliyi öz boynuna götürməsə də işıqlı sənət dünyasına baxa-baxa düşünürdü ki, yeni fikirli insanların təkcə torpaq haqqında deyil, həyatın bütün sahələri barəsində əqidəsi dəyişmişdir! Bəli! Daha insanlar şəbehlərdə göz yaşı tökmək, sinə vurmaq, baş yarmaq yox, təntənələrdə sevinmək, gülmək, oynamaq istəyirlər...

## HEYRƏTLİ BAXIŞLAR

*Rübab var, zülmə qarşı*
*Alovlu qiyam edir!*
*Rübbab var, nərə çəkən*
*Aslanı aram edir.*

Səhər məşqlər başlamazdan əvvəl xidmətçi yanıma gəlib dedi ki, sizi həyətdə bir adam çağırır. Özü silahsızdır. Ancaq yanında bir dəstə silahlı adam var. Nə fədailərə, nə də əsgərlərə oxşayırlar. Məni heyrət bürüdü. Bu adam nəçidir? Yanındakı silahlı adamlar kimlərdir? Belə adamların burda nə işi ola bilər? Bura ki, nə cəbhə, nə də qərargahdır. İncəsənət ocağıdır. Nə isə... Qalxıb həyətə çıxdım. Silahsız adamı dərhal tanıdım. Bu Qulu Xəyyami idi. Ərdəbildən tanışdıq. Bir şəhərdə, bir təşkilatda işləmişdik. Qulu Xəyyaminin əsli Şahsevən tayfalarından olan Sərxanbəylilərdən idi. Qulu Xəyyami ilə görüşməzdən qabaq uzaqdan bildim ki,



yanındakılar da Şahsevənlərdir. Bunu bilməyə nə var ki? Şahsevənlərin başlarındakı buxara papaqlar, ayaqlarındakı uzunboğaz çəkmələr, bellərindəki fişəng dolu qatarlar, əllərindəki tüfənglər özləri sahiblərinin kim olduqlarını aşkar bildirirdi... Qulu Xəyyami məni bir kənara çəkib qulağıma pıçıldadı ki, bunlar Şahsevən bəyləridir. Təbrizə mənimlə gəliblər. S.C.Pişəvəri ilə görüşəcəklər. İstəyirəm ki, bu axşam verəcəyiniz konsertə bunlar da tamaşa etsinlər. Belə lazımdır. Sonra əhəmiyyətini sənə danışaram. Danışmaq artıq idi. Onsuz da hər şeyi bilirdim. Təbrizdə eşidirdim ki, Şahsevənlər xarici dövlətlərin təhriki ilə, İran hökumətinin fərmanı ilə, yerli ruhanilərin fitvası ilə, tayfa başçılarının rəhbərliyi ilə qaçaq dəstələri düzəldib dinc əhalini döyür, incidir, talayırlar. Firqə üzvlərini Allahın üzünə ağ olmaqda, dini tapdalamaqda, namusu satmaqda təqsirləndirirlər. Günahsız adamlara cəza verirlər. Guya demokratlar azadlığın dostu deyil, düşmənləridir. Guya firqəçilər keçmiş milli adət-ənənələri qoruyub saxlamaq əvəzinə yığışdırırlar. Guya təzə hökumət qədim mahnıların oxunmasını da qadağan etmişdir. Bəli! Düşmənlər belə-belə cəfəngiyyatlarla Şahsevənlərin qulaqlarını o ki var, doldurmuşdular. Mən Qulu Xəyyamiyə razılıq verib tanımadığım qonaqları küçə qapısına qədər müşayiət etdim...

Şahsevənləri yaxşı tanıyırdım. İstər Savalanda, istərsə də Muğanda Şahsevənlər arasında çox olmuşdum. Doğma kəndimiz Çanaxbulaq Savalanın ətəyində böyük el yolunun üstündə yerləşirdi.





Şahsevənlər Muğandan Savalana qalxanda, Savalandan Muğana enəndə bu yoldan keçirdilər. Ucsuz-bucaqsız qoyun sürülərinin yolda qaldırdıqları toz dumanı kəndimizin üstünü bürüyürdü. Köç vaxtı kənd çayxanaları gecəli-gündüzlü işləyirdi. Şahsevənlər kənd adamlarıyla yoldaşlıq, dostluq, qohumluq edirdilər. Biz yayda Savalana köçəndə yaylaqlarda Şahsevənlərlə od qonşusu olurduq, xeyirdə, şərdə bir-birimizə əl tuturduq. "Pələngli"də, "Canıyarlı"da, "Mehdixanlı"da, "Şümşürxa-



na"da... heyvanlarımız yanaşı otlayırdı. Payızda Muğana gedəndə biz Bərzənddə, İmarətlidə, Xoruzluda, Aslandüzdə Şahsevənlərdən hörmət görürdük. Araz qırağına qədər səpələnmiş keçə alaçıqlar arasında qəriblik hiss etmirdik. Şahsevənlərin kişiləri mərd, işgüzar, xeyirxah idilər. Əlləri də, gözləri də, ürəkləri də açıq idi. Başqa bir qadına dünya gözəli olsa belə gözucu da baxmazdılar. Azadlığı, sərbəstliyi, düzgünlüyü sevirdilər. Qadınları da cəsarətli, dözümlü, vüqarlı idi. Üzləri, davranışları, söhbətləri açıq olsa da ürəklərinin qapıları həmişə özgələrinə bağlı olurdu. Sevgini, namusu, sədaqəti göz bəbəyi tək qoruyurdular. Kişilər də, qadınlar da qayğıkeşlik, fədakarlıq, mehribanlıq dastanını öz səmimi ülfətləri ilə naxışlayırdılar. İndi isə məkrli düşmənlər öz işlərini görə bilmişdilər. Şahsevənlərlə demokratlar arasında ziddiyyət toxumları səpmişdilər.

...Salon başdan-ayağa adamla dolmuşdu. Konsertin başlanmasına cəmi on dəqiqə qalırdı. Mən qapısı salona açılan iş otağımın qabağında dayanıb adamlara baxırdım. Salondakılar arasında fəhlələr də, kəndlilər də, ziyalılar da vardı. Sıralarda yoxsullar varlılarla yanaşı əyləşmişdilər. Hamı öz əsli-nəcabətini unudub intizarla konsertin başlanmasını gözləyirdi. Tacir öz mallarını, həkim öz xəstələrini, müəllim öz dərslərini yaddan çıxarmışdı. Qadınlar evlərində görəcəkləri işlər haqqında deyil, konsert barəsində düşünürdülər. Birdən, həyətə açılan qapıdan salona bir dəstə adam daxil oldu. Diqqətlə baxdım. Gələnlər Şahsevən bəyləri idi. Qabaqda Qulu Xəyyami, arxasınca bəylər gəlirdilər. Qulu Xəyyami paltosunu da, papağını da çıxarmışdı. Kostyumda

idi. Dalınca addımlayan bəylər isə papaqlı, paltolu, tüfəngli, qatarlı idilər. Gündüz filarmoniyanın həyətində necə görmüşdümsə, eləcə idilər. Bəylər sanki hörmət qazanmış bir sənət ocağına deyil, Muğanda qaçaq-quldurdan qoyun sürüsünü saldırmağa gəlmişdilər. Bu mənzərəyə istehza ilə baxan tamaşaçıların arasından bir uğultu keçdi. Hətta işvəkar xanımların arasında pıqqıldayanlar da oldu. Doğrusu, bəylərin bu nəzakətsizliyi mənə də pis təsir etdi. Əsəbiləşdim. Bu dəfə mən Qulu Xəyyamini bir kənara çəkib bəylərdən şikayətləndim. O isə birtəhər məni sakitləşdirdi. Yaxşı ki, bəylərə ayrıca yer saxlamışdıq. Tappaturupla keçib yerlərində əyləşdilər. Konsert başlandı. Doğma mahnılar səhnədə dil açdı. Müğənni oxuyurdu:

**Arpa çayı aşdı-daşdı,**
**Sel Saranı aldı qaşdı.**
**Ala gözlü, qələm qaşlı**
**Apardı sellər Saranı,**
**Bir ala gözlü balanı.**

**Arpa çayı dərin olmaz,**
**Axar suyu sərin olmaz.**
**Sara kimi gəlin olmaz,**
**Apardı sellər Saranı,**
**Bir ala gözlü balanı.**

**Arpa çayı düşüb oda,**
**Yaradan yetişsin dada,**
**Sarı başmaq üzür suda,**
**Apardı sellər Saranı,**
**Bir ala gözlü balanı.**



**Gedin deyin Xançobana**
**Gəlməsin bu il Muğana.**
**Muğan batıb qızıl qana,**
**Apardı sellər Saranı,**
**Bir ala gözlü balanı.**

Mahnı pərdə-pərdə salona yayıldıqca mən də müğənniyə dikilmiş gözləri heyrətdən açıla qalmış bəylərə baxırdım.

Müğənni oxuyub qurtardıqdan sonra səhnəyə rəqqasə qızlar çıxdı. Milli geyimdə süzən qızlar sülh göyərçinlərinə bənzəyirdilər. Bəylərin də nənələri, anaları, bacıları, arvadları, qızları həmişə belə geyinmişlər! Hazırda da belə geyinirlər. Belə çadrasız, rübəndsiz, yaşmaqsız yaşayırlar. Bəs hanı burda yasaq? Bu mahnı da, bu rəqs də, bu geyim də bəylərin öz ata-babalarından qalma deyil, bəs nədir? Əgər odursa, bəs onda bəylərin qulaqlarına hansı ağızlarınsa doldurduqları cəfəngiyyatlar nədir? Mən gözümü bəylərdən çəkmirdim. Şahsevənlər ətrafda əyləşənlərə mane olmasınlar deyə gah pıçıltıyla, gah da işarəylə bir-birlərinə nəsə başa salırdılar. Birdən, bəylərin başçıları xidmətçilərdən birini yanına çağırdı. Ona nəsə dedi. Sonra hamısı ayağa qalxdı. Xidmətçinin dalınca salondan çıxdılar. Tamaşaçılar heyrətə düşdü. Mən həyəcan keçirdim. Deyəsən Qulu Xəyyami də narahat oldu. Ancaq konsert davam edirdi. On dəqiqədən sonra qabaqda xidmətçi, arxada bəylər salona keçib yerlərində əyləşdilər. Şahsevənlər bellərindən açdıqları fişəng dolu qatarları da, əllərində möhkəm-möhkəm saxladıqları tüfəngləri də, başlarına bərk-bərk basdıqları papaqları da səhnə arxasında qoyub gəlmişdilər!

Mənim xalq mahnım! Vətən musiqim! Deyirlər ki, musiqi ilə poeziya doğma qardaşdır. Bəlkə ona görə səni dinləyəndə haldan-hala düşürəm. Gah ilhamlanıram, gah mətinləşirəm, gah kövrəlirəm. Ancaq sənət dostlarım məni qınamasınlar. Mən bütün məsuliyyəti öz üzərimə götürüb üstünlüyü sənə verirəm! Vətən musiqim! Sən xoşbəxt qardaşsan! Səni tərcüməsiz də hamı başa düşür. Poeziyanı qavramaq üçün şüur, hətta yüksək şüur gərəkdir! Səni isə şüursuz canlılar da başa düşür. Belə olmasaydı, gülşəndəki bülbül ürəyinə yatan bir səs eşidəndə cəh-cəh vura-vura oxumazdı. Qalın meşədə hənirdən də hürkən maral qaya başında qulaqlarını şəkləyib haradansa gələn şaqraq musiqi səsini diqqətlə dinləməzdi. Qürbətə uçan durnalar yol üstə sakit-sakit axan bir çayın həzin nəğməsinin qanadları altında əylənməzdi. Kim bilir, bəlkə dilsiz-sözsüz yaranmışlara da musiqi doğmadır, əzizdir, mehribandır! Bəlkə onların anaları da öz çağa balalarına laylalar çalmışlar. Sözsüz-səssiz laylalar! İnsanlardan gizli çalınan bu laylaları kimsə nə eşitmiş, nə də duymuşdur.

Deyirlər qədim zamanda məşhur muğamat ustası Əbdülqədir bir dəvə karvanıyla harasa gedirmiş. Yayın oğlan çağı olduğuna görə Günəş göy qübbəsindən çılpaq səhraya od ələyirmiş... Dünyada hər şeydən dözümlü olan dəvələr susuzluğa davam gətirə bilmirmiş. Müdrik sarban özünü itiribmiş. Bu zaman Əbdülqədir inamla sarbana: – Sən narahat olma. Dəvələr susuzluğunu unutsun deyə mən bir əncam çəkərəm – deyir. Sarban birtəhər özünü ələ alır. Əbdülqədir udda bir muğam çalmağa başlayır. Yanğıyla dolu muğam elə məhrəm, elə



doğma səslənir ki, dəvələr başlarını arxaya döndərib məharətlə çalınan udu maraqla dinləyir... Elə arxaya baxa-baxa da yumşaq pəncələrilə isti qumlar üstdə ləpirlər sala-sala irəliləyir. Başlarını qabağa döndərmədən su olan yerə doğru addımlayır. Qəribədir ki, dəvələr suya çatdıqdan sonra da başlarını qabağa döndərib su içməyi unudur. Yalnız muğam çalınıb qurtardıqdan sonra dəvələr başlarını qabağa döndərib su içir...

Əbdülqədirin qarşısında minnətdarlıqla əllərini döşünə qoyub ikiqat əyilən sarban isti qumlar üstdə sual işarəsinə dönür. Sanki o ecazkar musiqinin sirlərini Əbdülqədirdən soruşmaq istəyir. Bəlkə dünya görmüş müdrik sarban bilmir ki, qadir musiqi duyğuları oyadır da, yatırır da, yanğıları göynədir də, toxtadır da, müşkülləri xatırladır da, unutdurur da...

Bəli! Gənc sənət ocağı özünün qədim Vətən musiqisiylə qulaqları tüfəng atəşlərinə alışmış məğrur bəyləri başdan-ayağadək tərk-silah etmişdi...

## İKİ HƏDİYYƏ

*Dostun hədiyyəsi də*
*Əziz olur dünyda.*
*Bir damla hörməti də*
*Dəniz olur dünyada.*

Mən “Qələbə” karxanasına filarmoniya işçiləri üçün parça sifariş verməyə gedəndə Naxış adlı bir qızla tanış olmuşdum. Daha doğrusu, bizi karxananın müdiri vəzifəsində çalışan şair dostum İlham tanış etmişdi.

Naxış karxanada böyük bir sexin müdiri idi. Kollektiv içərisində hörməti vardı. Savadlı idi. Ərdəbildə qız mədrəsəsini bitirmişdi. Naxışın atası Nəzər Rövşən humanist şair imiş. Ancaq yazdıqlarını çap etdirmirmiş. Bu təvazökar sənətkar Milli hökumət qurulandan bir neçə ay əvvəl dünyadan köçmüşdü. Ancaq Naxışın əlilə iki qalın dəftərə köçürülmüş gözəl şeirləri yadigar qalmışdı. Mən kiçik bir müqəddəmə ilə Nəzər Rövşənin bir neçə şeirini yazıçı dostlarımdan birinin redaktor olduğu nüfuzlu bir qəzetdə dərc etdirdim. Özü də bu gözəl şairə həsr etdiyim kövrək bir şeirlə bərabər!

Naxışla tez-tez görüşürdüm. Qızı şeir gecələrinə dəvət edirdim. Filarmoniyanın konsertlərinə çağırırdım. O da məmnuniyyətlə gəlirdi. Təbrizin aylı gecələrində birgə gəzməyə çıxırdıq. Sonra Naxışı evlərinə ötürürdüm. Qəribədir, ürəkdə gizli-gizli bir-birimizi sevirdik. Dildə isə açıq-aşkar bu sevgini etiraf etməkdən çəkinirdik. Ancaq bizim bu etirafsız sevgimizi mənim xalam da, Naxışın anası da yaxşı bilirdi...

Bir gün işin axırında öz otağımda əyləşmişdim. Qapı döyüldü. – Buyurun! – dedim. Qapı açıldı. Gələn filarmoniyanın solisti müğənni Kəklik idi. O kağıza bükülü bir şeyi masamın üstə qoyub nəzakətlə: – Sizə kiçik bir hədiyyə gətirmişəm! – dedi. Mən minnətdarlıqla: - Çox sağ olun! – dedim. Kəklik təvazökarlıqla: – Elə bir şey deyil, isti köynəkdir. Qarşıdan qış gəlir. Geyərsiniz. İstəyirəm ki, siz hər dəfə bu köynəyi geyəndə məni xatırlayasınız – dedi. Mən səmimiyyətlə: – Onsuz da sizi həmişə xatırlayıram. Sizin tək bir sənətkarı xatırlamamaq mümkündürmü? – dedim. Kəklik etirazla: – Yalnız bir sənətkar tək! Eləmi? Unutmaq olmaz ki, sənətkar da insandır. Onun da ürəyi var! – dedi. Mən etirafla: – Özü də həssas ürəyi! – dedim. İsti köynək yaddan çıxdı. Söhbətin axarı başqa səmtə yönəldi. Mən bu axarı dayandırmaq məqsədilə Kəkliyə: – Hədiyyəniz üçün təşəkkür edirəm! – dedim. Kəklik qaynar gözlərindən mənim yorğun gözlərimə odlu bir təbəssüm saçıb getdi... Mən isə telefon zənglərindən macal tapıb isti köynəyə baxa bilmədim. Zəng edənlər konsertə gəlmək istəyən hörmətli şəxslər idi. İşin axırında isti köynəyi elə kağız arasında evə apardım. Xalamı öz otağıma çağırıb: – Bu isti köynəkdir. Qızlarımızdan biri toxuyub, mənə hədiyyə gətirib – dedim. Qadın ki, qadın! Hər şeyi bəyənmir. Sanki gözəlliyin özündə də qüsur axtarır. Bəli! Hər gözəlliyin şöhrət vüsətini öz arşınıyla ölçmək istəyir. Xalam hədiyyə bağlısını götürdü. İşıqda yaxşı-yaxşı nəzərdən keçirsin deyə həyətə apardı. Mən də soyunmağa başladım. Bir azdan xalam əlində isti köynək yanıma gəldi. Hədiyyə qəhvəyi rəngdə idi. Özünə də söz ola bilməzdi. Kəklik isti köynəyə elə nadir naxışlar vurmuşdu ki, o bir muzey eksponatı olmağa layiqdi. Ancaq bəs niyə bu hədiyyə məhz qəhvəyi rəngdədir? Başqa rəngdə deyil? Mən dərin düşüncəyə dalmadan bunun səbəbini tapdım. Sonra da Kəkliyin doğrudan da həssas bir ürəyə malik olduğuna bir daha inandım. Mənim bir neçə rəngdə kostyumlarım var idi. Qara, boz, göy, qəhvəyi... Ancaq çox zaman qəhvəyi kostyumu geyərdim. Kəklik də məni bu kostyumda daha çox görərdi. Mən qürurla xalama: – Hə, necə köynəkdir? Xoşuna gəlir? Özüm baxa

bilməmişdim. İndi görürəm ki, əla köynəkdir! Elə deyil xala? – dedim. Xalam səmimi etirafla: – Doğru deyirsən. Əla köynəkdir! Ancaq... – dedi. Mən nigarançılıqla: – Nə ancaq, ay xala? Deyəsən sözlü adama oxşayırsan – dedim. Xalam maraqla məndən: – O qızın adı nədir? – deyə soruşdu. Mən şəstlə: – Kəklik! – dedim. Xalam təbəssümlə: – Deyirəm axı, köynəyin ətəyində "K" hərfi yazılıb – dedi. Mən laqeydliklə: – Burda təəccüblü nə var ki. Müəllif əsərinin altında öz imzasını qoymuşdur – dedim. Xalam mənalı-mənalı mənə: – Məsələ burasındadır ki, o hərfdən sonra sənin adının baş hərfi yazılmışdır. O qız səni sevir – dedi. Xalam elə bildi ki, mənə təzə bir xəbər deyir. Daha bilmədi ki, mən bu məsələni çoxdan bilirəm. Ancaq Kəkliyin mehriban qayğılarının əhatəsində özümü bilməməzliyə qoyuram. Xalam ərklə dolu məzəmmətlə: – Nə qədər ki, sən Naxışı gətirməyibsən, belə hadisələr çox olacaq. Qızlar səni də, Naxışı da narahat edəcəklər. Bilmirəm sən canlara dəyən bir qızı qoyub nəyi gözləyirsən? – dedi. Mən inamla: – Naxış elə qız deyil, xala! O mənə inanır – dedim. Xalam etirazla: – İnananda nə olar? Naxış inamının ucbatından əzab çəkməlidir? Doğrudur, son nəfəsə qədər sevən sevənin əzabına qatlaşmalıdır. Ancaq sevənlər ailə quranda inamları daha da möhkəmlənir. Həyat yollarında hər hansı əzabı şərik çəkdikləri üçün ağır yükləri yüngülləşir. Bəli! Bir var, əzabı şərik çəkəsən, bir də var, tək... Gör nə qədər fərqi var! – dedi. Mən zarafatla: – Fikir eləmə, xala! İnşaallah şərik çəkərik – dedim. Xalam narazılıqla: – Sən elə hər şeyi



zarafata salırsan. Heç dərindən fikirləşmirsən. Nə öz taleyinə acıyırsan, nə də Naxışın – dedi.

Xalam məndən inciyib getdi. Ancaq bilmədi ki, mən bu haqda dərindən də dərin düşünürəm. O dərinliyi xalam heç təsəvvürünə də gətirə bilməz. Mən özüm də o dərinlikdə çabalaya-çabalaya yoruluram. Bir yana çıxa bilmirəm. Yenicə gülməyə başlayan titrək dodaqlarımda qarışıq dövran, döyüşən Vətən, naməlum tale! – deyə pıçıldayıram.

Kəklikgilin evləri Savalan ətəyindəki Ağ İmam kəndində idi. Atası inqilabçı imiş. Bir axşam partiya tapşırıqlarıyla şəhərdən kəndə qayıdanda yolda öldürülüb. Qatillər ağanın nökərləri imiş. Kəkliyin taleyindən nigaran qalan anası qızı Təbrizdə yaşayan bibisi Məhəbbətin yanına göndərib. O, Təbrizdə bir tacir oğluna könülsüz ərə gedəndən sonra ayrılıb. Qız yenə də bibisinin yanında yaşayırdı. Kəklik kənd məktəbini bitirmişdi. Oxumağı, yazmağı yaxşı bilirdi. O, qənirsiz gözəl idi. Öz nadir hüsnüylə daş ürəkləri belə fəth etməyə qadir idi. Ancaq mən aramızdakı ülfətin səmimi hörmət çərçivəsindən kənara çıxmasına yol verməzdim. Həmişə salondakı ilk sırada əyləşib səhnədəki məşqlərə diqqətlə qulaq asanda Kəklik hər şeyi unudub sanki mənim üçün oxuyardı. Sanki ikimiz bir otaqda olardıq. O da oxuyardı. Amma oxuyardı ha! Kəkliyin zəngulələri şaqqıldayanda yadıma Savalanın kəklikli qayalarından axıb tökülən gümüş şəlalələr düşərdi... Filarmoniyaya xarici qonaqlar gələndə onsuz da yaxşı oxuyan Kəklikdən daha da yaxşı oxumasını xahiş edir-

dim. O isə etirazla mənə: – Sizə xahiş eləmək yaraşmır. Siz məğrur adamsınız. Siz əmr edin! Mən də siz necə istəyirsinizsə, elə də oxuyum – deyirdi. Mən Kəkliyin eyhamını başa düşürdüm. Ancaq özümü o yerə qoymurdum. Kəklik məğrurluğumu onun sevgisinə cavab verməməyimdə görürdü. Bəli! Düşünürdü ki, mənim gözəlliyimə, sevgimə, nəzakətimə məhəl qoymayan adam nə üçün indi məndən daha yaxşı oxumağımı xahiş edir? Qəribədir, deyirlər ki, gözdən iraq olan könüldən də iraq olur. Sən demə, heç də belə deyilmiş. Kəklik səhərdən axşama qədər gözlərimin qabağında idi. Hər gün qaynar gözlərini dalğın gözlərimə dikə-dikə öz sevgi dastanının bir səhifəsini oxuyurdu. Oxuduqlarını ikimizdən başqa heç kim eşitmirdi. Ancaq mənim xəyalım Naxışın yanında idi. Deyəsən o da Kəkliyin məni sevdiyini duymuşdu.

Mən işə hamıdan tez gəlirdim. Bu səhər Kəklik işə məndən də tez gəlmişdi. Sən demə, niyyəti varmış. Məni görən tək əynimə baxdı. İri gözləri birdən-birə buludlandı. Sonra gileylə mənə: – Salam! İsti köynəyi niyə geyməyibsiniz? Yəqin bəyənməyibsiniz – dedi. Sən demə, həssas ürək qızılgül yarpağından da nazik olarmış. O xəfif mehdən də sına bilərmiş. Ancaq sənətkar Kəkliyin ürəyi həssasdan da həssas idi... Bu zaman üfüqdən qızara-qızara qalxan Günəş köməyimə çatdı. Mən etirazla: – Siz nə danışırsınız? Elə köynəyi də bəyənməmək olar? Ömrümdə hələ o köynəyin tayını görməmişəm. O incə, həssas, mahir bir sənətkarın əllərindən çıxmışdır. O əllər öpülməyə layiqdir – dedim.



Kəklik iki əlini də qabağa gətirib baxdı. Elə bil öz əllərini ilk dəfə görürdü. Bu zaman Kəkliyin iri gözlərində çağlayan təbəssümün parlaq işığı əllərinə düşdü. Sanki salonun ala-toranında əllər daha da ağardı. Mən təbəssüm işığında Kəkliyin ağ, nazik, kövrək əllərini titrək dodaqlarıma aparıb öpdüm. İlıq öpüşüm oda çevrilib müğənninin ürəyinə doldu. Onu məhrəm qayğıyla isindirdi. Kəkliyin qızılgül yarpağına bənzəyən dodağının üstdə şeh damlaları parladı. O tərləmişdi. Ancaq xəcalətdən yox! Sevincdən. Bəli! İnsan tərəddüdlə dolu nigarançılığı öz çiyinlərindən atanda sevinir. Amma güc itirdiyinə görə tərləyir. Kəkliksə bu işdə güc yox, səmimiyyət sərf etmişdi. Mehriban ülfətimdən fərəhlənən müğənni təəccüblə: – Onda bəs nə üçün isti köynəyi geyməyibsiniz? – deyə soruşdu. Mən Kəkliyin əllərini nəzakətlə buraxıb: – Bir üfüqə baxın! Günəş qızara-qızara ucalır. Bir azdan havanı elə qızdıracaq ki, adam tərləyəcək – dedim. Kəklik incik-incik mənə: – Deməli ha-va günəşli olanda siz isti köynək geyməyəcəksiniz. Günəş özünü ilin bütün fəsillərində göstərir də... – dedi. Mən qətiyyətlə: – Yox! Geyəcəyəm. İndi ki, təkid edirsiniz, hökmən geyəcəyəm – dedim. Kəklik mehriban-mehriban: – Yox! Təkid nədir? Xahiş edirəm. Axı o köynək mənim əməyimin bəhrəsidir. Mən də istəyirəm ki, öz əməyimin bəhrəsini görəm – dedi. Mən səmimiyyətlə: – İnşaallah tez-tez görərsiniz! – dedim. Kəklik məşqə getdi. Düşündüm ki, bu hədiyyənin müqabilində müğənniyə bir hədiyyə alım. Ancaq arada bir münasibət olsun. Yoxsa Kəklik elə bilər ki, mən hədiyyəyə əvəz

alıram. Qət etdim ki, müğənniyə elə bir hədiyyə alım ki, isti köynək tək bir fəsillik olmasın. Kəklik həmişə özüylə gəzdirsin. Hər dəfə o hədiyyəyə baxanda sevgisinin təkanıyla çırpınan ürəyi sakitləşsin. Amma məqam gözləmək lazımdı. Sən demə, elə bir məqam gəlib çatıbmış. Sabahı mən işə gələndə isti köynəyi geymişdim. Qapı döyüldü. – Buyurun! – dedim. Kəklik içəri girdi. İsti köynəyi əynimdə görüb sevinclə: – Bax, belə ha! Görün köynək sizə necə yaraşır! – dedi. Sonra intizarla: – Ölçüsü necədir? Əyninizə yaxşı olurmu? – deyə soruşdu. Mən zarafatla: – Sizin gözlərinizin məharətinə heyran qalmışam – dedim. O maraqla: – Hansı məharətinə? – dedi. Mən etirafla: – Əynimin ölçüsünü düz müəyyən etmək məharətinə! – dedim. Kəklik qürurla: – Mən özüm də öz gözlərimin məharətinə heyranam! – dedi. Mən maraqla: – Nəyə görə? – dedim. Kəklik qətiyyətlə: – Məni zənnimdə aldatmadığına görə! – dedi. Mən canıyananlıqla: – Onda o gözləri qorumaq lazımdır – dedim. Kəklik təəccüblə: – Nədən? – deyə soruşdu. Mən tövsiyəylə: – Göz yaşlarından! Gözlərin birinci düşməni öz duzlu yaşlarıdır. Duzlu yaşlar gözləri elə yandırır ki, heç alov da elə yandırmaz! Sönəndə isə gözlərin işığını da söndürür – dedim. Kəklik təəssüflə: – Göz yaşlarının ixtiyarı adamın özündə deyil – dedi. Mən narazılıqla: – Bəs nədədir? – deyə soruşdum. O şikayətlə: – İnsanın ürəyindədir! – dedi. Mən mehribanlıqla: – Ona görə də insan öz qısa ömründə ürəyini kədərlə yox, sevinclə doldurmalıdır – dedim. Kəklik inamla: – Mənə elə gəlir ki, ən böyük



sevinc insanın dünyaya gəlməsidir. Sabah mənim anadan olduğum gündür. Sənət dostlarımı kiçik təvəllüd məclisinə çağırmışam. Gəldim ki, sizi də dəvət edim. Ümidvaram ki, mənim səmimi dəvətimi qəbul edərsiniz – dedi. Mən məmnuniyyətlə: – Əlbəttə, Kəklik xanım! Sizin məclisinizə gəlməmək olarmı? – dedim. Kəklik arxayın getdi. Mən günorta nahara evə getmədim. Zərgər dükanına getdim. Zərgərə dedim ki, mənə qız yaxasına taxmaq üçün sabaha bir sancaq lazımdır. Özü qızıldan olsun. Üstündə yazılacaq sözlər zümrüddən, yaqutdan, firuzədən... Zərgər şəstlə: – Olar! – dedi. Mən cibimdən əvvəlcədən yazdığım “Əlidən Kəkliyə yadigar” sözlərini çıxarıb zərgərə verdim. Zərgər sözləri oxudu. Mən nigaranlıqla zərgərə: – Xahiş edirəm, sancaq hədiyyə olmağa layiq bir şəkildə düzəldilsin! – dedim. O işgüzarlıqla: – Arxayın olun! Əlimdən gələni əsirgəmərəm – dedi. Mən intizarla: – Xərci nə qədər olacaq? – dedim. Zərgər təbəssümlə: – İki yüz tümən! – dedi. Mən cibimdən yüz tümən çıxarıb zərgərə beh verdim. Sabah günorta sancaq üçün gələcəyimi deyib evə yollandım...

Sabahı günorta çağı zərgər dükanına getdim. Zərgər sancağı ovcunda gətirib qarşımda tutdu. Sancağa baxdım. Gözlərim qamaşdı. Sanki zərgərin ovcunda kiçik bir göy qurşağı parlayırdı! Yox! Deyəsən əlvan daşlar yanırdı. Sonra üstündə yazılmış sözləri işıqlandırırdı... Doğrusu, zərgərin məharətinə heyran qaldım. Yadıma “zər qədrini zərgər bilər” sözləri düşdü. Xəyalım qərb məmləkətlərinin zəngin muzeylərini dolaşdı...

Axı o muzeylər şərqin belə adsız-sansız ustalarının qadir əllərindən çıxmış nadir sənət əsərlərilə bəzənmişdi... Mən cibimdən yüz on tümən də çıxarıb zərgərə verdim. O pulları saydı. On tümən artıq olduğunu görüb həyəcanla: – Ağa, on tümən artıq veribsiniz – dedi. Mən səxavətlə zərgərə: – O da sizin hədiyyəniz – dedim. Zərgər minnətdarlıqla: – Sağ olun – dedi. Dükandan çıxdım.

Axşam Kəkliyin təvəllüd məclisinə getdim. Məni Kəklik özü qarşıladı: – Siz çox xoş gəlibsiniz! Həmişə siz gələsiniz – dedi. Mən cibimdən sancağı çıxarıb elə dəhlizdə Kəkliyin yaxasına taxdım. Sevindi. Təbəssümlü gözlərində büllur yaşlar giləlləndi. Sevinc yaşları! O yaşlar sancağın üstündəki daşlardan qat-qat parlaq idi! Kəklik bibisi Məhəbbəti çağırdı. Qadın gəldi. Qardaşı qızına gətirdiyim hədiyyəni gördü. O da sevindi. Kəklik məni əlimdən tutub içəriyə apardı. Məclisə gələnlərin hamısı öz işçilərimiz idi. Görüşdük. Kəklik məni yuxarı başda əyləşdirdi. Mən əynimdəki isti köynəyi Kəklik görsün deyə pencəyimin qabağını açdım. Süfrəyə baxdım. Kəklik süfrəni bir rəssam zövqüylə əlvan, ləziz, nadir nemətlərlə bəzəmişdi. Məclisdəkilər məni masabəyi seçdilər. İlk badələri Kəkliyin sağlığına qaldırdıq. Məclis qızışdı. Tar, kamança, qaval dilə gəldi. Yadıma ataların "zurnaçı ola, öz toyu ola" sözləri düşdü. Bəli! Bu məclisin də çalanları, oxuyanları, oynayanları özümüzünkülər idi. Kəklik mənim bir şeirimin bir neçə sözünü dəyişdirib segah üstdə məlahətlə oxudu:



**Özünə bir Allah seçsə hər insan,**
**Sənsən bu dünyada Allahım mənim!**
**Mən zirvə qarından təmizəm, inan,**
**Səni sevməyimdir günahım mənim.**

**De, niyə sevgimi duymayırsan sən,**
**Məni yaxınına qoymayırsan sən,**
**Yoxsa başqasından doymayırsan sən,**
**Kiçik eyhamdan da agahım mənim.**

**Azad böyümüşdüm külfət içində,**
**Haçan gəlin getdim möhnət içində,**
**Sanki yoxsullaşdım sərvət içində**
**Bir dəhşətə döndü nikahım mənim.**

**İstərəm həmişə bir yerdə olaq,**
**Nəğməli bir tarda cüt pərdə olaq.**
**Ancaq həm xeyirdə, həm şərdə olaq,**
**Sənsiz açılmasın sabahım mənim.**

**– Bir içim su! – deyə yananda ürək,**
**Hansı çeşmənisə ananda ürək,**
**Kiçik piyaləni dananda ürək,**
**Öz sevgimlə dolsun surahım mənim.**

**İçim! Çevrilməsin sevgim röyaya,**
**Çay çaya qarışar, dərya dəryaya,**
**Dağ dağa söykənər, qaya qayaya,**
**Sənsən arxam mənim, pənahım mənim!**

**Həyat da sevgidir, sənət də sevgi,**
**Məzhəb də sevgidir, niyyət də sevgi,**
**İlham da sevgidir, heyrət də sevgi,**
**Sevgidir yanıqlı segahım mənim!**

**Sevgini ülviyyət sanan könlümdür,**
**Gündüz də, gecə də anan könlümdür,**
**Sənin həsrətinlə yanan könlümdür,**
**Sevgi döyüşündə silahım mənim!**

Amma yox, Kəklik məni öz silahımla vururdu. Özü də elə vururdu ki, məclisdəkilər bu silahın atəşini eşitsələr də sinəmdə açdığı deşikləri görmürdülər. Axı, Kəklik mənim öz şeirimi öz ünvanıma oxuyurdu. Həm də eyhamla, təəssüflə, gileylə oxuyurdu. Mən isə Kəkliyin fərəhlə dolu təvəllüd gecəsində oxuduğu sevgi dolu misralara təbəssüm dolu gözlərimlə cavab verirdim...

Məclis gecəyarısı dağıldı. Mən xiyabana çıxanda başımı qaldırıb göyə baxdım. Sanki ulduzlar da Kəkliyin sağlığına badə qaldırmışdılar. İndisə xumar-xumar mənə baxırdılar. Xəyalımda Naxışla Kəkliyi müqayisə edə-edə evə yollandım...

## ƏLVAN NEMƏTLƏR

*Nemət var, ağızların*
*Dadıdır, ləzzətidir,*
*Nemət var, ölkələrin*
*Şanıdır, şöhrətidir.*

Milli hökumətin Vətənin, xalqın, firqənin mənafeyini nəzərə alan mühüm tədbirlərlə dolu həyat proqramı doğma diyarın gözişləməz üfüqləri qədər geniş, zəngin, əlvan idi! Bu tədbirlər sırasında əmək adamlarının güzəranını yaxşılaşdırmaq mühüm yer tuturdu. Obrazlı desək, əgər nəzərə alınan ayrı-ayrı tədbirlərin



hərəsi bir nəğməydisə, bu tədbir hər nəğmədə bir nəqarət idi! Milli hökumət əmək adamlarının işinə,ləyaqətinə görə maaş verirdi. Bu maaşın nüfuzu idarədə də, evdə də, bazarda da insan zəhmətinin əvəzsiz dəyərini yüksəldirdi! Bir sözlə, əmək adamları firavan yaşayırdı. İnsanlar daha gündəlik ruzu pulu haqqında fikirləşmirdilər. Hünərlə, qürurla, inamla həyata keçirəcəyi böyük məqsədlər barəsində düşünürdülər. Bəli! Əmək adamları yaşayış xərcləri qayğısından tamam azad idi. Ancaq quruculuqla məşğul olurdu.

Biz arabir fasilədə işdən çıxıb nahar etmək üçün şəhər içinə yollanırdıq. Pasajda müasir dəbdə düzəldilmiş bir restoran vardı. Sahibinin adı Əsgər, təxəllüsü Mehri idi. Bu sarıbəniz adamın dolu sifətindən təbəssüm əskik olmazdı. Sanki şirindil, söhbətcil, qonaqpərvər Əsgərin simasında həmişə qızıl şəfəqlər sayrışırdı. O daim öz müştərisini mehriban ünsiyyətlə razı salmağa çalışırdı. Deyirdilər ki, Əsgər vaxtıyla Qafqazda yaşayıb. Ona görə də restoranında Qafqaz səliqə-sahmanı vardı. Bu səliqə-sahman Əsgərin öz müştərilərilə davranışında da duyulurdu. Bu restorana gələnlərin əksəriyyəti, bəlkə də hamısı ziyalılar idi. Mən Balaş Azəroğluyla ora nahar etmək üçün tez-tez gedərdim. Biz masa arxasında əyləşib əlimizi menyuya uzadanda Əsgər başımızın üstündə sifarişə müntəzir dayanırdı. Restoranda mədəni davranışlı xidmətçilər az deyildi. Ancaq Əsgər özü həmişə bizim yeməyimizlə maraqlanırdı. İstəyimizi yerinə yetirməyə çalışırdı. Restoranda cürbəcür xörəklər hazırlanırdı. Uzun, enli, qalın menyunu həm Şərq, həm də Qərb xörəklərinin adları bəzəyirdi...

Bir dəfə cücə qızartması sifariş verdik. Zərlə naxışlanmış iki çini nimçədə xına rənginə boyanmış cücələr gətirildi. Mən kənddə yaşayanda qızardılmış xoruzu da, beçəni də, toyuğu da, fərəni də əllərimlə yeməyə öyrənmişdim. Bu adət kənddə çəngəl-bıçaq yoxluğundan deyil, kəndli sadəliyindən irəli gəlirdi. Ancaq sadə kəndli müdrik rəiyyət idi. O əmək meydanındakı dəyanətli narahatlıqdan sonra süfrəsinin başında əziyyətsiz rahatlıq istəyirdi. Mən də belə kəndlilər arasında böyümüşdüm. Burda da qızardılmış cücəni əllərimlə yeməyə başladım. Balaş çörək dilimini sol əlilə götürdü. Çəngəli isə sağ əlinə aldı. Çörəyi dişlədi. Çəngəli isə cücəyə batırdı. O yana, bu yana itələdi. İstədi cücəni çəngəllə yeyə. Ancaq bir şey çıxmadı. Mən güldüm. Hətta kənardan bizi maraqla süzən Əsgər də güldü. Sonra masamıza yanaşıb ərklə: – Cücəni çəngəlsiz də yemək olar. Bax, belə! – dedi. O cücəni nimçədən götürüb əllərilə parçaladı. Sonra bir budunu ağzına qoyub çeynədi. Mən Əsgərin bu sadəlövh hərəkətinə baxıb uğundum. Balaş pərt olmadı. Üzündəki pərtliyi gözlərindəki təbəssümlə örtdü. Əsgər ürəklənib Balaşa: – Əziz dost! Bilirsənmi cücəni niyə əllərimlə parçalayıb yedim? Qorxdum ki, sən balığı da çəngəllə yeyəsən! – dedi. Sonra Əsgər Balaş üçün təzə qızardılmış cücə gətirtdi. O da əllərilə cücəni parçalayıb şirin-şirin rahat yedi...

İşlərimiz o qədər çox, gərgin, məsul idi ki, biz yeməyə, içməyə, yatmağa ayırdığımız vaxtı da qabaqcadan dəqiq hesablamalı olurduq. Filarmoniyada konsertlər gecə saat 11-də qurtarırdı. Mən işdən çıxıb şam etmək üçün "Qrand hotel" restoranına gedirdim. Bu Avropa səpgili restoranın həm qış, həm də yay salonları vardı. Həmişə də müştərilərlə dolu olurdu. Təbrizin yay gecələrində restoranın geniş damında yerləşən yay salonunda şam edə-edə şəhərin füsunkar mənzərəsinin cazibədar tamaşasına dalmaq, adama yediyi nemətdən daha artıq ləzzət verirdi. Sanki isti bədrlənmiş Ayın, sayrışan ulduzların büllur şəfəqlərində yuyunan böyük üstüaçıq salona girməyə qorxurdu. İsti ehtiyat edirdi ki, Eynal-Zeynal dağından əsib salondakıların üzünü nəvazişlə yelpikləyən sərin meh onu süpürüb damdan yerə atsın... O da bir daha özünə gəlməsin. Adama elə gəlirdi ki, o, şəhərdə deyil, hansı bir dağınsa axar-baxarlı zirvəsindədir. Bəzən bu restorana birlikdə, necə deyərlər, dəstə-cəmi gedirdik. Qapıdan daxil olcaq salam verir, münasib yerdə əyləşir, yemək istəyirdik. Bizi tanıyan xidmətçilər nəzakətlə ətrafımızda hərlənirdilər. Bu mehriban adamlar bizə ləyaqətlə qulluq etmək üçün əllərindən gələni əsirgəmirdilər. Lakin biz həmişə səfərbər vəziyyətdə olduğumuza görə çox intizarda qalmağı xoşlamırdıq. Xörəklər gecikdiriləndə narahat olurduq. Bu zaman mən üzümü yanımdakı dostlarıma tutub bir az ciddi, bir az zarafatyana: – Gözləməyə dəyməz! Sifarişlər hazır olana qədər bir az xiyabanda gəzişək ki, qıçlarımızın keyi açılsın! – deyirdim. Mənim tənəli sözlərimi eşidən xidmətçilər əl-ayağa düşüb dərhal sifarişləri gətirib səliqə ilə masanın üstə düzürdülər. Sonra hamımız bu əmələ gülürdük. Baş xiyaban-

dakı çilopəzxanada o qədər təzə, sərin, meyxoş ayranıyla çilokabab yemişdik ki, çiyrimişdik. Daha ağzımızın dadını dəyişmək istəyirdik. Bir gün nahara çıxanda Yaqub dayıya müraciətlə: – Bəlkə pitixanaya gedək – dedim. Yaqub dayı o boyda Təbrizi məhəllə-məhəllə deyil, küçə-küçə, dərbənd-dərbənd, ev-ev tanıyırdı. O bizi "Daş mağazalar"da bir piti dükanına apardı. Dükanın sahibi də, aşpazı da, xidmətçisi də Əliağa adlı tosqun bir kişi idi. Vaxtilə Bakıda yaşamışdı. Piti bişirməyi də orda öyrənmişdi. Əliağa hərəmizə qəhvəyi rəngli bir saxsı bardaqda sarıköklü piti verdi. Yanına kasa, çörək, qaşıq qoydu. Nazik dilimlənmiş şor xiyar, bir-bir yuyulub təmizlənmiş göyərti, fal-fal kəsilmiş baş soğan gətirdi. Sonra buyruğa müntəzir dayanıb üzümüzə baxdı. Bu zaman yoldaşlarımızdan biri çırtma ilə boğazına vurdu. Dərhal kişmiş üzümündən çəkilmiş araq büllur surahıda dumduru göz yaşı tək bərq vura-vura masamızın üstə hazır oldu...

Kollektivimizin istirahət günü idi. Bu axşam filarmoniyada konsert olmayacaqdı. Ancaq səhnədə qızğın məşq gedirdi. Rəqs ansamblı təzə nömrə ilə çıxış etməyə hazırlaşırdı. Mən salonun dal cərgəsində əyləşib məşqə tamaşa etsəm də xəyalım ilk sıralarda pərvazlanırdı. Yeni rəqsin konsertə gələnlər tərəfindən necə qarşılanacağını təsəvvürümdə canlandırmağa çalışırdım. Birdən sağ yanımda həyətə çıxan qapı açıldı. Gələn gənc, istedadlı, qəşəng rəqqasəmiz Səhərin ömür-gün yoldaşı Səfər idi. Bir ay əvvəl bu iki gəncin toyunu özümüz etmişdik. Məclisdə çalanlar da, oxuyanlar da,



oynayanlar da öz kollektivimizin üzvləri olmuşdu. Səfər mənə salam verib yanımda əyləşdi. Diqqətlə səhnəyə baxdığımı görüb söhbətlə fikrimi dağıtmaq istəmədi. Onun qəribə bir həyat tarixçəsi vardı. Atasının üzünü görməmişdi. Səfər hələ dünyaya gəlməmiş demokrat atası Şeyx Məhəmməd Xiyabaninin yaxın silahdaşlarından olmuşdu. O, inqilablar beşiyi Təbrizin alovlu meydanlarında – Vətən! Azadlıq! – deyə düşmənlərlə əlbəyaxa döyüşmüşdü. Qiyam yatırıldıqdan sonra Qərbi Avropa ölkələrindən birinə səfər etmişdi. Daha nə özü qayıtmışdı, nə də sorağı gəlmişdi. Oğlu dünyaya gələndə adını Səfər qoymuşdular. Səhərin də tərcümeyi-halı maraqlı idi. Qızın valideynləri beş il imiş ki, evlənibmişlər. Lakin övlad üzünə həsrət imişlər. Günlərin bir günündə Səhər dünyaya gəlir. Səhərin doğulduğu səhər elə təravətli olur ki, öz hüsnüylə beş illik ailənin taleyini bəzəyir. Atanın da, ananın da nigaran ürəklərində şübhə zülməti parçalanır. İnam günəşi parlayır...

Səhər səhnədə rəqs edəndə dan yeri sökülürdü, səhər açılırdı, Günəş doğurdu. O, aran göyərçini tək süzür, dağ kəkliyi tək səkirdi...

Firqəçi Səfər Milli hökumət idarələrindən birinin sürücüsü idi. Təbriz-Urmiyyə şosse yolunda maşınla yük daşıyırdı. Düşmənlər isə Urmiyyə mahalında azərbaycanlılarla kürdlər arasında ədavət toxumu səpirdilər. Səfər yola çıxanda arxasınca su atan Səhərin günəşli baxışları Aysız gecə tək qaralırdı. Biz işdə qızın tutqun könlünü təsəlli dolu ümidlə açmağa çalışırdıq. İmperialistlərin, şahpərəstlərin, feodalların, dindarların yağdır-

dıqları ayrı-seçkilik böhtanlarını birgə dəf etmək üçün Azərbaycan Milli hökumətinin nümayəndə heyətilə Kürdüstan Milli hökumətinin nümayəndə heyəti arasında Təbrizdə aparılan danışıqlar iki qonşu xalqın qədim təməl üzərində yüksələn dostluq abidəsini daha da möhkəmlətdi. Azərbaycan Milli hökuməti çalışdı ki, Urmiyyə mahalında yaşayan millətlərin arasındakı dostluq telləri üzüm bağlarının yaşıl tənəkləri tək üfüqdən-üfüqə uzanıb getsin! Bu tellər həmişə təzətər qalsın! Üzümün özü qədər şirin, təmiz, şəffaf olsun! Yeni-yeni parlaq nəğmələrə çevrilsin!

Bir axşam Mahabaddan gələn kürd dostlar da filarmoniyada qonağımız oldu. Səhər kürd qızlarının milli geyimində "Kürdün gözəli" xalq mahnısının ürəyəyatan melodiyası altında rəqs etdi. Səhnə arxasında isə müğənni həzin-həzin oxudu:

**Deyirlər kürd qızı çıxıbdır dağa,**
**Hava buludlanıb, qorxuram yağa,**
**Yağanda islana kürdün gözəli,**
**Başı şəlməli, gözü sürməli,**
**Sözü məzəli, kürdün gözəli...**

Sanki Səhər rəqs edə-edə öz çevik hərəkətlərilə səhnədə kürd qonaqlarının gözləri qarşısında təzə bir "Kürdün gözəli" mahnısını yazırdı. O mahnıda deyilirdi: Nə qədər ki, bu məğrur dağlarımızda sədaqətli dostluğun möhtəşəm qalası ucalır, yolumuz üstə nə qara buludlar qalanacaq, nə də kürd gözəli islanacaq! Kürd gözəlinin Günəş şəfəqlərində çimməyə, Vətən mehlərində qurulanmağa haqqı vardır!



Məşq qurtardıqdan sonra Səfər mənə dedi ki, Urmiyyədən dünən gəlmişəm. Qaynar şəhərdə mehriban həyat var. Hələ iki gün də Urmiyyədə qalmalıydım. Lakin tələsik qayıtdım. Axı bu gün Səhərin anadan olan günüdür. Gəlmişəm sizə deyəm ki, bu axşam bizə buyurasınız! Sənət dostlarınızla yoxsul evimizi bəzəyəsiniz. Mən Səfərin dəvətini minnətdarlıqla qəbul etdim...

Axşam faytonlara minib Səfərgilə yola düşdük. Bizi qapıda Səfər özü qarşıladı. Deyəsən Səhər içəridə səliqə-səhmanla məşğul idi. Otağa daxil olduq. Doğrudan da Səhər rəssam məharətilə süfrəni gözdən keçirirdi. Sanki yaratdığı lövhənin dəyərini yoxlayırdı. Süfrə yerdə, xalçanın üstə salınmışdı. Qəribəydi ki, süfrə həm sadə, həm də zəngin idi. Evdə Səhərdən başqa gənc bir kürd də vardı. Geyimindən dağ cəngavərinə bənzəyirdi. Səfər bizi qonağıyla tanış etdi. Adı Cəmo idi. Səfərlə birlikdə Urmiyyədən gəlmişdi. Təbrizdə işi vardı. Sən demə, Səfər də Urmiyyəyə gedəndə Cəmogildə qalırmış.

Biz geniş süfrənin ətrafında ata-baba qaydasıyla bardaş qurub əyləşdik. Məclis qızışmağa başladı. Məni masabəyi seçdilər. Əlimi süfrədəki şərabla dolu surahılara uzadıb: – Doldurun qədəhləri! İlk badəni səbəbkarın sağlığına içək! – dedim. Qədəhlər doldu. Deyilən sağlığa içildi. Səfərdən belə gözəl şərabı haradan aldığını soruşdum. O, qürurla – Urmiyyədən gətirmişəm! Urmiyyə şərabıdır – dedi. Mən Urmiyyəni görməmişdim. Ancaq gözəl şəhər olduğunu eşitmişdim. Hətta yaşıl şəhərlərin müqayisəsində söhbət Madriddən düşəndə üstünlük Urmiyyəyə verilirdi. Deyirdilər ki,

Urmiyyə özü boyda bağdır. Ləziz meyvələrini hətta dünya bazarlarına çıxarmağa qadirdir! Saatlar keçirdi. Biz isə Təbrizin Aylı axşamında Urmiyyənin Günəşli səhərinin nəfəsini duyurduq. Məclis daha da qızışırdı. Danışan kim, zarafatlaşan kim, gülən kim... Birdən tanınmış müğənnilərimizdən biri təklifsiz-filansız şaqraq səsilə "Kürdün gözəli" mahnısını oxumağa başladı. Məclis dərhal susdu. Təbəssümlü baxışlar məlahətli səsin gəldiyi səmtə çevrildi. Müğənni mahnının ilk misrasını deyib qurtarmamış ardını başqaları oxudu. Bütün məclis çalğısız bir xor idi. Nəfəs-nəfəsə, səs-səsə, çiyin-çiyinə "Kürdün gözəli"ni oxuyurdu. Mahnı bitdi. Sürəkli alqışların hərarətli dalğaları məclisin təbəssümlü sahiblərinə çatmamış "Sudan gələn sürməli qız" öz kuzəsilə könüllər otağının astanasında göründü. Cəmo təravətli səsilə "Sudan gələn sürməli qız" mahnısını oxuyurdu. Özü də necə oxuyurdu. Səmimiyyətlə dolu bir məhəbbətlə! Fəqət biz Cəmonu alqış leysanının altında tək qoymadıq. Səsinə səs verdik. Mahnını sona qədər birlikdə oxuduq. "Sürməli qız"ın kuzəsindəki şəffaf su parlaq inci tək fərəhli gözlərdə bərq vurdu.

Son badələri Vətənin, xalqın, azadlığın sağlığına qaldırdıq. Dost əllər birləşdi. Büllur qədəhlər cingildədi. Al şərablar çalxalandı. Sanki havada toqquşan dolu qədəhlər deyil, döyüş meydanında öpüşən Günəş rəngli zəfər bayraqları idi...



## "BAYRAQDAR"IN TALEYİ

*Şeir var, bir şairin*
*Duyğular dəmətidir.*
*Şeir var, bütün xalqın*
*Yazılı sərvətidir...*

Atalar deyiblər ki, gecənin xeyirindən gündüzün şəri yaxşıdır. Amma bilməyiblər ki, elə gecələr də xeyirli olur. Bəli! Bütün sənətkarlar bəlkə də ən gözəl əsərlərini məhz gecələr yaradırlar. Doğrudur, indi bu mənzərəni babalar görmür. Ancaq gecələr yana-yana bədrlənən Ay, parlaya-parlaya sayrışan ulduzlar bu mənzərənin tamaşasına maraqla dalır. Hətta dan yerindən qızara-qızara qalxıb yaraşıqlı dünyaya təbəssümlə baxan Günəş də bu mənzərəyə heyran qalır!

Şairin gecəsi şeirsiz keçməz deyiblər. Mən də hər gecə miz arxasında əyləşib işləyirdim. Bu gecə də havanın sərin olmasına baxmayaraq otağımın pəncərəsini taybatay açıb xiyabana baxdım. Xiyabanda yol boyu düzülmüş sarı yarpaqlı ağaclar gecəni öz hərarətilə əritməyə çalışan alovlu məşəllərə bənzəyirdi. Bu məşəllər mənim qaranlıq düşüncələrimi də işıqlandırırdı. Haçandı ki, S.C.Pişəvəri haqqında bir şeir yazmaq istəyirdim. İndi çoxsahəli fəaliyyətə malik olan o böyük azadlıq fədaisinə, fikir bahadirinə, sənət dostuma həsr etdiyim "Bayraqdar" şeirini yazırdım. Payız gecəsinin ətir dolu xəfif yelləri pəncərədən otağa dolub tellərimə sığal çəkdikcə mənim də qələmim ağ vərəqlər üstə sıralanmış misraları cilalayırdı. Mən milli hərəkatımızın sınanmış bayraqdarının coşqun həyatının yalnız bir gecəsini

şeirdə canlandırmaq istəyirdim. Bu şeir S.C.Pişəvəri haqqında yazılmış ilk şeir idi. Şeiri tamamladım. Bir neçə dəfə oxudum. Üzərində bir də əl gəzdirdim. Şeir belə alındı:

**Gecədir. Ay yanır bulud içində,**
**Ulduzlar sozarır sükut içində,**
**Təbrizin qoynunda dolanıram mən,**
**Küçədən-küçəyə yollanıram mən.**
**Şəhər yuxudadır... Yollara ancaq**
**Yenə işıq salır bir yorğun çıraq...**
**O kimdir otaqda hələ oyaqdır?**
**Yoxsa bu gecədə yanan mayaqdır?**
**Hey yazır, hey pozur əlində qələm,**
**Dalğın gözlərində canlanır aləm...**
**Mən bir gün fikirsiz görmədim onu,**
**Vətəndir sözünün əvvəli, sonu...**
**Daim ağ günlərə dikilən baxış,**
**Qara qaşlarını qayğıyla çatmış...**
**Tanıdım! O, müdrik Pişəvəridir,**
**Gənclikdən döyüşlər səfərbəridir.**
**Alnından süzülür narın incilər,**
**Bir kiçik otaqda uzun gecələr**
**Ah, nələr düşünür o həssas ürək,**
**Bildim! O ürəkdə bəslənən dilək**
**Bu xalqın ən ülvi məhəbbətidir,**
**Bu yurdun ən böyük səadətidir.**
**O söhbət edəndə öz millətindən,**
**Salonlar titrəyir hərarətindən.**



**O coşur, çağlayır, durulmayır heç,**
**Dinləyənlər necə? Yorulmayır heç.**
**Oxucum! Sanma ki, o ixtiyardır,**
**Çox da ağ alnında qırışlar vardır.**
**Vətənin kədəri, xalqın fəryadı**
**Onun ürəyində qubar bağladı.**
**Nə zaman ayağı dəydi bu yurda,**
**Dövran öz donunu dəyişdi burda.**
**O inamla dolu etiqadıyla,**
**Qələmi, zəkası, istedadıyla**
**Önümüzdə getdi bayraqdar kimi,**
**Biz də arxasınca havadar kimi**
**Döyüşdən-döyüşə yürüyüb getdik,**
**Arzunu qayğıya bürüyüb getdik.**
**Hələ çağırsa da səngərlər bizi,**
**Xoş üzlə gözləyir zəfərlər bizi...**

Səhər fasilə zamanı işdən çıxıb "Azərbaycan" qəzetinin redaksiyasına getdim. Redaktor yazıçı-jurnalist Fəthi Xoşginabi idi. Şeiri ona oxudum. Xoşuna gəldi. Dedi ki, şeiri mütləq ruznamənin gələn nömrəsində verəcəyəm. Şeir doğrudan da qəzetin növbəti nömrəsində ikinci səhifədə çap olundu (1325, Aban, 1 şənbə, nömrə 51). Mən Fəthi Xoşginabiyə zəng vurub öz təşəkkürümü bildirdim. O isə mənə dedi ki, S.C.Pişəvərinin yanına getmişdim. Məni o ki var, danladı. Tez Fəthidən soruşdum ki, axı niyə? Fəthi ağır-ağır dilləndi: – Dedi hələ biz nə iş görmüşük ki, siz mənim haqqımda belə şeir buraxıbsınız? Tutalım Əlinin ilhamı gəlib yazıb, sən niyə çap edibsən? Xalq buna nə deyər? Deməzmi

ki, özləri özlərini tərifləyirlər? Gözlərilə saysız-hesabsız fəlakətlər görən xalq özü məgər görmür ki, biz nələri yaratmışıq, hələ nələri də yaratmalıyıq? Görünən kəndə daha nə bələdçi? Müdrik bir xalqa izahat vermək naşılıqdan başqa bir şey deyildir!

Heyrətimdən dondum. Dəstəyin qulağımda olduğunu unudub düşündüm: – Təkcə oxucuların deyil, həm də qələm dostlarımın da xoşuna gələn bir şeiri qəhrəman özü niyə istəməsin? Həyatı, mübarizəsi, arzusu dastanlara layiq olan bir insan nə qədər də təvazökardır! Kaş hamımız ona bənzəməyə çalışaydıq. Yadıma firqə sədriylə filarmoniyada olan görüşlərimizdən biri düşdü. S.C.Pişəvərinin işi başından aşsa da arada vaxt tapıb filarmoniyanın konsertlərinə gəlirdi. O, konsertlərə sadəcə olaraq tamaşa etməyə, nəfəs dərməyə, zövq almağa gəlmirdi. Xeyr! Bu sənət ocağında verilən konsertlərin ictimai-siyasi-bədii məzmunları ilə maraqlanırdı. Hansı mahnının, hansı rəqsin tamaşaçılar tərəfindən necə qarşılandığını öz gözlərilə görüb, qulaqlarıyla eşitmək istəyirdi. Bir axşam da konsertə gələn Pişəvəri salonda birinci sırada mənim yanımda əyləşmişdi. Səhnədə əlvan konsert nömrələri bir-birini əvəz edirdi. Arada konfransye səhnəyə çıxıb mətni mənim olan lirik bir mahnının ifa olunacağını elan etdi. Müğənni sazəndələrin müşayiətilə səhnəyə gəldi. Tar, kamança, qaval dilləndi. Mahnı səsləndi. İki gəncin sevgisindən dedi... Ancaq mahnı hələ bitməmiş Pişəvəri üzünü mənə tutub narazılıqla: – Siz də ağ eləyirsiz! – dedi. Dərhal başa düşdüm ki, mahnının yalnız intim sevgidən danışması



firqə sədrini qane etməyib. Bəs niyə sən yox, siz deyir? Axı mahnının sözlərini mən tək yazmışam. Bax! Bunu başa düşə bilmədim. Ancaq başa düşməməyim uzun çəkmədi. S.C.Pişəvəri dedi: – "Azərbaycan" qəzetində dünən başqa bir şairin də şeirini oxudum. Xalq sizdən mübariz ruhlu şeirlər gözləyir. Elə şeirlər ki, hər günün öz tələbinə uyğun dərhal cavab verməyə tutarlı sözü olsun! Siz isə... Biriniz şeirində sevişənlərin fərdi duyğularından söz açır, biriniz şeirində Ayla danışır.

Onsuz da bizim gündəlik yaradıcılığımızda mübariz ruhlu şeirlər əsas yer tuturdu. Görünür firqə sədri bizim hələlik bu səpgidən kənara çıxmağımızı istəmirdi. Biz yaxşı bilirdik ki, Pişəvəri bəşəri duyğulardan heç də məhrum deyil. Azadlıq döyüşlərinin odları-alovları da bu həssas yazıçı-jurnalistin coşğun hisslərini quruda bilməz! İnqilablarla dolu kitabları döyüşlərdə bayrağa çevirən bu xalq qəhrəmanı ustad Hafizin, ustad Füzulinin sevgi dolu divanlarını da ürəkdən sevir. Ancaq "hər şeyin öz vaxtı var!" mülahizəsini də unutmur...

Sən demə, mən o qədər dərin xəyallara dalmışam ki, Fəthinin telefonda mənə dediyi sözlərin dalını eşitməmişəm. Birdən dəstək qulağımda gurladı: – Niyə susursan? – Sanki yuxuda idim. Ayıldım: – Susmamışam. Düşünürəm ki, indi mən nə edim? – dedim. Fəthi dedi ki, gərək çalışıb üç-dörd gün Pişəvərinin gözlərinə görsənməyəsən! – Mən: – Yaxşı! – dedim. Sonra dəstəyi yerinə qoydum. Yenə düşündüm. Tutalım üç-dörd gün bu müdrik insanın gözlərinə görünmədim. Bəs sonra? Axı Pişəvəri elə sönük hafizəyə malik olan adamlardan

deyil. Yaddaşına bir qığılcım düşdümü, mütləq ulduzlaşıb kişinin xatirələr kəhkəşanında əbədiləşir. Düşüncəmdə yanılmamışdım. Fəthinin dediyi üç-dörd gün keçdi. Filarmoniyanın işləriylə əlaqədar S.C.Pişəvərinin yanına getdim. Məni təmkinlə dinlədi. Yenə uğurlu göstərişlərilə görəcəyim işlərə istiqamət verdi. Rəsmi söhbət qurtardı. Müsahibim qeyri-rəsmi söhbətə keçdi. Özü də necə keçdi! Təmkinli məsləhət ehtiraslı məzəmmətə çevrildi. "Bayraqdar" şeirini yazdığıma görə Fəthiyə dediyi sözlərin üstünə yeni sözlər də əlavə edib məni o ki var, tənqid atəşinə tutdu. Ancaq bu atəşi açan silahın dəstəsi indi bir rəhbərin deyil, bir yazıçının əlində idi! Bəli! Müşahidəçi gözlərilə zəngin həyat hadisələri görən yaşlı bir yazıçı hərarətlə sənətdə təcrübəsi az olan kövrək qələmli bir şairə enişli-yoxuşlu yaradıcılıq yollarında necə addımlamağı öyrədirdi. Çünki Seyid Cəfər Pişəvəri təkcə siyasi aləmdə deyil, həm də ədəbi sahədə bizə bayraqdar idi.

İllər keçdi. Bu hadisəni unuda bilmədim. Ancaq qəribə də olsa şeiri unutdum. Axı şeirin nə üzü əlyazmalarımın arasında, nə də məzmunu xatirimdə qalmışdı. Neçə-neçə kitabım çıxdı. Yoxluq ucbatından "Bayraqdar" heç bir şeir topluma düşə bilmədi. Yalnız otuz beş ildən sonra mən Təbriz Dövlət Filarmoniyası haqqında o dövrün mətbuatından materiallar toplayanda "Azərbaycan" qəzetində bu şeirlə yenidən görüşdüm. İstər-istəməz unudulmuş cığırlara bənzəyən misralarıyla bir də öz gənclik çağlarıma qayıtdım. Şeiri dönə-dönə oxudum. Həqiqətinə də, məhəbbətinə də, təravətinə də bir daha inandım! Ancaq təvazökar qəhrəmanına haqq qazandıra bilmədim ki, bilmədim... Yalnız onu bildim ki, bu şeir coşğun bir dənizi özündə əks etdirən bir damladır!..



## ÇAĞLAYAN İNAM

*Bulaq suyu parlayar,*
*Büllur güzgüyə dönməz!*
*Qayğı şamı alışar,*
*Odlu sevgiyə dönməz!*

Bir axşam konsert qurtarmışdı. Mən də evə getməyə hazırlaşırdım. İşçilərimizdən biri yanıma gəlib dedi ki, Siranuş onu evlərinə ötürməyimə razı deyil. Siranuş erməni qızı idi. Yox! Erməni gözəli idi desəm, daha düz olar. Qızın sol yanağındakı xalı dan ulduzuna bənzəyirdi. Sanki o, Siranuşun bəxt ulduzu idi. O bəxt ulduzu parlaq ulduzlarla dolu Təbriz gecələrində bütün gözəllərə meydan oxuyurdu. Təbiət Siranuşdan heç nəyini əsirgəməmişdi. Qız həm də gözəl rəqqasə idi. O rəqs edən qızlar içində Naidədən sonra ikinci yeri tuturdu. Siranuşun atası Təbrizdə rus dili müəllimi idi.

Mən fikirləşdim ki, bəlkə oğlan qızı incidib? Yaxud da ona söz atıb? Ona görə də oğlana təpindim. – Görəsən qıza nə demisən ki, səninlə getmək istəmir – dedim. Oğlan and-aman elədi ki, qıza heç bir söz deməyib. Ancaq qız deyir ki, mən müdirdən başqa heç kimə inanmıram. Məni o ötürsün. Doğrusu, qızın bu israrını özümə sığışdıra bilmədim. Ancaq neynəmək olardı? Biz qızları çox əzab-əziyyətlə səhnəyə gətirir-

dik. – Yaxşı! Sən get! Siranuşu mən ötürərəm – dedim. Oğlan getdi. İş otağımdan salona çıxanda Siranuşu qapımın ağzında dayanıb məni gözləyən gördüm. O mənə baxıb güldü. Mən qapını bağladım. Sonra Siranuşa – Gəlin gedək! – dedim. Biz xiyabanda yanaşı yeriyirdik. Hərdən onun çiyni mənim çiynimə dəyirdi. Dərhal qızdan aralanırdım. Çiyindən-çiyinə hənir keçməsin deyə arada boşluq yaradırdım. Axı boşluq həyatda uçruma da çevrilə bilər, körpüyə də! Bəzən Siranuşun odlu nəfəsi yanağımı qarsırdı. Ancaq elə bu zaman Təbriz gecəsinin sərin mehi mənim qarsmış yanağımı sığallayıb keçirdi. Yanağımı alışmağa qoymayırdı. Aya baxdım. Düşündüm ki, indi Siranuşu məcburiyyət qarşısında evlərinə ötürürəm. Sabah bəlkə Naxışı könüllü surətdə evlərinə ötürdüm. Onda başımı qaldırıb Aya baxanda dilsiz Ay məsum baxışlarıyla mənə deməzmi ki, sən dünən başqa bir qızı evlərinə ötürürdün? Bəlkə sən müasir don Juansan? Yol boyu Siranuş məni danışdırmağa çalışdı. Lakin mən danışmadım. Deyəsən qız məndən incidi. Elə bu zaman kimsə, hardasa oxudu:

**Kim deyir göydə hilal**
**Sapsız oraq kimidir.**
**Göyün mavi saçında**
**Qızıl daraq kimidir.**

Mən göyə baxdım. Doğrudan da hilal darağa bənzəyirdi. Sanki hansı gəncsə öz sevgilisini hirsləndirmişdi. Qız da hirsindən saçını qarışdıranda darağını başından çıxarıb havaya atmışdı. Daraq göyün mavi saçından asılı qalmışdı... Mən Siranuşgilin qapılarının ağzında



– Xudahafiz! – deyib ayrılanda qız həddən artıq təşəkkür etməyə başladı. Mən təşəkkürün başqa səmtə yönələcəyindən ehtiyat edib qapını döydüm. Qapını Siranuşun atası açdı. Salamlaşdıq. Qız həyətə girdi. Mən isə müəllimlə xudahafizləşib yola düzəldim. Səhər Siranuşun ötürülməsini başqa bir gəncə tapşırdım. Bir az sonra həmən gənc yanıma gəlib dedi ki, Siranuş mənimlə getmək istəmir. Deyir ki, məni müdir özü ötürəcək. Doğrusu, yaman hirsləndim. Qızı yanıma çağırtdırıb hiddətlə: – Niyə qoymursunuz sizi evinizə ötürsünlər? – dedim. Siranuş hirsləndiyimi duydu. Danışmadı. Sakit-sakit üzümə baxdı. Qızın qara gözlərindən yuvarlanan iri büllur damlalar otağın döşəməsini islatdı. Sanki ürəyində çaxan şimşək gözlərində leysana döndü. Sən demə, təbəssüm də, göz yaşı da yalançı ola bilərmiş. Yalançıya inananlar isə yalnız naşılar olarmışlar. Həssaslar isə təbəssümün də, göz yaşının da yalançı olduğunu elə ilk baxışda duyarmışlar. Mən də sanki naşıydım. Məni heyrət bürüdü. – Bu qıza nə dedim? Niyə ağlayır? – deyə düşündüm. Birdən-birə hirsim sovuşdu. Dedim bəlkə bu qızın taleyində xoşagəlməz bir hadisə baş vermişdir? Ona görə belə ağlayır? Mən mehriban-mehriban: – Axı mən sizə elə bir ağır söz demədim. Nə oldu sizə? Niyə ağlayırsınız – dedim. Sanki Siranuş gözlədiyi məqamın gəlib çatdığını duydu. İri gözlərindəki utancaqlığı uzun kirpiklərilə gizlədib: – Doğrusu, mən sizi sevirəm – dedi. Mən qızın təmiz hisslərinə toxunmamaq xətrinə nəzakətlə: – Siranuş xanım, insanın ürəyi birdir! Sevgisi də bir olmalıdır! Mənim də bir ürəyim var. Onu da bir qıza vermişəm – dedim. Sira-

nuş yanımdan ağlaya-ağlaya çıxdı... Qapı açıq qaldı. Mən qızın arxasınca baxanda tarzən Asaturu qapı ağzında dayanan gördüm. Elə zənn etdim ki, mənimlə işi vardır. Miz arxasından ayağa qalxıb salona getdim. Asatur Siranuşun dalınca qəmli-qəmli baxırdı. Mən qayğılı-qayğılı: – Asatur, mənimlə işiniz vardı? – deyə soruşdum. O düşüncəli gözlərini mənə sarı çevirib hörmətlə: – Xeyr! Yoldaş müdir! – dedi. Sonra yenə Siranuşun dalınca baxdı. Mənsə iş otağıma qayıtdım. O gün çox yorulmuşdum... Ac olsam da evə getmədim. Bir az təmiz hava udmaq məqsədilə xiyabana çıxdım ki, yorğunluğum keçsin. Təbrizin gözəl payız gecələrindən biriydi. Havadan yaz ətri gəlirdi. Bir qədər getdikdən sonra qarşıdan iki nəfərin gəldiyini gördüm. Biri gənc, biri yaşlı idi. Yaşlı adam bir az səndələyirdi. Deyəsən sərxoş idi. Qarşılaşdıq. – Salam, yoldaş müdir! Axşamınız xeyir – deyən gənc dayandı. Yanındakı yaşlı adam da dayandı. Bu adamların ikisini də tanıdım. Gənc adam filarmoniyanın solisti tarzən Asatur idi. Yanındakı da onun atası balabançı Arakel idi. Mən təbəssümlə: – Ay əleykəsalam! Axşamınız xeyir! Deyəsən gəzməyə çıxıbsınız. Yaxşı eləyibsiniz. Gəzməli havadır. Sanki göydə ulduzlar da gəzməyə çıxıblar – dedim. Elə zənn etdim ki, bu iki sənətkar mənim səmimi sözlərimdən xoşlanıb ilhamla dolu duyğularıma təbəssümlə cavab verərlər. Ancaq belə olmadı. Oğul da, ata da susdu. Dönüb Arakelə baxdım. Balabançının qarabuğdayı sifəti daha da qaralmışdı. Sanki Təbriz gecəsi bütün qaranlıqlarını yığıb Arakelin sifətində dondurmuşdu. Həmişə hörmətimi saxlayan balabançı birdən-birə də-



yişdi. Yox! Özgələşdi, sərtləşdi, çılğınlaşdı. – Biz gəzməyə çıxmamışıq. İçməyə çıxmışıq. Bəli! Dərdimizi yumaq üçün bir az boğazımızı yaşlamaq istəmişik – dedi. Mən təəccüblə: – Sizin nə dərdiniz ola bilər? – deyə soruşdum. Arakel sanki çaldığı balabanı zilə çəkdi: – Daha bundan da böyük dərd olar ki, siz mənim oğlumun gözləri baxa-baxa sevgilisini əlindən alırsınız? Məgər bu gənc deyil, ürəyi yoxdur? Müdir olanda nə olar? Müdir işçisinin sevgisini ayaqlayar? Axı sevgi müqəddəsdir! – dedi. Mən heyrət dolu hiddətlə: – Arakel kişi! Mən indiyə qədər bir adamın nə sevgilisini əlindən almışam, nə də sevgisini ayaqlamışam. Nə danışdığınızı əvvəl düşünün, sonra danışın! – dedim. Asatur utana-utana: – Yoldaş müdir! Mən Siranuşu sevirəm. Ürəyimi ona açmışam. O isə hələ də mənə bir cavab vermir. Sizi sevir. Siz də... – dedi. Mən istehzayla Asatura: – Mən də onu bir dəfə evlərinə ötürmüşəm, hə? – dedim. Asatur çəkinə-çəkinə: – Hə – dedi. Mən təəssüflə: – Deməli siz də bizi güdübsünüz. Ancaq unudubsunuz ki, mən filarmoniyada çalışan qızlara müdir gözləriylə baxıram. Bəli! O qızların gözəlliyiylə, namusuyla, qüruruyla fəxr edirəm – dedim. Asatur başını aşağı saldı. Mən qətiyyətlə: – Əvvəla, hər hansı qızı gecə yarısı evlərinə ötürmək mədəniyyətdir! Sonra da ki, Siranuş özgəsi deyil. Filarmoniyanın işçisidir. Onu evlərinə ötürmək bütün qeyrətli oğlanlarımızın əxlaq borcudur. Sevgi məsələsinə gəldikdə isə mən Siranuşu sevə bilmərəm. Ağac öz səmtinə yıxılar. Mənim də öz millətimdən sevdiyim bir qız var ki, onu bütün dünyanın gözəllərinə dəyişmərəm – dedim.

Arakel sözlərimi tamamlamağa qoymadı. Qollarını geniş açıb boynuma doladı. O üzümdən, bu üzümdən öpdü. – Sağ olun! Sizi yaxşı tanımamışam. Məni bağışlayın! – dedi. Mən balabançının sevincdən parlayan gözlərinə baxdım. Yox! Parlayan gözlər özləri deyildi, yaş damlaları idi. Sanki Arakelin içdiyi araq damla-damla gözlərindən axacaqdı. Mən qətiyyətlə: – Gedin, arxayın olun! Günü sabah Siranuşa elçi göndərin! – dedim. Sonra dönüb Asaturun təbəssümlü gözlərinə baxdım. Sanki o gözlərdə təbəssüm yox, inam çağlayırdı. Ata da, oğul da məmnun-məmnun əlimi sıxıb getdi... Mən isə Naxışı düşünə-düşünə xiyabanda addımladım... Bir qədər rahat nəfəs ala-ala gəzdim. Birdən ürəyimdə Naxışgilə getmək həvəsi doğdu. Ancaq mizimin üstdə yarımçıq qalmış şeirimi tamamlamaq arzusu bu həvəsi üstələyib məni özünə çəkdi. Naxışgilə sabah getməyi qərara alıb evə yollandım...

## NƏĞMƏLİ SƏFƏRLƏR

*Nəğmə var, cəbhələrdə*
*Döyüşür yaraq kimi.*
*Nəğmə var, səfərlərdə*
*Çağlayır bulaq kimi.*

Şahların şovinist siyasəti nəticəsində Azərbaycan Tehranın gözündə özgələşmişdi. Hakimiyyət başında duranlar siyasət naminə aşkarda Azərbaycana "Səri İran" (İranın başı) desələr də daldada onun ayağından çəkirdilər ki, qalxıb öz haqqını tələb edə bilməsin. Ağaların ayrı-seçkiliyi ucbatından Azərbaycanın tək



bircə kəndində də elektrik işığı yox idi. Kənd camaatı elektrikin nə olduğunu bilmirdi. Hətta iri şəhərlərdə belə yalnız imkanlıların evində elektrik işığı yanırdı... Ona görə də Azərbaycanı başdan-başa elektrikləşdirmək Milli hökumətin qarşısında duran ən böyük problemlərdən biri idi...

Söz yox ki, biz filarmoniyanın konsertlərinin əksəriyyətini efirə buraxırdıq. Ancaq bu xeyirxah niyyətimiz nə qədər təqdirəlayiq olsa da ataların "balığı at dəryaya, balıq bilməsə də xalıq bilər" məsəlinə bənzəyirdi. Konserti şəhərlərdə, qəsəbələrdə, kəndlərdə yaşayanlardan nə qədərinin dinlədiyini bilmirdik. Axı radio da elektriklə işləyirdi. Elektrik isə o zaman Azərbaycanda nadir nemətlərdən idi. Biz hərtərəfli düşünəndən sonra ayrı-ayrı mahallara qastrol dəstələri göndərməyi qərara aldıq. Qastrol səfərlərinə seçmə sənətkarları cəlb etdik. İştirakçılar Zəncanda, Marağada, Sərabda, Ərdəbildə, Miyanada, Astarada məharətlə çıxış edirdilər. Sevinc dolu soraqları Təbrizə də gəlib çatırdı. İstedadlı sənətkarlarımız fəhlələr, kəndlilər, fədailər arasında Vətəni, azadlığı, dostluğu tərənnüm edən nəğmələr oxuyurdular. Bu nəğmələrin təsiri sərhəd rayonlarında daha böyük olurdu. Bəli! Səmimiyyətdən yoğrulmuş nəğmələr xalq ordusu döyüşçülərinə qəhrəmanlıq, vətənpərvərlik, beynəlmiləlçilik duyğuları aşılayırdı. Sərhəd uzunu zəncir açmış səngərlərdə səs də, rübab da, nəğmə də döyüşürdü! Qartallaşan nəğmələr gah doğma sərhədlərdə pərvazlana-pərvazlana ana Vətənin keşiyini çəkirdi, gah da qanadlarını səngərlər üstə gərib döşüylə düşmən hücumlarını saxlayırdı. Doğma mahallarda zəhmətkeş-

lər tərəfindən səmimiyyətlə, hərarətlə, ləyaqətlə qarşılanan sənət elçilərimizin pişvazına çıxırdı.

Qastrol səfərindən qayıdanlar öz dostlarına gəzdikləri mahalın nemətlərindən töhfə gətirməyi də unutmurdular. Hərəyə bir şey gətirirdilər. Necə deyərlər, kasıbın olanından! Zəncan qastrolundan qayıdan bir dostum mənə də cib bıçağı gətirmişdi. Zəncan bıçağı! Bu bıçaq elə zərif, yaraşıqlı, parlaq idi ki, doğrudan da töhfə verməyə dəyərdi! Mən bu bıçağı əziz yadigar tək həmişə cibimdə gəzdirməyi xoşlayırdım.

Ərdəbildən qastrol səfərindən qayıtmış bir əməkdaşımız böyük müvəffəqiyyətlə keçən konsertlərdən ürəkdolusu danışırdı. Deyirdi ki, dinləyicilər sənət ustalarına Ərdəbilin münbit torpağında bitən, Savalanın büllur suyuyla boy atan, Baqrovun xəfif mehiylə sığallanan təzətər güllər bağışlayırdılar. Bir konsertdə isə bir-birini əvəz edən gözəl nömrələrdən sonra birdən şux qamətli, utancaq simalı, çatma qaşlı yeniyetmə bir qız səhnəyə çıxdı. Dedilər ki, Ərdəbil şəhərinin sakini molla Xəlil İşraqinin qızıdır. O əvvəlcə çaşqın halda donub qaldı. Qız sanki sükut dənizində lal dayanmış kiçik bir qaya idi. Üzdən sakit görünsə də hiss olunurdu ki, daxilən yaman həyəcan keçirir. Salon qızı tutmuşdu. Lakin elə ki, musiqi dilə gəldi, sanki dəniz dalğalanmağa başladı. Sonra dalğalar o kiçik qayada əks-səda verdi. Qız oxumağa başladı. Özü də necə? Savalanın ağ suları tək, Ərdəbilin sarı bülbülləri tək ürəkləri qürur rübabıyla doldurdu. “Qatar qaya”nın qayaları, “Qırxbulağ”ın bulaqları tək uzandıqca uzandı. Sonra da qızı müşayiət edən sürəkli alqışlar Savalanın odlu şimşəkləri tək, Ərdəbilin leysan yağışları tək kəsmək bilmədi ki, bilmədi. Biz qızın atası ilə danışdıq. O, açıq fikirli bir adamdı. Qızının filarmoniyada işləməsi üçün razılıq verdi. Qərara aldıq ki, səfərdən qayıdanda bu barədə sizə deyək. Qızın adı Rübabədir. Sanki hüsnü də, səsi də, mahnısı da rübabdır! (Biz qərara gəldik ki, hər necə olsa Rübabəni Ərdəbildən Təbrizə gətirək. O, gözəl səsi ilə əlvan sənət rübabımızı daha da zənginləşdirsin. Ancaq Azərbaycana qəfil hücum edən qəsbkar şah sərbazları öz qanlı sərnizələri ilə bu həqiqətə dönəcək qərarı pozdu. Mən sonralar mühacirət zamanı Rübabə ilə Şimali Azərbaycanda görüşməli oldum. İllər keçdi... İstedadlı nəğməkarımız Rübabə Muradova haqqında “Doğma səs” adlı bir lirik poema yazdım. Bu danışdığım əhvalatı da qələmə aldım).

Konsertə gələnlər arasında sizin ata-baba kəndiniz Çanaxbulaqdan olanlar da vardı. Həmyerliləriniz Neştəri çayının sahillərində pardaxlanan rayihəli güllərdən əlvan dəmət bağlayıb sənət xadimlərinə töhfə gətirmişdilər. Lakin kəndliləriniz bizimlə görüşəndə qönçə arzularını da bildirirdilər. Onlar istəyirlər ki, sizin şeirlərinizdən həmişə Çanaxbulağın nəfəsi duyulsun, Neştərinin səsi gəlsin, Savalanın zirvəsi görünsün! Görüşdə sizə oxşayan, ancaq sizdən bir qədər yaşlı olan bir cavan dedi ki, əminiz oğludur. Atasının adı Qulam, adı Cavaddır. Əminiz oğlu Savalan qarı tək ağ dəsmala bükülü bir şeyi mənə verdi. Bükülünü hörmətlə alıb açdım. Bu, içi ovulmuş ağ çay daşı idi. Ovcumun içində iri almas parçası tək par-par parıldayırdı. Cavad dedi ki, bu daşı Neş-

təri çayından götürmüşdür. Siz yeniyetmə çağlarınızda Cavadla birlikdə Neştəri çayını üzü aşağı, üzü yuxarı çox gəzibsiniz. Dəyirman yollarında çox zümar daşıyıbsınız. Bostan güdən cavanların səhərlər pürrəng çayına, axşamlar sarıköklü pitisinə çox qonaq olmusunuz. Cavad mənimlə danışa-danışa gözlərini Təbrizə gedən yola dikərək dedi ki, bu çay daşını mənim adımdan əmimin yeganə şair oğluna töhfə verərsiniz. Bilirəm ki, şairin evində qiymətli qab-qacaq az olmaz. Ancaq istəyirəm ki, bu adi çay daşı əmim oğlunun evində qeyri-adi əşya olsun. Bunu yazı masasının üstünə qoysun. Gecələr şeir yazanda çəkdiyi siqaretlərin külünü bu çay daşının ovuğuna boşaltsın. Hər dəfə gözləri bu çay daşına sataşanda qulaqlarında Neştəri çayının büllur, şaqraq, əbədi nəğmələri səslənsin. O, şair Neştərinin şair oğlu olduğunu heç zaman unutmasın. Sonra əməkdaşımız ağ dəsmala bükülmüş çay daşını mənə verdi. Mən əmim oğlunun əziz töhfəsini xidmət dostumdan minnətdarlıqla qəbul etdim. Mərmər parıltılı çay daşını yazı mizimin üstə qoydum. Ancaq ovuğuna kül boşaltmadım. Düşüncəyə dalanda, şeir yazanda, siqaret çəkəndə ona baxdım. İxtiyarsız Neştəri çayını xatırladım. Sandım ki, bu şümşad daş o çayın şəffaf gözüdür. Neştəri çayı bir gözünü özü üçün saxlayıb, bir gözünü isə doğma balasına göndərib ki, onun sevincini də, kədərini də görə bilsin. Mənim üçün qayğıya da, təsəlliyə də, ümidə də dönə bilsin. Doğrudan da o tək göz mənim həyat yoluma elə xeyir-dua nuru səpirdi ki, ömrüm də, sənətim də, taleyim də



başdan-başa işıqlana bilirdi. Mən belə şəfqət dolu gözə necə kül tökə bilərdim?

Bir gecə yuxuda gördüm ki, Neştəri çayının o tayında babamdan qalmış “Babanəzər” bağındayam. Ağacların meyvəylə dolu budaqlarını sığallayıram. Almadan da, armuddan da, alçadan da dadıram. Sonra qayadan qaynaya-qaynaya çıxan “Gözə” bulağının buz suyundan ovuc-ovuc içirəm. Sonra bulağın yanındakı yaşıl məxmərli çəməndə uzanıb dincəlirəm. Daha sonra ayağa qalxıb kəndə doğru addımlayıram. Arxadan bir səs gəlir. Dönüb səs gələn səmtə baxıram. Sanki “Babanəzər” bağının hər yarpağı bir yaşıl ələ dönüb havada yellənir. Məndən şikayətlə mənə: – Bizi həyansız qoyub hara gedirsən? – deyirlər. Yuxudan hərasan oyandım. Saata baxdım. Saatın əqrəbləri 3-ün üstündə idi. Daha yata bilmədim. Yatağımdan qalxıb geyindim. Yazı mizimin dalına keçdim. “Babanəzər”ə bir şeir həsr etməyi qərara aldım. Ay Səhəndin arxasında batanda mənim mizimin üstündə “Babanəzər” şeiri doğdu:

**Hər çətirli alma bağın**
**Bir ormandır, Babanəzər!**
**Hər şeh dolu xiyar tağın**
**Bir bostandır, Babanəzər!**

**Danış! Sən aç söz, babamdan,**
**Daim mənə göz babamdan,**
**Hər cığırın öz babamdan**
**Bir nişandır, Babanəzər!**

**Savalanda peşmək qarlar**
**Qışdan qışa qalıb xarlar...**
**Ulduz-ulduz yağan nurlar**
**Bir leysandır, Babanəzər!**

**Sanki göy də mavi otdur,**
**Şimşək qamçı, bulud atdır...**
**Buz Neştəri gümüş uddur,**
**Nə zamandır Babanəzər!**

**Səsi gəncdir, özü ulu,**
**Axıb gedir... Bitmir yolu...**
**Hər rübabı nisgil dolu**
**Bir dastandır, Babanəzər!**

**"Gözə" axır muncuq-muncuq,**
**Qışda isti, yayda soyuq...**
**Bəlkə o da teli qırıq**
**Bir kamandır, Babanəzər!**

**Yarpaq – donun, bulud – çalman...**
**De, hurisən, yoxsa qılman?**
**Hər armudun, narın, alman**
**Bir dərmandır, Babanəzər!**

**Min izim var hər qayada,**
**Sən atlısan, mən piyada...**
**Ayrılığın bu dünyada**
**Nə yamandır, Babanəzər?!**



**Dolanaram başına da,**
**Yanaram göz yaşına da...**
**Sənin adi daşına da**
**Can qurbandır, Babanəzər!**

**Uzananda qərib axşam,**
**Sən görməsən doğma adam,**
**Savalan ki sənə müdam**
**Bir həyandır, Babanəzər!**

Səhər işə gedəndə çay-çörəyimi yeyəndən sonra şeiri xalama oxudum. O şeiri dinləyə-dinləyə xəyala getdi. Sanki mənim gecə gəzdiyim "Babanəzər" bağını indi xalam gəzirdi. Ancaq Neştəri çayının sahilində yox, mənim otağımda gəzirdi. Şeir qurtardı. Xalam da xəyaldan ayrıldı. Məni qürurla bağrına basıb: – Sədaqətli balasan. "Babanəzər" bağının meyvələri də, suları da sənə halal olsun! – dedi. Mən şeiri cibimə qoyub işə getdim...

## GİZLİ ƏDAVƏT

*Ədavət var, açıqda*
*Meydan oxuyur sənə.*
*Ədavət var, gizlində*
*Qəfəs toxuyur sənə...*

Biz bütün yazılarımızda, çıxışlarımızda, davranışlarımızda yaxşılığı təbliğ edirdik. Bu nəinki gözəldi, hətta lazımdı, insanlıq, səmimiyyət, xeyirxahlıq naminə lazımdı. Ancaq atalar deyib ki, əyil mənimçün, sınım səninçün. Əgər bir neçə dəfə birinə yaxşılıq etsən, lakin bu yaxşılıq əks-səda verməsə, onda o yaxşılıq nə qədər

böyük olsa da, səmərəsi yoxdur. Axı lal qayaya da bir daş atılanda əks-səda verir. Əgər sənin yaxşılıq etdiyin adam bu insani keyfiyyəti bir borc sansa, bu ülfət onu bir nadana, səni isə bir xidmətçiyə çevirər. Yox! Yox! Bu sevdada o mahirləşər, sən isə naşılaşarsan.

Santur çalan Böyük İbadinin atası Milli hökumətdən qabaq Təbrizdə nəzmiyyə idarəsinin rəisi olub. Milli hökumət yaranandan sonra doğma Vətənini atıb şah Tehranına qaçan fərarilərdən biri idi. Milli hökumətin həqiqət bayraqlı qanunlarında oğul atasının günahlarına cavabdeh deyildi. Milli hökumətin ədalətlə yoğrulmuş niyyətləri nəhəng bir yumruğa dönüb bədxahların qara böhtanlar saçan yırtıcı dişli ağızlarına ağır zərbələr endirirdi. Milli hökumət nəcib, xeyirxah, humanist olduğunu öz gündəlik əməllərində də nümayiş etdirirdi. Böyük İbadi yaxşı santur çaldığına görə filarmoniyanın mehriban kollektivinin üzvlüyünə qəbul olunmuşdu. Doğrudan da Böyük İbadinin barmaqları sanki elə santur çalmaq üçün yaranmışdı.





Bu uzun, nazik, ağ barmaqlar səhnədə santurun telləri üzərində gəzəndə sanki özləri də tellərə çevrilirdi. Sonra bu tellər tamaşaçıların ürək tellərilə birləşib muğamları elə səsləndirirdi ki, sənətkarlığına heyran qalmamaq mümkün olmurdu. Böyük İbadi uzun, şax, arıq bir gənc idi. Gözləri qara olsa da sarı bənizində sarıya çalırdı. Hətta gözlərindən əskik olmayan təbəssüm də sarı görünürdü.

O, kübar ailədə böyüdüyü üçün çox qazanmaq, yaxşı geyinmək, firavan yaşamaq istəyirdi. Müdiriyyət Böyük İbadiyə gözəl şərait yaratmışdı. O həm filarmoniyanın dəftərxanasında katib işləyir, həm konfransye vəzifəsini ifa edir, həm də santur çalırdı. Gördüyü işlərin əvəzində xeyli pul alırdı. Hətta müdiriyyət konfransyeyə məccani qara kostyum da tikdirmişdi. O səhnəyə çıxarkən bu qara kostyumu geyər, ağ köynəyinin üstdən qara bantını taxar, şəvə saçlarını yağlayıb darayardı. Səhnədə işıq şəlalələrinin altında par-par parıldayıb qətrandan yoğrulmuş heykələ bənzəyərdi. Lakin Böyük İbadinin davranışında hörmətlə yaltaqlığı ayırd etmək çətin idi. Doğrusu, o, sənətə qarşı səmimi olsa da, insana qarşı səmimi olub-olmadığı duyulmazdı. Müdiriyyət isə şıltaq santur çalanın arzularını səxavətlə yerinə yetirməkdə davam edirdi. Çünki o, filarmoniyada yeganə santur çalan idi.

Bir gün Böyük İbadi orta boylu, seyrək saçlı, xumar baxışlı bir adamı mənim iş otağıma gətirdi. Dedi ki, bu adam mənim yaxın tanışımdır. Gözəl qaval çalır. Mümkünsə, işə götürün. Hərçənd kollektivdə qaval çalana ehtiyac yox idi. Ancaq düşündüm ki, çox da bi-

zim qaval çalana ehtiyacımız yoxdur, ola bilsin ki, bu adamın özünün ehtiyacı vardır. O öz ailəsinin maddi gəlirinə zamin deyildirmi? Bizim yaratdığımız hökumətin gözəl məqsədlərindən biri də elə insanların ehtiyaclarını ödəməkdir. Biz təzə qaval çalanı işə götürüb kollektivin tərkibinə daxil etdik. O da bir müddət qüsursuz işlədi.

Bir qayda olaraq Təbriz radiosunda verilişlərdən əvvəl Azərbaycan Milli hökumətinin sürudu çalınırdı. Evlərdə, idarələrdə, yollarda, meydanlarda, bazarlarda öz doğma hökumətilə fəxr edən insanlar o sürudun əzəmətli səsinə qürurla, iftixarla, fərəhlə qulaq asırdılar. Bir gün təzə qaval çalan başqa çalğıçılarla birlikdə radio idarəsinə gedib sürudun ifa olunmasında iştirak etməli idi. Sürudun ifası nəinki sənətimizdə, hətta həyatımızda da müqəddəs bir qanun idi. Lakin radio idarəsində çalğıçılar nə qədər gözləyirlərsə də təzə qaval çalan gəlib çıxmır ki, çıxmır. Efirin açılmasına cəmi beş dəqiqə qalır. Çalğı alətlərinin içərisində isə qaval olmur. Bu zaman çalğıçılardan biri radio idarəsinin bufetinə gedir. Bir sini götürüb mikrofon qoyulmuş otağa qayıdır. Nəhayət, sürud çalınır. Başqa musiqi alətləri arasında sini də səslənir. Ancaq sini çalan elə məharətlə çalır ki, "sirr" açılmır. Mən isə hər şeydən xəbərsiz iş otağımda işləyirdim. Birdən mizimin üstündəki telefon cingildədi. Dəstəyi götürdüm. Danışan radio idarəsinin sədri Mirqasım Çeşmazər idi. Həyəcanla danışırdı. Səsində məzəmmətlə dolu bir şikayət var idi. Məsələni bildim. Qaval çalanın evinə adam göndərdim. O artıq mənim qarşımda idi. Bu günahkar adam



günahının səbəbini demək əvəzinə mənə yalvarırdı ki, onu işdən çıxarmayım. Lakin bu heç mümkün deyildi. Bu adam sərxoş olub evində yatmış, nəinki verilən tapşırığı yerinə yetirməmiş, hətta sənəti də, kollektivi də, məsləki də təhqir etmişdi. Böyük İbadini yanıma çağırtdırdım. Dedim ki, bax, bu sənin zəmanətinlə işə götürdüyümüz adamdır. Gör nə qədər böyük qəbahət edib. Belə quşlar bu müqəddəs sənət beşiyində yuvalaya bilməz! İndi get, öz əlinlə əmrini yaz! Qoy hara gedir, getsin. Böyük İbadi getdi, arxasınca qaval çalan da çıxdı. Lakin yuxarılarda əyləşən bəzi nüfuz sahibləri məni rahat qoymadılar. Tez-tez zəng vurub dedilər ki, o yazıq adamdır, bir işdir olub. Səhv edib, daha etməz. Gərək onu təzədən işə qaytarasan. Mən razılıq verməyəndə bu cənablar açıq-aydın təhdidə keçirdilər. Mən isə sözümün üstündə möhkəm dururdum. Onlar mənim xahişlə, təhdidlə, hədəylə sınmadığımı görüb S.C.Pişəvəriyə müraciət etdilər. S.C.Pişəvəri isə onlara qəti cavab verib dedi ki, mən bu işə qarışa bilmərəm. Müdir özü bilər. O haqlıdır. Bizə vicdanlı, ləyaqətli, əqidəli adamlar gərəkdir. Beləliklə, həmin qaval çalanın ayaqları bir də müqəddəs sənət ocağımızın təmiz kandarına dəyə bilmədi. Mən hiss edirdim ki, üstümə yağan xahişlərin, tapşırıqların, hədələrin təşəbbüskarı Böyük İbadidir. Fəqət bunu da duymaya bilmirdim ki, Böyük İbadinin təşəbbüslərinin puça çıxması ona sarsıdıcı zərbədir.

Mən hər ayın sonunda xərclədiyimiz pulların qəbzlərini nəzərdən keçirirdim. Bu həm keçmiş, həm də gələcək işlərimizin həcmini, dəyərini, imkanını he-

sablamaq üçün lazım idi. Qəbzlərin hamısı dəftərxanada Böyük İbadinin seyfində qalırdı. Mən növbəti başa çatan ayın qəbzlərinə baxmaq üçün Böyük İbadiyə xəbər göndərdim ki, sənədlər saxlanan qovluğu götürüb yanıma gəlsin. O gəldi. Qalın qovluğu mizimin üstünə qoydu. Təklifimə baxmayaraq oturmadı. Ayaq üstə qaldı. Mən qovluğu açdım, qəbzləri növbəylə, diqqətlə, səbrlə gözdən keçirtdim. Oxuduqlarımı bir yana qoydum. Arada Böyük İbadinin üzünə baxdım. Otağın sərin olmasına baxmayaraq nədənsə o, tərləmişdi. Sanki sarı sifətindən qəhvəyi mizin üstünə sarı damcılar düşürdü. Birdən... Bir qəbzin altına qoyulmuş imza mənə yad göründü. İmzaya dönə-dönə baxdım. Yanılmamışdım. Xətt mənimki deyildi. Başımı qaldırıb Böyük İbadinin üzünə bir də baxdım. Dedim ki, bu imza mənimki deyil. O tez əl-ayağa düşdü. Sən demə, o bayaqdan elə buna görə sərin otaqda isti tər tökürmüş. Bildim ki, bu saxta imzanı qəbzə Böyük İbadi özü qoyub. Təqribən bir aylıq maaşı həcmində dövlətin pulunu mənimsəyib. Qəbzdə yazıb ki, həmin pul filarmoniyanın ehtiyaclarına xərclənib. Mən bu dəfə Böyük İbadinin gözlərinin içinə qəzəblə baxdım. Bu işvəli gəncin qorxudan gözlərinin ağı da saralmışdı. O sanki sarılıq xəstəliyinə tutulmuşdu. Dedim ki, bu imza sənindir! Həm də oğurluqdur! Sən mənim imzamı öz xəttinlə oğurlamısan! Bu sənətə də, millətə də, dövlətə də xəyanətdir. O gah hirslənir, gah yaltaqlanır, gah da ağlamsınırdı. Santur çalan adam indi komik artistə dönüb roldan-rola girirdi. Fəqət boynuna almaq istəmirdi ki, qəbzdəki imzanı o özü qondarmışdır. Mən baş mühasib Məcid Tü-



tünfuruşu çağırtdırdım. O maliyyə işlərində mənim sağ əlimdi. Çox mərd, təmiz, işgüzar adam idi. Qəbzi ona verdim. Dedim ki, burdakı imzaya sən də diqqətlə bax! O mənimki deyil. Gör onu kim özündən düzəldib? Məcid imzaya bir neçə dəfə diqqətlə baxıb dedi: – Düz deyirsiniz, bu imza sizinki deyil, düzəldilib. Sonra o mənalı-mənalı Böyük İbadinin üzünə baxdı. Ağır təbiətli baş mühasibin ədəbaz katibdən acığı gəlirdi. Mən Məcidə göstəriş verdim ki, hər ay Böyük İbadinin maaşından müəyyən məbləğdə pul kəsilib dövlətə qaytarılsın. Əgər o buna razı olmasa işi məhkəməyə verilsin. Çünki katib cinayət etmişdir. Biz isə bilə-bilə hələlik cinayətkara güzəştə gedirik. Qanunlarımızda cəza varsa, mərhəmət də vardır. Sənədlərin taleyini də Məcidə tapşırdım. Baş mühasib dolu qovluğu götürüb getdi. Böyük İbadi də bu üzlə otaqda qala bilməyib çıxıb getdi. Düşüncələr içində tək qaldım. Sən demə, bizim yaxşılıqlarımız sarfaya dönüb Böyük İbadinin sifətindəki sarılığı daha da qatılaşdırırmış. Bu hadisələrdən sonra santur çalanın sarı bənizindəki yaltaq təbəssüm də solmuşdu. Sarı xəzan yarpağına bənzəyirdi.

Yenə də konsert idi. Salon tamaşaçılarla dolmuşdu. Böyük İbadi santurda solo çalırdı. Mən də qulaq asırdım. Bu zaman ürəyimdə bir-birinə zidd iki duyğu baş qaldırırdı. Bu duyğulardan biri Böyük İbadinin şəxsiyyətinə nifrət, biri sənətinə hörmət idi. O yenə də santuru elə dilləndirirdi ki, tellərdə axıb çağlayan nəva gah suya dönüb nifrətimi söndürür, gah da od tutub hörmətimi şölələndirirdi. Bu zaman yadıma Cəlil Məmmədquluzadənin "Kamança" pyesindəki Qəhrəman yüzba-

şıyla kamança çalan Baxşının əhvalatı düşürdü. Ancaq münasibətlər dəyişirdi. Dinləyən məsumlaşdıqca çalan qəddarlaşırdı. Nədənsə Böyük İbadinin sarı işıqlı gözlərinin qara bəbəklərində bir cüt qırmızı qığılcım da parlayırdı. Bu qığılcımlar sanki sərhəddə məqam gözləyən düşmənin gözlərində yanan odların qorları idi. Sərhəddən sıçrayıb səhnədə solo çalan Böyük İbadinin gözlərinə düşmüşdü. Sanki o santur da çalmır, alqış da gözləmir, tərif də istəmirdi. Yalnız bütün imkanlarıyla salondakılara meydan oxuyurdu.

Səhər işə gələndə mizimin üstündə bir yığın jurnal gördüm. Məni heyrət bürüdü. Xidmətçini çağırdım. Soruşdum ki, bu jurnalları mizimin üstünə kim qalaqlayıb? Xidmətçi nəvazişlə cavab verdi ki, xəbərim yoxdur. Jurnallardan bir neçəsini götürüb vərəqlədim. Bunlar Tehranda, Vaşinqtonda, Londonda çap olunan jurnallar idi. Hamısı da bizim hərəkatımıza, firqəmizə, dövlətimizə iftiralarla, qəzəblərlə, hədələrlə dolu idi. Tehranda çıxmış jurnallardan birində İranın baş naziri Qəvam-Əs-Səltənənin iri şəkli vardı. Gözlərinə qalın sağanaqlı qara çeşmək taxan Qəvam sanki qara niyyətlərlə dolu baxışlarını çeşmək arxasında gizlətməyə çalışırdı. Lakin kinli gözlərində donub qalmış niyyətlərin qaralığı çeşmək dalında açıq-aydın görünürdü. Qaydadır, dəniz hiddətlənəndə dərinliklərində gizlənmiş zir-zibili üzə çıxarır, su bulanır. Qəvamın içərisindəki kin-küdurət də sifətində əks olunmuşdu. Anadangəlmə qara olan Qəvam hirsindən boğulub daha da qaralmışdı. Üzü bir parça daş kömürə bənzəyirdi. Ancaq həmin bir parça daş kömürdə təlatümə gələn bir selin qara dalğaları



şahə qalxıb hücuma keçməyə hazırlaşırdı. Mən jurnalları mizimin üstə qoyan adamı əlbəttə tanıdım! Bu, Böyük İbadi idi! Yaxşı bilirdim ki, Böyük İbadi bizim yolun yolçusu deyil. O bizimlə yol yoldaşı ola bilməz. Ancaq bunu da dərk edirdim ki, siyasətin də öz yolu var. Gərək bu yolda hər şeyə dözəsən. Lakin bəzən dözüm də səmərəsiz olur. Siyasətin qəfil gələn dalğaları məni Arazın bu tayına atandan sonra eşitdim ki, Böyük İbadi məni Təbrizin bütün yollarında axtarırmış. Gündüzlər qarlı tufanların döydüyü, gecələr qorxulu zülmətlərin hökm sürdüyü yollarda soraqlayırmış... Ancaq o məni tapa bilmədi. Tapsaydı aqibətim necə olacaqdı? Bu haqda çox fikirləşməyə dəyməz. Bəli! Dəyməz! Çünki öz aqibətim özümə çoxdan bəlli idi...

İndi mənim evimdə Hacı Xanməmmədovdan aldığım bir dəstə yadigar şəkil var. Böyük İbadinin də vaxtilə Təbriz dövlət filarmoniyasında çəkilmiş şəkli bu şəkillər arasındadır.



Zövqlə geyinmiş gənc musiqiçi par-par parıldayan şəvə tellərini səliqəylə geriyə darayıb başını azacıq santurun üstə əymişdir. O uzun barmaqlarının mənə tanış təmasıyla santur çalır. Dilsiz kağız parçasındakı simlərsə susur. Lakin mənim qulaqlarımda hələ iyirmi iki

yaşında olarkən riqqətlə dinlədiyim Əbu-Əta yenə də əzəmətlə səslənir. Qəribədir, mən bu şəkli də başqa sənətkarların şəkilləri arasında qoruya-qoruya saxlayıram. Bəli! İndi gənclik günlərim qədər, gənclik şeirlərim qədər, gənclik dostlarım qədər gənclik düşmənlərim də mənə əziz olmuşdur. Bu hisslər ağılsız ehtirasın dördnala çapan cilovsuz atının dırnaqlarından qopan qığılcımlar deyil. Bəs nədir? Doğrusu, heç özüm də bilmirəm. Bəlkə bu hisslər sənətkar istedadına bəslədiyim rəğbətdən yaranır? Bəlkə yaşın artmasından, ürəyin kövrəlməsindən, məqamın qəribsəməsindən doğur? Ona görə də Böyük İbadi də öz acı xatirələrilə mənim yol çəkən gözlərimdə şirinləşir...

## ULDUZLAR ALTINDA

*Sanki aylı gecələr*
*Görüşlərçin yaranır.*
*Səmada neçə-neçə*
*Baxt ulduzu aranır...*

Təbrizdə elə mahir sənətkarlar vardı ki, ilhamla yaratdıqları sənət əsərlərilə misin dəyərini qızılın dəyərindən, gümüşün dəyərini platinin dəyərindən qat-qat yuxarıya qaldıra bilirdilər. Ustad sənətkarların qızıldan düzəltdikləri bəzək şeyləri dünyanın zəngin muzeylərində tələbkar tamaşaçıları da heyrətləndirirdi.

Maaş almışdım. Karxanaya zəng vurub Naxışa dedim ki, əgər işdən sonra vaxtınız varsa, yol üstəki zərgər dükanlarına dəyək. Saatım üçün bir qızıl zəncir almaq istəyirəm. Sizin zövqünüzə ehtiyacım var. Qız



mənim təklifimi məmnuniyyətlə qarşıladı. Baş xiyabandakı aynabəndli zərgər dükanlarının qabağında görüşdük. Bir zərgər dükanına daxil olub ayna piştaxtanın altında par-par yanan əlvan daş-qaşlara baxdıq. Gözlərimiz qamaşdı. Sonra bir-birimizin üzünə baxıb güldük. Ancaq nə Naxış mənim ürəyimdən keçəni, nə də mən onun ürəyindən keçəni bildik. Bizim maraqla daş-qaşlara baxdığımızı görən sərraf dərhal yanımıza gəldi. İncə təbəssümlə: – Xoş gəlibsiniz! – dedi. Sanki bizi çoxdan tanıyırmış. Mən dükan sahibinə saatım üçün bir qızıl zəncir almaq istədiyimi bildirdim. O içəri getdi. Əlində bir neçə qızıl zəncir gətirib ayna piştaxtanın üstünə qoydu. Naxış onlardan birini götürüb: – Bu yaxşıdır! Götürün – dedi. Mən sərrafdan: – Bu zəncirin qiyməti neçədir? – deyə soruşdum. Sərraf zənciri əlinə götürüb: – İki yüz əlli tümən – dedi. Mən dükan sahibinə iki yüz əlli tümən verib zənciri götürdüm. Sərraf zənciri saatıma saldı. Naxış mehriban-mehriban: – Mübarəkdir – dedi. Sonra zəncirli saatı qoluma bağladı. Sanki dükan sahibi Naxışı mənim yanımda indi gördü: – Ağa! -Xanımınız üçün də bizdə ləyaqətli bir şey tapılar – dedi. Xanım sözünü eşidən Naxış qızardı. Sanki aynanın altındakı yaqutların hamısının rəngi qızın ağ yanaqlarına çökdü. Mən onu bu vəziyyətdən çıxarmaqdan ötrü tələsik sərrafa: – Hanı? Gətirin görək qıza layiq nəyiniz var? – dedim. Dükan sahibi yaraşıqlı bir medalyonun zəncirindən tutub sallada-sallada gətirdi. Medalyonu alıb gözlərimin qarşısında tutdum. Diqqətlə baxdım. Medalyonun zənciri elə zərifdi ki, sanki möhkəm qızıldan yox, ipək sapdan hörülmüşdü. Mən məs-

ləhətlə Naxışa: – Deyəsən yaxşı medalyondur. Özünüz də baxın, görün necədir? – dedim. Naxış təvazökarlıqla mənə: – Madam ki, sizin xoşunuza gəlir, demək doğrudan da yaxşıdır. Götürürəm – dedi. Sonra çantasını açıb bir dəstə əskinas çıxardı. Mən nəzakətlə pulları qızın əlindən alıb yenidən çantasına qoydum. Çantanın ağzını bağladım. Sərraf nəzakətlə Naxışa: – Xanımın kişi yanında pul çıxarması yaxşı deyil – dedi. Mən medalyonun da pulunu verdim. Sonra Naxışın icazəsiylə medalyonu onun boynuna saldım. Qız ayna qarşısına keçib medalyonun ona necə yaraşdığını bilmək istədi. Mən arxadan Naxışın aynaya düşən əksinə baxdım. Medalyon doğrudan da qıza çox yaraşırdı. Mən: – Mübarəkdir! – deyəndə sərraf da – Bəh! Bəh! – eləyirdi. Biz dükan sahibiylə xudahafizləşib xiyabana çıxdıq. Naxış məzəmmətlə mənə: – Siz yaxşı iş görmədiniz. Məgər mənim pulum yoxdur? – dedi. Mən etirafla qıza: – Bilirəm ki, məndən də çox maaş alırsınız. Ancaq sizi zərgər dükanına mən gətirmişəm. Mən də medalyona qonaq edirəm – dedim. Naxış etirazla: – Belə qonaqlığı nə görmüşəm, nə də eşitmişəm. Yox! Bu qonaqlıq deyil, şair səxavətidir – dedi. Mən səmimiyyətlə: – Əslinə baxsan bu qonaqlıq da deyil, yadigarlıqdır. Səxavətə gəldikdə isə şairlər hər şeydə səxavətli olur. Yalnız bir şeydən başqa – dedim. Naxış maraqla: – O nədir elə? – deyə soruşdu. Mən qətiyyətlə: – O, şairin sevgisidir! O sevgisini heç kimə bağışlaya bilməz – dedim. Naxış pıçıltıyla: – Bəli! Dünyada sevgidən qiymətli şey ola bilməz! Ancaq sevənlər bu nadir neməti birdən-birə duymur, zaman-zaman duyur – dedi. Mən



maraqla qıza: – Karxanada nə var, nə yox? – dedim. Qız iftixarla: – Dünən S.C.Pişəvəri karxanamıza gəlmişdi. Kollektivimizlə hərarətlə görüşdü. Nə qədər sadə, mehriban, müdrik adam imiş. Sanki hər birimizin tərcümeyi-halını üzümüzdən oxuyurdu. Bizə yaşadığımız diyarın tələblərindən doğan mənalı suallar verirdi. Bu sualların hərəsi həyat qayğısıyla yüklənmiş bir ümidə bənzəyirdi. Firqə sədri vətənin parlaq gələcəyindən cəsarətlə, qürurla, inamla danışırdı. Deyirdi ki, bizim qarşımızda iki vəzifə durur. Birincisi, fəhlənin etimadını qazanmaq, fəhlələri yaxşı işləməyə ruhlandırmaq! İkincisi, fəhlələrin yaşayışını hər cəhətdən təmin etmək. Bundan başqa xalqı sərvətləndirmək üçün daxili sənayeni qorumaq xətrinə tədbirlər görmək. Xaricdən varid olunan şeylərdən istifadə yoluyla daxili məhsulları sadir etmək. Gərək biz xaricə verdiyimiz xoşgəbər müqabilində kənd təsərrüfatı maşınları alaq, sənaye dəzgahları gətirək. Hətta xarici ticarətimizin əsasını genişləndirmək üçün də bizə maşınlar gərəkdir. Bəli! Müasir həyatı maşınlarsız təsəvvür etmək çətindir. S.C.Pişəvəri kiminin arzusunu, kiminin təklifini, kiminin şikayətini öz kiçik dəftərçəsində qeyd etdi. Görüşün sonunda firqə sədri karxanamızın kollektivi ilə birlikdə yadigar şəkil çəkdirdi – dedi. Sonra qız susdu. Deyəsən nəsə düşünürdü. Mən də Naxışı öz şirin xəyalından ayırmağa qıymırdım. Ancaq o da mənim sükuta qərq olmağıma dözməyib: – Əgər Milli hökumət xaricdən ən son markalı toxuculuq maşınları da gətirsə onda biz o maşınlarla həm toxuduğumuz parçaların keyfiyyətini, həm də işçilərimizin maddi vəziyyətini yaxşılaşdı-

ra bilərik. Hətta istehsal etdiyimiz malları dünya bazarlarına da çıxarmağa nail olarıq – dedi.

Mən yolumuzun üstəki fotoqraf dükanına girdim ki, sənəd üçün çəkdirdiyim şəkillərimi alım. Qız da mənimlə dükana girdi. Fotoqraf məni görcək: – Şəkilləriniz hazırdır! Bu dəqiqə gətirərəm! – deyib içəri getdi. Mən fotoqrafın mizinin qabağında dayanıb gözlədim. Nədənsə fotoqraf bir az yubandı. Mən darıxdım. Dönüb Naxışa baxdım. Qız qoşa şəkilləri divardan asılmış xoşbəxt sevgililərə heyran-heyran baxırdı. Fotoqraf şəkillərimi gətirdi. Alıb baxdım. Şəkillər sənəd üçün olsa da, yaxşı çıxmışdı. Naxışın da xoşuna gəldi. Biz danışa-danışa Ərk qalasına yaxınlaşdıq. Qız ərklə mənə: – Bəlkə bir Ərk qalasının başına qalxıb yaşadığımız şəhərin axşam mənzərəsinə baxaq – dedi. Mən məmnuniyyətlə: – Gözəl fikirdir! Qalxaq! – dedim. Biz Ərkin başına qalxdıq.



Naxış  yerə baxdı, göyə baxdı. Sonra heyran-heyran: – Adam bilmir ki, yerdəki ulduzlara baxsın, yoxsa ki, göydəki ulduzlara – dedi.



Mən əvvəl göydəki ulduzlara, sonra yerdə Naxışın ulduz-ulduz yanan gözlərinə baxdım. Sanki dünyanın bütün işıqlarını yığıb qızın gözlərinə doldurmuşdular. Mən də o işıqları ilk dəfə görürdüm. Naxış mənim heyrətlə baxan gözlərimi öz gözlərindən yayındırmaq məqsədilə: – Yadımdadır. Siz mənə Ərk qalası haqqında mübariz ruhlu bir şeir oxumuşdunuz. İndi bu qalaya qonaq gəlmişik. Bəlkə sovqat yerinə o şeiri oxuyasınız. Ərk qalası özü də dinləsin. Yalnız Ərk qalasımı? Yox! Bütün təbrizlilər eşitsin. Daha Ərk qalasından da doğma, uca, nəhəng kürsüdə şeir oxumayacaqsınız ki? – dedi. Mən etirafla qıza: – Doğrudan a... Heç bütün dünyada bu boyda kürsü yoxdur. Amma hayıf, şeir yanımda deyil – dedim. Naxış etirazla mənə: – Siz o şeiri mənə əzbərdən oxumuşdunuz. Deməli, yenə əzbərdən oxuya bilərsiniz – dedi. Qız düz deyirdi. Mən o şeiri Naxışa əzbərdən oxumuşdum. Ancaq mən kiməsə bir dəfə oxuduğum şeiri ona ikinci dəfə oxumağı xoşlamazdım. Fikirləşərdim ki, kiməsə birinci dəfə oxunan şeir sanki dinləyiciyə öz bakirəliyini bağışlayır. Amma ikinci dəfə oxunanda dinləyicinin gözlərində dullaşır. Sözün doğrusu Ərk qalası haqqında yazdığım şeiri qızın yox, Ərk qalasının xətrinə oxudum. Oxudum ki, Naxış demişkən, həm Ərk qalası, həm də bütün təbrizlilər eşitsin:

**Bu bürkülü, bu sazaqlı dünyamızda**
**Havaları öncə bilən Ərkim mənim!**
**Bu qürurlu, bu şıltaqlı dünyamızda**
**Sığnacağım, umacağım, Ərkim mənim!**

**Nələr deyir yaddaşları zamanların,**
**Yaşlı gözü baxa-baxa bağbanların,**
**Hayla gələn, huyla gedən dövranların**
**Gül yox, güllə əkdikləri ləkim mənim.**

**Dəftər yoxsa, qənimətdir bir varaq da,**
**Təki dinsin! Lallaşmasın söz dodaqda.**
**Bərkdə-boşda məşhurlaşır hər sınaq da,**
**Neçə dəmir diş sındıran bərkim mənim.**

**Təbiətdə, cəmiyyətdə, ünsiyyətdə,**
**Cəsarətdə, rəşadətdə, dəyanətdə,**
**Sədaqətdə, mərhəmətdə, ləyaqətdə**
**Bəlkə də yer kürəsində təkim mənim.**

**Od nəfəsli yürüşlərin axarında,**
**Öz taleyin yazılanda divarında,**
**Mətanətlə dayanıb yol kənarında**
**Təkliyiylə dik başlara sərkim mənim.**

**Sən əsgərsən, dik sinəsi yarıq-yarıq,**
**Sən şəhidsən, boz paltarı cırıq-cırıq,**
**Sən dastansan, sətirləri qırıq-qırıq,**
**Yazıların ilqarına şəkkim mənim.**

**Körpüləşən zəmanələr arasında,**
**Tarixləşən viranələr arasında,**
**Ülviləşən kaşanələr arasında**
**Ən qiymətli, ən şöhrətli mülküm mənim.**



**Şüarıyla, çağrışıyla, cürətiylə,**
**Təmkiniylə, hünəriylə, qeyrətiylə,**
**Nisgiliylə, dözümüylə, vüsətiylə**
**Bu dünyada qəhrəmanlıq sərgim mənim.**

**Səni daim öz çiynində daşımaqdan,**
**Səni daim öz əynində daşımaqdan,**
**Səni daim öz beynində daşımaqdan**
**Kim yorular, vüqar dolu çəkim mənim.**

**Ucalaram səni tamam dərk eləsəm,**
**Taleyini taleyimə görk eləsəm,**
**Səni bir gün mən könülsüz tərk eləsəm**
**Yaşamaq yox, ölüm olar tərkim mənim.**

Mən şeiri oxuyub qurtardıqdan sonra Naxış mənim qayğıyla dolu gözlərimə baxa-baxa əl çaldı. Təbrizdə də quşlar hava qaralcaq öz yuvalarına çəkilir. Ancaq bu axşam "Ərk qalası"nın başında mənə əl çalan qızın ağ əlləri havada pərvazlanan iri ağ göyərçini andırırdı...

Sonra Naxış qalanın başından aşağı baxdı. Deyəsən gözləri qaraldı. Maraqla məndən: – Aşağı baxanda sizin də gözləriniz qaralır? – deyə soruşdu. Mən təbəssümlə qıza: – Mən Savalanın zirvəsindən elə dərin uçrumlara baxmışam ki, qaranlıqdan başqa heç nə görməmişəm – dedim. Naxış nəyisə xatırlayaraq: – Doğrudan a... Lap unutmuşam ki, siz nəhəng Savalanın körpə qartalı olubsunuz – dedi. Mən qıza məşrutə hərəkatı zamanı Səttarxanın topçularının topları bu qalanın başına çəkib düşmənlərə top atəşilə necə divan tutmalarından qürurla danışdım. Ancaq heç xəyalıma da gətirmədim ki,

yaxın günlərdə bir dəstə azadlıq fədaisi bu qalanın başından şah sərbazlarının təpəsinə od yağdırıb son güllələri qalana qədər mərdliklə döyüşəcəklər. Sonra özlərini qalanın başından əbədiyyətin qucağına atacaqlar...

Sanki başımız üstündən keçən soyuq bulud qızın yanağını yaladı. Naxış üşüdü. Mən pencəyimi çıxarıb qızın zərif çiyinlərinə saldım. O əynimdəki isti köynəyə diqqətlə baxıb: – İsti köynəyiniz də mübarək! Təzə alıbsınız? – dedi. Əvvəl istədim ki, – Hə! – deyəm. Bəlkə də əbədi səadət naminə müvəqqəti yalan demək olar. Həm də bu yalan günah sayılmaz. Sonra düşündüm ki, yox, sevgidə doğru zirvədirsə, yalan uçrumdur. Əgər qız doğrudan da mənə inanırsa, Kəkliyi mənə qısqanmaz. Ona görə də Naxışa həqiqəti danışdım. Sonra qızın gözlərinə baxdım. O gözlərdəki inam ulduzları nəinki sönmüşdü, əksinə daha da parlayırdı. Birdən o ulduzlar sozaldı. Deyəsən Naxış Kəkliyin taleyinə acıdı. Mən bu qızın ürəyində çağlayan həssas qayğıya heyran qaldım. Ancaq sən demə, həssas qayğılı ürək daha tez kövrələrmiş. Mən Naxışın səmimi duyğularından yoğrulmuş təmkinindən cürətlənib Kəkliyin təvəllüd günündə ona aldığım sancaq haqqında da danışdım. Qız alicənablıqla: – Yaxşı eləyibsiniz! Kəklik ən qiymətli hədiyyəyə layiq sənətkardır – dedi.

Biz qalanın başından qala vüqarıyla düşdük. Sonra ağır addımlarla söhbət edə-edə Naxışgilin evlərinə qədər getdik. Qız ulduzlar altında məni mehriban baxışlarının müşayiəti ilə yola saldı.



## GÜLÜN BÜLBÜLÜ

*Gülün bülbülü dinsə,*
*Özü də nəğmələşər.*
*Gülün bülbülü sussa,*
*Gözləri çeşmələşər.*

Gülün adı Puran, bülbülünkü İsa idi. İkisi də gənc idi. Cəmi on dörd yaşları var idi. İkisi də məharətlə saz çalır, hərarətlə oxuyurdu. İkisinə də kiçik, yüngül, qəşəng saz bağlatdırmışdıq. İkisinin də sənət eşqiylə alışıb-yanan nəfəsi nəinki kiçik sazlardakı gümüş simləri, hətta böyük ürəklərdəki qızıl telləri də ehtizaza gətirirdi. Sanki səhnə bir gülşən idi. Gənc nəğməkarlardan biri bu gülşəndə təzəcə açılıb pardaxlanmağa başlayan gül, biri də budaqda dil-dil ötən bülbül idi!



Hamı onlara "qoşa saz" deyirdi. Yeniyetmələr konsertlərdə qoşa çıxış edirdilər. Üz-üzə dayanıb oxuyurdular. Deyişmə də, qıfılbənd də, gəraylı da ifa edirdi-

lər. Hacı Xanməmmədov bu gənclərlə səbrlə, həvəslə, ümidlə məşğul olurdu. Kövrək uğurlu “qoşa saz”ın möhtəşəm gələcəklərinə qətiyyətlə inanırdı. Sənətin şirin dadını təzəcə duymağa başlayan gənclər oxuyanda mehriban çöhrələrindəki işıqlı təbəssüm daha da parlayırdı. Bu zaman Təbrizin on dörd yaşlı sənət ulduzları səhnədə on dörd gecəlik Aya bənzəyirdi. Puran milli paltarda Azərbaycanın yaraşıqlı, namuslu, istedadlı qızlarının canlı timsalı idi. O, saz çalıb nəğmə deyən sinədəftər nənələrin ləyaqətli varisi idi. Başına ağ ipək yaylıq örtmüş qıza yaxası çəkili yel, ətəyi qırçınlı tuman, üzü naxışlı başmaq unudulmaz nənələrindən əziz yadigar idi!

Başına qara buxara papaq qoymuş İsanın əynindəki vəznəli çuxa, belindəki gümüş xəncər, ayağındakı şəvə çəkmələr məğrur babaların geyimini xatırladırdı! Bu gənclər kollektivin “sonbeşikləri” idilər. Deyirlər ailədə sonbeşiyi çox istəyirlər. Bu doğrudan da belə imiş. “Qoşa saz”ın nəğmələrini hamı sevirdi, əzizləyirdi. Kiçik nəğməkarların tamaşaçılar arasında da böyük hörməti var idi. Gənclər səhnəyə çıxanda salon təlatümə gəlirdi. “Qoşa saz”a mizrab vuranlardan qabaq səhnəyə hansı görkəmli sənətkar çıxırdısa, nəyi ifa edirdisə, nə qədər uğur qazanırdısa, fərqi yox idi. Hamısı “Qoşa saz”ın tellərinə axan alqış selində batıb gedirdi. Hiss olunurdu ki, tamaşaçılar həm gənclərin sənətinə, həm də özlərinə heyrandılar. Belə anlarda Hacı Xanməmmədovun gözləri sevincdən yaşarırdı. İstər Tehrandan, istərsə də xaricdən Təbrizə gələn qonaqlar da filarmoniyanın konsertlərinə baxdıqları zaman “Qoşa saz”ın



məharətinə valeh olurdular. Dillərini bilməsələr də, sözlərini başa düşməsələr də yorulana qədər əl çalırdılar. Qonaqların gözlərində heyrətlə qibtə bir-birinə qarışırdı. Sonra hər ikisi birləşib səmimi təbəssümə çevrilirdi.

İsanın ailəsi maddi cəhətdən kasıb olsa da, mənəvi cəhətdən zəngin idi. Məhəllədə təmizliyi, zəhmətkeşliyi, xeyirxahlığı ilə tanınırdı. Milli hökumətin xalq qoşununda xidmət edən əfsərlər də İsanın xətrini çox istəyirdilər. Bir gənc təyyarəçi gənc nəğməkarla dostlaşmışdı. Bunu mən də bilirdim, İsanın ailəsi də. Gənc təyyarəçi bizdən icazə alıb hər cümə günü İsanı təyyarəyə mindirib Təbriz üzərində gəzdirirdi...

Bir cümə günü evdə işləyirdim. Birdən qapı döyüldü. Lakin icazə gözləmədən bir nəfər içəri daxil oldu. Bu, filarmoniyanın xidmətçilərindən biri idi. Kişinin rəngi avazımışdı, gözləri böyümüşdü, dodaqları səyriyirdi. Mən xidmətçini əyləşdirdim. Bir stəkan su gətirdim. O, əlləri titrəyə-titrəyə sudan bir-iki qurtum içdi. Sonra birtəhər özünə gəlib dedi ki, gənc təyyarəçi ilə İsanın mindiyi təyyarə qəzaya uğrayıb...

Məni dəhşət bürüdü. Tələsik geyindim. Evdəkilərə tapşırdım ki, xidmətçi özünü yaxşı hiss etməyincə heç yerə buraxmasınlar. Küçəyə çıxıb gördüyüm ilk faytonu saxlatdırdım, əyləşib təcili hərbi qərargaha gedəcəyimi sürücüyə dedim. Atlar dördnala çapırdı. Sanki yerdən qığılcım qoparan nallar daşlara deyil, mənim yanan ürəyimə dəyib qorlarını ətrafa sıçradırdı. Hərbi qərargahda məni general özü qarşıladı. Bu, ucaboylu, qarabuğdayı,

həssas baxışlı bir adam idi. Mən Təbrizə gələndən bir ay sonra generalla bir şeir gecəsində tanış olmuşdum. O həm təmkinli, həm də zarafatcıl idi. İndi isə general kədər mücəssəməsinə dönmüşdü. Elə bil lal qaya idi.

Sən demə, təyyarə göyə qalxanda hava yaxşıymış. Belə havada təbrizlilər evdə oturmurlar. Şəhərə gəzməyə çıxırlar. İsa təyyarədə əfsərin yanında əyləşir. Təbriz hamar şəhərdir. Göydən baxanda yer məharətlə bəzədilmiş nəhəng bayram xonçasına bənzəyir. Təyyarə bu gözəlliklərin zirvəsində uçduqca əfsər doğma şəhəri ilə öyünür. İsa isə ana Vətənin hüsnünə yazılmış nəğmələr oxuyur. Təcrübəli əfsər təyyarənin qəzaya uğrayacağını hiss etsə də təmkinini saxlayır. Yanında nəğmə oxuyan səhnə ulduzunun gözlərinə dolmağa çalışan fəlakət buludlarını aydın görsə də bir söz demir. Özləri üçün heç bir nicat yolunun olmadığını görən gənc əfsəri indi yalnız bir məsələ düşündürür. Necə etsin ki, təyyarə şəhərin içinə düşməsin. Bu fəlakət özü ilə başqa fəlakət də törətməsin! Birdən ağlına gəlir ki, təyyarəni birtəhər Təbriz radio idarəsinin yerləşdiyi binanın həyətinə endirsin. Bu həyət geniş bir sahəni əhatə edirdi. Əfsər elə də edir. Təyyarə həyətin divarları arasına düşür. Lakin bu uğursuz hava gəmisi iki nakam gəncin ilk məzarına çevrilir...

...İzdihamlı dəfn mərasimində həm döyüşçülər, həm də sənətkarlar iştirak edirdilər. Qəbristanlıqda iki tabut yanaşı qoyulmuşdu. İnsanların nəfəsi sanki adi nəfəs deyildi. Yanar ürəklərdən qalxan acı tüstü idi. İsanın deyib-gülən, taleyin saysız-hesabsız sitəmlərinə



təbəssümlə meydan oxuyan, başqalarına təskinlik verən atası sükut içində donmuşdu. Sanki yuxu görürdü. Fələyin namərd əlləri kişini qəfildən yaxalamışdı. Qəmdən büzüşüb yumağa dönmüş atanın boyu bir qarış görünürdü. Ananı təsəlli ilə ovundurmaq mümkün deyildi. O elə şivən qoparırdı ki, az qala zaman-zaman köhnə qəbirlərdə sakit yatan insanları da oyadıb bu dözülməz faciəsinə şahid çağırmaq istəyirdi. İsanın böyük qardaşı Məmməd heykələ dönmüşdü. Yerindən tərpənmirdi. Bircə gün əvvəl ilhamla dolu sinəsindən qopan şaqraq nəğmələrilə insanlara sevinc verən İsa indi daşları da ağladırdı... Müğənni Kəklik isə yana-yana oxuyurdu:

**Günəş qüruba çatır,**
**Bu gün nə erkən batır?**
**Susun nəğməli quşlar,**
**Burda qartallar yatır...**

Matəm mitinqində general həlak olmuş əfsər haqqında həyəcanla danışdı.

Sonra mənə söz verdilər. Qəhərdən boğazım qurumuşdu. Neçə-neçə izdihamlı mitinqlərdə, döyüş səngərlərində, şeir gecələrində birnəfəsə bir kitab şeir oxusam da danışa bilmirdim. Danışmaq asan deyildi. Səbrlə, qayğıyla, zəhmətlə yetirdiyimiz kiçik sənət qardaşımı qəflətən itirmişdim. Gözlənilməz zərbəyə məruz qalmış bir döyüşçüyə bənzəyirdim. Birtəhər cürətimi toplayıb sənətə hələ gənc ikən ürəkdən bağlanan İsa haqqında öz ürək sözlərimi deyə bildim. Çıxışımın axırında istedadlı kiçik nəğməkarın xatirəsinə həsr etdiyim şeirimi oxudum. Hamı acıya-acıya, yana-yana qulaq asırdı.



İsanın həyat yolu əlvan, lakin qısa kino lentinə bənzəyirdi. Bu lentin əvvəli filarmoniyanın şaqraq nəğməli səhnəsindən başlayıb daş sükutlu qəbristanda qurtarırdı. Döyüş əsgəri ilə sənət fədaisi yanaşı dəfn olundu. Bu dəhşətli faciədən Puran da sarsıldı. Qızın iri gözlərinin qarası kədərdən bir az da böyümüşdü. Puran sevgili bülbülünü itirən solğun gülü xatırladırdı...

## SAĞLAMLIQ XOŞBAXTLIQDIR

*Şəkil var, munisləşir*
*Ən yaxın insan kimi.*
*Şəkil var, həyatını*
*Danışır dastan kimi.*

Sabah cümə günü idi. İşdən karxanaya zəng vurub Naxışı Təbrizin ətrafındakı mənzərəli yerlərə səyahətə çıxmağa dəvət etmək istədim. Dedilər Naxış işə gəlməyib, xəstədir. Mən evə getdim. Xalama dedim ki, Naxış



xəstələnib. Yanına gedəcəyəm. Nənəmin mənə göndərdiyi balı gətir, ona aparacağam. Xalam qızın xəstələndiyini eşidib kədərləndi. Gedib bal dolu bardağı gətirdi. Mən balı götürüb çıxanda xalam arxamca: – Məndən də Naxışa salam apar! – dedi.

Qapını Naxışın anası Surət xala açdı. Məni görəndə sevindi. Qolumdan tutub Naxışın yanına apardı. Qız çarpayıda uzanmışdı. Həmişə saçının yaraşığına diqqət yetirən Naxış nədənsə başına əl vurmamışdı. Ağ yastığının üstə səpələnən qara saçı yanaqlarını bürümüşdü. Ağ çöhrəsi qara saçının içində itmişdi. Sanki bir parça qara bulud on dörd gecəlik Ayı gizlətmişdi. Yox! Naxışın ağ çöhrəsi qaranlıq gecədə ağaran dan yerinə bənzəyirdi. Qız yataqda nəsə düşünürdü... Birdən anasının: – Gör bizə kim gəlib? – deyən səsini eşitdi. Üzünü bizə sarı çevirdi, məni gördü. Gülümsədi. Surət xala mehribanlıqla: – Siz söhbət eləyin, mən də çay tədarükü görüm – deyib getdi. Mən bal bardağını qızın çarpayısının yanındakı stulun üstə qoydum. Özüm də başqa stulda əyləşdim. Naxış nəzakət xatirinə dikəlmək istədi. Qoymadım. Qızın gül yanaqları azca solmuşdu. Sanki yanaqlarına ayaz toxunmuşdu. Ancaq bu solğunluq onu daha məsum, daha mehriban etmişdi. Qız utana-utana: – Bağışlayın siz allah! Özümün də özümdən zəhləm gedir. Adam xəstələnəndə saçını daramağı da unudur – dedi. Mən Naxışın könlünü açmaq üçün zarafata keçdim: – Pərişan saç qənirsiz gözələ daha çox yaraşır. Heç şairlərin daranmış saç haqqında yazdıqlarını görübsünüzmü? Yox! Şairlər həmişə pərişan saçı tərənnüm ediblər – dedim. Naxışın hərarətdən daha da

qızaran dodaqları qaçdı. İri qara gözlərində təbəssüm çağladı... Mən qətiyyətlə: – Gözəl həmişə gözəldir. Sağlamlığında da, xəstəliyində də. İcazə versəydiniz sizə kəndimizdə baş verən məzəli bir əhvalatı danışardım – dedim. Qız nəzakətlə: – Xahiş edirəm buyurasınız! Allah sizi mənə həyan göndərib – dedi. Sonra yastığa dirsəklənib gözlərini dodaqlarıma dikdi. Mən xəbərdarlıqla: – Əhvalat məzəli olduğuna görə sizdən qabaqca üzr istəyirəm – dedim. Naxış öz xəstəliyini unudaraq təbəssümlə: – Buyurun! Sizi dinləyirəm – dedi.

– Bizim kənddə Dilşad adlı zirək, ötkəm, zarafatcıl bir qız var idi. Dilşadı Şirinəli adlı bir oğlana nişanlamışdılar. Sanki od suya rast gəlmişdi. Şirinəli o qədər sadəlövh idi ki, onu tanımayanlar səfeh olduğunu zənn edərdilər. Toy axşamı Dilşadı Şirinəligilə gəlin gətirirlər. Ancaq Dilşadı o qədər bəzəyirlər ki, Şirinəli öz nişanlısını tanıya bilmir. Elə bilir başqa qızdır. Buna görə də gərdəyə girmək istəmir. Bunu görən Dilşad zarafata salıb: – Əşi, mən bu evin gəliniyəm. İstər dədəsinə verin, istər balasına – deyir. Qızın sözlərindən pərt olan Şirinəlinin atası oğlunu itələyib gəlin otağına salır. Dilşadın gözəlliyini görən Şirinəli kandarda heyrətdən donur. Nə dinir, nə danışır. Dilşad onun yaxasından yapışıb içəri çəkir. Sonra məzəmmətlə Şirinəliyə: – Ədə, de görüm qız sənsən, yoxsa mən? Niyə özünü bu qədər naza qoyursan – deyir. Dilşadı səsindən tanıyan Şirinəli qışqıra-qışqıra: – Pah atonnan dəsgah yiyəsi! Mən səni belə gözəl bilməzdim – deyir. Bu məzəli toy gecəsindən sonra Şirinəli hardasa bir şeyi ehtirasla tərifləyəndə eşidənlər əvvəl əllərini əllə-



rinə vurub şappıldadır, sonra pah atonnan dəsgah yiyəsi! – deyib qəhqəh çəkirdilər. Şirinəli daşın haraya atıldığını, mizrabın hansı simə dəydiyini dərhal başa düşüb susurdu – dedim.

Naxış ürəkdən bir qəhqəhə çəkdi. Gülüşünün səsinə anası gəldi. Qız məndən icazə alıb bu məzəli əhvalatı anasına danışdı. Surət xala da xeyli güldü. Sonra məhəbbətlə qızına: – Sənə dərman zad lazım deyil, ancaq gülüş lazımdır – dedi. Və yenə mətbəxə getdi. Naxış maraqla mənə: – Sizin danışdığınız əhvalatdan belə nəticə çıxır ki, qız özünə bəzək vurmasa çirkin görünər? Bu barədə sizin öz şəxsi fikriniz necədir? – dedi. Mən tövsiyəylə: – Mənə elə gəlir ki, bəzəyin də dərəcəsi var. Baxır qızın gözəlliyinə. Əgər qız doğrudan da gözəldirsə daha süni bəzəyi neyləyir? Əksinə, süni bəzək təbii gözəllik haqda inamsızlıq yaradar. Təbii gözəlliyi qiymətdən sala bilər – dedim. Qız etirafla: – Doğrudur, gözəllik də həqiqətə bənzəyir. Həqiqət yalanı götürmür, gözəllik də boyanı. Mənə elə gəlir ki, gözəlliklə sevgi ekiz yaranmışdır. Buna görə də gözəl qızlar daha tez sevilirlər. Şairlər də həmişə öz şeirlərində gözəlləri ilhamla təsvir edirlər. Ailə qurmaq istəyəndə də istedadlarını qanadlandıra biləcək gözəl qızlar axtarırlar. Ancaq bəzən əksinə də olur. Gözəl qızlar özləri şairlərə ürəklərində yer vermirlər. Şairlər isə gözəl qızların ürəklərindəki ünvanlarını bilmirlər – dedi. Naxış susdu. Ancaq yenə nəsə demək istəyirdi, deyə bilmirdi. Məndən utanırdı. Qız gözlərini üstündəki yorğanın əlvan güllərinə dikdi. Nazik, ağ, kiçik əlləriylə o

gülləri sığalladı. Sanki o, gülləri yox, öz ürəyində təlatümə gələn həyəcanı sığallayıb yatırmaq istədi. Sonra üzümə baxmadan pıçıltıyla mənə: – Sizi necə? Sevən olubmu? – dedi. Mən Naxışın sualına cavab vermək əvəzinə haçansa yazdığım bir şeirimi oxudum:

**Etiraf qorxunun yox,**
**Cəsarətin səsidir!**
**Səmimiyyət duyğulu**
**Həqiqətin səsidir!**
**O ölən məhəbbətin**
**Əklilidir dünyada.**
**O doğan məhəbbətin**
**Vəkilidir dünyada.**
**Sirlə dolu ürəyin**
**Gözlərdə əksidir o.**
**Fərəhin də, qəmin də**
**Sözlərdə əksidir o!**

Qız narazılıqla: – Oxuduğunuz şeir gözəl olsa da sualımın cavabı deyil – dedi. Mən təmkinlə: – Ancaq bu şeir mənim ilk sevgimin müqəddəməsidir – dedim. Naxış heyrətlə: – Belə deyin! – dedi. Mən səmimiyyətlə: – Mənim ögey xalamın qızı göbəkkəsməm olub. Bir yerdə böyümüşük, bir ocağın oduna isinmişik. Sonra bir-birimizə bağlanmışıq. Aranda, yaylaqda qoşa gəzmişik. Bir-birimizi sevmişik. Ancaq nişanlanmamışıq. Mən kənddən tez-tez çıxmışam. Ənzəlidə, Astarada, Miyanada işləmişəm. Nəhayət, İran Xalq Partiyasına daxil olub, Ərdəbil vilayət komitəsində çalışmışam. Kəndə yovuşmayıb inqilab yoluyla getdiyimi görən xalam, qızını dayım oğluna vermişdir – dedim. Naxış maraqla: – Xalanızın qızının adı nə idi? – deyə soruşdu. Mən riqqətlə: – Sona! – dedim. Naxış etirafla: – Adı gözəldir. Özü də gözəl idimi? – dedi. Mən pıçıltıyla: – Kəndimizdə gözəllər çoxdu. Ancaq o nadir gözəl idi – dedim. Qız hiddətlə mənə: – Bəs sonra siz xalanıza nifrət etmədiniz? – dedi. Mən kədərlə: – Yox! Xalam mənim odlu-alovlu döyüşlərdən keçəcək yolumun necə qurtaracağını bilmirdi. Qızını isə gözlərindən uzaqlaşdırmaq istəmirdi. O elə zənn edirdi ki, mən kəndimizi sevmirəm. Ancaq mən kəndimizi özümə müqəddəs məbəd hesab edirəm. Təbrizi də sevirəm. Bu şəhərin nadir ətirli gülləri də mənə əzizdir. Ancaq mən Savalan güllərinin ecazkar rayihəsini uda-uda ərsəyə çatmışam. Ona görə də sizi yoxlamağa gələndə özümlə Savalan gülləri gətirmək istədim. Bu isə mümkün olmadı. Onda sizə Savalan balı gətirməyi qət etdim. Axı zəhmətkeş arılar bu balın şirəsini o güllərdən toplayıblar – dedim. Naxış bal bardağını stulun üstündən götürüb ağzını açdı. Sanki otağa Savalan güllərinin ətri doldu. Qız bardağı yaraşıqlı burnunun qabağına gətirib qoxladı. Sinəsi dolusu nəfəs aldı. Sonra məmnun-məmnun: – Payınız çox olsun. Bal şirinlikdir. Özü də Savalan balı! Bu mənim gözlərimdə dünyanın ən qiymətli nemətlərindən yüksəkdə durur – dedi. Sonra Naxış üzünü mətbəxə sarı çevirib fərəhlə: – Ana, ay ana! Gəl gör qonağımız mənə nə gətirib? Savalan balı! – dedi. Surət xala otağa gəldi. Bardağa baxdı. Sonra balı qoxlayıb bir an xəyala daldı. Sanki bir zaman əri Nəzər Rövşənlə dolaşdığı Savalan ətəklərini xatırladı. Bu zaman qapı döyüldü. Gələnlər

Naxışın iş yoldaşları idi. Naxış öz rəfiqələrini mehriban təbəssümlə qarşıladı. Məni karxana işçilərilə tanış etmək istəyəndə qızlar bir ağızdan: – Şairi tanıyırıq. Dəfələrlə şeir gecələrində görmüşük. Şeirlərini mətbuatda oxumuşuq. Radioda dinləmişik – dedilər. Bəstəboylu bir yaraşıqlı qız təbəssümlə Naxışa: – İstəyirsən şairin xoşuma gələn "Tamam gözəl" adlı şeirini əzbərdən söyləyim – dedi. Naxış məmnuniyyətlə qıza – Buyur – dedi. Qız başladı:

**Gözlərinə baxmasam**
**Gözlərim nurdan düşər.**
**Hikmət dolu ulduzlar**
**Yadıma hardan düşər?**
**Gözəl var, ecazkardır**
**Bir dahinin sözü tək.**
**Ancaq hayıf, ürəyi**
**Gözəl deyil özü tək.**
**Mənə elə gəlir ki,**
**O yarımçıq gözəldir.**
**Yaraşığı bütöv yox,**
**Qırıq-qırıq gözəldir.**
**Özü də, ürəyi də**
**Gözəl olan bir adam,**
**Mini min söz desə də**
**Tamam gözəldir, tamam!**
**Bu dünyada mənimçin**
**Sən də belə gözəlsən.**
**Ağlaya-ağlaya yox,**
**Gülə-gülə gözəlsən.**



**Məgər hər həqiqəti**
**Yaşadan ürək deyil?**
**Axı gələcəyi də**
**Unutmaq gərək deyil.**
**Surətin gözəlliyi**
**Keçib-gedəndir... Fəqət**
**Ürəyin gözəlliyi**
**Həmişəlikdir, afət!**

Qızlar əl çaldı. Mən də əl çaldım. Ancaq öz şeirimi yox, qızı alqışladım. Doğrudan da o, şeiri hərarət dolu məharətlə oxudu. Naxış üzünü mənə çevirib ərklə: – Mən bu şeiri nə sizdən eşitmişəm, nə də mətbuatda oxumuşam – dedi. Mənim susduğumu görən bəstəboylu qız etirafla Naxışa: – Bu şeir hələ mətbuatda çıxmayıb. Sənin şair dostun mənim şair qohumum Məmmədbağır Niknamla yoldaşlıq edir. Yox! Yoldaşlıq nədir? Qardaşlıq edir. Sirli şeirlərini də bir-birlərinə oxuyurlar. Bu şeirin üzünü Məmmədbağır Niknam sənin şair dostundan alıb, mən də Məmmədbağır Niknamdan – dedi. Sonra şəstlə mənə baxdı. Mən də məmnun-məmnun gülümsədim. Deyəsən Naxış sirli şeirin özünə yazıldığını bildi. O da gülümsədi. Yanaqları allandı. Ancaq bilinmədi ki, yanaqları güldüyündənmi, yoxsa utandığındanmı allandı? Bir ucaboylu, yaraşıqlı qız nəzakətlə mənə: – İcazə versəydiniz mən də sizin bir şeirinizi əzbərdən oxuyardım – dedi. Mən zarafatla qıza: – Haçandır işin çoxluğundan şeir gecələrinə gedə bilmirəm. Gecə olmasın, gündüz olsun! Ancaq şeir məclisi olsun!

Buyurun! Söz sizindir – dedim. Qızlar güldü. Ucaboylu, yaraşıqlı qız mənim “Biz” adlı şeirimi məlahətli ləngərlə oxumağa başladı:

**Təpə mənim olsun, dağ sənə qalsın,**
**Baxça mənim olsun, bağ sənə qalsın,**
**Qönçə mənim olsun, gül sənə qalsın,**
**Bürkü mənim olsun, yel sənə qalsın,**
**Bulaq mənim olsun, çay sənə qalsın,**
**Ulduz mənim olsun, Ay sənə qalsın,**
**Kəsək mənim olsun, daş sənə qalsın,**
**Üzük mənim olsun, qaş sənə qalsın,**
**Sevgi mənim olsun, həd sənə qalsın,**
**Şəkər mənim olsun, şəhd sənə qalsın,**
**Dərə mənim olsun, düz sənə qalsın,**
**Astar mənim olsun, üz sənə qalsın,**
**Bədən mənim olsun, can sənə qalsın,**
**Pətək mənim olsun, şan sənə qalsın,**
**Payız mənim olsun, yaz sənə qalsın,**
**Mizrab mənim olsun, saz sənə qalsın,**
**Tüstü mənim olsun, köz sənə qalsın,**
**Qələm mənim olsun, söz sənə qalsın,**
**Mehriban yaşayaq bu dünyada biz,**
**Bir ünvan daşıyaq bu dünyada biz...**

Qızı o ki var, alqışladıq. Yenə Naxış üzünü mənə çevirdi. Sonra gileylə dolu eyhamla: – Bu şeiri də nə sizdən eşitmişəm, nə də mətbuatda oxumuşam – dedi. Şeiri oxuyan qız səmimiyyətlə Naxışa: – Naxış xanım,



düz deyirsiniz. Bu şeiri nə şair dostunuzdan eşidibsiniz, nə də mətbuatda oxuyubsunuz. Mənim qardaşım xanəndədir. Filarmoniyada oxuyur. Sizin şair dostunuz bu şeiri yazıb, musiqi bəstələmək üçün filarmoniyanın bəstəkarına verib. Şeir qardaşımın xoşuna gəlib. Üzünü köçürüb evə gətirib. Mən də evdə şeiri dönə-dönə oxuyub əzbərləmişəm – dedi. Sonra təbəssümlə mənə baxdı. Mən kirpiklərimi qaldırıb endirməklə razılığımı qıza bildirdim. Naxış elə sandı ki, bu şeir də özünə yazılıb. Ona görə sevindiyindən gülümsədi, utandığından qızardı. Mən qızlara qardaş məhəbbətilə baxdım.

Naxışın rəfiqələri öz toxuduqları parçalardan libas geymişdi... Surət xala bizə çay, limon, şirniyyat gətirdi. Naxış mehriban-mehriban: – Şirni yeyin, qızlar. Gün o gün olsun ki, sizin nişan şirninizi yeyək! – dedi. Qızlar utandı. Başlarını aşağı saldı. İçərilərində nisbətən cəsarətli olan qarabuğdayı bir qız hörmətlə: – Yox! Naxış bacı, əvvəl gərək sənin nişan şirnini yeyək – dedi. Naxış mənə baxıb güldü. Qızlar şirniyyat yedi, çay içdi. Sonra Naxışla da, mənimlə də xudahafizləşib getdilər. Otağa sükut çökdü. Sükutdan darıxan Naxış təbəssümlə mənə: – Bir şeir oxuyun! – dedi. Mən heyrətlə qıza: – Bayaqdan bu otaq şeir məclisinə dönüb, siz isə yenə də şeir istəyirsiniz – dedim. Naxış təkidlə: – Xahiş edirəm – dedi. Mən gözlərimi pəncərədən Eynal-Zeynal dağına dikib oxudum:

**Məndən soraq alırsanmı**
**Könül yarı bu dünyada?**
**Heç xəyala dalırsanmı**
**Sən də barı, bu dünyada?**

**Yox! Ömrünü şən sürürsən,**
**Nə duyursan, nə görürsən.**
**Yuxuma da sən girirsən**
**Gecə yarı, bu dünyada.**

**Zaman uzun, ömür gödək,**
**Nə qədər tək qalsın ürək?**
**Arzularla dinsin gərək**
**Ülfət tarı, bu dünyada!**

**Nə gedəri mehmanım ol,**
**Nə uğrumda qurbanım ol,**
**Yaralıyam, həyanım ol,**
**Yara sarı, bu dünyada.**

**Lazımsız da gərəkləşir,**
**Təpərsiz də zirəkləşir...**
**Rəhimsiz də kövrəkləşir**
**Həyat şarı bu dünyada.**

**Könlüm yanır eşq oduna,**
**Çatmasan da sən dadına,**
**Heç olmasa sal yadına**
**Səni tanrı bu dünyada!**

Şeiri oxuyub qurtardım. Naxışa baxdım. Qızın gözləri dolmuşdu. O, heyrətlə: – Heç sizi də unutmaq olar? – dedi. Sonra çantasından medalyonunu çıxarıb açdı. İçindəki şəkli mənə göstərdi. Baxdım. Mənim şəklim idi. Heyrətləndim. Maraqla qızdan: – Bu şəkli hardan tapmısınız – deyə soruşdum. Qız nəzakətlə: – Tapmamışam, almışam! – dedi. Mən yenə: – Hardan? – dedim. Qız şəstlə: – Fotoqrafdan! – dedi. Sən demə, Na-



xışla fotoqraf dükanına gedib sənəd üçün çəkdirdiyim şəkillərimi alan günün sabahı qız işdən sonra fotoqrafın yanına gedib mənim şəklimdən alır. Fotoqraf məni tanıyırdı. Mətbuatda dərc olunmaq üçün də şəkillərimi ona çəkdirirdim. Fotoqraf yəqin ki, qızın yaxın tanışım olduğunu zənn edir. (Axı o qızı mənim yanımda görmüşdü). Amma niyə belə kiçik şəkil istədiyinə təəccüb etsə də bir söz demir. Şəklin üzünü çıxarıb Naxışa verir. Mən təəccüblə qıza: – Siz şəkli mənim özümdən niyə istəmədiniz ki? – dedim. Naxış tərəddüdlə: – Nə bilim, utandım – dedi. Mən təbəssümlə: – Zərər yoxdur. Arada bir şəkil mübadiləsi edərik. Yəni şəkillərimizi çəkdirib bir-birimizə verərik– dedim. Naxış mənalı-mənalı: – O da lazımdır. Ancaq məncə adam öz istədiyi adamın şəklini həmişə öz ürəyində gəzdirməlidir – dedi. Mən başımla Naxışın dediklərini təsdiq etdim. Ayağa qalxıb səmimiyyətlə: – Tez sağalın. Sağlamlıq xoşbəxtlikdir – dedim. Sonra Naxışın isti, mehriban, kövrək əlini ovcumda ehtiyatla sıxıb otaqdan çıxdım. Yolda mənə elə gəldi ki, qızın şəkli ürəyimdədir. Onu itirməyim deyə tez-tez yoxlamalıyam. Qeyri-ixtiyari əlimi ürəyimin üstə qoydum... Dərbəndin başındakı ağaca baxdım. Ağac daha əvvəlki yaraşığını itirirdi. Zaman-zaman budaqlarını bəzəyən təzətər yarpaqlarını tökürdü. Sanki bu yarpaqlar mizraba dönüb ürəyimin kövrək tellərinə dəyirdi. Tellər deyirdi:

**Xəzələ çevrilir yaşıl bir yarpaq,**
**Torpağa iz salır, ürəyəsə köz...**
**Hər şey dəyişilir zamanla, ancaq**
**Nə göz dəyişilir dünyada, nə söz!**

Bəli! Ömrümün payızında günlərim yarpaq-yarpaq tökülsə də Naxışın gözləri mənim baxışımda, sözləri isə ürəyimdə əbədi qalacaqdı! Məgər biz ayrılacaqdıq? Yox! Yox! Biz həyatın keşməkeşlərlə dolu yollarında çiyin-çiyinə irəliləyəcəkdik. Ayrılacağımızı heç xəyalımıza da gətirməyəcəkdik. Mən də bu inamla dərbənddən xiyabana çıxıb evə doğru addımladım... Yolda düşündüm ki, yaxşı ki, Sonadan sonra Ərdəbildə Gülənbərlə tanış olmağım haqqında Naxışa heç nə demədim. Yoxsa qızın onsuz da narahat balığı andıran ürəyi ikinci qısqanclıq torunda çırpına-çırpına yorulardı.

## SƏRHƏDDƏ TƏHLÜKƏ

*Sinə var, məclislərdə*
*Şeir dolu dəftərdir.*
*Sinə var, Vətəninin*
*Sərhəddinə sipərdir!*

Yaz gələndə təntənə ilə gəlsə də, gedəndə səssiz-səmirsiz çıxıb gedir. Sanki o insanlar üçün nələr gətirdiyini, nələr qoyub-getdiyini deməkdən utanıb çəkinir. Qış isə gələndə də hay-harayla gəlir, gedəndə də. Sanki qarıyla, tufanıyla özünü gözə soxmağa çalışır. Gəlişini də bildirir, gedişini də. Hətta nələrisə uçurub dağıtdığını, kimlərisə incitdiyini açıq-aşkar car çəkməkdən də çəkinmir.

Təbrizin payız ətirli havasında uçurub dağıtmağa həris bir qışın soyuq nəfəsi duyulurdu. Filarmoniyanın səhnəsində isə qızğın məşqlər davam edirdi. Məhərrəmlik düşdüyünə görə filarmoniyada konsertlər dayan-



dırılmışdı. Lakin yeni, böyük, əlvan proqramla qarşıdakı açılışa hazırlıq görülürdü. Hacı Xanməmmədov adəti üzrə ilhamla, təmkinlə, diqqətlə səhnədə orkestrə dirijorluq edirdi. Mən isə salonda birinci cərgədə əyləşib bəstəkar dostuma baxa-baxa dirijorun orkestrdə mövqeyi haqqında düşünürdüm.

Dirijor sərkərdəyə bənzəyir. Orkestrin hər üzvü silahlı bir əsgərdir. Sərkərdə mahir əllərinin işarəsilə o silahların hədəfə sərrast tuşlanmasını dəqiq nizamlayır. Yoxsa silahlar açılanda atəşlər hədəfdən yan keçə bilər, hətta səslər qarışığında öz sahiblərinə dəyə bilər. Dirijor mayağı andırır. O, təlatümə gələn dəryada gəmiyə təhlükəsiz yol göstərməsə, başsız dalğalar bir-birilə toqquşub gəmini sualtı qayalara çırpıb parçalaya bilər. Dirijor özü mahir əllərilə şahə qalxan dalğaları cilovlayıb ram edir ki, gəmi limana sağ-salamat gedib çıxa bilsin. Dirijor xalça ustasına oxşayır. O hər sapın, hər rəngin, hər naxışın öz yerinə düşməsinə çalışır. Yoxsa pintilik ucbatından xalça rəngləri qarışan iri bir palitraya çevrilər. Dirijor böyük bir royalı xatırladır. Sanki daim hərəkətdə olan barmaqlar bu royalın şirmayı dilləridir. Dirijor dillər arasındakı öhdəçiliyi elə dəqiq bölüşdürməlidir ki, birinin vəzifəsi digərinin üzərinə düşməsin. Yoxsa incə bir melodiya kobud səslər tünlüyündə itə bilər...

Xidmətçinin gəlişi fikrimi dağıtdı. Məni telefona çağırırdılar. İş otağıma gəlib dəstəyi götürdüm. Danışan S.C.Pişəvəri idi. Onun həmişə təmkinli, inamlı, qətiyyətli səsində indi həyəcan qarışıq kədər duyulurdu. S.C.Pişəvəri məni yanına çağırırdı. Geyinib intizar için-

də MK-ya yollandım. Qapıçı gəlişimi Pişəvəriyə dedikdən sonra kabinetə daxil oldum. O içəridə var-gəl edirdi. Mən narahat təbiətli Pişəvərinin var-gəl etməsini çox görmüşdüm. Yorulanda, əsəbləşəndə, həyəcanlananda belə edərdi. Mən içəri girəndə o üzü pəncərəyə tərəf addımlayırdı. Pəncərə isə xiyabana açılırdı. O addımlayıb pəncərədən xiyabana baxdı. Sonra dönüb mənə sarı gəldi. Üz-üzə dayandıq. Üzümə xeyli baxdı. Mən də baxışlarımı firqə rəhbərinin tanış, həssas, müdrik gözlərinə dikmişdim. Bu gözlərdən yorğunluq yağırdı. Bu gözlər mənzildə yağı tükənməkdə olan çırağa, dənizdə gecələr gəmilərə yol göstərməkdən sozaran mayağa, səhərə yaxın baxışı tovdan düşən ulduza bənzəyirdi. S.C.Pişəvəri son vaxtlar çox düşünürdü, yazırdı, çalışırdı. Gecələr maşınla mühüm postları yoxlamağa çıxanda sürücünün yanında yox, arxada otururdu. Yalnız postlar arasındakı yollarda çimir eləyib gözlərinin acısını dərirdi.

O handan-hana mənə: – Səni Zəncana göndərmək istəyirəm. Özün bilirsən ki, inanılmış adamımız istənilən qədər deyil – dedi. Zəncan sözünü eşitcək məsələnin nə yerdə olduğunu dərhal başa düşdüm. Mən cəbhəyə getməli idim. Bu qədim Azərbaycan şəhərini doğma torpaqdan ayırmışdılar. O indi həm sərhəd, həm də cəbhə idi. Ancaq mən S.C.Pişəvəriyə bildirdim ki, bu günlərdə filarmoniyada yeni mövsüm üçün ciddi hazırlıq işləri görürük. O mənə dedi ki, bu işlərə başçılıq etməyi başqa adama tapşırarıq. Sən isə get hazırlaş, iki saatdan sonra burda ol!



Əvvəlcə filarmoniyaya gəldim. İşçiləri otağıma toplayıb əhvalatı danışdım. Hamı məni dərin sükut içində diqqətlə dinləyirdi. Lakin ürəklərin həyəcanı tutulub-açılan üzlərdə dalğa-dalğa əks edirdi. Kəklik yaman həyəcan keçirirdi. İşçilər otağımdan gedəndən sonra Naxışa zəng vurdum. Əhvalatı danışdım. Qız gözlənilməz xəbərdən sarsıldı. Mən inamla: – Nigaran qalmayın! Hələlik, görüşənə qədər! – deyib telefon dəstəyini yerinə qoydum. Sonra iş otağımdan salona çıxdım. İşçilərə müəyyən tapşırıqlar verib evə yollandım. Gülüstan bağının qabağından keçərkən dayandım. Bağın ortasında bir yaz günündə təntənə ilə ucaltdığımız Səttarxanın büstünə baxdım. Sanki o da postament üstündə narahat idi. Sanki düşmənlərin sərhəddə törətdikləri cinayətlərdən qəzəblənmiş Sərdar uzun bığlarının uclarını ağzına salıb çeynəyəcəkdi. Mən inqilab sərkərdəsinin dalğın gözlərinə nəzər saldım. Sanki bu gözlər mehriban baxışlarıyla mənə döyüş yollarında xeyir-dua verirdi.

Həyətə daxil olub daş pillələrlə otağıma qalxdım. Xalamı çağırdım. Zəncana gedəcəyimi dedim. İsti papağımı, yun köynəyimi, əlcəklərimi, silahımı, portfelimi götürdüm. Xalamla qucaqlaşdım, öpüşdüm, ayrıldım. O, həyəcan keçirirdi. Rəngi avazımışdı. Sanki üzünə soyuq payızın boz buludları çökmüşdü. Xalamın həyat yoldaşı İsrafil məni MK-nın binasına qədər müşayiət etdi. Biz qucaqlaşıb ayrılarkən onun bütün bədəninin titrədiyini hiss etdim. Halbuki o, Ərdəbil ətrafında şah sərbazlarıyla, Yurdçu mahalında xan nökərlərilə, Savalan ətəklərində Şahsevən qaçaqlarıyla neçə-neçə döyüş-

də hünər göstərmiş təcrübəli bir fədai başçısı idi. Duyurdum ki, İsrafili həyəcana salan gənc dayısı oğlunun qəribə taleyinin dumanlı aqibətidir.

Mən vaxtında Seyid Cəfər Pişəvərinin yanına qayıtdım. O yenə də otaqda var-gəl edirdi. Sanki bu narahat insanın addımları zaman adlı saatın hərəkətdə olan iri əqrəbləri idi. Azərbaycanın gələcək taleyi bu əqrəblərin necə işləməsindən asılı idi. O məni yazı masasının önündə qarşıladı. Yenə də üz-üzə dayandıq. Bir müddət baxışdıq. Sağ əlini sol çiynimə qoyub:

– Hələlik sənin getməyini məsləhət görmədik. Başqa bir adam tapıb göndərdik. Sən get öz işinlə məşğul ol! Görək nə olur. Onsuz da əgər lazım gəlsə sən də, mən də, hamımız cəbhəyə getməli olacağıq – dedi.

Mən MK-dan çıxıb evə doğru irəliləyəndə Günəş dağların üstüylə mənzilinə çəkilirdi. Xiyaban boyu uzanıb gedən arxların kənarlarında qatarlanmış ağaclara baxdım. Payızın soyuq küləyi ağacların da yarpaqlarını insafsızcasına dağıdırdı. Külək sanki quldur idi. Ağacların başının üstünü kəsdirib, əlvan paltarlarını soyundururdu. Mən bilirdim ki, köçəri quşlar ağacların budaqlarına tez-tez qonub istədikləri nəğmələri oxusalar da yenə qonaqdırlar. Uçub gəlirlər də, pərvazlanıb gedirlər də. Yarpaqlar isə sanki ağacların ana şəfqətilə bəsləyib böyütdüyü yaşıl qanadlı, nur dimdikli, çeşmə pıçıltılı quşlarıdır. Təbiət də bu kiçik sakinləri bir fəsillik müddətdə ağacların ünvanına yazmışdır. Buna görə də yarpaqlar daha yaxın, daha doğma, daha əzizdir. Adətən insanların əynində bir alt, bir də üst paltarı olur. Quşlarla yarpaqlar da belədir. Yarpaqlar ağacların alt



paltarı, quşlar üst paltarları timsalındadır. Ağaclar arzu dolu nəğmələrini yarpaqların dililə oxuyur. Nədənsə, hardasa bir ağacı yarpaqsız görəndə kədərlənirəm. O tək, çılpaq, dalğın ağac haqqında düşünməyə bilmirəm. Yadıma süvarisiz at, adamsız yol, susuz dəyirman, işıqsız ev, odsuz ocaq, uşaqsız ailə, arzusuz könül, sözsüz nəğmə düşür. Axı yarpaqsız ağaca quşlar da nə baxır, nə də yaxın gəlir.

## ÜLFƏTLİ İSTİRAHƏT

*Nə zaman özgələr də*
*Məhrəmləşər yollarda,*
*Yara sızlasa söz də*
*Məlhəmləşər yollarda.*

Mən Şah gölünün adını eşitmişdim. Ancaq özünü görməmişdim. O Təbrizin 8 kilometrliyində yerləşir. XIX əsrdə Təbrizdə içməli su çatışmır. Ona görə dövlət Şah gölünün suyunu şəhərə çəkdirmək istəyir. Ancaq gölün üstü açıq olduğu üçün mütəxəssislər məsləhət görmürlər. Şah gölünün ortasında yaraşıqlı bir restoran var idi. Milli hökumət həm təbrizlilərin, həm də Təbrizə gələn qonaqların istirahəti səmərəli keçsin deyə o restoranı zövqlə təmir elətdirmişdi. Restoranın naxışlarla dolu ətəklərini aramsız yuyan büllur ləpələr içəridə yeyib-içən müştərilərə istirahət nəğməsi oxuyurdu... Mənim təbrizli dostlarım cümə günlərində istirahətlərini Şah gölündə keçirirdilər. Sonra tövsiyəylə mənə: – Şair olan Şah gölünü mütləq görməlidir – deyirdilər. Mənim isə işim başımdan aşırdı. Vaxtım yox idi.

Bir gün hansısa bir məsələdən ötrü filarmoniyanın baş mühasibi Məcid Tütünfüruş iş otağıma gəlmişdi. Biz məsələni həll etdikdən sonra yadıma Şah gölü düşdü. Mən məsləhətlə Məcidə: – Gəlsənə cümə günü istirahətimizi Şah gölünün sahilində keçirək. Haçandır ki, Təbrizdəyəm, ancaq hələ Şah gölünü görməmişəm – dedim. Məcid fərəhlə: – Şah gölünə getməyi sizə çoxdan demək istəyirdim. Amma utanırdım. İnanın ki, bu səfərdən çox məmnun qalarsınız – dedi. Mən məhrəmliklə Məcidə: – Bizimlə Şah gölünə gedəcək adamların siyahısını sənə verərəm. Sən də o miqyasda hazırlıq görərsən – dedim. Məcid hərarətlə: – Yaxşı! – dedi. Sonra Məcid getdi. Mən də mizimin siyirməsindən bir vərəq kağız çıxarıb qarşıma qoydum. Bizimlə Şah gölünə gedəcək adamların adlarını yazdım. Ancaq Naxışın adını siyahıya salmadım. Sonra Məcidi telefonla yanıma çağırıb siyahını ona verdim. O, siyahını oxuyub bəyəndi və təbəssümlə: – Mən istəyirəm bir avtobus tutam. Sonra da bizimlə Şah gölünə gedəcək qızlara deyəm ki, sahildə dincəlmək üçün evlərindən xalça, mütəkkə, samovar, stəkan, nəlbəki gətirsinlər – dedi. Mən ərklə Məcidə: – Daha o işlər sənə aiddir – dedim. Məcid siyahıyla getdi.

Cümə axşamı Naxışa: – Sabah səhər tezdən filarmoniyanın qabağına gələrsiz. Bir neçə işçimizlə Şah gölünə getmək istəyirəm. Axı mən hələ Şah gölünü görməmişəm. İstəyirəm siz də bizimlə gedəsiniz. Əlbəttə, hərgah meyliniz varsa? – dedim. Naxış sevinclə mənə: – Meyil nədir? Meyilsiz də gedərəm – dedi.



Cümə günü həmişə işə getdiyim vaxtdan da tez yatağımdan qalxdım. Pəncərədən dan yerinə baxdım. Günəş hələ yerindən qalxmamışdı. İşçilərimiz məndən tez gəlib gözləməsinlər deyə çay-çörəyimi yeyib geyindim. Sonra iti addımlarla işə getdim. Uzaqdan filarmoniyanın qarşısında bir qızın dayandığını gördüm. Diqqətlə baxanda tanıdım. Kəklik idi. Məni həm heyrət, həm həyəcan bürüdü. Bir ayağım getdi, bir ayağım getmədi. Bildim ki, ikilikdə o yenə söhbətin istiqamətini sevgiyə yönəldəcək. Axı kuzə içərisindəkini eşiyə sızar. Ancaq necə deyərlər, ox artıq yaydan çıxmışdı. Mən Kəkliyə çatıb: – Sabahınız xeyir! – dedim. Sonra əlimi uzadıb onun mənə doğru uzanan əlini ehtiyatla sıxdım. Kəkliyin əli sazaqda ağacdan qopub ovcuma düşən yarpağı andırırdı... O məhrəm qayğıyla toxuyub mənə bağışladığı qəhvəyi yun köynəyi əynimdə görüb qürurla güldü. Sonra məmnun-məmnun: – Nə yaxşı, yun köynəyi geyibsiniz. Hava soyuqdur – dedi. Mən etirafla: – Bəli, havalar daha soyuyur – dedim. Kəklik eyhamla: – Havaların özlərinin soyumasının o qədər də əhəmiyyəti yoxdur. Təki ürəkləri də soyutmasın – dedi. Birdən Naxışın bizə doğru gəldiyini gördüm. Sakit durduğum yerdə haldan-hala düşdüm. Ancaq Naxışın qısqanc olmadığını xatırlayıb özümü ələ aldım. Naxış bizə çatıb salam verdi. Əvvəl Kəkliklə, sonra mənimlə görüşdü. Naxış həssas qız idi. Məni də, Kəkliyi də gərgin vəziyyətdən çıxarmaq məqsədilə üzünü Kəkliyə çevirib səmimiyyətlə: – Kəklik xanım, sizin radioda axşamkı çıxışınıza məmnuniyyətlə qulaq asdım. Oxuduğunuz mahnının həm musiqisi, həm də sözləri gözəl idi

– dedi. Kəklik iftixarla Naxışa: – Mahnının musiqisi hörmətli bəstəkarımız Hacı Xanməmmədovun, sözləri hörmətli müdirimizindir – dedi. Mən müsahibləri ikilikdə qoyub gözətçiyə bəzi tapşırıqlar vermək üçün filarmoniyaya getdim. Bir az sonra Məcid gəlib mənə məlumat verdi ki, Şah gölünə getmək istəyənlərin hamısı gəlibdir. Avtobus da qapıda hazırdır. Mən Məcidlə küçəyə çıxdım. Doğrudan da ikimizdən başqa hamı avtobusun yanında idi. Mən yol yoldaşlarımı təbəssümlə salamladım. Avtobusa mindik. Təbrizdən çıxanda sürücü avtobusun sürətini çox artırdı. Mən yarıciddi, yarızarafat sürücüyə: – Qardaş, ceyran qovmursan ki? Unutma ki, avtobusda apardığın sənət bahadirləri olsalar da qayğılı mühafizəyə möhtacdırlar – dedim. Sürücü güldü. Biz də güldük. Sonra sürücü avtobusun sürətini azaltdı. Sağ yanımda əyləşən Naxış pıçıltıyla qulağıma: – Siz ölümdən qorxursunuz? – dedi. Mən də pıçıltıyla Naxışın qulağına: – Bəzi kişilər uşaqları yetim qalar deyə ölümdən qorxur. Mənim hələ uşaqlarım yoxdur. Ancaq yarımçıq əsərlərim yetim qalar deyə ölümdən qaçıram – dedim. Naxış qürur dolu təbəssümlə mənə baxdı. Sən demə, Puranın ürəyində haçandansa bir arzu dolaşırmış. İndi o arzu qanadlanıb qızın ürəyindən uçmaq istəyirmiş. Puran ayağa qalxıb cəsarətlə araya: – Yoldaş müdir filarmoniyada həmişə ciddi olur. Rəsmiyyəti heç unutmaq istəmir. Şeirlərini də ya radioda, ya iclasda, ya mitinqdə oxuyur. Müdir bizim ola-ola səsinə də, şeirinə də həsrət qalmışıq. Mən hörmətli müdirimizdən xahiş edirəm ki, bizə bir şeir oxusun. Elə bilirəm ki, bu arzum burda əyləşənlərin hamısının ürəyindəndir – de-



di. Sonra xorla biz də xahiş edirik, oxusun deyə avtobusdakıların hamısı Puranın bu arzusuna əl çaldı. Sanki artıq şeiri oxuyub qurtarmışdım. İndi dinləyicilərim məni alqışlayırdı. Arxamda əyləşən aşıq Hüseyn Cavan qulağıma pıçıldadı ki: – Puran doğru deyir. Daha rəsmiyyəti burax. Hisslərini qurutma. Təbiətdə heç nə quru olmur. Hətta daşın da içində su olur – dedi. Doğrusu, o xalqa məndən daha yaxın idi. Axı aşıq Hüseyn Cavan sazıyla-sözüylə xalq arasında daha çox dolaşırdı. Bəli! Nişanlarda, toylarda, ziyafətlərdə xalqın hər arzusunu gözlərindən oxuyurdu. Mən əlimi uzadıb aşıq Hüseyn Cavanın çiynimə qoyduğu əlinin üstünə qoydum. Sonra əlimi iki dəfə qaldırıb endirdim. Bu – yaxşı! – deməkdi. Puran əyləşdi. Ancaq mənim xəyal ümmanımda xatirə dalğaları şahə qalxdı. Puranın İsa ilə qoşa saz çaldığı uğurlu axşamları nisgillə andım. Düşündüm ki, gənclik insan ömründə yalnız bir fəsildir. Özü də yaz fəsli! Ancaq insan ömrünün nə payız, nə də qış fəslində yaz fəslini unuda bilmir. O yaz fəsli istər günəşli olsun, istər dumanlı. Fərqi yoxdur. Yaddan çıxmır. Mən də təzə yazdığım “Gənclik” adlı şeirimi oxumaq istədim. Tarzən Qulamhüseynxan əyləşdiyim oturacaqla yanaşı olan oturacaqda əyləşmişdi. Aramızda ensiz keçid vardı. Üzümü tarzənə tutub hörmətlə: – Ağayi Qulamhüseynxan, zəhmət olmasa məni tarla “Segah” üstdə müşayiət edin! – dedim. Qulamhüseynxan nəzakətlə baş üstə deyib tarı köynəkdən çıxartdı. Mən şeiri oxumağa başlayanda Naxış pıçıltıyla mənə: – Bir az sərbəst oxuyun – dedi. Əlimi iki dəfə Naxışın əlinin üstünə endirib qaldırdım. Bu sözsüz də razılaşmaq demək

idi. Qulamhüseynxan "Segah"ı məharətlə tarın sarı simində dindirdikcə yadıma Naxışın "Segah"ı pianinonun ağ dillərində məharətlə danışdırdığı düşdü. Şeir avtobusda misra-misra çağladı:

**Yüz illik bir ömür sürsə də adam,**
**Deyir, zaman niyə yarıtmaz olur.**
**Dünyada yüz bahar görsə də adam,**
**Öz ömür baharı qayıtmaz olur.**

**Şair! Öz vaxtının qədrini bil sən,**
**Bircə dəqiqən də getməsin hədər.**
**Şeirdən güldəstə yarada bilsən,**
**Əllərdən-əllərə dolanıb gəzər...**

**Arzusuz-əməlsiz yaşayan insan**
**Həyatda meyvəsiz ağac kimidir.**
**Min yarpaq açsa da ya göy, ya əlvan,**
**Bir külək əsəndə tarac kimidir.**

**Haçan ki, uşaqdım, bir körpə quşdum,**
**Sevinc də, kədər də nəğməmə yaddı.**
**Böyüdüm, şairlik eşqinə düşdüm,**
**Yaşım çoxaldıqca dərdim də artdı.**

**İşıqlı xəyala dalıb hər gecə**
**Ana Vətənimin halına yandım.**
**Masa arxasında oturub təkcə**
**Bu günü düşündüm, sabahı andım.**



**Mən indi nə quşam, nə də nəğməkar,**
**Sənət ordusunda bir gənc əsgərəm!**
**Nə qədər döyüş var, mübarizə var,**
**Bayrağım Vətəndir, silahım qələm!**

Şeiri oxuyub qurtardım. Ancaq sürəkli alqışlar qurtarmaq bilmədi. Yerimdən ayağa qalxıb ətrafımda əl çalan sənət adamlarına xəfifcə baş endirdim. Sonra Puran ərklə mənə: – Yoldaş müdir! İcazə verin mən də sizin xoşuma gələn şeirlərinizdən birini oxuyum – dedi. Mən məmnuniyyətlə Purana: – Xahiş edirəm, oxuyun. Füzuli demişkən, mən öz növbəmi çəkib qurtardım. İndi meydan sizindir. Qoy indilik bu avtobus filarmoniyanın nəğməli filialına çevrilsin – dedim. Puran xəfifcə öskürdü. Sanki ürəyindəki şeirə meydana çıxmaq üçün yol açdı. Sonra hörmətlə Qulamhüseynxana: – Ustad! Zəhmət olmasa bir "Humayun" muğamı başlayın – dedi. Tarzən səmimiyyətlə dolu şəstlə: – Baş üstə, Puran xanım – dedi və tarı "Humayun" üstdə köklədi. Puran oxudu. Sanki məlahətlə dolu şaqraq səsi avtobusun örtülü pəncərələrini qırıb çöllərə düşmək istədi. Canıyananlıqla deyilmiş sözləri neçə-neçə Vətən övladına çatdırmağa çalışdı:

**Dünya yaman qarışıqdır,**
**Gözlərin çaş-baş qalmasın!**
**Sülh həyata yaraşıqdır,**
**Nigaranlıq kaş qalmasın!**

**Sevsin müdrik qocalar da,**
**Sevgi dursun ucalarda.**
**Qoşalaşsın xonçalar da,**
**Aralıqda yaş qalmasın!**

**Bayraq elə vüqarını,**
**Anda çevir ilqarını,**
**Uçurt həsrət divarını,**
**Düyünlənmiş qaş qalmasın!**

**Tufan döysə yanağını,**
**Şimşək qarssa bayrağını,**
**Elə at ki, ayağını,**
**Altında bir daş qalmasın!**

**İstər gilə-gilə ağla,**
**İstər dönüb selə, ağla,**
**Ağlayanda elə ağla**
**Gözlərində yaş qalmasın!**

**Yuyun bahar yağışında,**
**İsin Vətən alqışında,**
**Ulduz dolu baxışında**
**Qar donsa da, qış qalmasın!**

**Könlün yansın əlvan-əlvan,**
**Günəş baxsın heyran-heyran,**
**Söz bağında zaman-zaman**
**Oxumayan quş qalmasın!**

**Qayğı gəzmə özgələrdə,**
**Əncam hanı bəlkələrdə?**
**Çalış, getsən, cərgələrdə**
**Dolu yerin boş qalmasın!**



Puran şeiri "Humayun" üstdə oxuyub qurtardı. Ətrafımdakı sənət adamları məni alqışladı. Mən isə Puranı...

Avtobusumuz Şah gölünün sahilinə çatıb dayandı. Mən elə avtobusun pəncərəsindən Şah gölünə diqqətlə baxdım. Doğrudan da bura nəinki yalnız baxmağa, hətta tərənnüm edilməyə də dəyərmiş. Şah gölü sanki ecazdan doğmuşdu.



Ətrafında yanaşı düzülən kiçik sahil qayalarından süzülən ağ sular başlarını gölə əymiş büllur çilçıraqlara bənzəyirdi. Ortasında dikələn ağ restoran binası nəhəng qu quşunu andırırdı. Suyu o qədər duru idi ki, təmizlikdə göylə yarışa bilərdi. Suda iri balıqları andıra-andıra üzən qayıqlar da gölün qüdsiyyətini poza bilmirdi. O qayıqlar sahildən restorana, restorandan sahilə müştəri aparan körpü rolunu oynayırdı...

Biz avtobusdan düşdük. Sürücü avtobusun qapılarını da, pəncərələrini də bağladı. Sonra hamımız qayığa minib restorana getdik. Qızlar ağ əllərini qayığın kəna-

rından Şah gölünə sallayıb mavi suda oynatdıqca sanki mavi suda ağ göyərçinlər çırpınırdı. Qayıq qızları silkələdikcə onlar da qaqqıldaşırdılar. Sanki qayığın yükü qızlar yox, qazlar idi. Restoran xidmətçiləri bizi hörmətlə qarşıladılar. Yaraşıqlı bir gənc təbəssümlə: – Nə əcəb, bizi yada salıbsınız – dedi. Sonra restoranın müdiri yanımıza gəldi. Həm müdrik, həm də həssas bir kişi idi. O mehribanlıqla: – Siz çox xoş gəlibsiniz. Biz sizin hamınızı tanıyırıq – dedi. Sonra etirafla mənə: – Mətbuatda sizin də, yanınızda əyləşən aşıq Hüseyn Cavanın da həm şəklinizi görmüş, həm də şeirlərinizi oxumuşuq. Filarmoniyanın təzə, əlvan, zəngin konsertlərinə də radioda məmnuniyyətlə qulaq asmışıq. Siz sənət fədailərinə əla xidmət etmək bizim nəinki borcumuz, hətta arzumuzdur – dedi. Sonra bizi dönə-dönə restoran xidmətçilərinə tapşırdı. Mən gözaltı ətrafa nəzər saldım. Restoranda yeyib-içməyə gələn müştərilər bizə maraqla baxırdılar. Müdir getdi. Xidmətçilər dərhal uzun masanın üstündəki nimdaş süfrəni təzəsiylə əvəz etdilər. Sonra üstünə ləziz nemətlər düzdülər. Növbənöv içkilər gətirdilər. Həyatda pərdə həmişə örtülü qalmır. Yox! Səhnədə də, pəncərədə də, ülfətdə də pərdənin həm örtülən, həm də açılan vaxtı olur. Mən də ülfətimizdəki pərdəni açdım. Ancaq elə açdım ki, sonra örtülə bilsin. Səfər yoldaşlarıma səmimiyyətlə: – Siz məndən çəkinməyin. Müdirliyim filarmoniyada qaldı. Bəli! Daha müdir deyiləm. Sizin şair yoldaşınızam. Özünüzü sərbəst aparın. Yeyin-için! Dünyanın hər neməti sizə ana südü qədər halaldır – dedim. Aşıq Hüseyn



Cavan içən deyildi. Sürücü də içə bilməzdi. Mən qızlar qədər həyalı gənclər açılışsın deyə kiçik qədəhə konyak süzüb Məcidin dolu qədəhinə vurdum. Sonra hərarətlə: – Bütün kollektivimizin sağlığına içək -dedim. Gənclər sevinclə qədəhlərini qədəhimə vurduqca qədəhlər havada cingildəyirdi. Sanki Şah gölündə Novruz bayramı idi. Biz də yumurta döyüşdürürdük. Axşamın həniri gələnə qədər səmimi duyğular ifaçısı sağlıqlar deyə-deyə yeyib-içdik. Bir də yemək-içmək üçün restorana qayıtmayacağımızı nəzərə alan qızlar sonra yemək üçün bəzi şeylər də gətirtdilər. Biz getmək istəyəndə xidmətçilərdən birini çağırdım ki, xərci ödəyim. Ancaq nə qədər təkid etdimsə, pul almadı. Dedi ki, narahat olmayın, yemək-içməyinizin pulu çatıb. Mən heyrətlə xidmətçidən: – Kim tərəfindən çatıb? – deyə soruşdum. O qürurla: – Bizim müdirdən – dedi. Mən müdirin iş otağına getdim. O miz dalında əyləşib hesablar yazılmış kağızlara qol çəkirdi. Məni görəndə ayağa qalxdı. Sonra təbəssümlə: – Hə, necə keçdi? – dedi. Mən məmnuniyyətlə: – Əla keçdi – dedim. Müdir sevinclə: – Çox şadam – dedi. Mən narahatlıqla: – Axı yemək-içməyin pulunu... O sözlərimi nəzakətlə kəsib: – Heç narahat olmayın. Sizi öz hesabıma qonaq etmişəm. Mən də öz işçilərimi yığıb filarmoniyaya gətirərəm. Siz qonaq edərsiniz. Əvəzə-əvəz olar – dedi. Doğrusu, müdirin əvəzə-əvəz sözü qarşımı kəsməsəydi yemək-içməyin pulunu artıqlamasıyla ödəməmiş restorandan çıxmayacaqdım.

Biz qayıqla sahilə qayıtdıq. Sürücü avtobusun qapılarını açdı. Qızlar evlərindən gətirdikləri xalçaları yerə

döşədilər. Baş tərəflərində də mütəkkə qoydular ki, kim istəsə uzanıb dincələ bilsin. Oğlanlar uzandılar. Qızlar isə utandı. Əyləşib bir-birilə söhbət etdi. Axşam düşmüşdü. Ancaq hələ Ay doğmamışdı. Sahildə cərgələnmiş sarı yarpaqlı ağaclar Ay karvanını andırırdı. Bəli! Ay doğmasa da sanki hər ağacın başında bir Ay yanırdı. Şah gölündəki ağ dalğalar mavi sinidə üstünə zəfəran səpilmiş plov qalaqlarına bənzəyirdi. Mən sahildə Naxışla yanaşı dayanıb suya baxırdım. Birdən qarşımdakı sudan yaraşıqlı bir qızın təbəssümlə mənə baxdığını gördüm. Mən də təbəssümlə qıza baxdım. Sandım ki, su pərisidir. Gördüm yox, o su pərisi deyil, Naxışdır. Ancaq yanında bir oğlan da var. Düzü, yaman qısqandım. Bu zaman yanımda bir hənirti duydum. Dönüb hənirti gələn tərəfə baxdım. Gördüm Naxış yanımda dayanıb. Dönüb suda Naxışın yanında dayanan oğlana baxdım. Gördüm özüməm. Dərindən rahat-rahat nəfəs alıb Şah gölünün büllurlaşan havasından sinəm dolusu uddum. Sanki o büllur hava sinəmdə uyumuş duyğuları oyatdı. Xəyalımdan Şah gölünə bir şeir yazmaq fikri keçdi. Məhrəmliklə Naxışa: – Gedək bir az dincələk. Axı yenə yol gedəcəyik – dedim. Qız məmnuniyyətlə: – Gedək – dedi. Getdik. Səfər yoldaşlarımızın hərəsi bir xalçanın üzərində uzanıb mütəkkəyə dirsəklənmişdi. Biz də hərəmiz bir xalçanın üzərində uzanıb mütəkkəyə dirsəkləndik. Mən Şah gölünə həsr etdiyim şeiri əvvəl bənd şəklində başımda yazır, sonra vərəqə köçürürdüm. Naxış şeir yazdığımı bilib nəfəsini içərisinə çəkmişdi ki, mane olmasın. Şeiri yazıb qurtarandan sonra bir dəfə başdan-ayağa oxuyub redaktə



etdim. Sonra cibimə qoydum. Naxışın nəzakətinə heyran qaldım. Bir dəfə də olsun nə yazdığımı soruşmadı. Birdən Kəklik yerindən qalxıb mənə doğru gəldi. Qürurla mənə: – Sizin 21 Azər nehzətindən qabaq Ərdəbildə yazdığınız bir şeiri oxumaq istəyirəm. İndi o şeiri Şimali Azərbaycan xanəndələri radioda “Rast” üstündə oxuyur. Amma mən “Şahnaz” üstdə oxuyacağam – dedi. Xalçalar üstdə mütəkkələrə dirsəklənmiş səfər yoldaşlarımız Kəkliyi dinləmək məqsədilə qalxıb xalça üstdə bardaş qurdular. Mən də qalxıb xalça üstdə bardaş qurdum. Sonra məmnuniyyətlə Kəkliyə: – Oxuyun Kəklik xanım, sizi dinləməyə həmişə hazırıq – dedim. Kəklik hörmətlə Qulamhüseynxana: – Ustad! Zəhmət olmasa bir “Şahnaz” muğamı başlayın – dedi. Qulamhüseynxan səmimiyyət dolu şəstlə: – Baş üstdə Kəklik xanım – dedi. Sonra tarı köklədi. Kəklik oxudu, nə oxudu:

**Mən qızıl səhəri aydın görəndə**
**Gəlir gümüş sazım şura, sevgilim!**
**Günəş ağ saçını göydə hörəndə**
**Sən qara zülfünü dara, sevgilim!**

**İkiyə ayrıldı doğma bir diyar,**
**Arada daş deyil, su çəkdi hasar.**
**Minlərlə qapını döyəndə bahar,**
**Mən düşdüm quşbaşı qara, sevgilim!**

**Ancaq dar gündə də Vətəni sevdim,**
**Baharı xoşladım, gülşəni sevdim.**
**Gözəllər içində tək səni sevdim,**
**Açdım öz könlümü yara, sevgilim!**

**Sarsıda bilmədi nə hicran məni,**
**Nə zəncir, nə qandal, nə zindan məni.**
**Həsrətin yaşatdı hər zaman məni,**
**O qıldı dərdimə çarə, sevgilim!**

**Gözümdən getmədi bir an surətin,**
**Dilimdən düşmədi adın, söhbətin,**
**Qəlbimdə sönmədi od məhəbbətin,**
**İstəsən aç onu ara, sevgilim!**

**Səndən ayrılaraq uzağa düşsəm,**
**Yağışa, dumana, sazağa düşsəm,**
**Döyüş meydanında torpağa düşsəm,**
**Silah al, sən də gəl ora, sevgilim!**

**Narın əllərinlə yoxla köksümü,**
**Loğman ol, hər dərddən saxla köksümü,**
**İpək tellərinlə bağla köksümü,**
**Onu incitməsin yara, sevgilim!**

**Yox! Səndən düşmərəm bir də aralı,**
**Nə sən tək olarsan, nə mən yaralı.**
**Biz al bəzəyəndə doğma mahalı,**
**Düşmənlər geyəcək qara, sevgilim!**

Kəklik oxuyanda sanki kəkliklərin qaqqıltısını ana-ana özü də şaqqıldayırdı. Şah gölünün xırda ləpələri də iriləşə-iriləşə çağlayırdı. Sanki Kəkliyin pərvazlanan səsinə əks-səda verirdi. Ətrafımızda dincələn müsafirlər heyrətlə bizə sarı gəlirdi. Kəklik də, tar da susdu. Alqış səsləri gurladı. Bu alqışlar məni öz təkanlarıyla yerimdən qaldırıb Kəkliyə doğru apardı. Səksəkəli halda Kəkliyə yanaşdım. Mənə elə gəldi ki, indicə Naxış məni arxadan tutub saxlayacaq. Ancaq elə olmadı. Naxış bilirdi ki, mən bu kollektivin rəhbəriyəm. Mən Kəkliyin əlindən öpdüm. O sanki başqa bir aləmi yuxuda görmək üçün gözlərini yumdu. Handan-hana gözlərini açıb pıçıltıyla mənə: – Sağ olun – dedi. Mən minnətdarlıqla Kəkliyə: – Siz sağ olun ki, şeirə ikinci həyat verdiniz. Döyüşçü istifadə edəcəyi paraşütünü yoxlamadan təyyarədən tullanmaz. Sənətkar da belədir. O öz istedadına arxalanmadan içərisindəki qabiliyyətini büruzə verə bilməz. Sizin istedadınız həmişə arxalanmağa layiqdir – dedim. Sonra aşıq Hüseyn Cavana doğru getdim: – Aşıq! Sən indiyə qədər özgəsinin şeirini oxumayıbsan. Ancaq öz şeirini oxuyubsan. Mən özgəsi deyiləm. Sizin hamınızın doğmasıyam. Şah gölü şeirimi elə burda, Şah gölünün sahilində yazmışam. Əgər mümkünsə, məqamı nəzərə alıb durna boğazlı sazının ilhamla dolu tellərində dilləndirəsən. Axı saz qoşmanın kürsüsüdür. Qoy Şah gölü bu kürsüdən özü haqqında yazılan şeiri dinləsin – dedim. Aşıq Hüseyn Cavan etirafla mənə: – Doğrudur, sən hamımızın doğmasısan. Ancaq mənim daha çox doğmamsan. Yadımdan heç zaman çıxmaz ki, sən Təbrizə təzə gələndə mənim haqqımda ilk şeiri özün yazıbsan. Bir tikəni bilməyən min tikəni bilməz. Yox! Yox! Mənim bu sözlərimi borc qaytarmaq hesab etmə! Sənin şeirini oxumaq mənə, musiqiləşdirmək sazıma qürurdur! – dedi. Mən şeiri cibimdən çıxarıb aşıq Hüseyn Cavana verdim. Aşıq

Hüseyn Cavan saz çala-çala şeiri oxudu. Ancaq sanki o oxuyanda ağzından səs yox, şimşək çıxırdı. Havada uça-uça gedib Şah gölünün üstündə dolaşırdı:

**De görüm sənə kim Şah gölü dedi,**
**Sən Ellər gölüsən, Ellər, Şah gölü!**
**Sözünü zülümlə dəyişdi nədi**
**Laylalı-qoşmalı dillər, Şah gölü!**

**Yayın gözlərinin qızışan vaxtı**
**Yelpikli xanımlar sahilə axdı...**
**Canlı güllərinə heyrətlə baxdı**
**Süni ləçək açmış "güllər", Şah gölü!**

**Ağaclar sahildə meydən doymadı,**
**Büllur sularında ləzzət duymadı...**
**Bir ovuc içməyə məni qoymadı**
**Döyüşlərdə keçən illər, Şah gölü!**

**Yanında sazını çaldı bir aşıq,**
**Tehranı lərzəyə saldı bir aşıq...**
**Sazıyla min aşıq oldu bir aşıq,**
**Təlatümə gəldi tellər, Şah gölü!**

**Sazlar arasında sanki yarışdı,**
**Dillər deməyəni, sazlar danışdı...**
**Sakit sularına axıb qarışdı**
**İnqilab dalğalı sellər, Şah gölü!**



**Səadət diləkli, sevgi sətirli,**
**Fədai nəfəsli, şair xətirli,**
**Torpaq bərəkətli, Vətən ətirli**
**Nəğmələr bitirdi çöllər, Şah gölü!**

**Zülmün bayrağını saldırdı burda,**
**Azadlıq sürudu çaldırdı burda,**
**Bir aşıq heykəli qaldırdı burda**
**Günəşə uzanan əllər, Şah gölü!**

**Sanki Günəş özü doğdu təpədə,**
**Üstünə dalğa da gəldi, ləpə də...**
**Qranit aşıqdan bircə qəlpə də**
**Qopara bilmədi yellər, Şah gölü!**

**Gördü milyon-milyon göz vüqarını,**
**Sənət hünərini, söz vüqarını,**
**Fəqət öz hüsnünü, öz vüqarını**
**Səndən oğurladı fellər, Şah gölü!**

**Gün gələr, əriməz nisgilində o,**
**Ucalar yenə də sahilində o,**
**Nəğmələr deyəndə öz dilində o,**
**Səni alqışlayar göllər, Şah gölü!**

Aşıq Hüseyn Cavan oxuyanda restorandakı müştərilər yemək-içməklərini mizlərin üstündə qoyub eşiyə çıxmışdılar. Əllərini gözlərinin üstünə qoyub sahildə səsi yaylım atəşinə bənzəyən aşıq Hüseyn Cavanı axtarırdılar...



Aşıq Hüseyn Cavan şeiri oxuyub qurtarandan sonra yorğunluğunu unudub təbəssümlə mənə baxdı. Sanki o, sualla: – Hə, necə oxudum? – dedi. Mən danışmadım. Aşıq Hüseyn Cavanı saz qarışıq bağrıma basdım. O üzündən, bu üzündən hərarətlə öpdüm...

Sonra Puran çalğıçılara dedi ki, yaxşı bir oyun havası çalın! Oynayacağam! Çalğıçılar məmnuniyyətlə sümükləri tərpədə bilən bir oyun havası çaldılar. Puran oynaya-oynaya gəlib qarşımda dayandı. Sonra təbəssümlə mənə baxa-baxa oynadı. O havada çırpınan əllərilə məni oyuna çağırdı. Mən yerimdən qalxıb Puranla qabaq-qabağa oynamağa başladım. Bu zaman Naxış mənalı-mənalı baxıb güldü. Sonra Kəklik araya girib məni Purandan ayırdı. Mən Kəkliklə oynadım. Sonra nədənsə Kəklik gedib Naxışın qabağında oynadı. Naxış yerindən qalxıb Kəkliklə oynaya-oynaya mənə yaxınlaşdı. Üçümüz oynadıq. Sonra Kəklik oyundan çıxdı. Mən Naxışla oynadım. Naxış maraqla məndən: – Bayaq



siz Puranla oynayanda bildiniz nəyə güldüm? – deyə soruşdu. Mən etirafla qıza: – Yox! – dedim. Naxış eyhamla: – Rəfiqəmin toyu yadınızdadır? O toyda Təbrizin neçə-neçə adlı-sanlı adamları iştirak edirdi. Mən də o toya sizinlə getmişdim. Neçə-neçə yaraşıqlı qız sizi oynamağa dəvət etdi. Siz isə oynamadınız. Dediniz ki, guya yaxşı oynaya bilmirsiniz. Elə gözəl qızlarla oynamaqdan imtina edirdiniz ki, sizin ifrat laqeydliyinizdən heyrətlənməyə bilmirdim. O toyda heç mənimlə də oynamadınız. Bəs indi Puranla nə yaxşı oynadınız? – dedi. Mən eyhamla Naxışa: – Adam öz evinin qibləsini hamıdan yaxşı bilər. O qibləyə üz tutub namaz qılar. Bu kollektiv də mənim öz evimdir. O toyda sizinlə oynasaydım, onda gərək başqa qızlarla da oynayaydım. Mən isə bunu istəmirdim. Puran məsələsinə gəlincə, o bizim iki sonbeşiyin biridir. Həmişə səhnədə İsa ilə çıxış edərdi. İndi sonbeşiklərin biri olan İsa həyatda yoxdur. Ona görə Puranın ürəyi sınıqdır. Sağ qalan sonbeşiyin ürəyinə dəyməksə qəbahətdir. Yoxsa siz məni öz qızlarımıza qısqanırsınız? – dedim. Qız peşimanlıqla: – Siz allah bağışlayın. Doğrusu, sizin bu qədər həssas olduğunuzu bilmirdim. Mənim qısqanc olmadığımı isə yaxşı bilirsiniz – dedi.

Sən demə, Naxış təkcə gözəl parçalar toxumaqda yox, həm də gözəl oynamaqda mahir imiş. Elə gözəl oynayırdı ki, sanki qarşımda özü boyda bir göyərçin süzürdü.

Deyirlər dost adamın başına baxar, düşmən isə ayaqlarına. Mən də oynaya-oynaya qarşımda oynayan Naxışın başına baxırdım. Qızın gur saçı axşam da par-

par parlayırdı. Sanki üfüqdən boylanan qaranlığa meydan oxuyurdu. Düşündüm ki, gur saç gözəl qızın daş-qaşsız tacıdır. Bəli! Gur qara saç özü boyda şəvə tacdır. Naxışın saçı elə yumşaqdır ki... Sanki o üstünə sığal çəkən hərarətli əlin altında əriyə bilər. Sonra qızın ağ yanaqlarına tökülər. Sığal çəkən də peşman olar.

Filarmoniyanın rəqs ansamblında oynayan qızlar Naxışa heyran-heyran baxırdı. Sanki Naxış da mənimlə oynaya-oynaya öz məharətini rəqs ansamblının qızları qarşısında nümayiş etdirmək üçün məqam gözləyirmiş. Kim bilir, mən oyundan çıxmasaydım Naxış hələ nə qədər oynayacaqdı. Biz sürəkli alqışların müşayiəti ilə keçib xalça üstdə əyləşdik.

Məcid gəlib qulağıma pıçıldadı ki, sürücünün məsləhətilə yavaş-yavaş yığışmaq gərəkdir. Mən razılıqla Məcidə dedim ki, yaxşı məsləhətdir. Məcid getdi. Səfər yoldaşları xalçaları da, mütəkkələri də, stəkan-nəlbəkiləri də daşıyıb avtobusun yük yerinə yığdılar. Biz avtobusda öz yerlərimizdə əyləşdik. Sürücü avtobusu hərəkətə gətirdi. Təbrizə qayıtdıq. Yolda aşıq Hüseyn Cavan arxadan nəzakətlə Naxışın qulağına: – Naxış xanım! Mən aşıqlar ansamblına təzə üzvlər qəbul etmək istəyirəm. Bəs müdirimizin sizin karxananıza sifariş verdiyi parçalar necə oldu – dedi. Naxış ərklə: – Ustad! Maşallah sizin müdirinizin sifarişlərinin ardı-arası kəsilmək bilmir. Başqa şəxslər olsaydı, bəlkə də sifarişlərini tez yerinə yetirə bilərdik. Ancaq şair zövqünü tamam-kamal təmin etmək çox çətindir. Bəli! Şair zövqü hər şeyi bəyənmir. İllah daki belə həssas şair zövqü ola. Siz isə nigaran qalmayın. Aşıqlar ansamblına yeni üzvlər qəbulunu ləngitməyin. Materialları gələn həftə sizə təhvil verəcəyik – dedi. Aşıq Hüseyn Cavan məmnuniyyətlə qıza: – Sağ olun Naxış xanım! Biz elə bilirik ki, bizim öz qızlarımızdan biri də karxanadadır. Orda sədaqətlə müdirimizə kömək edir – dedi. Naxış səmimiyyətlə aşıq Hüseyn Cavana: – Elə də olmalıdır – dedi. Birdən nə düşündüsə yanaqları qızardı. Avtobusun açıq pəncərəsindən içəriyə dolub Naxışın yanaqlarını sərin dililə yalayan külək də qızın yanağındakı qızartını apara bilmədi. Deyəsən qız aşıq Hüseyn Cavanın sözlərindəki ikibaşlı fikri sonra duymuşdu. Ona görə də utanmışdı. O susurdu. Avtobus bir az getdikdən sonra Naxış yumşaq əlini dizimin üstə qoyub təbəssümlə mənə: – Bayaq sizin zövqünüzün həssaslığından gileylənəndə məndən incimədiniz? Siz Allah, düzünü deyin – dedi. Mən məzəmmətlə: – Görünür siz özünüz mənim zövqümdən də həssassınız. Yoxsa belə nigaran qalmazdınız – dedim. Naxış çantasını açıb restorandan götürdüyü bəzi yeməli şeyləri çıxartdı. Sonra həssaslıqla: – Siz restoranda az yediniz. Ona görə bu şeyləri götürdüm ki, yolda yeyəsiniz – dedi. Sonra məni yedirtməyə başladı. Bir qədərdən sonra avtobusun pəncərəsindən göyə baxdı: – Nə gözəl gecədir. Yadıma sizin "Gecəyə baxıram" şeiriniz düşdü. Necə də yeridir. Bəlkə o şeiri oxuyub gecəni bir qədər də gözəlləşdirəsiniz – dedi. Doğrusu, qızın sözünü yerə salmaq istəmədim. Mənə elə gəlir ki, şairin ən əziz adamına da verəcəyi ən dəyərli ərməğanı o adamın xoşuna gələn şeiridir. Biz də bu qədər yolu gedib qayıtmışdıq. Naxışa adi bir gül də verə bilməmişdim. Qəribədir. Mən gecəyə baxa-baxa şeiri oxuyanda səfər

yoldaşlarım da avtobusun pəncərələrindən gecəyə baxırdılar. Sanki şeirimi gecəylə tutuşdururdular:

**Gecədir. Yorğunluq yağır çıraqdan,**
**Yalqız darıxıram otaq içində.**
**Pəncərə dalında durub bayaqdan**
**Gecəyə baxıram maraq içində.**

**Fələkmi başından alıb papağı**
**Göydə asılqandan asıbdır gecə?**
**Yox! Bütün dünyanın işıq növrağı**
**Ay doğmuş... Kim deyir kasıbdır gecə?**

**Göyün arzuları ulduzlar olub,**
**Fəqət güllənməyib qönçə qalıbdır.**
**Yerdəki arzular güllənib solub,**
**Göydəki qönçələr necə qalıbdır?**

**On dörd gecəlik Ay pardaxlanıbdır,**
**Südləşən işığı bulaqlanıbdır,**
**Çılpaq qayalar da növraqlanıbdır,**
**Ulduzlarsa elə incə qalıbdır.**

**Bakirlik olsa da göyə qönçələr,**
**Kim istər hüsnünü düyə qönçələr,**
**Bəlkə də gülləndi deyə qönçələr**
**Gecə səhərədək becə qalıbdır.**

**Ay nəyə bənzərdi? Nazlı nigara!**
**Gah ağa çalardı, gah da sarıya.**
**İndisə belini bükmüş Aypara**
**Qarıya bənzəyir, yalqız qarıya.**



**Sanki daş üstdə də şeiriyyət əkib**
**Təbiət lövhəni lövhəyə qatır.**
**Güllü yorğanını üstünə çəkib**
**Üfüqdə qaraşin bir gözəl yatır.**

**Yatsın! Uzandıqca şirin yuxusu**
**Gözündə daha da ballanacaqdır.**
**Burnuna dəyəndə sübhün qoxusu**
**O qalxıb harasa yollanacaqdır.**

Şeiri oxuyub qurtarandan sonra nədənsə Kəkliyə baxdım. O kiçik Aya bənzəyən əlini üzünə qoyub dalğın-dalğın hələ Ayı doğmamış uzaq üfüqə baxırdı. Doğrusu, şeiri oxumağıma peşman oldum. Dedim bəlkə şeirdə ulduzların hələ də qönçə qalması Kəkliyin ürəyinə toxunub. Ancaq şeiri alqışlayan əllər sanki öz təkanlarıyla Kəkliyi xəyal uçurumunun kənarından yana itələdi. O da təbəssümlə mənə baxıb əl çaldı.

Sürücü avtobusu filarmoniyanın qabağında saxladı. Səfər yoldaşlarımız dirəyin başında yanan iri çırağın işığı altında avtobusdan düşdülər. Sonra hərə öz şeyini avtobusun yük yerindən götürdü. Mənimlə sağollaşıb faytonda evlərinə getdilər. Mən piyada Naxışı evlərinə ötürdüm. Biz ikimiz də Təbrizdə piyada gəzməyi xoşlayırdıq. Ona görə də faytona minmək istəmədik. Yolda Naxış dedi ki, bəlkə yaxın vaxtlarda anamla Ərdəbilə, dayım oğlunun toyuna getdik. Mən məhrəmliklə Naxışa: – Sizdən nə gizlədim. Mənim də Ərdəbil üçün burnumun ucu göynəyir. Heç olmasa bir həftə gedib o doğma yerlərdə gəzib dincələrdim. Ancaq o qədər işim

var ki... Yadımdadır, kənddə olanda hər səhər yuxudan duranda buludların içində də gözlərimlə Savalanı axtarardım. Savalanı bütün əzəməti ilə, ülviyyəti ilə, dəyanəti ilə görəndə, özümdə də bir əzəmət, bir ülviyyət, bir dəyanət duyurdum. İndi sanki özümdə nələrisə itirmişəm – dedim. Naxış narahat-narahat: – Yox! Yox! Elə danışmayın! Siz indi də özünüz boyda Savalansınız – dedi. Biz Naxışgilin qapısına çatanda o qapını döydü. Qapının dalından anasının ayaq səsləri gələndə mən Naxışın bir dəfə də öpmədiyim kövrək əlini ovcumda ehtiyatla sıxıb qapıdan aralandım...

## HƏSSAS DUYĞULAR

*Duyğular var, soyuyur*
*Buz naxışlı ayazdan.*
*Duyğular var, isinir*
*Gül nəfəsli təmasdan.*

Vətənin istiqlalını, azadlığını, taleyini, gələcəyini müdafiəyə qalxdığımız həyəcanlı günlərdə fikrimiz-xəyalımız yalnız Vətən idi! Bu fikir-xəyal həm ağır, həm ülvi, həm də müqəddəs idi! Biz bu fikir-xəyalı ləyaqətlə daşımaq üçün bütün söz ordumuzu səfərbərliyə almışdıq. Hər şairin yazdığı əsər bir ağaca bənzəyir. Zamanın tufanları onu silkələyəndə artıq sözlərini yarpaq-yarpaq tökür... Şirəyə dolmuş meyvələr isə yarpaqlar arasından çıxıb daha aydın görünür. Kökləri dərinlərə işləmiş hikmətli fikirlər isə gələcəyə də möhkəm şaxələr atır...



Vətənin taleyi təhlükədə olan günlərdə söz ustaları ən gözəl, ən nadir fikirlərini Vətənə həsr edirdilər. Bədii əsərləri naxış-naxış bəzəyən əlvan fikirlər tezliklə dillərdə əzbərlənib aforizmlərə çevrilirdi. Biz mətbuatda müntəzəm olaraq çıxış etməklə kifayətlənməyib Vətən haqqında fikirlərimizi yazdığımız yeni-yeni şeirlərdə radio dalğalarında həm dostlarımıza, həm də düşmənlərimizə təntənə ilə bildirirdik. Buna görə də mikrofon arxasına tez-tez keçməli olurduq.

Bir axşam da Təbriz radiosunun qırmızı işığı sönmək bilmirdi. Bu həmin axşamlardan idi ki, düşmənlər Vətənimizin sərhədlərinə qoşun toplayıb üzərimizə hücuma keçməyə fürsət axtarırdılar...

Ədəbi veriliş başlamışdı. Aparıcı, radio komitəsinin sədr müavini şair Balaş Azəroğlu hörmət əlaməti olaraq çıxış edən şairlərin hərəsini bir cür təqdim edirdi. Birini mübariz, birini istedadlı, birini məşhur, birini qocaman... Qəribədir ki, bu şairlər oddan-alovdan yoğrulmuş nifrət dolu şeirlərini oxuyub düşmənin məkrini-hiyləsini damğalayır, həyəcanlanır, sakitləşmək bilmirdilər. Hər şey unudulmuşdu. Mövqe də, yaş da, sevgi də!.. İndi qəzəblə çatılmış qaşlar altındakı odlu gözlərdə yalnız üç söz oxunurdu: Vətən! Xalq! Azadlıq!

Növbə mənə çatdı. Mən də elə həmin günlərdə yazdığım “Yaxşıdır”, “Vətən çağırışı”, “Bura Azərbaycandır” adlı şeirlərimi oxudum. Sözün doğrusu, mikrofon arxasında həyəcanımı boğmağa çalışdım. Çünki bizim təkcə yazımızdan deyil, səsimizin ahəngindən də çox şey asılı idi. Xalq bizim həmişə mübariz olan səsi-

mizdə titrəyiş, kövrəklik, həzinlik deyil, qürur, cürət, inam duymalıydı! Mən də şeirlərimi qürurla, inamla, cürətlə oxudum:

### YAXŞIDIR

**Zalım! Mən gördüyün məzlum deyiləm,**
**Yaram sağalıbdır, könlüm yaxşıdır!**
**Bir bağda gözüm yox, məsum deyiləm,**
**Daha öz gülşənim, gülüm yaxşıdır!**

**Sən mənə göstərmə nə bağ, nə bostan,**
**Doğma diyarına bağlıdır insan...**
**Əgər bu torpaqlar bitirsə tikan,**
**Yenə öz çəmənim, çölüm yaxşıdır!**

**Vətənsiz bir həyat kimə gərəkdir?**
**Vətənsiz bir ömür ölüm deməkdir.**
**Vətənsiz heç üzüm gülməyəcəkdir,**
**Dünyada öz obam, elim yaxşıdır!**

**Yoxla sevgi hissli romanları sən,**
**Oxu hikmət yüklü dastanları sən,**
**Dinlə dağlardakı çobanları sən,**
**Bayatıyla dolu dilim yaxşıdır!**

**İnsan yorulubdur qəm daşımaqdan,**
**Yazıq ürəyindən dərd qaşımaqdan.**
**O deyir: dünyada qul yaşamaqdan**
**Ölüm şərəflidir, ölüm yaxşıdır!**



**Həyat nə qəfəsdir, nə də ki, zindan,**
**Azad yaşamaqçın yaranmış insan.**
**Sənə ölüm hökmü yazıbdır zaman,**
**Mənim hər gələcək ilim yaxşıdır!..**

### VƏTƏN ÇAĞIRIŞI

**Yenə də qəzəbli bir dəniz kimi**
**Coşur, dalğalanır könlümdə həycan.**
**Diqqətlə dinləsin qoy Təbriz kimi**
**Urmiyə, Ərdəbil, Marağa, Zəncan**
**Bizi harayına çağırır Vətən,**
**– Kömək edin! – deyə bağırır Vətən...**

**Qoy Odlar ölkəsi – bu əziz Vətən**
**Döyüş bayrağını qaldırsın göyə.**
**Tarixdə bir daha görsün ki, düşmən**
**Nəyə qadir imiş millətim, nəyə?**
**Ən ağır döyüşdə göstərsin hünər,**
**Hər igid fədai, qəhrəman əsgər.**

**Sən ey sərhədlərdə ülvi məramla**
**Gözünü yummayan keşikçi qardaş!**
**Sənə tapşırıbdır möhkəm inamla**
**Bu gün taleyini hər bir vətəndaş.**
**Amandır, sayıq ol, hümmət vaxtıdır,**
**Bu şərəf zamanı, qeyrət vaxtıdır.**

Özgənin gücünə güvənsə düşmən,
Əmin ol, gələcək zəfər sənindir.
Arxanda dayaqdır bu doğma Vətən,
Dünyanı mat qoyan hünər sənindir.
Fil xortumlu topu kirit yumruqla,
Qaya boyda tankı ərit yumruqla.

Zağlı müsəlsəlin sirrini öyrən,
Yağlı avtomatın atəşlə dinsin!
Bu yurda burnunu uzatsa düşmən,
Zərbən döşünə yox, başına ensin.
Qoyma səngərində görünsün yağı,
Elə vur, ilan tək sürünsün yağı.

Anlasın, yatmamış azər balası,
Axı o nə gündüz, nə gecə bilməz.
Elə uzaqdır ki, Vətən qalası,
Üstündən heç zaman sar keçə bilməz.
Didər caynağında şahinlər onu,
Fəlakətlə bitər basqının sonu.

## BURA AZƏRBAYCANDIR

Çəkil üfüqlərdən, çəkil, ey duman,
Bura Odlar yurdu Azərbaycandır.
Sənin göz dikdiyin bu qədim məkan
Nə Misir, nə İraq, nə Hindistandır,
Bura Odlar yurdu Azərbaycandır.



Məhrəm Azərbaycan yaylaqlarından
Naməhrəm kölgəsi keçə bilməmiş.
Ürək sərinlədən bulaqlarından
Yad bir damla su da içə bilməmiş,
Naməhrəm kölgəsi keçə bilməmiş.

Kiçik bir kəndini dağıtsa düşmən,
Axar su quruyar, daş dilə gələr.
Bir körpə qanını axıtsa düşmən,
Sinələrdən ah yox, alov yüksələr,
Axar su quruyar, daş dilə gələr.

Unutma tarixi! Varaqlayıb bax!
Dahilər yetirib bu müdrik diyar!
Keçmiş döyüşləri soraqlayıb bax!
Sənə zəfərlərdən deyər hər hasar,
Dahilər yetirib bu müdrik diyar!

Bu millət çörəksiz yaşamış, ancaq
Bir an da ulussuz yaşamamışdır.
Bu millət köməksiz yaşamış, ancaq
Bir an da namussuz yaşamamışdır,
Bir an da ulussuz yaşamamışdır.

Bil ki, döyüşlərdə paltar yerinə
Dəmir də, alov da geyinirik biz.
Sanma ki, şöhrətçin gedib dərinə
Tək keçmişimizlə öyünürük biz,
Dəmir də, alov da geyinirik biz.

**Yenə az lovğalan, az qudur, yağı,**
**Sənin son gününü görəcək cahan!**
**Gedər bu təkəbbür, bu qürur, yağı,**
**İndi boş meydanda at çapma, dayan,**
**Sənin son gününü görəcək cahan!**

**Azərbaycan nədir? Bir coşqun ümman,**
**Zəfər nəğməsi tək gurlayacaqdır.**
**Köksünü nə qədər döysə də tufan,**
**Hər büllur dalğası parlayacaqdır,**
**Zəfər nəğməsi tək gurlayacaqdır.**

Bu şeirlər 1946-cı ilin son aylarında Təbrizdə "Azərbaycan" qəzetində, 1950-ci ildə isə Bakıda ilk kitabım "Cənub nəğmələri"ndə çap olunmuşdur.

Çıxış etmək üçün növbə yaşca çoxumuzdan böyük olan Mirmehdi Etimada çatdı. B.Azəroğlu mikrofona yaxınlaşıb ehtiramla: – İndi də söz verilir qocaman şairimiz Mirmehdi Etimada! – dedi. Təcrübəli sənətkar şeirini özünəməxsus Təbriz ləhcəsiylə oxudu. Şairin şeirində həm düşmən qoşununun cərgələrini sarsıdan siyasi lirika, həm də çirkin əməllərini ifşa edən ictimai satira var idi. M.Etimadın çıxışı təsirli oldu. Qələm dostları razı qaldılar. Lakin nədənsə özü narazı görünürdü.

Biz tənəffüs vaxtı dəhlizdə toplandıq. Burda kimi siqaret çəkir, kimi oxuyacağı şeiri bir də nəzərdən keçirir, kimi də evinə zəng vururdu. Bu vaxt M.Etimad B.Azəroğluya yanaşıb: – Qurban! Sən allah, o qocaman sözünü mənim üstümdən götür! Ya başqa bir söz tap, ya da heç nə demə. Lazım deyil! Evdə xanım bizə qulaq asır. Sən də başlamısan qocamanlıqdan danışmağa – dedi. Yaşa dolmuş şairin ağzından bu sözləri eşidəndə hələ də həyəcanlı olan qələm dostlarının qəzəbli gözlərində bir təbəssüm şöləlendi... Bu şölə buludlu üzləri işıqlandırdı, üşüyən ürəkləri isitdi, kilidlənmiş dodaqları açdı. Hamımız güldük. Biz bilirdik ki, M.Etimadın qadını çox gənc, şux, qəşəngdir. Əsl Təbriz gözəllərindəndir. O məlahətli qadını şeir məclislərində, ziyafətlərdə, tamaşalarda dəfələrlə şairin yanında görmüşdük. Söhbət etmişdik. Çox nəzakətli, yapışıqlı, istiqanlı idi. Bu şirindilli gözəlin hər söhbəti bir şeir idi. İri, parlaq, qara gözləri Təbriz gecələrinin ulduzları qədər şəffaf idi. B.Azəroğlu gənc olsa da həssas idi. Qocaman sənətkarın nə demək istədiyini dərhal başa düşüb sanki öz səhvini düzəltdi: – Baş üstə, ağayi Etimad! – dedi. Sanki bu sözlər soyuq payız gecəsində bir isti nəfəsə dönüb şairin gözlərindəki təəssüf buludunu əritdi. O gülümsədi. Sanki öz razılığını əvvəlcədən bildirdi. Sonra M.Etimad yan otağa keçdi. Evinə zəng vurub: – Xanım, biz hələ qurtarmamışıq, yenə də şeir oxuyacağıq, buyurub qulaq asa bilərsən. Ümidvaram ki, razı qalacaqsan! – dedi. Şair bu sözləri vəcdlə deyərkən qocaman sözünün başqa bir xoşagələn ifadə ilə əvəz ediləcəyini nəzərdə tuturdu.

Mikrofonun qırmızı işığı yenə də yandı! Şeir oxuyan şairlər bir-birini əvəz etdilər. Növbə M.Etimada çatdı. Xəyalı ancaq verilişin istiqamətilə uçan B.Azəroğlu nədənsə M.Etimadla bayaqkı söhbətində qocaman sənətkara verdiyi vədəsini tamam unudub: – İndi də söz

verilir qocaman şairimiz Mirmehdi Etimada! – dedi. Etimad səssiz-səmirsiz mikrofonun arxasına keçdi. Öz adətilə şeiri oxumağa başladı. O həmişə şeir oxuyanda birinci misranı xüsusi vurğuyla təkrar edərdi. Bununla şeirin təsir qüvvəsini artırmağa çalışardı. Bu dəfə də elə etdi. Səsində, baxışında, davranışında heç bir inciklik hiss olunmadı.

Çıxışlardan sonra biz yenə də bir otağa toplaşıb veriliş haqqında öz fikrimizi dedik. M.Etimad özü büruzə verməsə də qalın sağanaqlı qara çeşməyinin arxasından kədərlə baxan iri gözlərindəki şikayət açıq-aşkar duyulurdu. Hiss olunurdu ki, B.Azəroğludan bərk inciyib. Ancaq nahaq. İnciməyin yeri deyildi. Deyəsən özü də bunu yaxşı dərk etdiyindən pərtliyini açıb-ağartmadı. Bizimlə söhbət edə-edə xiyabana çıxdı. Bir faytona əyləşib evinə getdi.

Biz təbəssümlü baxışlarla incik şairin dalınca xeyli baxdıq. Mən od ürəkli qocaman sənətkarın şüşələri tərləmiş şəvə çeşmək arxasından gənc xanımının süzgün baxışlı iri, qara, nazlı gözlərinə necə baxacağı haqqında düşündüm.

Sabahısı günü səhər B.Azəroğluyla harasa gedirdik. Birdən Səttarxan xiyabanında M.Etimadla qarşılaşdıq. Görüşdük. Hal-əhval tutduq, zarafatlaşdıq... Mən dönüb sağ tərəfə baxanda böyük bir şirniyyat mağazası gördüm. Sanki bu mağaza qədim şərq şirniyyatının nəhəng, zəngin, əlvan sərgisi idi. Mən eyhamla mağazanı müsahiblərimə göstərdim. Hamımız şirniyyatlara baxdıq. Gül, ədva, nabat rayihələri burnumuzu qıcıqlandırdı. Ürəyimdən ləzzətli şirniyyat dadmaq arzusu keçdi. (Şirniyyatı uşaqlıqdan sevirəm). Üzümü M.Etimada tutub: – Ağayi Etimad! Axı siz təbrizlisiniz. Şəhəri də bizdən yaxşı tanıyırsınız, tərifəlayiq nemətlərini də. Bu zəngin şirniyyat növlərindən hansını məsləhət görərdiniz, dadına baxaq? – dedim. Qocaman şair ikimizin də qoluna girdi. Sonra arifanə bir görkəm alıb bizi mağazaya apardı. Şirniyyatlar içərisində narın naxışlı, ağ, xırda, uzunsov qurabiyələr vardı. M.Etimad satıcını çağırdı. Bu qurabiyələrdən bir kilo çəkdirdi. Mən pul çıxarmaq üçün əlimi cibimə atanda qoymadı. Dedi, madam ki, içərinizdə təbrizli mənəm, deməli sizi də mən qonaq eləməliyəm. Pulu verdi. Qurabiyələrlə dolu kağız torbanı götürüb xiyabana çıxdıq. Qurabiyələrdən bir-iki tikə ancaq yeyə bildik. Şirniyyat dilimizi yandırdı. Şirinliyi o qədər tünd idi ki, sanki istiot yeyirdik. Belə ki, hər tikəni çeynəyib udunca bir neçə dəfə çeçəməli olurduq. Etimad isə gülürdü. Sanki qurabiyələrdən də şirin olan gülüşlərilə B.Azəroğludan acıq çıxırdı. Mən də B.Azəroğlunun cürümini çəkirdim. Necə deyərlər, yaş da qurunun oduna yanırdı. Etimad bizdən "acıq" çıxsa da çox sadə, mehriban, xeyirxah adam idi. Ancaq bu sadəlik bəzən şairə baha başa gəlirdi. Belə ki, qocaman sənətkarın ürəyiaçıq olmasından istifadə edən xəbis adamlar ona rişxəndlə baxıb, atmacalar atır, könlünə dəyirdilər... Şirniyyat əhvalatından sonra keçən illəri bir yerə toplasalar bir igidin ömrü olar! Lakin mən hər dəfə M.Etimadı düşünəndə qulaqlarımda "qocaman" sözünü eşidir, dodaqlarımda Təbriz qurabiyələrinin şirinliyini duyuram. Lakin başqa bir şairanə hadisəni də xatırlamaya bilmirəm...

Bir gün haradansa gəlirdim. Yolum səbt[*] idarəsinin qabağından düşdü. Fikirləşdim ki, M.Etimadın yanına qalxıb həm qələm dostumun kefini soruşum, həm də ona yeni nəğmə mətnləri sifariş verim. Axı M.Etimad Azərbaycan Milli hökumətinin sürudunun mətn müəllifi idi. "Təbrizim", "Qaragilə", "Gündən keçdim kölgəyə" mahnılarının sözlərini də o yazmışdı. Mən üstündə "müdir" sözü yazılmış qapını açıb içəriyə daxil olanda M.Etimad qarşısında əyləşmiş iki gənclə şirin-şirin söhbət edirdi. Gənclərin biri yaraşıqlı oğlan, biri də qəşəng qız idi. Sanki şair elə gəlişimi gözləyirdi. Məni görər-görməz gülə-gülə ayağa qalxdı: – Tudə! (O, mənə həmişə hörmət üçün Tudə deyərdi) Nə yaxşı vaxtında gəlibsən. Gəl! Gəl əyləş görək neyləyirik? – dedi. Məni heyrət bürüdü. Öz-özümə fikirləşdim ki, görəsən nəyi neyləməliyik? Etimad mənim qolumdan yapışıb yanında əyləşdirdi. Bu mehriban ülfətilə bayaqdan aram olmayan ürəyimi də toxtatdı: – Bilirsən, Tudə! Bu gənclər bir-birini sevirlər. Özləri də Təbrizin yaxınlığındakı bir kənddə yaşayırlar. Ancaq oğlan yoxsul ailədən olduğuna görə qızın hampa atası bu izdivaca razı deyil. Bu çarəsizlər də kənddən baş götürüb şəhərə gəliblər ki, dərdlərini bizə desinlər – dedi. M.Etimad danışdıqca mən gözucu gənclərə baxırdım. Qızın ağ yanaqları rəng verib rəng alırdı. Bu yanaqlar tufanda yanıb sönən mayaqlara bənzəyirdi. Gözləri isə bir qərarda idi. Elə təmiz, duru, şəffaf idi ki, öz əksini o

---

[*] Poçt



gözlərdə aydın görə bilərdin. Lakin həya, ismət, namus çeşməsini andıran bu gözlər adamın gözlərinə dik baxmaqdan çəkinirdi. Bəlkə də sevdiyinə görə özünü günahkar sayırdı. Bu sevginin büllur damcıları qız ürəyinə düşüb təlatümlü dənizə dönmüşdü. Bu dəniz kənd gözəlinin həyəcandan qalxıb-enən sinəsi idi. Oğlan isə sakit idi. Sanki vüqarın, sınağın, dözümün qranit qayadan yonulmuş mücəssəməsi idi! M.Etimad onsuz da ürəyi həyəcan içində çırpınan qızın xətrinə dəyməməyə çalışaraq mehriban-mehriban: – Qızım, məndən incimə, sənin atan köhnə fikirli adamdır. Biz isə məmləkətimizdə təzə hökumət qurmuşuq. Bu hökumət yoxsulların köməyidir, dayağıdır, arxasıdır! İndi məmləkətimizdə işin, peşənin, təhsilin qapıları yoxsul gənclərin üzünə açıqdır! Məhəbbət də azaddır! Daha sevənlərə zaval yoxdur!.. Ona görə ki, təhdid, məcburiyyət, zor yoxdur. Atalar haçansa deyib ki, vay o iki ələ ki, bir başı saxlaya bilmir. İndi zaman dəyişmişdir. Bir baş özü neçə-neçə başı saxlayır – dedi. M.Etimad danışdıqca yadıma onun "Gəlinlər bəzəyi" düşürdü. Bu poema mənimlə yaşıd idi. Şair bu əsərdə satirik boyalarla tamahkarlığı, zülmkarlığı, dindarlığı ifşa edirdi, lirik ricətlərlə qadınların hüquqsuzluğuna, gücsüzlüyünə, köməksizliyinə ürək yanğısıyla acıyırdı. Lakin təkcə acımaqla kifayətlənmirdi. Sərvətin məhəbbət, xudbinliyin ləyaqət, avamlığın müdriklik, istibdadın azadlıq, cəhalətin tərəqqi üzərində hökmranlığına qarşı mübariz sənət bayrağı altında üsyan edirdi. İndi isə zəhmətkeş

xalqın başı üzərində səadət bayrağı dalğalanırdı. Bu bayrağı Vətənin inqilab tarixinin zirvəsinə Milli hökumət qaldırmışdı. Bu bayrağın altında toplaşanlara hüquq bərabərliyi, söz azadlığı, sevgi ixtiyarı vermişdi... M.Etimad bu ixtiyardan danışdıqca qürurla dolu sözləri gənclərin titrək dodaqlarında qönçə-qönçə açılıb pardaxlı təbəssümə çevrilirdi... Şair susdu. Başını döndərib pəncərədən şəhərə baxdı. Yeni günlərini yaşayan Təbriz də sanki gəncləşmişdi, gözəlləşmişdi, böyümüşdü. M.Etimadın qalın qara qaşları çatılmışdı. Gözləri qara çeşməyinin altından sakit baxsa da fikir dəryasının iki iri şəvə damcısına bənzəyirdi. Şair gözlərini pəncərədən ayırıb mənə: – Tudə! Gəl bir iş görək – dedi. Mən: – Nə iş görək, ağayi Etimad? – dedim. O ərklə: – Gəl bu gənclərin şirnisini elə indi burdaca içək! – dedi. Mən güldüm. – Mübarək olsun, ağayi Etimad! – dedim. Sanki dodaqlarımdakı gülüşün işıqları gənclərin utancaq gözlərində parıldadı. Sevgililər bu sevinc parıltısını sezdirməmək üçün başlarını aşağı dikdilər... M.Etimad yaxınlıqdakı çayxanadan çay gətirtdi. Stəkanlara özü qənd saldı... Biz şirin çayları elə isti-isti sevinclə içib bir-birinə qısılan gənclərə açıq ürəklə gələcək ailə həyatında böyük uğurlar dilədik. Axı bu şirinlik iki sevən ürəyin nişan şirinliyi idi. Özü sadə olsa da, mənası dərin idi. Bu şirnidə iki gəncin azad məhəbbətinə bəraət qazandıran Milli hökumətin iki tanınmış şairi iştirak edirdi. M.Etimad oğlanın, mən isə qızın vəkili olmuşdum. Birdən, Etimad üzünü mənə



tutub şəstlə: – Tudə, gəlsənə bu cavanlara şərikli kömək edək! – dedi. Mən maraqla şair dostumdan: – Necə şərikli kömək edək, ağayi Etimad? – deyə soruşdum. Sanki o, bayaqdan verdiyim suallardan darıxdı. Ərklə: – Əşi, necə olacaq, işə düzəlməkləri mənim boynuma, toylarını eləmək də sənin öhdənə! Balam, filarmoniyanın müdiri deyilsən? Xalqa xidmət eləmirsən? Bu tifillər də xalqın güldən təmiz övladlarıdır da! Xata eləməyiblər ki, bir-birlərini seviblər. Bunun üstündə isti yuvalarından didərgin düşüblər, bizə pənah gətiriblər. Axı sən müdir olmazdan əvvəl, şairsən! Gərək belə incə mətləbləri tez duya biləsən – dedi. Doğrudan da mən şair olduğumu indi xatırladım. Əlimdən gələni əsirgəməyəcəyimə söz verib səbt idarəsindən çıxdım. Yolda yadıma düşdü ki, Etimada nəğmə mətni sifariş verəcəkdim. Ancaq iki insan taleyi söhbət zamanı neçə-neçə nəğmənin taleyini unutdurmuşdu.

Bir həftə sonra şair mənə zəng edib gənclərə iş də, mənzil də tapdığını dedi. Sonra əlavə etdi ki, iki gündən sonra toylarıdı. Mən də öz vədimi yerinə yetirməliyəm. Yəni toya oxuyan, çalan, oynayan göndərməliyəm. Vaxtım olsa, özüm də bu toyda iştirak etməliyəm. Mən kollektivimizin istedadlı üzvlərindən bir kiçik dəstə ayırıb gənclərin toyuna göndərdim. Sevgililərə aldığım hədiyyəni də dəstənin başçısına verdim ki, bu təntənəli məclisdə mənim adımdan səbəbkarlara təqdim etsin. Toya özüm gedə bilmədim. Bəli! Vaxt çatmırdı. Vaxt dən idi, iş dəyirman. Dəyirmanın nəhəng daşı

gecəli-gündüzlü hərlənirdi... Dəni çatdırmaq mümkün olmurdu. Mən neçə-neçə subay gəncin toy eləməsinə, ailə qurmasına, xoşbəxt olmasına çalışsam da öz haqqımda fikirləşməyə vaxt tapmırdım. Halbuki mənim də mehrə, qayğıya, təsəlliyə ehtiyacım vardı. Məhəbbətsiz həyat soyuq, nəvazişsiz şair kobud, ilhamsız sənət quru olmazmı?!

## GÖZƏLLƏR ARASINDA

*Ürək birdir! Dünyada*
*Nə kiçilər, nə artar.*
*Min gözəlin içində*
*Yalnız birinə çatar.*

Bu axşam yenə Naxışı konsertə dəvət etmişdim. O da məmnuniyyətlə gəlib öz yerində əyləşmişdi. Konsert başlandı. Maraqlı nömrələr bir-birini əvəz etdi. Kəklik səhnəyə çıxdı. Tarın, kamançanın, qavalın müşayiətilə oxudu. Ancaq necə oxudu? Sanki Kəklik indiyə qədər oxuduğu hərarətli nəğmələrin uğurlarıyla könlünün isinmədiyini car çəkə-çəkə yeni ilhamla elə oxudu ki, bütün dinləyiciləri heyran qoydu. Kəklik oxuyurdu:

**Gülüm! Tufan döymüş bir baxçayam mən,**
**Ancaq tükənməmiş tər çiçəklərim.**
**Bil ki, açılmamış bir boxçayam mən,**
**İçimdə yaşayır dür istəklərim.**



**Qızıl Günəş əvvəl bir uşaq kimi**
**Məhrəm təbəssümlə üzümə baxır.**
**Sonrasa nədənsə bir ocaq kimi**
**Məni laqeyd-laqeyd yandırıb yaxır.**

**Mən yanar Günəşi unuduram ki,**
**Başıma salasan bəlkə kölgəni.**
**Yox! Yox! Günəşsiz də od tuturam ki,**
**Mən səni sevirəm, sənsə özgəni...**

Kəkliyin səsində gileydən çox bir şikayət, bir yanğı, bir fəryad vardı. Salondakılar bu gözəl müğənninin adi mahnı oxumadığını, öz ürək sözlərini dediyini duyurdu. Eh! Bunu duymağa nə vardı ki. Kəkliyin iri ala gözlərinə baxan o gözlərin necə məhəbbətlə parladığını açıq-aşkar görürdü. Ancaq Kəklik oxuyanda nə mənə baxırdı, nə də Naxışa. Müğənni öz nəğməsinin son akkordlarını vuranda salon təlatümə gəldi. Sanki salondakılar Kəkliyin həm nəğməsini, həm də sevgisini alqışlayırdılar...

Konsert qurtarandan sonra Naxışa dedim ki, məni gözləyin! Geyinim gəlim, sizi ötürüm. İş otağıma gedib geyindim. Xiyabana çıxanda Naxışı Kəkliklə söhbət edən gördüm. Təbrizin Aylı gecələrindən biri idi. Ancaq Təbrizin iki nadir gözəlinin təbəssüm dolu ağ çöhrəsi Aydan da işıqlı idi. Mən nəzakətlə Kəkliyə: – İcazə verin, sizi ötürək! – dedim. Kəklik eyhamla mənə: – Əgər məqbul sayırsınızsa, etirazım yoxdur! – dedi. Özümü o yerə qoymayaraq: – Bizim gözəl sənətkarlara həmişə hörmətimiz var! – dedim. Kəklik təəssüflə:

– Gözəl sənətkar olmaq doğrudan da xoşbəxtlikdir. Ancaq... – dedi. Mən Kəkliyin sözlərini nəzakətlə kəsib: – Daha nə ancaq? Məgər görmədiniz ki, salondakılar sizi necə alqışladılar? Salon təlatümə gəlmişdi – dedim. Kəklik etirafla: – Orası elədir. Ancaq qəribə burasıdır ki, heç bir xoşbəxtlik bütöv olmur – dedi. Mən razılıqla: – Bax! Bu sözlərinizi təsdiq edə bilərəm. Doğrudan da həyatda heç bir xoşbəxtlik bütöv olmur. Görəsən niyə? – dedim. Kəklik gileylə: – Bunu yalnız taledən soruşmaq lazımdır. O bilər – dedi. Biz yola düzəldik.

Bu Aylı gecə mənim keşməkeşlərlə dolu ömrümün ulduzlarla dolu sakit gecələrindən biri idi. Yox! Bu gecə nadir gecə idi. Sanki başqalarının taleyinə ulduz doğduğu halda mənim taleyimə Ay doğmuşdu. Özü də ikisi birdən. Ancaq mən daha bəxtiyar idim. Ona görə ki, göydəki Aya ehtiyacım yox idi. Mən yerdəki iki Ayın arasında ilhamla addımlayırdım. Bu Aylardan birinin toxuduğu isti köynəyi əynimə geymişdim. Birinin bəyənib mənə seçdiyi qızıl zənciri saatla qoluma bağlamışdım. Yolda pencəyimin qabağını açanda isti köynək, saatıma baxanda qızıl zəncir yerdəki Ayların işığında par-par parlayırdı. Gah Kəklik mənə baxıb gülümsəyirdi, gah Naxış... Bilmirəm Təbriz gecəsinin ecazkarlığındanmı, yoxsa yanımdakı gözəllərin rayihəsindənmi yaman məst olmuşdum. Doğrusu, heç dinib danışmaq istəmirdim. Elə iki gözəlin arasında xumarlana-xumarlana addımlayıb əfsunlu rayihələrini doyunca udmaq istəyirdim. Biz susurduq. Sanki lal asfalta yanaşı dəyədəyə səslənən addımlarımız danışırdı. Yox! Sanki ayaqlarımız da Aylı gecədə özləri boyda qələmə dönüb



asfaltın soyuq sinəsinə hərarətli sevgi notları yazırdı. Həm də gözəllər haqqında bir nəğmə bəstələmək üçün yerdə mətn axtarırdı. Bu zaman sağımdakı gözəllə solumdakı gözəl eşitməsin deyə ürəyimdə oxudum:

**Sevgi, ecazkar sevgi**
**Dinsə də qəzəllərsiz,**
**Nə gözəllər dünyasız,**
**Nə dünya gözəllərsiz**
**Bu qədər dəyərlənə**
**Bilməz nəyə dönsə də.**
**Nəğməylə qiymətlənər**
**Dəmir neyə dönsə də.**
**Gözəllər nadir sərgi,**
**Dünya geniş meydandır.**
**Baxan gözəllərə də,**
**Dünyaya da heyrandır.**
**Sənətdə bir naxış da,**
**Bir misra da ünvandır.**
**Dünya gözəllərilə**
**Tamamlanmış dastandır.**
**Dahilər dühasıyla**
**Mat qoysa da zamanı,**
**Bir şey öyrənsin deyə**
**Oxuyur bu dastanı.**
**Yoxsa gözəlsiz əsər**
**Gözəl olmaz dünyada.**
**Ürəyə sətir-sətir**
**Cığır salmaz dünyada.**

Sanki Kəklik ürəyimdə şeir oxuduğumu, səsini yalnız özümün eşitdiyimi duydu. Mənə həsədmi apardı, paxıllığımı tutdu? Bilmirəm. O iri, ala gözlərinin üstünə enib-qalxan uzun, qara kirpiklərilə sükutu qova-qova üzümə baxdı. Sonra ərklə mənə: – Görün necə şairanə gecədir. Belə gecə ələ düşməz. Bu gecəni şeirlə bir az da zənginləşdirsəniz elə bilirəm ki, Naxış xanımın da ürəyindən olar – dedi. Sonra maraqla Naxışa baxdı. Naxış nəzakətlə Kəkliyə: – Məmnuniyyətlə dinləyərəm – dedi. Mən bu dəfə oxuyacağım şeiri ürəyimdən ağzıma köçürdüm. Üzümü qarşımızdakı yola tutub oxudum:

**Gözəl qızılgüldür! Əlini vursan,**
**Titrək şəbnəmləri tökülə bilər.**
**Ancaq baxa-baxa kənarda dursan,**
**Dan yeri ləçəkdə sökülə bilər.**

**Qızılgül bu on dörd gecəlik Ay tək**
**Bütövlük sevəndir yarpaq içində.**
**Bir damlacıq su da qaynaqdan pay tək**
**Büllur bütövlükdür bulaq içində.**

**Gözəl qızılgülü qoxlamayan da**
**Duyacaq ətrinin necəliyini.**
**Məqamı haradır? Yoxlamayan da**
**Biləcək qədrinin necəliyini.**

Kəklik maraqla Naxışdan: – Naxış xanım, necə şeirdir? – deyə soruşdu. Naxış hərarətlə Kəkliyə: – Gözəl haqqında gözəl şeirdir – dedi. Sanki Naxış özünün səmimiyyətlə dolu rəyindən ruhlandı. Sonra ərklə mə-



nə: – Bəlkə bu gecəni bir az da zənginləşdirmək üçün bir şeir də oxuyasınız. Elə bilirəm ki, Kəklik xanımın da ürəyindən olar – dedi. Kəklik nəzakətlə Naxışa: – Məmnuniyyətlə dinləyərəm – dedi. Mən yenə üzümü qarşımızdakı yola dikib oxudum:

**Xumar gözə baxma tamarzı kimi,**
**O dərhal ovsunla yatırar səni.**
**Qaynar baxışından narazı kimi**
**Sakit baxışında batırar səni.**

**Sonra xumar gözdə sən küləklə də**
**Oyana bilməzsən dərin röyadan.**
**Bəli! Sən təzətər bir diləklə də**
**Ayrıla bilməzsən şirin röyadan.**

**Yadında saxla ki, röyaları da**
**Yaxşıya, yamana yozur insanlar.**
**Nəşədən yoğrulmuş xülyaları da**
**Ömür kitabından pozur insanlar.**

Naxış maraqla Kəklikdən: – Kəklik xanım, necə şeirdir? – deyə soruşdu. Kəklik tərəddüdlə: – Şeirə söz ola bilməz. Ancaq insanlar xülyalarını nəşədən yoğurmasa yaşaya bilməzlər – dedi. Naxış maraqla mənə: – Bu barədə şairin öz fikri necədir? – dedi. Mən qətiyyətlə araya: – Həyatda nəşə elə nəşədir, xülya da xülyadır. Bunları bir-birindən ayırmaq gözlərdən o qədər də diqqət istəmir. Çünki hansının nə olduğunu elə özü deyir – dedim.

Birdən gözlərim Kəkliyin qoltuğundakı kitaba sataşdı. Mən maraqla: – Kəklik xanım, o nə kitabdır elə? – soruşdum. O qürurla: – Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" romanıdır! Oxumusunuz? – dedi. Mən şəstlə: – Bəli! Çoxdan oxumuşam – dedim. Kəklik təəssüflə: – Mən hələ indi oxuyuram. Çox maraqlı əsərdir. Yazıçı o zaman Təbrizdə baş verən əfsanəvi qəhrəmanlıqlarla dolu hadisələri romanda elə maraqlı boyalarla təsvir etmişdir ki, oxuyan heyran qalır. Müəllif Təbriz qadınlarının faciəli taleyini də ustalıqla qələmə alıb. Hətta əxlaqsız qadınların həyatını da. Məni bağışlayın. Yəqin bildiniz ki, hansı qadınları deyirəm. Qaraçı məhəlləsində sakin olan qadınları – dedi. Mən məhrəmliklə müğənniyə: – Əlbəttə bildim, Kəklik xanım! Milli hökumətin mühüm xidmətlərindən biri də elə budur ki, o əxlaqsız qadınların xələflərinin hamısını Tehrana sürgün etməklə Təbrizi namus çirkabından təmizlədi. Onun nə qədər müqəddəs şəhər olduğunu Tehrandakı vicdanı ləkəli ağalara bildirdi – dedim. Kəklik ehtirasla mənə: – Romandakı sevgidən danışan səhifələr nə qədər də hərarətlə yazılmışdır. Sənətkar Əbülhəsənbəy surətini böyük məhəbbətlə yaratmışdır. O həm bacarıqlı təşkilatçı, həm də cəsarətli döyüşçüdür. Fədakarlıqda, havadarlıqda, xeyirxahlıqda səxavətlidir. Ancaq sevgidə xəsisdir. Əbülhəsənbəyi iki gözəl qız sevir. Nina... Miss Hanna... Ancaq Əbülhəsənbəy bu gözəl qızların səmimi sevgisinə cavab verməkdən çəkinir. Qızları həmişə intizarda qoymağı xoşlayır. Məgər inqilabçı sevə bilməz? – dedi. Kəklik son sözlərini mənə eşitdirmək istəyirdi. Axı mən də Əbülhəsənbəyin



vəziyyətinə düşmüşdüm. İki gözəlin sevgisinin arasında qalmışdım. Ancaq Kəklik elə bildi ki, mən onun son sözlərini eşitmədim. Üzünü döndərib üzümə baxdı. Mən qətiyyətlə: – Niyə sevmir? İnqilabçı da sevir! Siz romanı axıra qədər oxusanız Əbülhəsənbəyin iki qızdan hansını sevdiyini biləcəksiniz – dedim. Kəklik intizar dolu gözlərini mənim məhəbbət dolu gözlərimdən çəkmədi. Sanki mənim də bu iki qızdan hansını sediyimi gözlərimdən oxumaq istədi. Ancaq deyəsən gözlərimdə yanan məhəbbət günəşinin hansı gözəlin taleyini işıqlandırmaq istədiyini duya bilmədi. Bu zaman kimsə, hardasa şaqraq səslə oxudu:

**Sanki bağ yelə düşdü,**
**Salxımdan gilə düşdü,**
**Bir dəstə gül içində**
**Gözüm bir gülə düşdü...**

Mən istər kənddə, istərsə də şəhərdə yalnız xoruzların səs-səsə verib oxuduqlarını görmüşdüm. Sən demə, ehtiras dolu duyğuları sinələrinə sığmayan gənclərdə də elə xoruz həvəsi varmış. Onlar da səs-səsə verib oxuyurmuşlar. Bu zaman kimsə, haradasa yanğılı səslə oxuyurdu:

**Sən əydin oxla məni,**
**Dəyişmə şuxla məni,**
**Nə atam, nə anam var,**
**Hərdən gəl yoxla məni.**

**Təbrizdə külək əsər,**
**Gül titrər, çiçək əsər.**
**Ayrılıqdan danışma,**
**Sinəmdə ürək əsər.**

**Bir təşnədir Yanıq dağ,**
**Zirvəsində bulud sağ!**
**Gülüm! Mən də yanıram,**
**Yağış ol! İçimə yağ!**

Deyəsən qızlar istər-istəməz eşitdikləri sevgi bayatılarından utandılar. Qızarmış çöhrələrini məndən gizləmək istədilər. Ancaq mümkün olmadı. Axı ürəkdə yanan sevgi odu üzə çıxanda onu heç əl ilə də örtmək olmur. Yox! O əli də yandırır. İllahdaki nazik, incə, kövrək qız əli ola. Naxış həssas qız idi. O, düşdüyümüz vəziyyəti dəyişmək məqsədilə mənə: – Mən ərəb yazıçılarının bir neçə romanını oxumuşam. O romanlarda Bağdad gecələrini elə boyalarla təsvir ediblər ki, guya dünyada heç bir şəhərin gecəsi ecazkarlıqda Bağdad gecəsinə çata bilməz. Şeirlərdə də, poemalarda da, hekayələrdə də, nağıllarda da, romanlarda da, dastanlarda da Bağdadı nadirləşdiriblər. Məgər Təbrizin axşamları Bağdadın gecələrindən də füsunkar deyil? Sizin Təbriz axşamı haqqında şeiriniz var. Nə olar, o şeiri oxuyun. Həm Təbriz axşamının özü, həm də biz eşidək – dedi. Mən Kəkliyə baxıb fikrini bilmək istədim. O dərhal məmnun-məmnun mənə: – Xahiş edirəm, buyurun! Kim səhərə qədər sizin şeirlərinizə qulaq assa, yorulmaz – dedi. Mən Təbriz axşamı haqqında yazdığım şeiri Təbriz axşamına baxa-baxa yox, gah Naxışa, gah Kəkliyə baxa-baxa oxudum:



**Qızıl ulduzlarla göydə yazılan**
**Müqəddəs amaldır Təbriz axşamı!**
**Bəzən rövnəqlənən, bəzən pozulan**
**Möhtəşəm cəlaldır Təbriz axşamı!**

**Göy başı üstündə varaqlansa da,**
**Ulduzlar dəstəylə pardaxlansa da,**
**Kim öz ülkəriylə maraqlansa da**
**Günəşsiz iqbaldır Təbriz axşamı!**

**Yox! Qığılcımları göyə səpilən,**
**Tara, kamançaya, neyə səpilən,**
**Şərbətə, gülaba, meyə səpilən**
**Alovlu tonqaldır Təbriz axşamı!**

**O kimdir oxuyur öz həvəsilə,**
**Ulduzlar titrəyir zənguləsilə.**
**Yanan müğənninin od nəfəsilə**
**İsinmiş qavaldır Təbriz axşamı!**

**Göyün not dəftəri bükülər indi,**
**Naxışlı cibləri sökülər indi,**
**Şabaş ulduz-ulduz tökülər indi,**
**Nəğməli mahaldır Təbriz axşamı!**

**İşıq zolaqları düşür yollara,**
**Enir dərələrə, qalxır yallara...**
**Qarışır nəğmədə şirin xallara,**
**İlhamlı xəyaldır Təbriz axşamı!**

**Meydana, küçəyə, dalana sığmaz,**
**Yurdçuya, Xalxala, Gilana sığmaz,**
**Yer kürəsi boyda salona sığmaz,**
**Ağ dilli royaldır Təbriz axşamı!**

**Saibin şeirilə naxışlar salan,**
**Gülüstan bağının ətrilə dolan,**
**Nəsildən-nəsilə yadigar qalan**
**Nəhəng bir dəsmaldır Təbriz axşamı!**

**Nə rəhmə möhtacdır, nə də sığala,**
**Xalları oxşayır gümüş medala.**
**Başını söykəyib Eynal-Zeynala**
**Uyumuş maraldır Təbriz axşamı!**

**Bakının gecəsi bədrlənmiş Ay...**
**Yerdə də, göydə də ulduzları say!**
**Həsrətdən sınıxmış qızlarına tay -**
**İncəlmiş hilaldır Təbriz axşamı!**

**Bəli! Hicran yüklü, vüsal qanadlı,**
**Əfsanə uçuşlu, real qanadlı,**
**Təzətər nəfəsli, xal-xal qanadlı**
**Qocaman qartaldır Təbriz axşamı!**

**Dünya min suala cavab olsa da,**
**Musiqi, təranə, rübab olsa da,**
**Səadət müjdəli kitab olsa da,**
**Cavabsız sualdır Təbriz axşamı!**



Mən şeiri oxuyub qurtardıqdan sonra qızlar əl çaldı. Qızların çırpınan əllərinə baxdım. Sanki dövrəmdə dörd ağ göyərçin qanad çalırdı...

Biz Kəkliyi qapılarına qədər ötürdükdən sonra Naxışgilə sarı addımladıq. Bir qədər getmişdik ki, qəribə bir mənzərə ilə rastlaşdıq. Yol kənarındakı bir qapının qabağında gözəl bir qız dayanmışdı. Bədrlənmiş Ayın altında qız işıqdan yoğrulmuş bir mücəssəməyə bənzəyirdi. Yaraşıqlı bir oğlan isə qızdan ayrılıb yola sarı gəlirdi. Oğlan qızı evlərinə ötürüb qayıdırdı. Qız isə sanki Aylı gecədə Təbrizin sakit küçələrində gəzməkdən doymamışdı. Ona görə də evə getmək istəmirdi. Yox! Sevdiyi oğlandan ayrılmaq istəmirdi. Oğlan isə qızın evə getdiyini zənn edib geriyə baxmırdı. Hərgah, geriyə baxsaydı, o da Ay işığında yuyunan sevgilisinin yanına qayıdardı. Oğlan bizə yaxınlaşanda başını aşağı salıb yanımızdan sürətlə ötdü. Naxışa gözucu da olsa baxmadı. Halbuki Naxış qapının qabağında dayanan qızdan qat-qat gözəl idi. Mən oğlandakı qürur dolu həyaya heyran qaldım. Qapıya baxdım. Qız yerində yox idi. Naxış maraqla oğlanın dalınca baxıb: – Yəqin sevişirlər. Xoşbəxt olsunlar! Deyirlər ilk sevgi şirin olur, ancaq kama çatanda daha da şirin olur. Bəlkə kama çatmadı, bəs onda? – dedi. Mən etirazla qıza: – Yox! Elə ilk sevgilər olur ki, sonu vüsalla qurtarır. Ancaq sonra sevənlər özləri öz xoşlarıyla ayrılır. Bəli! Hicranı öz talelərinə özləri gətirir. İkinci dəfə, bəlkə də üçüncü dəfə sevəndə öz səadətini tapır – dedim. Naxış həyəcan-

la: – Yox! Yox! Elə sevgilər heç kimə qismət olmasın. Sevginin yolu nə qədər gödək olsa yaxşıdır! Bəli! Sınağı uzun olsa da, yolu qısa gərəkdir! Yoxsa çeşidini də, ətrini də, mənasını da itirə bilər. Görünür ilk sevgilər də müxtəlif olur. Bəziləri əbədi, bəziləri müvəqqəti atəşlə yanır... Əbədi atəşlə yanan ilk sevgini sonrakı sevgilərin təlatümə gəlmiş ümmanı da söndürə bilməz! – dedi. Mən hərarətlə: – Eşq olsun belə ilk sevgilərə! – dedim. Sonra M.Etimadın yanında gördüyüm gənc sevgililər haqqında Naxışa danışdım. Qız elə sevindi ki... Dedi gör Milli hökumət məmləkətdə necə gözəl qanunlar yaradıb. Bu gözəl qanunlardan biri də sevginin azad olmasıdır! Bəli! Azad həyatın təməli azad sevgi üzərində qoyulmalıdır. O elə bir əzəmətli abidəyə çevrilməlidir ki, hüsnü məmləkətin hər yerindən görünsün! – dedi.

Mən sevgililərin bu yaxında toyları olduğunu da Naxışa dedim. Sevincdən qızın gözləri doldu. Sanki bu toy bizim öz toyumuz idi. Ancaq qəribədir ki, biz öz toyumuz haqda bir kəlmə də danışmadıq. Sanki həyanın siqlətli qıfılı sevgi təşnəsi dodaqlarımızdan asıldı. Dinə bilmədik.

– Çatdıq! – deyə Naxış qapılarını döydü. Qapını anası açdı. Salamlaşdıq. Məni evə dəvət etdi. Mən minnətdarlığımı bildirib geri qayıtdım.



## ALOVLU XİTAB

*Xitab var, bir milləti*
*Min döyüşə qaldırır.*
*Xitab var, min bayrağı*
*Bir ayağa saldırır.*

Dekabr ayının ilk günləri idi. Havalar getdikcə soyuyurdu. Sanki siyasi iqlimin gündən-günə sərtləşən nəfəsi Təbrizin havasına da təsir edirdi. Bəli! Siyasi həyat təlatümdə idi. Sərhəddə hər dəqiqə partlayış gözlənilirdi. Mən işə hamıdan tez gəlirdim. İş otağımda qərar tuta bilməyib xiyabana çıxırdım. Günəşsiz payız səhərlərinin mənzərəsinə nigaranlıqla baxırdım. Eynal-Zeynal dağından enib, narahat şəhərə mehribanlıqla sığal çəkən ətir dolu səhər mehini hərisliklə sinəmə çəkirdim. Lakin dağın sərin mehi sinəmdə tüğyana gələn alovlu həyəcanı yatıra bilmirdi. Xiyabanın o tayında filarmoniya ilə üzbəüz Təbrizdəki Sovet mədəniyyət evinin klubu yerləşirdi. Bu klub həmişə tamaşaçılarla dolu olurdu. Yalnız yerlilər deyil, yaxın-uzaq kəndlərdən, qəsəbələrdən, şəhərlərdən Təbrizə gələnlər də bu kluba daxil olub içərisinin tamaşasına doyunca dalmadan getməzdilər. Burada həm Sovet İttifaqında, həm də digər məmləkətlərdə baş verən mühüm hadisələrə dair yazılar, fotoşəkillər, nəqşələr nümayiş etdirilirdi. Qəribədir, bizim gördüyümüz bütün işlərin cahanşümul əhəmiyyətini dostlarımız da etiraf edirdi, düşmənlərimiz də... Amerikanın nüfuzlu “Nyu-York tayms” qəzeti özünün 1946-cı il nömrələrindən birində

yazırdı ki, Təbriz şəhəri üç min illik tarixi ərzində keçmədiyi ictimai-mədəni-iqtisadi tərəqqi yolunu bir ildə keçdi. Ancaq xalqın bu böyük qələbəsi azadlıq düşmənlərini vahiməyə salırdı. Onlar xarici imperialist dövlətlərlə əlbir olaraq Azərbaycan demokratik dövlətinə min cür böhtanlar atırdılar. Hətta "Azərbaycan məsələsi"ni "Birləşmiş Millətlər Təşkilatı"nın təhlükəsizlik şurasına keçirmişdilər. Bir sözlə, İran mürtəceləri başda Amerika olmaqla xarici dövlətlərlə əlbir olub İkinci Dünya müharibəsindən sonra birinci yaranmış demokratik tipli xalq dövləti olan Milli hökuməti hələ körpə yaşında boğmağa çalışırdılar.

Mən hər səhər filarmoniyanın qapısı ağzında dayanıb klubdan Bakı radiosu ilə verilən son xəbərlərə diqqətlə qulaq asırdım. Bir səhər də... Bakı radiosunun diktoru özünü dünyada yeganə "Demokrat" adlandıran Amerikanın Cənubi Azərbaycana göydən ağır bombalar yağdırmaq üçün İran hökumətinə qırx ədəd müasir tipli qırıcı təyyarə göndərdiyini təəssüf dolu səslə xəbər verdi...

Bəli! Amerika imperializmi elə ikiüzlü nəhəngdir ki, üzdə iki əlini döşünə döyüb ayrı-ayrı xalqların haqlı tələblərinin guya müdafiəçisi olduğunu iddia edir, dalda isə hamısına birlikdə qələm çəkir...

Doğrusu, Bakı radiosunun bu xəbərindən sarsıldım. İş otağıma qayıtdım. Başımı əllərimin içinə alıb fikrə qərq oldum. Təzəcə dirçələn Vətən, sevinən xalq, gözəlləşən həyat haqqında fikirləşirdim. Sən demə, fikirləşdiyim dəqiqələrdə İran şahı Məhəmməd Rza Amerikadan aldığı təyyarələrdən birində Vətənimizin hava sərhədlərini pozub başımız üzərində arxayın-arxayın uçurmuş. Təpədən-dırnağa qədər yankiləşmiş, taxt-tac hərisi əllərindəki qara foto aparatı gözlərindəki qara çeşməyin aynaları qarşısına gətirib Azərbaycanın mühüm hərbi məntəqələrinin şəklini çəkirmiş. (Təəssüf ki, şahın bu quldur niyyətli kəşfiyyatçılığı çox-çox sonralar aşkar olundu. Səltənət düşkününün yuxarıda təvsir edilən şəkli əvvəlcə Fransa mətbuatında, sonra "Azərbaycan" qəzetində dərc edildi).

İş gününü fikir-xəyal içində başa vurdum. İşçilər rahatlanmaq üçün evə getdilər. Sanki bütün günü göylərə-yerlərə işıq paylayan xeyirxah Günəş də çəhrayı əbasının ətəklərini mavi üfüqlərdən yığıb dincəlmək üçün öz mənzilinə çəkilirdi. Mən isə hələ kabinetimdə qalıb bir qədər də işləməli, sonra isə dövlət teatrında keçiriləcək təcili, mühüm, geniş, ümumşəhər firqə iclasına getməli idim. İclasda S.C.Pişəvəri özü çıxış edəcəkdi. O, beynəlxalq aləmdəki vəziyyətdən məlumat verəcək, İrandakı siyasi hadisələrin məzmununu təhlil edəcək, firqə üzvlərinin qarşısında duran vəzifələrdən danışacaqdı. Mən mizimin üstündə qalıb imzalanmamış sənədlərə qol çəkməyə başlarkən otağın qapısı döyüldü. Gələn xidmətçi təəssüflə dedi ki, qastroldan qayıdan bir işçimiz xəstələnmişdir. Neçə gündür ki, işə gəlmir. Mən həm xəstəyə dəymək, həm də nəyə ehtiyacı olduğunu öyrənmək üçün filarmoniyadan çıxdım.

Xiyaban boyu cərgələnmiş ağacların yanı ilə addımlamağa başladım. Yolda tələssəm də hərdən başımı qaldırıb ağaclara baxırdım. Ağaclar payızda yol üstə qonmuş qanadları bəzəkli məğrur, iri, sakit qartallara bənzəyirdi. Ancaq sən xəzan yellərindəki gücə bax ki, öz soyuq nəfəslərilə o nəhəng quşların əlvan tüklərini yolub çəngə-çəngə havaya sovura bilirdi. Quşlar isə bu gözgörəsi talana müqavimət göstərməyib sarı göz yaşları tökə-tökə dözürdü. Ancaq hərarəti soyumamış ürəyində təzədən bu rəngarəng tüklərdən də gözəl tüklər gətirəcəyinə arxayınlıqla inanırdı...

Mən işçimizin yaşadığı evin yaşıl qapısındakı sarı çaxçaxı bir neçə dəfə silkələdim. Səsə xəstənin qadını gəldi. Məni Təbriz qadınlarına məxsus hörmətlə qarşıladı. İçəri dəvət elədi. Xəstə yataqda uzanmışdı. Məni görcək yatağında qalxıb yastığa dirsəkləndi. Çöhrəsindəki sarı yorğunluğu çəhrayı təbəssüm selləri yuyub apardı. O, sərhəddə düşmənlərin qarşısına sinələri ilə sipər çəkmiş fədailər arasında necə konsertlər təşkil etdiklərindən ağız dolusu danışdı. İnsanların Vətənə necə möhkəm tellərlə bağlı olmasından da dedi. Konsertin iştirakçıları bu telləri əsl vətənpərvərlik notları üstündə məharətlə kökləyə bilmişdi. Bu fədakar sənət əsgəri öz xəstəliyini unudub Vətənin halıyla maraqlandı. Ailəsinin ehtiyaclarını demək əvəzinə Vətənin gərgin vəziyyətinə dair suallar verməyə başladı. Mən onun suallarına diqqətlə, təmkinlə, inamla cavab verməyə çalışırdım. Doğrusu, ehtiyat edirdim ki, mənim həyəcanlanmağım onu da həyəcanlandıra bilər. Çalışırdım ki, verdiyim cavablarla yalnız təsəlli tapsın. Axı təsəlli ümidin doğma qardaşıdır! Mən onun əlini sıxıb ayrılarkən ovcumun içində bir od parçasının yandığını hiss etdim. Bu, sənət fədaisinin yaşayıb-yaratmaq eşqiylə yanan ürəyinin əllərində duyulan hərarəti idi. Xəstənin qadını məni küçəyədək ötürdü. Ona söz verdim ki, ömür yoldaşı sağalıb işə gələnədək bütün ehtiyacları ödəniləcək...

Küçəyə çıxdım. Göyə baxdım. Göy necə də göz işlədikcə açıq idi. Ulduzlarla dolu göy sanki üstünə qızıl pullar səpələnmiş qara məxmər idi. Birdən Ay Səhəndin başında qıvrıla-qıvrıla yumaqlaşan buluda girdi. Sanki Ayın üzünü bürüyən bulud mənim odlu ürəyimə çökdü. Qeyri-ixtiyari pıçıldadım:

**Dodağı nəğməli duru bulaq tək**
**Göy təmiz olanda böyük görünür.**
**Sozara-sozara yanan çıraq tək**
**Ay bulud içində sönük görünür...**

Birdən yadıma düşdü ki, iclasa getməliyəm. Saata baxdım. Vaxtdı. Qarşımdan keçən bir boş faytona mindim. Atlar Ərk qalasına doğru dördnala çapdı. At nalları altından ətrafa sıçrayan sarı yarpaqlar kürədən qopan alov parçalarına bənzəyirdi...

Mən teatrın binasına daxil olub tanış pillələrlə birnəfəsə yuxarı qalxdım. Hökumət lojasının qapısını yavaşca açıb içəri keçdim. Loja alaqaranlıq idi. Salonun

işıqları sönmüşdü. Səhnənin işıqları isə gur yanırdı. Mən elə qapı ağzındaca əl havasına bir stul tapıb əyləşdim. Səhnənin qabağında S.C.Pişəvəri dayanmışdı. O adəti üzrə yenə kağızsız danışırdı. Bütün qeydləri könül dəftərinin hikmətlə dolu vərəqlərində idi. Zamanın neçə-neçə sınağından mətanətlə çıxmış təcrübəli firqə rəhbəri vətənpərvərliyin, inqilabın, azadlığın əsl mənasını odlu-alovlu müdrik sözlərlə şərh edirdi. Vətənin taleyi üçün bütün vətəndaşların cavabdeh olduğunu deyirdi. Bu yolda kimini təşəkkür, kimini cəza gözləyəcəyini gizlətmirdi. Birdən "Yazıq lap əldən düşüb", "Görəsən özünü niyə belə həlak edir?", "Yəqin ki, məqam üçün..." sözlərini eşitdim. Bu sözlər mənim yaxınlığımda söylənildi. Danışanın səsini tanıdım. Keçmiş Maarif naziri şair Məhəmməd Biriyanın səsi idi. Bunu dəqiqləşdirmək üçün səs gələn tərəfə boylandım. Yanılmamışdım. O idi. Yanında da bir nəfər əyləşmişdi. Diqqətlə baxdıqda alaqaranlıqda onu da tanıdım. Bu, Təbriz şəhər firqə komitəsinin sədr müavini Mirrəhim Vilayi idi. Bilirdim ki, M.Vilayi ehtiraslı bir vətənpərvər, istedadlı bir jurnalist, hərarətli bir natiqdir. Ancaq onu da bilirdim ki, uzun müddətdir M.Biriya ilə dostluq edir. Bunu tək mən yox, tanıyanlar hamısı bilirdi. Biriyanın replikaları əks-sədasız qaldı. Sanki Vilayi bu sözləri heç eşitmədi. Axı onlar zahirdə dost olsalar da, batildə başqa-başqa adamlar idilər. M.Biriya tərəddüd, M.Vilayi isə qətiyyət timsalı idi. S.C.Pişəvəri həyəcanla birlikdən danışırdı. Biriyanın replikalarından xəbəri yox idi. Bilmirdi ki, elə buradaca öz içərimizə təfriqə toxumu atmaq istəyənlər də



var. Bilsəydi, yəqin ki, tutarlı cavab verərdi. Lakin M.Biriyanın atdığı toxum sanki bir oda dönüb mənim içərimə düşdü. Sonra şölə çəkib alovlanmağa başladı. Bu nifrət alovu idi. Bu alov gur dalğalarında təfriqəçiləri yandırıb külə döndərmək istəyirdi. Mən bu lojaya necə sakitcə gəlmişdimsə, eləcə də çıxıb yandakı lojaya keçdim ki, iclas qurtaranda "dostlar" məni görüb utanmasınlar.

S.C.Pişəvəri danışırdı. Salondakılar natiqi həyəcanla dinləyirdilər. Həyəcan təlatümlü sinələr genişləndikcə üsyan hərarətli salon da böyüyürdü. Beş yüz nəfərlik salon beş milyon sakini olan Azərbaycana çevrilirdi...

S.C.Pişəvəri danışırdı... Yadıma bu nadir insanın mübarizə illərində yazdığı məqalələr düşürdü. Əslində bu yazılar məqalə deyildi. Hərəsi bir odlu-alovlu xitab, çağırış, qərar idi. Şah Tehranı inqilabçı Təbrizin həqiqət nəğməli arzularını qulaqardına vurub eşitmək istəmədiyi vaxtlar Pişəvəri öz yazısına belə başlıq seçirdi: "Azərbaycan iki yol ayrıcında". İnqilab başçısı tehranlı ağalara demək istəyirdi ki, əgər siz bizim arzularımızla hesablaşmasanız biz İrandan ayrılıb müstəqil yolla getməli olacağıq. Nə zaman ki, Tehran dövləti yeni, azad, xoşbəxt həyat qurmağa can atan Təbrizi hədələməyə başlayırdı, onda Pişəvəri öz yazısına belə sərlövhə qoyurdu: "Böyük daş götürmək, vurmamaq deməkdir". Söz ustası lovğa rəqiblərə demək istəyirdi ki, biz bildiyimizi edəcəyik, siz isə heç nə edə bilməyəcəksiniz! Nə zaman ki, Tehranın hakim dairələri iftiralarla dolu cızmaqaralarla bizim haqsız olduğumuzu sübut etmək üçün dəridən-qabıqdan çıxırdı, onda Pişəvəri öz yazısı-

na belə ad verirdi: "Yalnız topların ağzından çıxan səslər həqiqətdir!". Bu müdrik kəlamlar həm onun geniş söz dünyasına malik olduğunu göstərir, həm də düşmənin köpünü alırdı.

Pişəvəri danışırdı... Mən isə düşünürdüm! Sən zindandan azadlığa çıxıbsan. Ancaq tək özünü yox, bütün xalqını azad görmək istəyirsən. Sən məsləkdə birinci firqəçi, döyüşdə birinci fədaisən! Sən şair deyilsən, ancaq yazılarında elə şeiriyyət, hikmət, cürət var ki, bizim şeirlərimizə bəs eləyir. Sənin söz süfrən övladı olduğun Xalxalın taxıl zəmisi tək bərəkətlidir. Sən ağsaçlı Savalan tək sakit görünsən də coşğun dalğalı Xəzər tək təlatümlüsən! Döyüşlərin amansız tufanında mərd üzün soyusa da, ürəyin alovludur! Səninlə bir səngərdə bir məslək uğrunda çarpışmaq mənə böyük iftixardır! Bizim sənin başçılığınla yaratdığımız həyatın əks-sədası zəfər simfoniyası tək təkcə qoca Şərqə deyil, bütün dünyaya düşmüşdür. Sənə fədailər atası deyirlər. Çünki fədailər sənə ata deyirlər. Biz isə sənə ağa deyirik. Seyid nəslindən olduğun üçünmü? Əsla yox! Sən özün ağaların qənimisən. Ancaq öz sözünün ağasısan! Xalqın mənafeyinə dediyin qanadlı niyyətləri zirvəyə qonmuş əməllərə çevirə bilirsən! Bax, buna görə sənə ağa deyirik. Sənin möhtəşəm kürsün Səhənd, dinləyən salonun isə Azərbaycan torpağıdır... Sənin nəfəsinin hərarəti bu torpağa elə hopub ki, onu əsrlərin başsız tufanları da soyuda bilməz. Mənə elə gəlir ki, gündüzlər Səhəndin zirvəsində yanan Günəş sənin ürəyindir, gecələr Təbrizin açıq səmasında parlayan ulduzlar sənin gözlərindən saçılan damla-damla nurlardır!..



Seyid Cəfər Pişəvəri nitqini yekunlaşdırdı. İclas qurtardı. Lakin nə ürəklərdə həyəcan, nə gözlərdə intizar qurtardı. İnqilab sərkərdəsinin sözləri gülləyə, mərmiyə, bombaya dönmüşdü. Salondan çıxanlar o sözlərlə silahlanıb, öhdələrinə düşən vəzifələri şərəflə yerinə yetirməyə tələsirdilər...

## SON GECƏ

*Gecə var, şəvə saçı*
*Gözündən də qaradır.*
*Gecə var, dönük baxtı*
*Özündən də qaradır.*

Dekabr ayının 11-i idi. İş otağımda əyləşib Sovet-İran mədəni əlaqələr cəmiyyətinin Azərbaycan şöbəsi tərəfindən çap olunan şeir kitabımın korrekturalarını oxuyurdum. Özü də elə həvəslə, elə diqqətlə oxuyurdum ki, bu ilk kitabımın işıq üzü görməyəcəyini təsəvvürümə belə gətirmirdim. Ancaq ataların "Sən saydığını say, gör fələk nə sayır" sözlərini də unutmamışdım. Bizim isə uğurlu-uğursuz diləklərimizi fələk deyil, yenə də tale saydı. İran dövlətinin dəmir toruna düşüb məğrur, azad, kövrək qanadları qırılan tale!..

...Birdən qapı döyülmədən açıldı. Yaxın bir dostum başılovlu içəri girdi. Onun iri gözlərində həyəcanla kədər bir-birinə qarışmışdı. Mənə dedi ki, Azərbaycan Demokrat Firqəsinin mərkəzi komitəsinin büro üzvləri, başda S.C.Pişəvəri olmaqla Təbrizdən çıxmışlar. MK-nın sədrliyinə M.Biriya təyin olunmuşdur. Yarım saat-

dan sonra MK-nın binası qarşısında ümumşəhər mitinqi olacaqdır. Dur gedək, görək təzə sədr nə deyəcək?

Doğrusu, bu qəfil xəbərdən sarsıldım. Sanki bir anın içində bir ildə min zəhmətlə qurub-yaratdığımız cəlal həyəcandan böyümüş gözlərimdə uçulub dağıldı. Sədrin təzəliyi də məni açmadı. Axı M.Biriyanın bəzi ədaları mənə çoxdan tanışdı. Ayağa qalxdım. Dostumla bərabər xiyabana çıxdıq.

MK-nın binası qarşısında o qədər adam toplanmışdı ki, iynə atsaydılar yerə düşməzdi. Sanki hər adam öz tərəddüdlə dolu sualına qəti cavab almaq üçün buraya gəlmişdi. İnsanların təlatümlü ürəyindəki həyəcan intizarlı baxışlarında dalğa-dalğa qabarırdı. Bu dalğaları yatırmaq asan deyildi. Neçə-neçə odlu-alovlu mübarizə meydanından keçənlərə soyuq təsəllilər təsir edə bilmirdi. Dünya görmüş bir xalqın qırx ildən artıq döyüş təcrübəsi vardı. M.Biriya bir neçə adamla eyvanda göründü. Biz izdihamın arasından keçib eyvanın qabağına gəldik. Dayanıb intizarlı gözlərimizi aşağıdan yuxarı eyvana dikdik. Onun nə deyəcəyini səbrsizliklə gözlədik. O, əllərini eyvanın məhəccərinə söykəyərək, əvvəlcə uğuldayan izdihama xeyli baxdı. Sanki M.Biriya bu dəqiqələrdə tüğyana gələ biləcək izdihama nə deyəcəyini xəyalında diqqətlə götür-qoy edirdi. Nəhayət, o quru tövsiyəylə uğuldayan izdihama: – Əziz həmvətənlər! İran dövləti məclisə seçkilər keçirməlidir. Biz də bu seçkilərdə iştirak etməliyik. Məclisə öz nümayəndələrimizi seçməliyik. Bunun üçün Azərbaycanın hər yerində möhkəm nizam-intizam yaratmalıyıq. Seçkilər üzərində nəzarət etmək üçün İran qoşunları



Azərbaycana gəlir. Biz sülh naminə hər hansı ixtişaşa yol verməməliyik. Yalnız öz dinc işlərimizlə məşğul olmalıyıq – dedi.

Qəribədir. Axı Milli hökumətin doğma nəfəsi duyulmadan hansı dinc işdən söhbət gedə bilərdi? Elə bu zaman izdihamda çaxnaşan insanların yadına Zəncan hadisələri düşdü. Biz yalnız sülh naminə ana Vətənin doğma övladı olan Zəncanı Azərbaycandan ayırıb ürək ağrısı ilə İran dövlətinə verdik. Lakin təcavüzkarlıq niyyətilə Zəncana daxil olan şah qoşunları bu dinc şəhərdə elə dəhşətli faciələr törətdi ki, səsi uzaq şəhərlərə də gedib çatdı. Odlu fəryadı soyuq yollarda da izlər saldı. Qanlı dastanı qaranlıq tarixi də qızartdı. Bəli! Şah Azərbaycan xalqından belə intiqam aldı...

İzdiham daha natiqə diqqətlə qulaq asa bilmədi. Sonrakı hadisələrin gedişini qabaqcadan duyan adamların nəzərində bütün Azərbaycan nəhəng bir Zəncana çevrildi. O özünün unudulmaz dəhşətli hadisələri ilə qəzəb dolu baxışlarda yenidən canlandı. Sinələrdən qopan yanıqlı ahların dumanları gözlərdə parlayan qəzəb odunu söndürə bilmədi. Lakin eyvandan xiyabana toplaşanlara üz tutub danışan natiqin nəfəsi havada buxarlanıb yağışa döndü. Bu qəfil yağışdan adamların başına soyuq su deyil, qaynar su ələndi. Bu su ürəklərdəki arzuları yuyub apardı. Birdən kimsə mənim sağ qoluma toxundu. Dönüb baxdım. Kəklik idi. Yanımda dayanıb natiqi dinləyə-dinləyə ağlayırdı. Bəli! Bir zaman səngərlər üstə qartal tək qanad açıb döyüş nəğmələri oxuyan mübariz nəğməkar indi səssiz-səssiz ağlayırdı... Xəcalətdən Kəkliyin göz yaşından islanmış

üzünə baxa bilmirdim. Sanki bu fəlakətin səbəbkarı mən idim. Özümü ələ alıb qızın üzünə baxdım. Kəkliyin üzü yağış arasından çıxmaq istəyən Aya bənzəyirdi. O mənim baxışımdakı qüruru duyub başını çiynimə söykədi. Sonra içini çəkə-çəkə gözlərinin yaşını silib adamları yara-yara harasa getdi. Mən o məsum gözəlin arxasınca fikirli-fikirli baxdım. Sonra niyə o nadir nəğməkara bir təsəlli vermədim deyə öz-özümü danladım.

Mitinq qurtardı. Adamlar dağılışdı. Bayaq dəmir intizamla, ağır təmkinlə, möhkəm inamla xiyabana toplaşan adamlar mütəşəkkil orduya bənzəyirdi. İndisə sınıq-salxaq ləşkəri xatırladırdı. Adamlar iki-bir, üç-bir gedirdilər. Danışa-danışa, köks ötürə-ötürə, baş bulaya-bulaya addımlayırdılar... Ancaq hara gedəcəklərini heç özləri də bilmirdilər. Mən bir fayton tutub Naxışgilə getdim. Xalq haqqında təzə yazdığım bir şeiri faytonda dodaqaltı pıçıldadım:

**Haqqın da bir üzü var,**
**Birüzlü adam kimi.**
**Ona görə yolundan**
**Dönməyir inam kimi.**
**Dostlar! Haqlı yaşayar,**
**Ancaq haqsız yaşamaz.**
**Xalq dövlətsiz yaşayar,**
**Dövlət xalqsız yaşamaz.**
**Bilin! Mən neçə-neçə**
**Adamdan incimişəm.**
**Gah müdrikdən, gah da ki,**
**Avamdan incimişəm.**



**Ancaq hamının kökü**
**Xalqdan inciməmişəm.**
**Xalq nə deyirsə, haqdır,**
**Haqdan inciməmişəm.**
**Axı bir zaman haqdan**
**Yoğrulmuşam özüm də.**
**Haqqı car çəkmək üçün**
**Doğulmuşam özüm də.**
**Xalq özü yazılışda**
**Yalnız bircə hecadır.**
**Qələmin onu bölmək**
**İddiası bicadır.**
**Xalq özü də bölünməz**
**Bircə heca kəlam tək.**
**Daim bütöv yaşayar**
**Əzəmətli ehram tək.**
**Xalqı körpü eləyib**
**Üstündən keçmək olmaz.**
**Xalqın fəlakətindən**
**Səadət biçmək olmaz.**
**Yox! Xalq dənizdir, onu**
**Bəlalar qaralayar.**
**Tufanlar döyəcləyər,**
**Şimşəklər paralayar.**
**Dənizin içindəsə**
**Təlatümlər yetişər.**
**Dəniz hardan bölünsə,**
**Yenə ordan bitişər.**

Qapıda faytonu yola saldım. Dəmir çaxçaxı bir neçə dəfə taqqıldatdım. Ancaq içəridən səs gəlmədi. Mən tələsirdim. Burda çox dayanmaq olmazdı. Qapıdan aralanıb getmək istəyəndə kimsə arxadan mənə: – Dayanın! – dedi. Dönüb səs gələn tərəfə baxdım. Dərbənddə Naxışgilin qapısıyla üzbəüz qapı açılmışdı. Qabağında gənc bir qadın dayanmışdı. O qadını tanıyırdım. O da məni tanıyırdı. Naxışı evlərinə ötürəndə məni görmüşdü. Qadın ürəyinin təlaşını gözlərinin yaşında boğub mehriban-mehriban: – Siz Surət xanımı istəyirdiniz? – deyə soruşdu. Mən etirafla: – Bəli! Surət xanımı da, Naxışı da görməyə gəldim – dedim. Qadın yanıqlı bir təəssüflə: – Dünən Surət xanım Naxışı da götürüb Ərdəbilə getdi. Hansı qohumununsa toyudur – dedi. Mən xəyala getdim. Qadın qayğılı-qayğılı: – Gərək bu qarışıqlıqda getməyəydilər. Eh! Sabah başına nə gələcəyini bu gün kim bilir ki, onlar da biləydi? Bəlkə bir sözünüz var, deyin, onlar gələndə yetirərəm! – dedi. Mən fikirli-fikirli: – Şəhərdə qalmaq təhlükəlidir. Gəldim bəlkə Naxışı... Sözlərimin dalı gəlmədi. Qəhər boğazımın yolunu kəsdi. Haçandan-haçana özümü ələ alıb: – Sizdən xahiş edirəm, mənim gəldiyimi Naxışa deyəsiniz – dedim. Qadın kövrələ-kövrələ: – Baş üstə! Hökmən deyərəm – dedi. Dönüb dəfələrlə gəldiyim evin qapısına baxdım. Ancaq xəyalıma gəlmədi ki, bu mənim o qapıya son baxışımdır. Ayrılmaq istəmədiyim tanış qapıdan iti addımlarla ayrıldım. Yolda haçansa yazdığım "Məhrəm körpü" şeirimi oxudum:



**Sanma heyrət doğuran**
**Füsunkar gözəllərdir.**
**Yox! Yox! Nadirdən nadir**
**Ecazkar gözəllərdir.**
**Həqiqət dodaqlarda**
**Nəğmələşən zamanda,**
**Sanki sən əfsanədən**
**Yoğrulmusan cahanda.**
**Sevgin hərarətilə**
**Qayanı da əridər.**
**Qayğın təsəllisiylə**
**Fəryadı da kiridər.**
**Sən tutqun könülləri**
**Aça bilərsən, gülüm!**
**Tək ətir yox, şəfəq də**
**Saça bilərsən, gülüm!**
**Özün yaratmasan da**
**Yaraşıqlı bir növraq,**
**Gözəlliyin dünyanı**
**Zinətləndirir ancaq.**
**Yox! Yox! Sən hünərinlə**
**Növraq da yaradarsan.**
**Göydəki ulduzları**
**Yerdən də arıdarsan.**
**Mən könlümdən könlünə**
**Məhrəm körpü salmışam.**
**Bəs niyə mən körpünün**
**Bu başında qalmışam?**

**Gülüm! Sənsə körpünün**
**O başında qalıbsan.**
**Gah sakitcə gülübsən,**
**Gah xəyala dalıbsan.**
**Nə körpü postamentdir,**
**Nə də ki, biz heykəlik.**
**Yox! Yox! Ülvi vüsala**
**Biz özümüz təməlik.**
**Ərsiz gözəl dünyada**
**Qınsız xəncər kimidir.**
**Ərli gözəl dünyada**
**Məğrur hünər kimidir.**
**Ya körpünün üstündə**
**Əbədilik qovuşaq,**
**Ya körpünün yanından**
**Xatirəylə sovuşaq...**

Mən öz səmimi duyğularımı açıq ifadə etdiyim bu şeiri Naxışa oxumamışdım. Yox! Utanmışdım. Artıq gec idi. Daha oxumayacaqdım da...

Haraya gedəcəyim haqda düşündüm. Qəti qərara gələ bilmədim. Arada başımı qaldırıb göyə baxdım. Göydə buludlar da pərən-pərən düşmüşdü. Sanki onlar da haraya gedəcəklərini bilmirdi. Ancaq sən demə öyrəncəli ayaqlarım məni filarmoniyaya gətirirmiş. Bəli! Evə yox, filarmoniyaya! Mən filarmoniyaya çatdım. Gözlərim istər-istəməz arxın kənarında qapı ilə üzbəüz dayanmış tənha ağaca sataşdı. Ağacın sarı yarpaqları budaqlardan qopub yerə tökülürdü... Sanki boz səkinin ətəklərinə qızıl pul şabaşı yağırdı. Axı payız toy fəsli-



dir. Düşündüm ki, yəqin indi haradasa toydur. O toyda bəyin başına da şabaş yağır. Bəlkə bu ağac da öz yarpaq şabaşlarını elə o toya hədiyyə vermək istəyir. Ona görə də belə şiddətlə silkələnir ki, şabaşı çox olsun! Ancaq belə deyildi. Ağac küləyin təmasından yox, öz daxilindəki həyəcandan titrəyirdi. Axı yarpaqlar ağacın öz doğma övladlarıdır. İndi gözləri görə-görə övladlar sarala-sarala yerə tökülürdü. Günlərlə, həftələrlə, aylarla bəslədiyi övladlar! Qəribədir! Bəs niyə ağac hərdənbir daha da şiddətlə silkələnirdi? Bəli! Ağaca sanki haradansa gözəgörünməz zərbələr dəyirdi. Bu xəzanın amansız zərbələri idi. Ağac da aldığı zərbələrə əks zərbələrlə cavab verirdi. Bu zərbələr altında məğrur dayanan ağacın uca başı hərdənbir gicəllənirdi də! Lakin o öz müvazinətini itirmirdi. Saralmış yarpaqlarsa tökülməkdə davam edirdi. Bu yarpaq tökümü ağaca nə qədər ağır gəlsə də o yenə daha da şiddətlə silkələnirdi. Çünki ağac zümrüd yanaqlı övladlarının zəfəran yanaqlı övladlarına baxıb həyəcandan, təlaşdan, xiffətdən saralmağını istəmirdi. Ana torpağın başına yağdırdığı qızıl pul şabaşlarıyla öz yasını toya döndərməyə çalışırdı. Nədənsə dilsiz ağacın niyyəti, mübarizəsi, əməli ilə öz düşüncəm arasında möhkəm bir yaxınlıq duyurdum. Axı biz də gündüzlü-gecəli çalışırdıq. Yeni, böyük, əlvan proqramlar hazırlayırdıq. Bu proqramlarla məhərrəmliyin matəm havasını toy təntənəsinə çevirmək istəyirdik. Döyüşü dincliklə, gərginliyi rahatlıqla, kədəri sevinclə əvəz etməyə çalışırdıq...

Bu dəfə təzə yazdığım “İki tufan” adlı şeirimi küçədə öz-özümə oxudum:

**İşə bax! Tufanda tənha qarağac**
**Özü silkələyir budaqlarını.**
**Yıxılmaqdan qorxub daha qarağac**
**Altına döşəyir yarpaqlarını.**

**İnsanın evini uçursa tufan,**
**O istər həm gündüz, həm gecə tiksin.**
**Bəs tufan köksünü döydüyü zaman**
**Uçan ürəyini de, necə tiksin?**

**Mənim dağ ürəyim, düşmə həycana,**
**Tufandan qorxmayır şimşəkli gözüm.**
**Nə qəm, bürünsə də aləm tufana,**
**Təpədən-dırnağa tufanam özüm.**

**Tufan öyünməsin qovğalarıyla,**
**İçimdə bir tufan təmkinlə susar.**
**Təlatümə gəlsə dalğalarıyla**
**Bir məmləkət nədir? Dünyanı basar.**

**Yox! Tufan olsam da kim deyə bilər**
**Hardasa bir evi korlamışam mən.**
**Elə tufanın da yadına gələr**
**Min düşmən başında gurlamışam mən.**

**Bəli! Gurlamışam! Tufandan sonra**
**Günəş gülə-gülə çıxsın yerindən.**
**Yatanlar oyanıb təkandan sonra**
**İnsan hünərini duysun dərindən.**

Həmişə Səhəndin, Eynal-Zeynalın, Ərk qalasının başına odlu nəfəsilə əlvan şəfəqlər səpə-səpə qüruba çəkilən Günəş nədənsə bu gün öz mənzilinə getməyə



tələsmirdi. O, qədim, mavi, uzun yolunda ağır-ağır hərəkət edirdi. Sən demə, Günəşə agah imiş ki, o, sabah səfərdən qayıdıb gələndə bu şəhərdə şahidi olduğu yeni, azad, gözəl həyatı bir də görə bilməyəcəkdir. O, göydə yerdən qalxan tüstü-duman içində boğulacaqdır. Ona görə də bu başıbəlalı şəhərə indi doyunca baxmaq istəyirdi. Taleyin də qəribə işləkləri olur. Bəzən görürsən ki, birinə həddindən çox istedad, həddindən az ömür verir. Bu adam öz aşıb-daşan istedadını öz ömrünün məcrasına sığışdırmağa macal tapmadan təlatümə gəlmiş dalğalar arasında batıb gedir. Milli hökumətin də taleyi belə bir nakam adamın taleyinə bənzəyirdi. Biz Milli hökuməti ikiqat sevirdik. Nəyə görə? Əvvəla ona görə ki, Milli hökuməti biz qurmuşduq. Sonra isə bizi o yetirmişdi. Başqa sözlə desək biz təşkilatlar, müəssisələr, idarələr yaratmışdıq. Onlar da bizi öyrədib, püxtələşdirib, tanıtmışdılar. Deməli biz öz halal əməyimizin fərəhli bəhrəsinə çevrilmişdik! Bunun üçün Milli hökumət bizə ikiqat əziz idi!

Mən filarmoniyaya daxil oldum. Qarovulçu ilə salamlaşıb iş otağıma keçdim. Həmişə işıqlı qoynunda şaqraq nəğmələr çağlayan salona qəribə bir sükut çökmüşdü. Bu təzə sənət ocağı indi suyu sovulmuş köhnə dəyirmana oxşayırdı. Mən mizimin arxasında əyləşərək başımı əllərimin içinə alıb düşünürdüm. Fikirlərim dolaşıq düşmüş kələfə bənzəyirdi. Nə qədər çalışırdımsa da düyünü aça bilmirdim ki, bilmirdim. Sanki günəşli havada, sakit dənizdə gəmi ilə arxayın-arxayın limana doğru üzən bir kapitan heç təsəvvürünə gətirmədiyi qəfil tufana uğramışdı. Düşündüklərimin çoxu suallar idi.

Niyə belə oldu? Nə üçün mübarizələrlə dolu illərdə halal əməyimizlə yaratdığımız növraqdan əl çəkək? Başçılar bu ədalətsiz qərara nə təhər qol qoydular? Gələcək nəsillərə necə cavab verəcəyik? Mən özümün ya ələ keçəcəyimdən, ya həbs ediləcəyimdən, ya öldürüləcəyimdən əsla qorxmurdum. Bilirdim ki, Vətənin qaldırdığı hər hansı mübariz insan boy atıb göylərə ucalır. Vətənin şöhrətini də özü ilə yüksəldir. Döyüşlərdə yerə düşəndə isə Vətənə əbədi bağlanmaq üçün Vətənin doğma torpağına elə dərin köklər atır ki, bu köklər üzərində sabah başqa bir mübariz insan göylərə boy atıb Vətənin şərəfini də özü ilə ucalda bilsin! Beləliklə də Vətəndə bir mübariz insan bir, yaxud bir neçə mübariz insanın dayağına, örnəyinə, timsalına çevrilir...

Qapı gözlənilmədən sürətlə açıldı. Gələn qocaman tarzənimiz Yaqub kişi idi. Təbrizdə hamı onu Yaqub dayı deyə çağırırdı. Hətta özü yaşda olan adamlar da hörmət xatirinə bu dünya görmüş xeyirxah adama Yaqub dayı deyirdilər. Yaqub dayı həyəcanla mənə: – Niyə oturubsan? – dedi. Mən qəmli-qəmli kollektivimizin ağsaqqalı sayılan bu adamın buludlanmış gözlərinə baxıb: – Bəs nə edim? – dedim. O, təkidlə mənə: – Qalx! Görmürsən hərə baş götürüb bir yana gedir? Nə qədər gec deyil, biz də şəhərdən çıxmalıyıq. Yoxsa ələ keçə bilərik – dedi. Doğrusu, tərəddüd etdim. Tərpənmək istəmədim. Axı şirin ömrünün narahat günləri hesabına sevə-sevə qurub-yaratdığın bir abidədən necə ayrılasan? Dedim ki: – Axı, Yaqub dayı, bu binanı tərk etmək asandır. Ancaq gör bu dövlət müəssisəsində nə qədər əmlak var? Qaragüruhçular hamısını dağıda bilər-



lər. Sonra xalq bizi məhkəməyə çəkər. Biz son dəqiqələrdə də öz məsuliyyət hissimizi itirməməliyik. – Sən demə, mənim bu ibarəli sözlərim təmtəraqlı ehsasatdan başqa bir şey deyilmiş! Mən hadisənin enini-uzununu öz arşınımla ölçürmüşəm. Sən demə, özünü dünyada azadlığın, demokratiyanın, səadətin bayraqdarı sayan Moskva nədənsə Cənubi Azərbaycandan çıxan sovet ordusunun ağır hərbi texnikasını Milli hökumətin qızılbaş ordusuna verməyinə peşiman olubmuş. Bəli! Moskva Cənubi Azərbaycana bir neçə general göndərib həmin ağır hərbi texnikanı geri alıbmış. Üstəlik, Milli hökumətin Polşa hökumətinə buğda verib əvəzində aldığı ağır hərbi texnikasını da ələ keçiribmiş. Gənc ordusu tərksilah olunan Milli hökumət bu boyda dünyada təklənibmiş. Artıq siyasət o biri üzünü göstəribmiş.

**Kim bilir nə zamandan**
**Ay Günəşi izləyir.**
**Bir üzünü göstərir,**
**Bir üzünü gizləyir.**
**Siyasət də bir Aydır,**
**Öz nəfini gözləyir.**
**Bir üzünü göstərir,**
**Bir üzünü gizləyir.**
**Bəli! İki üzlüdür**
**Siyasət də Ay kimi.**
**İkisi də yaşayır**
**Bir-birinə tay kimi...**

Yadıma bir əhvalat düşdü. Mənim iki tapançam vardı. Biri naqan, biri kolt idi. Naqanı Ərdəbildən bir

bəzzazdan almışdım. Necə aldığımı əvvəl yazdığım üçün bu barədə bir daha danışmağı artıq bilirəm. Mən Təbrizə gələndə Ərdəbildəki Sovet konsulxanasının mədəniyyət işlərinə baxan əməkdaşı mənə məsləhət görmüşdü ki, yanımda silah aparmayım. Yolda xoşa gəlməyən hadisə baş verə bilər. Mən də naqanı Ərdəbildə bir dostuma verib Təbrizə yola düşmüşdüm. Ancaq Təbrizdə mühüm dövlət işlərilə məşğul olduğuma görə Milli hökumət mənə təhlükəyə məruz qalanda özümü qorumaq üçün kolt tapançası vermişdi. Təbrizdə bir qədər işlədikdən sonra Ərdəbildəki dostum naqanı Təbrizə gətirib mənə qaytardı. Yoldaşlarımın bir neçəsi bilirdi ki, mənim iki tapançam var. Tehran qoşunu buz nəfəsiylə Azərbaycan sərhədlərini döyə-döyə Təbrizi həyəcana salanda Təbrizdəki Təhlükəsizlik idarəsindən mənə zəng vurub dedilər ki, bizdə olan məlumata görə sizdə iki silah var. Birini Təhlükəsizlik idarəsinə təhvil verməlisiniz! Mən elə o gün naqanı aparıb Təhlükəsizlik idarəsinə təhvil verdim. Sən demə, Təhlükəsizlik idarəsinin özü də bilərəkdənmi, yoxsa bilməyərəkdənmi bir illik azadlıq üçün təhlükə yaradırmış. Axı tərksilah olan yerdə dərhal təhlükə zühur edir. Elə etdi də! Tehran casusları gizli yollarla Təbrizə doldu. Təbrizdə gizlənmiş şahpərəstlər aşkara çıxdı. Fəlakət səadətə meydan oxudu. Milli hökumət xaricdən silah ala bilmədiyi halda Təhlükəsizlik idarəsi daxildəki silahları da yığdı. Mənim qulaqlarımda ataların "yumurtlamadı, falasını da içdi" məsəli həqiqət dolu hərarətlə səsləndi... Yaqub dayı sərt hərəkətlə məni oturduğum stuldan qaldırdı. O ki var, danladı. Ona görə



danladı ki, mən idarənin böyüyü olsam da təcrübədə çox uşaqmışam. Biz xiyabana çıxdıq.

Heç beş addım atmamışdım ki, qara çadraya bürünmüş bir gəlinin mənə doğru gəldiyini gördüm. Gəlin qara çadranın içində qollarını ata-ata mənə doğru irəliləyirdi. Yox! Sanki uçurdu. Dayanıb gəlinə baxdım. O elə ağ idi ki, sanki qara çadranın içində gecə dan yeri ağarırdı. Gəlini tanıdım. Sanki o insan Kəklik yox, özü boyda quş kəklik idi. Kəklik tövşüyə-tövşüyə mənə çatıb dayandı. Sonra nəzakətlə dolu pıçıltıyla mənə: – Axşamınız xeyir! Sizi görməyə gəlmişəm. Şükürlər olsun ki, görə bildim. Yoxsa bu da mənə bir nisgil olardı – dedi. Mən həyəcanla Kəkliyə: – Siz bu qarışıqlıqda niyə şəhər içinə çıxıbsınız? Məgər bir az gözləmək olmazdı? – dedim. O qətiyyətlə: – Yox! Gözləmək olmazdı. Sonra mən sizi tapa bilməzdim – dedi. Kəkliyin iri gözlərində iki büllur damla qabardı. Elə qabardı ki, bütün çöhrəsini işıqlandırdı. Mən onun çöhrəsinə baxdım. Müğənninin çöhrəsində təlaşla nisgil bir-birinə qarışmışdı. Kəklik kövrələ-kövrələ mənə: – Nə yaxşı ki, sizi rəqib caynağından qopara bilməsəm də şəklinizi sizdən almışam. Haraya getsəm sizin şəklinizi də özümlə aparacağam. Yalnız məzara gedəndə sizin şəklinizi evdə qoyacağam. Vəsiyyət edəcəyəm ki, baş daşımda mənim şəklimi yox, sizin nakam sevgidən danışan misralarınızı həkk etsinlər. O misralar mənim başımın üstdə ömrümün faciələrlə dolu yollarına dönsün. Məzarımın üstünə gələnlər o yollara baxıb mənim haqqımda öz fikirlərini söyləsinlər – dedi. Mən Kəkliyə səmimiyyət dolu sözlərlə təsəlli vermək istədim.

Ancaq xiyabanda nə çox dayanmaq, nə də çox danışmaq olardı. Qaranlıq gecənin gözə görünməyən dərinliyindən hər an bir təhlükə çıxa bilərdi. Mən xudahafizləşmək üçün qaranlığa bələnmiş əlimi Kəkliyin sanki südlə boyanmış əlinə uzatdım. Ancaq əlim havadan asılı qaldı. Kəklik hıçqırıqla məni qucaqladı. Odlu dodaqlarını soyuq yanaqlarıma yapışdırıb qaçdı. Sanki qara çadra qaranlığa qarışıb onu daha da qatılaşdırdı. Mən yanağımda yaş duydum. Əlimi yanağıma sürtdüm. Bu yaş Kəkliyin iri, qara gözlərindən yanağıma düşən büllur damlaların yeri idi. Bəs yanağımı yandıran nə idi? Kəkliyin qəfil öpüşü! Bəli! Yanağımda öpüşlə göz yaşı bir-birinə qarışmışdı. Ancaq göz yaşı öpüşün odunu söndürə bilmirdi. Yox! Yanağım yanırdı. Dönüb Yaqub dayıya baxdım. Sən demə, kişi bayaqdan yanımda sükut heykəlinə dönübmüş. Yaqub dayının da gözlərində iki büllur damla parlayırdı. Sanki Yaqub dayının gözləri Kəkliyin gözlərindən mənim yanağıma düşən iki büllur damlanı özlərində əks etdirirdi...

Əvvəlcə mən yaşadığım evə gəldik. Bu, Gülüstan bağına yaxın bir dərbənddə idi. Həyəti kiçik olsa da səliqəli idi. Həyətdəki ev dörd otaqdan ibarət idi. İkisi alt, ikisi isə üst mərtəbədə yanaşı yerləşirdi. Sağ tərəfdəki alt otaqda xalam Gəlinxanım, əri İsrafil, altıaylıq uşaqları Südeyf yaşayırdı. Üst otaqda isə mən olurdum. Mənim otağımla üzbəüz otaqda Balaş Azəroğlu öz ailəsiylə yaşayırdı. Ailəsi özündən, atasından, anasından, qadınından, altı aylıq qızından ibarət idi.

Biz həyətə daxil olanda qucağı bələkli xalam da, rəng-rufu qaçmış İsrafil də Balaşın ailə üzvləri ilə



həyəcanla danışırdılar. Mənim məqsədim həm xalamla, həm İsrafillə görüşmək, həm də Balaşı götürüb özümüzlə aparmaq idi. Əvvəlcə Balaşı soruşdum. Anası təlaş içində dedi ki, hələ işdən gəlməyib. Dərhal başa düşdüm ki, Təbriz radiosu son nəfəsə qədər öz həqiqət dolu sözünü demək istəyir. Balaş da ordadır. Ancaq anaya təsəlli verdim ki, narahat olmasın. Yəqin ki, hələ radioda iş vaxtı qurtarmayıb. Biz Balaşın dalınca gedərik. Mən cəmi üç-dörd pillədən ibarət olan çıxacağı qalxıb mənzilimə getmədim. Elə həyətin ortasındaca xalamın qucağından körpə Südeyfi alıb o üzündən, bu üzündən hərarətlə öpdüm. Sanki ikimiz də bir-birimizi ilk dəfə görürdük. Uşaq təbəssümlü qara gözlərilə mənə matdım-matdım baxdı. Sanki o, təbəssümüylə mənim gözlərimdə qalanmış qəm buludlarını dağıtmaq istəyirdi. Fəqət gücü çatmırdı. Uşağı anasına qaytaranda xalamın gözlərinə baxa bilmədim. Zahirən sakit görünən qadının gözlərində Savalan şimşəyinin qığılcımları işarırdı. O şimşək çaxsaydı fəryad leysanı yağacaqdı. Kim bilir, sonra nələr olacaqdı. Mən xalamı qucaqlayıb əllərindən, saçlarından, gözlərindən öpdüm. Kaş heç gözlərindən öpməyəydim! Məgər atalar deməyiblər ki, gözdən öpmək ayrılıq deməkdir? Mən bu hikmətli kəlamı bilə-bilə niyə xalamın gözlərindən öpdüm? Nə isə... Olan oldu, keçən keçdi! Xalama dedim ki, darıxmayın! Biz tezliklə qayıdıb gələcəyik. Lakin özüm də bilmədim ki, bu sözlər ötəri təsəllidir, yoxsa qəti həqiqət! Təsəvvürümə gəlmədi ki, bu görüşün ayrılığı bir insan ömrü qədər uzanacaqdır! Xalam təkid etdi ki, otağıma qalxım. Heç olmasa təzə

kostyumlarımdan bir-ikisini çemodana qoyub özümlə götürüm. Axı elə kostyumum var idi ki, heç əynimə almamışdım. Səfərdə paltardan başqa da adama çox şey lazım olur. Lazım olanları götürmək vacibdir. Yoxsa korluq çəkə bilərəm. Mən ömrümdə birinci dəfə olaraq xalamın sözündən çıxdım. Nə otağa qalxdım, nə də köynək, kostyum, çemodan götürdüm. Sanki ürəyimə dammışdı ki, mən haradasa ələ keçəcəyəm. O zaman çemodan mənə yük ola bilər. Qəfil ayrılığın son həyəcanlı anları yaxınlaşırdı. Sanki anlar da məni müşayiət etməyə tələsirdi. Mən Balaşın ailə üzvləri ilə də görüşdüm. Həyətə necə girmişdimsə eləcə də çıxdım. İş paltarında, dost harayında. İsrafil də, Yaqub dayı da mənimlə çıxdı. Arxadan xalamın dodaqlarında göz yaşlarıyla yazılmış "can bala!" sözlərini eşitdim. Dönüb dala baxdım. Xalamın gözlərindən axan yaşlar solğun yanaqlarında iki nazik arx açmışdı. Sanki bu arxlar mənim yolumu yuyub təmizləmək üçün axırdı. Balaca Südeyf isə anasının qucağından mənə yenə də təbəssüm dolu qara gözlərilə baxırdı. Sanki o da öz gözlərinin işığı ilə mənim qaranlıq yolumu parlatmağa çalışırdı. Axı mən hər gün işdən evə gələndə balaca Südeyflə əylənərdim. Həmin bu həyətdə Ay işığında xalamın sonbeşiyini qucağıma alıb yorulunca oynadar, ağlayınca öpər, yatızdırınca gəzdirərdim. Sanki Südeyf indi öz borcunu ödəmək istəyirdi. Küçədə sozaran fanarların altında İsrafilə tapşırdım ki, xalamdan muğayat olsun. Əmzikli anaya çox fikir çəkmək olmaz. Yoxsa əldən düşər. Fürsət düşcək kəndə qayıtsınlar. Orda özümüzkülər hər işi sahmana salarlar. İsrafili evə qaytardım.



Yaqub dayı ilə birlikdə Səttarxan xiyabanına doğru sürətlə addımladım...

Həmişə sinəsi izdihamlı, baxışları çıraqban olan geniş xiyaban sanki daralmışdı. Qaranlıq bir dərbəndə bənzəyirdi. Təbrizin işıqları da sevincləri ilə bərabər bir gecənin içində sönmüşdü. Baxışlarım arabir yad baxışlarla qarşılaşırdı. Bu soyuq baxışlardakı parıltılar qaranlıq gecədə haradansa pırtlayıb çıxan göbələklərə oxşayırdı. Lakin gecə qaranlıq olsa da məsələ aydın idi. Bu düşmən baxışları içərisində Tehrana qaçıb indi geri qayıdanlar da, Təbrizdə gizlənib qalanlar da vardı. İndi şəhərin vahiməli qoynunda meydan oxuya-oxuya qisas almağa məqam gözləyirdilər. Mən Yaqub dayı ilə radio idarəsinə gedirdim. Məqsədim Balaşı işdən götürüb özümüzlə aparmaq idi. Şəhərdə hərbi vəziyyət elan olunmuşdu. Hər tinbaşı keşikçilər buraxılış vərəqəsi tələb edirdilər. Biz filarmoniyanın qabağından keçəndə Kamil Tütünfüruşla rastlaşdıq. Sən demə, o mənim dalımca gəlibmiş. Ancaq məni filarmoniyada tapa bilməyib. Görüşdük. Bu qəribə görüşdən hər ikimiz kövrəldik. Əvvəllərdə yazdığım tək Kamil Tütünfüruş "Şairlər və yazıçılar cəmiyyəti"nin sədri idi. Gözəl şair idi. Əsasən qəzəl yazırdı. Qəzəllərindən neçə-neçə divan bağlamışdı. Klassik poeziyamızın sinədəftəri idi. Sakit, mehriban, xeyirxah bir insan idi. Öz mədəni davranışı ilə qələm dostlarını heyran qoyardı. Hər şeyi sərraf gözləri ilə qabaqcadan görmək məharətinə malik olan Kamil Tütünfüruş müqəddiməsiz mənə: – Bilirəm ki, sən Təbrizdə qəribsən, ancaq narahat olmaya bilər-

sən. Mən səni ürəyimin içində saxlayaram. Hadisələrin bulanıq axarı durulandan sonra gedib özününkülərə qovuşarsan. O vaxta qədər Ərdəbildə də həyat sakitləşər – dedi. Mən fikirləşmədən: – Yox, hörmətinizə görə sağ olun! Mən getməliyəm! – dedim. Sonra təzədən əl verib ayrıldıq. Əllərimizin istisi bir-birinə qarışdı. Əbədi yadigar qalmaq üçün...

Mən Yaqub dayı ilə qaranlıq xiyabanda radio idarəsinə sarı çiyin-çiyinə addımladıqca gözlərimin qarşısında unuda bilmədiyim bir lövhə canlandı...

Bahardı... Təbrizin ucsuz-bucaqsız badam bağlarında ağaclar ağ çiçəklər açmışdı. Şehdə yuyulmuş təravətli çiçəklər insanın sinəsini öz gözəl rayihələri ilə doldurub ürəyini gülab şüşəsinə döndərməsəydi, deyərdin, bəlkə də ilin bu fəslində ağaclara quşbaşı qar yağmışdır. Lakin baharın saçı da, gözləri də, donu da yaşıl olan gözəl qızı söyüd, insanın hissini də, fikrini də, təsəvvürünü də yaşıl tellərilə təbiətə bağlayırdı. Söyüdün incə, zərif, parlaq budaqlarında sıralanmış körpə yarpaqlar sapa düzülmüş yaşıl mirvarilərə bənzəyirdi. Hələ nə səhərin mehi, nə də axşamın şehi bu nadir boyunbağının zümrüd dənələrinə ləkə sala bilməmişdi. Fəqət uzaqlardakı dağların başında qarla, buzla yüklənmiş qara buludlar sürünürdü. O buludlar öz acı, qorxunc, ağır matahlarını hər zaman bu təzətər baharlı şəhərin üstünə boşalda bilərdi. Ancaq "sonsuz" ləqəbilə məşhurlaşan söyüd bu şirin bəhrəli, bol məhsullu, əlvan barlı baharın yolunda yaşıl işıq yandırmışdı. Bağlardan-bağlara uzanan teleqraf tellərinə qatarla qonan quşlar



bahar nəğməsinin canlı notlarına oxşayırdı. İnsanlar da, ağaclar da, quşlar da, sular da, küləklər də bahar nəğməsi oxuyurdu!

Belə gözəl bahar günlərinin birində mən Balaşla nahar fasiləsində işdən çıxıb "Şairlər və yazıçılar cəmiyyəti"nə getdik. Biz sədrin otağına daxil olanda Kamil Tütünfüruş masanın arxasında dalğın halda əyləşmişdi. Bizi görcək ayağa qalxdı. Mehribanlıqla əl verib görüşdük. Qələm dostumuz zarafatcıl adam olduğuna görə həmişə təbəssümlə işıqlanan sifətinə qaraqabaqlıq heç yaraşmırdı. O özü də bunu duyub bizə bir-iki duzlu-məzəli söz atdı. Biz də bu sözləri qəndəşəkərə batırıb Kamilin özünə qaytardıq. Sonra üçümüz də güldük. Masanın qabağındaca yumşaq stullarda əyləşdik.

Ədəbi söhbətlər siyasi söhbətlərə çevrildi. Axı elə ədəbiyyat özü siyasətin həqiqət aynası idi. Bütün uğurlu-uğursuz hadisələrin əksi bu aynanın şəffaf sinəsində açıq-aşkar görünürdü. Bu buludlu-şimşəkli bahar günlərində insanların da xəyalları buludlu, baxışları şimşəkli idi. Hamının fikri-zikri Tehrana yönəlmişdi. Orada Azərbaycandan getmiş Milli hökumətin nümayəndə heyəti İran hökumətinin nümayəndə heyəti ilə danışıqlar aparırdı. Buna görə də təkcə Təbriz deyil, bütün Azərbaycan nigaran idi. Kamilin də pərişan olmasının səbəbi elə bu imiş. Nəhayət, o, ürəyindəkiləri açıb dedi: – Bilirsinizmi, mənim əzizlərim, qorxuram ki, Tehranın siyasətdə baş ağartmış qoca qurdları bizim nümayəndə heyətini aldatsınlar. O hiyləgərlərdən nə

desən gözləmək olar. Qərar da çıxarda bilərlər, basqın da edə bilərlər. – Qələm dostumuz bu sözləri həm sakit, həm də səmimi dedi. Mən hirsləndim. Bilmirəm cavanlığıma saldım, yoxsa çılğınlığıma. Dedim: – Əşi, sən nə danışırsan? İndi bizim öz dövlətimiz var, öz qoşunumuz var, öz şöhrətimiz var! Nüfuzumuz da elə... – Kamil Tütünfüruş sakit-sakit mənə: – Sən hələ cavansan, Səttarxan zamanında da belə olub, Şeyx Məhəmməd Xiyabani zamanında da. Bəlkə bundan da artıq olub. Hakimiyyət də, qoşun da, güc də xalqın tərəfində olub. Bəs sonra nə olub? Yalnız tarixdə qalan hadisəyə çevrilib. Düşmənlər hiyləylə, silahla, zorla hamısını dağıdıblar – dedi. Mən Balaşa baxdım. O sakit-sakit Kamilə baxırdı. Ancaq mən daha Kamilin son sözlərindən sonra əyləşə bilmədim. Əsəbiliklə ayağa qalxdım. Balaş da, Kamil də qalxdı. Mən Kamillə üz-üzə dayandım. Nə gizlədim, o qədər hirslənmişdim ki, az qala ağsaqqal kişiyə əl qaldıracaqdım. Lakin əlimi Kamilin mənə sarı səmimiyyətlə uzanan əlinə tərəf apardım. Sədrin yumşaq əlini mehribanlıqla sıxdım. Elə sıxdım ki, əlimdə daşa dönə biləcək acıq da, qəzəb də, kin də ovxalanıb döşəməyə töküldü... Balaşla cəmiyyətin binasından çıxdıq. Mən yol boyu Kamilin dediklərini xəyalımda təhlil edirdim...

...Birdən radio idarəsinə bir tin qalmış alaqaranlıqda kim isə qışqırdı: – Dayanın! – Sonra da havada çəkilən çaxmaq şaqqıltısı eşidildi. Biz dayandıq. Qarşımızı gecə patrulları kəsmişdi. İrəliyə getmək olmazdı. Xüsusi icazənamə gərəkdi. Bizdə isə icazənamə yox



idi. Ortayaşlı bir əfsər dörd nəfər silahlı əsgərlə alaqaranlıqdan çıxıb bizə yaxınlaşdı. Salamlaşdıq. Əfsər məni də, Yaqub dayını da tanıdı. Lakin buraxılış vərəqəmiz olmadığına görə bizi radio idarəsinə buraxa bilməyəcəyini qətiyyətlə bildirdi. Mən əfsərə dedim ki, sən bizi yaxşı tanıyırsan, həm də biz kefə getmirik. Şair Balaş Azəroğlunu radio idarəsindən götürüb özümüzlə aparmaq istəyirik. Ailəsi nigarandır. Özün də görürsən ki, şəhər necə qarışıqdır. Əfsər: – Yox! Olmaz! Buraxa bilmərəm!– deyib durdu. Mən nə qədər təkid etdimsə də xeyiri olmadı. İş o yerə çatdı ki, tapançaya əl atdım. Əfsər də tapançasını çıxartdı. Qara ilan boğazına bənzəyən zağlı lülələr alaqaranlıqda bərq vurdu. Yaqub dayı indicə bədbəxt hadisə baş verəcəyini duyub tez aramıza girdi. Bir təmkinli ağsaqqal iki dəliqanlı qarasaqqalın köpünü yatıra bildi.

Biz daha radio idarəsinə gedə bilmədik. Balaşa da xəbər çatdırmağa imkanımız olmadı. Geriyə qayıtdıq. Lakin patrullardan bir qədər aralandıqdan sonra Yaqub dayı mənə dedi ki, başqa yollarla gedib aşıq Hüseyn Cavanı götürmək lazımdır. Yoxsa o da ələ keçə bilər. Aşıq Hüseynin düşmənləri çox idi. Azadlıq düşmənləri bu sazlı, sözlü bahadırın əlindən zəncir gəmirirdilər. Aşığın evi Təbrizin bir qədər ucqar yerində idi. Biz alaqaranlıq küçədə ətrafa boylanıb fayton axtarırdıq. Xoşbəxtlikdən haradansa bir faytonun boş gəldiyini gördük. Sanki Təbrizin bu alaqaranlıq gecəsinə işıq çiləmək üçün atların da gözləri faytonun sozalan fanarları ilə yanaşı yanırdı. Faytonu saxlatdırdıq. Əvvəlcə faytonçu

bizi götürmək istəmədi. Sonra məni səsimdən tanıdı. Bu həmin faytonçu idi ki, məni həmişə Maarif idarəsinə aparırdı. Mən filarmoniyanın işlərilə əlaqədar Maarif idarəsinin müdiri Əsgər Dibayanla danışmağa gedərdim. Faytonçu yol boyu məzəli əhvalatlar danışıb özü də gülərdi, məni də güldürərdi. Necə də gülməyəydik? Axı xoşbəxt günlərimiz idi!

Ancaq bu dəfə faytonçu risqə getdi. O bilirdi ki, yollar şübhəlidir, təhlükəlidir, bağlıdır. Buna baxmayaraq bizi faytona mindirib atları dördnala dediyimiz ünvana sürdü. Aşıq Hüseynin qapısını döydük. Qapını aşıq Hüseyn özü açdı. Bizi görüb heyrətləndi. Ancaq ikimizi də evə dəvət etdi. Yaqub dayı ona dedi ki, biz evə girməyəcəyik. Sən də get, evdəkilərlə görüşüb gəl! Şəhərdən çıxmalıyıq! Aşıq Hüseyn Yaqub dayının nə demək istədiyini başa düşüb evə qayıtdı. Biz beş-altı dəqiqə gözləməli olduq. O gəldi. Ancaq nə sazı, nə çemodanı, nə bağlaması vardı. Sən demə bağlaması dizində imiş! Evdə olan pullardan bir dəstəsini ehtiyat üçün şalvarının altında qıçına bağlayıbmış. Belə işlərdə Aşıq Hüseynin təcrübəsi var idi. Biz faytonu buraxmamışdıq. Yolda Yaqub dayı mənə dedi ki, bir nəfər Həmkarlar ittifaqının işçisi var, onu da götürmək lazımdır. Sonra birbaşa gedərik vağzala. Ağsaqqalın sözünə etiraz etmədik. Həyatın qəribə sirləri vardır. Bəzən yaxın adamlar da şad gündə bir-birini arayıb-axtarmağa tələsmir. Bəlkə heç yada da salmır. Axı yada salmağa ehtiyac da olmur. Eşidənlər, bilənlər dəvətsiz də bu şad gündə iştirak etmək üçün özləri gəlirlər. Şad gün isə öz



şaqraq nəğmələrini oxuya-oxuya təntənələr qoynunda qürurla addımlayıb keçir... Ancaq elə ki, bir bəd gün gəldi, onun lal, məyus, ağır siqlətinin altına vermək üçün güclü, dözümlü, etibarlı çiyinlər lazım olur! Bax, bu zaman adamlar iki göz də başqalarından borc alıb dörd gözlə ətrafa boylanıb uzaq adamları da köməyə çağırırlar. Həm də bu köməyin vacibliyini dərindən dərk edirlər!

Sinoptiklər təbiətdə sabah havanın necə olacağını təqribən müəyyən etsələr də, cəmiyyətdə bir saat sonra hansı hadisənin baş verə biləcəyini qabaqcadan deyəcək bir mütəxəssis hələ yoxdur. Elm də, texnika da, sənət də belə həssaslığa malik deyil. Belə hadisələrin taleyi yalnız siyasət ümmanında döyüşən dalğaların ləngərli istiqamətindən asılı olur...

Biz o yoldaşı da özümüzlə götürdük. Faytonumuz Təbrizin ulduzsuz göyləri altındakı zülmət dolu küçələrlə vağzala doğru irəlilədi. Şahə qalxan atların qaranlıqda qızara-qızara açıla qalmış ağızları şölə çəkən ocaqlara bənzəyirdi. Bu ocaqlardan ətrafa ümid qığılcımları saçılırdı. Vağzala çatıb stansiya rəisinin kabinetinə daxil olduq. O bizə dedi ki, Culfaya gedən qatar hələ hərəkət etməyəcək. Göstəriş verilməyib. Gözləmək lazımdır. Biz gözləmə otağına gəldik. Otaqda heç kim yox idi. Paltolarımızı çıxarıb çarpayıların başına atdıq. Özümüz elə kostyumla çarpayıda uzandıq. Gözlədik. Gözləmə otağı bizim üçün intizar dolu yuvaya çevrildi. Qaranlıq otaqda gözləməkdən gözlərimizin kökü saraldı.

Lakin narahat gecənin qoynunda çalxanan Təbrizin uğultuları gözləmə otağının pəncərələrini də döydü. Biz içəridə işıqları söndürdük ki, eşikdən baxanların gözlərinə görünməyək. Lakin otağın ətrafında naməlum adamların vurnuxduğunu açıq-aşkar görürdük. Kim bilir, bəlkə də onlar bizi tanımışdılar. Eşiyin qaranlığı nə qədər tünd olsa da bu adamların zülmət heykəllərinə bənzəyən siluetləri daha qatı idi. Ona görə də kölgələri qaranlıqdan seçə bilirdik...

Sanki qaynar qazana dönən Təbrizin hələ altında yanan, lakin üstündə alovu görünməyən ocaqdan bir od sıçrayıb vağzala düşmüşdü. Vağzal da qaynamağa başlamışdı. Sanki böyük bir qazanın yanında kiçik bir qazan da qaynayırdı. Biz də narahat idik, bizi izləyən adamlar da. Növbə ilə neçə dəfə stansiya rəisinin yanına getdik. Lakin qatarın yola düşəcəyi barədə müsbət bir rəy almayıb geri qayıtdıq.

Gecə öz qədim, qara, nəhəng pərdəsini yer üzərindən götürürdü. Həm köhnə, həm təzə sirlər yavaş-yavaş üzə çıxırdı. Pəncərəmizə qonan ilk işıq parçaları havada yellənən ağ yaylıqlara bənzəyirdi. Sanki onlar bizi yola salmağa tələsirdi. Bəli! Daha bu gözləmə otağında qalmaq bizə yaramazdı. Gözləmə otağında nə desən gözləmək olardı. Biz gözləmə otağından çıxıb hansı bir gözləmə səhnəsindəsə gəlişimizi gözləyən dəhşətli hadisələrin qoynuna doğru cəsarətlə addımlamağa başladıq...



## TƏLATÜMLÜ SƏHƏR

*Səhər var, nə gəlişi,*
*Nə gedişi duyulur.*
*Səhər var, fırtınası*
*Üfüq-üfüq yayılır...*

Dan yeri sökülürdü. Təbrizin cəlalı da sökülüb dağılırdı. Təbiətə növbəti bir səhər gəlirdi. Şəhərin həyatında da başqa bir günün səhəri başlayırdı! Mübarizələrlə dolu sınaq, dözüm, inam günlərinin başlanğıcı olan bir günün səhəri! Təbrizdə gurlayan güllələrin səsindən diksinən yarıyuxulu Günəş qədim yatağından hərasan qalxaraq narahat şəhərə qorxa-qorxa boylanırdı. Birdən o yerində elə allandı ki, tünd, ılıq, seyrək qızartıları soyuq üfüqlərin mavi ətəklərinə səpələndi. Sanki Təbrizdə açılan qəfil güllələr Günəşin odlu sinəsini yaralamışdı. Bu görkəmdə o qana batmış iri arı şanına bənzəyirdi. Qanlı şirəsi üfüqlərdən axıb şəhərin küçələrində gedən döyüşlərdə yaralanan fədailərin qanına qarışırdı. Sanki ağ saçlı Səhəndin zirvəsində ala-tala səpələnmiş şəfəqlər bir inqilab bahadırının başı üstə yaralanmış döyüş bayrağından qopub düşən parçalardı. Dönüb şəhərə baxdım. Yaraşıqlı bir imarət yanırdı. Geniş pəncərələrindən çıxan alovlar nəhəng bir qayanın daş gözlərindən çağlayıb ətrafa səpələnən çəhrayı şəlaləyə bənzəyirdi. Yox! O, soyuq şəlalə deyildi, yanan binanın odlu göz yaşları idi. Bu göz yaşları damcı-damcı mənim tufanlı ürəyimə tökülüb yenidən dalğa-dalğa alovlara çevrilirdi...

Ağır fikirlər yükü altında şimala doğru yeridik. Doğrusu, yoldaşlarımı bilmirəm, mən isə Təbrizin bu tərəfinə bələd deyildim. Ancaq həm tarixdən öyrənmiş, həm də yaşlı adamlardan eşitmişdim ki, buralarda yaşayanlar şamqazanlılar, qaraməliklilər, nə bilim daha kimlər, hətta Səttarxanın məğrur səsi düşmən səngərlərini lərzəyə salanda bu bir üzlü ikiüzlülər əksinqilab tərəfinə keçib inqilaba xəyanət etmişlər. Birdən özümüzü bir dəstə qaragüruhçunun mühasirəsində gördük. Dəstənin başçısı orta yaşlı, qarayanız, arıq bir adam idi. Sarı ingilis parçasından qolları dirsəkdən olan köynək, balaqları dizdən yuxarı olan şalvar geymişdi. Mən bu dəhşətli adamın azərbaycanlı olub-olmadığını qarışıqlıqda müəyyənləşdirə bilmədim. Ancaq o Azərbaycan dilində səlis danışırdı. Təşəxxüsü, qəzəbi, iddiası özündən çox-çox böyük idi. O bizdən intiqam almaq üçün müxtəlif bəhanələr uydururdu. Guya fədailər inqilab zamanı bu cənabın iki qardaşını Urmiyədə tank altında xurd-xəşil etmişlər, özü isə vətənindən didərgin düşmüşdür. Lakin bu muzdlu xain öz uydurmalarını qara dodaqlarının kömür dəyirmanında üyüdüb tökərkən şüşə gözlərinə cəsarətlə dikilən iti gözlərimizə dik baxa bilmirdi. Çünki bu vətənsizin soyuq baxışlarından yağan böhtan dolusu bizim həqiqət günəşli baxışlarımızın hərarətindən əriyib havada buxarlanırdı. Axı o özü inqilab günlərində neçə vətənpərvər insanı günahı olmaya-olmaya şikəst edərək Vətənin ədalətli intiqam hökmündən qorxub Tehrana qaçmışdı. İndi isə köhnə ədavətlə Vətənə qayıdıb qanlı çəkmələri ilə doğma torpağın hələ qaysaqlanmamış isti yaralarını təzədən



həyasızcasına tapdalayırdı. Dəstənin üzvləri bizi soyundurmağa başladılar. Əvvəlcə silahlarımızı aldılar. Sən demə, döyüşdə tərk-silah olmaq həm əməlini, həm də arzunu öz əllərinlə düşmənə təslim etmək deməkmiş!

Mən bu mənzərənin şahidi oldum. Necə yəni şahidi oldum? Məgər tərk-silah olunan elə mən özüm deyildimmi? Əlbəttə özüm idim. Mənasını çox sonralar dərk edən də mən özüməm. Peşiman olan da mən özüməm. Mənim papağımı, paltomu, şərfimi, əlcəklərimi, pencəyimi apardılar. Aşıq Hüseynin paltarlarını soyundurarkən evdən götürdüyü böyük məbləğdə əskinas bağlamasını dizindən tapıb öz ciblərinə qoydular. Yaqub dayının paltosunu, pencəyini, papağını apardılar. Lakin qarətçilər işlərini tamam qurtarıb başa çatdırmamış aralarında bir qulaqbatırıcı uğultu başladı. Bu quldurların talan olunmuş şeylərin bölüşdürülməsindəki narazılıqlarının əks-sədası idi. Bu tamah döyüşünün səhnəsini görüb pərakəndəlikdən təşvişə düşən dəstəbaşı şeylərin öz sahiblərinə qaytarılmasını əmr etdi. Silahlarımızı da alan qaragüruhçular yalnız paltarlarımızı bizə qaytardılar. Ancaq iş-işdən keçmişdi. Qarətçilər paltarların da bir çoxunu aradan çıxartmışdılar. Mənim papağımı, əlcəklərimi, qeyd dəftərçəmi, qələmimi, cib bıçağımı aparmışdılar. Yaqub dayının papağını, pencəyini, paltosunu qaytarmadılar. Aşıq Hüseynin papağını, şərfini, pulunu gizlətmişdilər. Biz çirkab dənizində qərq olmaq təhlükəsinə uğrayan yelkənsiz qayıqlara bənzəyirdik...

Mən birdən yan tərəfə çevrilib baxanda gördüm ki, çiynində bel tutmuş nurani bir kişi bizə sarı gəlir. Bu haradasa zəmi suvarmağa gedən zəhmətkeş bir kəndli

idi. O, iri addımlarla tələsik bizə yaxınlaşdı. Mən bu zaman dəstə başçısı ilə üz-üzə dayanmışdım. Həm də paltosuz, pencəksiz, papaqsız... Əynimdə nazik yun köynək var idi. Bu Kəkliyin öz əlləriylə toxuyub mənə hədiyyə verdiyi yun köynək idi. Sanki qənirsiz bir gözəl bu köynəyi adi saplardan deyil, sevgi dolu ürəyinin telləri ilə toxumuşdu. Mən isə bu ürəyin sevgisini cavabsız qoymuşdum. Axı arada Naxış vardı... Görəsən Kəklik indi məni bu vəziyyətdə görsəydi neylərdi? Yəqin təəccüblənərdi. Yox! Kəklik aslana dönüb mənim uğrumda döyüşə atılardı. Bu qara-zırtıq dəstəbaşını mənə isti köynək toxuyan ağ əlləriylə parçalayardı. Bəli! Qəzəblə parçalayardı. Mən o qədər həyəcanlı idim ki, nə əynimin nazikliyini, nə də səhərin ayazını duya bilirdim. Əksinə, yanıqlı ürəyimin alovu həm içəridən özümü yandırır, həm də gözlərimdən dəstəbaşının soyuq gözlərinə atəş açırdı.

Kəndli gəlib ikimizin arasında dayandı. Beli çiynindən yerə qoyub dəstəsinə söykəndi. Sonra üzünü dəstəbaşına tutub dedi: – Mən ağsaqqal kişiyəm. Saç-saqqalımı xeyirxahlıqda ağartmışam. Hələ mərifətli insanlar arasında sözümün yerə düşdüyü yadıma gəlmir. Bu cavan oğlanı mənə bağışla. O birilərini deyə bilmərəm, ancaq bunun heç bir günahı olmadığına tamamilə əminəm. Axı adamın başının üstə Allah var. Bu oğlan səhər buludu qədər kövrək, səhər mehi qədər təmiz, səhər rayihəsi qədər təravətlidir! Burax getsin! Nə görmüsən bunda? Hayıfın gəlsin buna! Qorxutma bunu!..

Qızarmış gözləri hədəqəsindən çıxmış dəstəbaşının qara dodaqları aralandı. Sanki al qığılcımlar saçmağa



başladı. O təşəxxüslə mənə: – Hə, qorxursan? Törətdiyin cinayətlər üçün qorxursan? – dedi.



Mən həyəcanlı olsam da meydanı boş görüb qürrələnən hərifə təmkinlə: – Xeyr! Qorxmuram! Sən nəsən ki, səndən qorxum? Biz törətdiyimiz "cinayətlər"i yalnız ədalət naminə etmişik! Əzilənlərin əzənlər üzərində qələbəsi xatirinə etmişik. Vətənin təmiz yaxasını nankor övladların murdar əllərindən qurtarmaq niyyətilə etmişik! Məni qorxudan bir duyğu varsa, o da bizim son sözümüzü ağı-qaradan seçə bilən insanlar arasında demədən səsimizin sizin əsl cinayətkar əllərinizdə boğula bilməsidir – dedim. O, döşündəki avtomatın lüləsini düz mənim döşümə tuşlayıb barmağını tətiyə basanda mən sağ əlimlə avtomatın üstündən güclü bir zərbə endirdim. Avtomatın lüləsinin yerə dirənməsilə açılması bir oldu. Sürəkli atəş nəinki toz-torpağı, hətta daş-çınqılı da yerdən qaldırıb başımıza sovurdu. Biz boğanaq içində itdik. Sanki göydən təpəmizə daş-çınqıl de-

yil, qırma ələnirdi. Bu, qəddar düşmən nişançısının bir illik ədavətindən yoğrulub avtomat darağına doldurulmuş zəhərli güllələrin kəmfürsət atəşi idi. Başımızın üstdə halqalanıb dayanmış boz çətir odlu nəfəsimizlə parçalandı. Sonra yavaş-yavaş dağıldı.

Biz yenə bir-birimizi gördük. Yenə qəzəblə tutulub-qaralan sifətlər, yenə kinlə alışıb-yanan gözlər, yenə bir-birinə dikilmiş nifrət dolu baxışlar! Birdən mənimlə dəstəbaşı arasında döşü avtomatlı bir gənc peyda oldu. O, qayğılı gözlərini dəstəbaşının acıqlı gözlərinə dikib: – Əşi, sən nahaq yerə əsəbiləşirsən, sənin hələ o qədər görüləsi işlərin var ki... Özünü nahaq indidən yorub əldən salırsan. Bu oğlan ki, belə döşünə döyür, qoy onu yoldaşları ilə bərabər aparıb özümüzünkülərə təhvil verim. Sən də öz işində ol – dedi. Bu gənc, dəstəbaşının adamlarındandı. Dəstəbaşı öz adamlarının içində etibar qazanmaq xatirinə bu gəncin sözünü sındırmayaraq təşəxxüslə: – Yaxşı, apar! – dedi. Həmin gənc bizi avtomatın qabağına qataraq dəstədən ayırdı. Mən özümə qaytarılmış paltarlarımı geyindim. Dəstə öz başçısı ilə sağ tərəfə, biz isə sol tərəfə getdik. Yaxında bir yük maşını dayanmışdı. Sükan arxasında narahat oturan sürücü sanki fərman gözləyirdi. Arxamızca gələn gənc bizi maşının kuzasına mindirdi. Özü də avtomatını döşünə bərk-bərk sıxaraq bizdən bir az gendə əyləşdi. Maşının kuzasında astarları bozaran yorğanlar, yunları çıxan döşəklər, tükləri ətrafa səpələnən yastıqlar üst-üstə yığılmışdı. Burda sınıq qab-qacaqlar, cırıq süfrələr, hətta para qədəhlər də vardı. Axı bu axşam, yəni Azər ayının 21-ci axşamı (dekabr ayının 12-ci axşamı) bayram axşamı olacaqdı. Bu axşam azadlıq da bir yaşa dolacaqdı. Bu azadlığın şirin bəhrələrini dadan insanlar bu axşam öz evlərində açacaqları vətən nemətləri ilə dolu halal süfrə başında kövrək qədəmli səadət bayramının bir yaşını minnətdarlıqla, təntənəylə, ləyaqətlə qeyd edəcəkdilər. Ürəkləri fərəhlə dolu insanlar bu axşam günəşli səhərlər carçısı doğma inqilabın şərəfinə badə qaldıracaqdılar. Ömründə bir dəfə mey dadmayanlar da əziz bayramın xatirinə heç olmasa bir qədəh şərab içəcəkdilər. Bu bayrama öz məhrəm ürək sözlərini deyəcəkdilər. Səmimi təşəkkürlərini bildirəcəkdilər. Böyük arzularını çatdıracaqdılar!



Lakin çox təəssüf ki, bu səadət həsrətli insanların düşüncələri də, tədbirləri də, malları da, canları da, arzuları da talan olmuşdu. Maşındakı pərakəndə şeylər də talan edilmiş mallardandı...

Yox! Belə demək qətiyyən düz deyil. Bu cansız əşyalar gözgörəsi oğurlanmış bugünkü nəhəng əməllərin, sabahkı sonsuz arzuların yalnız cüzi bir hissəsi idi. Necə deyərlər, bir ümmandan qamarlanıb ovuclanmış bir neçə qətrə idi...

Maşın hadisə yerindən xeyli uzaqlaşdıqdan sonra naməlum gənc qoşa yumruğuyla banı döyəclədi. Maşın torpaq yolda silkələnib dayandı. Keşikçimiz arxayın-arxayın bizi maşından düşürtdü. Özü də yerə endi. O, kədərlə dolu qayğıkeş gözlərini bizim yuxusuzluqdan qızarmış intizarlı gözlərimizə dikib: – Siz məni tanımırsız. Mən isə sizi yaxşı tanıyıram. Siz çox görkəmli adamlarsınız. Mən də firqə üzvüyəm. Gərəkli adamlara gərək olmaq üçün bu havalanmış qaragüruhçulara qoşulub köplərini yatırmaq istəyirəm. Bəlkə cinayətkar

əllərindən çıxan xətaların sayı bir qədər az olsun. Kim olduğumu sizə bildirməyim vacib deyildir. Vaxt gələr, kim olduğumu bilərsiniz. Bir məsələni isə deməyim zəruridir. Gündüzlər gizlənib, yalnız gecələr yol getməlisiniz. Yoxsa təzədən ələ keçə bilərsiniz – dedi. Sonra o, yol ayrıcında avtomatını başı üzərinə qaldırıb vida işarəsilə silkələdi. Zorla aralanmış barlı dodaqlarında xəfif bir təbəssüm işartısı parlayıb söndü. Maşın geriyə dönüb sürətlə bizdən uzaqlaşdı...

Daha islanmışın yağışdan nə qorxusu? – deyə biz də öz yerimizdə xeyli fikirləşib, təzədən geriyə döndük. Birbaş vağzala qayıtdıq. Nə ola-ola...

## ƏLVİDA, TƏBRİZ

*Əlvida, doğma Təbriz,*
*Qol salmıram boynuna.*
*Hara getsəm, yenə də*
*Gələcəyəm qoynuna!*

Qatara mindik. Daha heç nədən çəkinmirdik. Nə təzədən tutulacağımızdan, nə həbs ediləcəyimizdən, nə də dardan asılacağımızdan... Sanki ölümlə əlbəyaxa çarpışa-çarpışa o dünyaya getmiş, ölümün özünü o dünyada öldürüb yerə gömmüş, özümüz isə sağ-salamat bu dünyaya qayıtmışdıq. Sən demə, qəfil gələn fəlakət özünü müdafiəyə qalxan adi insanı qəhrəmana da çevirə bilərmiş. Biz yorğun olsaq da, yuxusuz gözlərimizin acısını, taqətsiz qıçlarımızın ağrısını, dözümsüz ürəyimizin sızıltısını qovub, qatarın buz bağlamış pəncərələrindən mehriban sinəsi dilim-dilim yanan ana Təbrizə



baxa-baxa düşünürdük: – Köməksiz şəhərə qayıdıb düşmənlərlə yenidən azadlıq uğrunda döyüşə girəkmi, yoxsa sevdiyin diyarın, daşıdığın əqidənin, mənsub olduğun xalqın sabah qələbə çalması naminə arxalı düşmənin od-alov yağdırdığı səngəri müvəqqəti tərk edəkmi? Əlbəttə, hər hansı döyüşdə qüvvələr nisbətini nəzərə almamaq özü də ən böyük ehtiyatsızlıqdır. Axı, ehtiyatsızlıqla havayı qurban getməkdənsə, sabahın düşünülmüş qələbə ümidilə yaşamaq məqsədə daha uyğundur!

Lakin qatar yerindən tərpənmək bilmirdi. Mən qatarın pəncərəsindən bir də vağzala tərəf baxanda gördüm ki, bir maşın stansiyada dövrə vuraraq gəlib rəisin kabineti qarşısında dayandı. Bu maşın Təbrizdəki Sovet konsulxanasının idi. Maşının qapısı açıldı. Bəstəkar Hacı Xanməmmədov maşından düşdü. Mən o biri yoldaşlarımı da çağırıb Hacı Xanməmmədovu göstərdim. Lakin Hacı Xanməmmədov çemodanlarını bir yerə qoyub qaynaşan arı pətəyinə bənzəyən vağzalda o tərəf-bu tərəfə gedib gəlirdi. Gah əllərini ölçə-ölçə adamlarla danışır, gah da dönüb polad relslərə mıxlanmış vaqonlara baxırdı. O, stansiyada xeyli ləngidi. Sonra biz mindiyimiz vaqona mindi. Bizi isə yalnız çemodanlarını vaqonda yerə qoyduqdan sonra gördü. Doğrusu, bu görüşdə o da, biz də sevincdən çox kədər duyduq. Axı, gör harda, necə görüşürdük? Cəmi bir neçə ay bundan qabaq Gülüstan bağındakı görüşümüzdə nə qədər şad idiksə, indi bir o qədər, bəlkə daha da artıq məyus idik. Axı, biz dünənə qədər Hacı Xanməmmədovla birlikdə Təbrizdə Azərbaycan Dövlət Filarmoniyasının daha gözəl sabahı haqda düşünürdük. Xəyalımızda təzə musiqilər bəstələnir, nəğ-

mə mətnləri yazılır, rəqslər hazırlanırdı. Bir sözlə, böyük, əlvan, zəngin bir proqram tutulurdu... Hacı Xanməmmədov bizə təsəlli verib dedi ki, heç narahat olmayın, qatar yola düşməlidir, adamlar xilas olunmalıdır. Sonra bəstəkar başına gələn əhvalatı danışmağa başladı...

Küçədə atılan güllələr Hacı Xanməmmədovun yataq otağındakı toranlığı da parçalayır. O, atəş səslərindən diksinib oyanır. Əvvəlcə bəstəkara elə gəlir ki, kimlərsə küçədə dava salıb asayişi pozmuşlar. Güllə atanlar da müqəssirləri nizam-intizama çağıran gecə patrullarıdır. Lakin atəşin odlu dairəsinin get-gedə genişlənib başqa küçələrdə də əks-səda verdiyini duyanda məsələnin nə yerdə olduğunu başa düşür. Bilir ki, bu atışma adi atışmalardan deyil, küçə döyüşlərinə bənzəyir. Hacı Xanməmmədov cəld yerindən sıçrayıb eyvana atılır. Yuxulu gözlərilə küçəyə baxır. Təsəvvüründə yanılmadığını görür. Görür ki, küçədə demokrat firqəsinin üzvləri, milli qoşunun döyüşçüləri, xalq fədailəri məqam gözləyən qisasçıların, xain ünsürlərin, qaragüruhçuların tufanlı dalğalarını alovlu nəfəslərilə yatırmağa çalışırlar. Silahlı qiyamçılar isə əks-hücuma keçirlər. Küçə döyüşlərində atılan tək-tək güllələr getdikcə qızışıb şəhəri alovlandırır. Hacı Xanməmmədov risk edərək tez geyinib küçəyə çıxır. O, döyüş dalğalarının odlu-alovlu qoynunda məharətlə üzə-üzə irəliləyir.

Sovet konsulxanasında Hacı Xanməmmədova məsləhət görürlər ki, Bakıya qayıtsın. O, konsulxananın maşını ilə mənzilinə gəlir. Çemodanlarını götürüb maşına əyləşir. Maşın döyüş dalğalarını yara-yara, nə-



hayət, vağzala çata bilir. Hacı Xanməmmədov vağzal rəisindən stansiyada dayanan qatarın tezliklə Culfaya yola düşməsini qətiyyətlə tələb edir. Mühafizəkar rəis acizliyindənmi, qorxusundanmı, ədasındanmı qəti bir söz demir. Qatarın maşinisti isə vəziyyəti qarışıq görüb aradan çıxır. Qatarın yola düşməsi qəsdən ləngidiləndə Hacının minib gəldiyi maşının sürücüsü vağzaldan konsulxanaya zəng edib əhvalatı bildirir. Konsulxanadan sürücüyə deyirlər ki, vağzalda qalmayın. Qayıdın şəhərə. Görək sonra neynəyirik? Sürücü konsulxananın fikrini Hacı Xanməmmədova deyir. Hacı Xanməmmədov bu fikri qətiyyətlə rədd edir. Deyir tutalım mən şəhərə qayıtdım. Konsulxanada təhlükəsizliyim təmin olundu. Bəs qatardakı yüzlərlə adamın taleyi necə olsun? Yox! Qatar mütləq Culfaya yola düşməlidir.

Sonra bəstəkarın ağlına gəlir ki, mütləq parovoz sürməyi bacaran bir adam tapmaq lazımdır. Ancaq bu sürücü inanılmış adam olmalıdır. Hacı Xanməmmədov öz fikrini ətrafındakı xeyirxah vağzal xidmətçilərinə bildirir. Dərhal haradansa belə bir adam tapıb gətirirlər. Bəstəkar parovozun dartma qüvvəsini artırmaq məqsədilə sıxlıq yaransa belə, adamları ilk 4 vaqona yerləşdirir. Göz işlədikcə uzanan qatarın qabaqdakı dörd vaqonunu daldakı vaqonlardan açdırır. Fəqət bu təcili əməliyyat zamanı bütün tədbirlər elə ustalıqla, elə dəqiqliklə görülür ki, arada bir dəqiqə də itmir. Qabaqda parovozu tüstülənən dörd vaqon daldakılardan ayrılıb Culfaya sarı hərəkət edir. Bu vaqonlar doğma torpağın yadlaşan qoynunda qatardan ayrılıb şimala doğru pərvazlanan durnalara bənzəyirdi. Bu durnalar ana Və-

tənin barıt qoxulu havasını uda-uda irəliləyirdi. Yol boyu nə töyşüyür, nə də nəfəs dərirdi. Bu durnaların yolu çətin, məsuliyyəti ağır, mənzili uzaq idi...

Biz kupedə yanaşı əyləşsək də dinib danışmırdıq. Sanki bir-birimizdən küsmüşdük. Sanki yerimizdə donmuşduq. Sanki üstümüzə su ələnmişdi. Lakin içərimizdə alov təlatümü vardı. Sanki Təbrizdə yanıb-sönən odlu güllələr yenidən bizim içərimizdə alışırdı. Mən bu yanğıya tab gətirə bilməyib ayağa qalxdım. Son dəfə qatarın pəncərəsindən Təbrizə doyunca baxıb vidalaşmaq istədim. Ancaq kupenin qapısını açıb dəhlizə çıxanda yerdə bir əsgərin sağ əlilə tüfəngini bərk-bərk sinəsinə sıxıb uzandığını gördüm. Bu gənc oğlanın mis rəngli sifəti, qara ulduzlara bənzəyən gözləri vardı. Cadar-cadar olmuş təşnə dodaqlarında damla-damla donub qalmış qan bürkülü aranda nazik qabıqları partlamış güleyşə narın qırmızı şirələrini andırırdı. Həyəcanlı sərnişinlər isə narahat halda əsgərin üstündən keçib gedirdilər. Mən mütəəssir oldum. Əyilib əsgərin toz-torpağa batmış qollarından yapışdım. Sonra tüfəngqarışıq ayağa qaldırıb kupenin qapısına söykədim. O özündə deyildi. Mən var gücümlə yorulub taqətdən düşmüş əsgəri silkələdim. Nəhayət, o, iri gözlərini açıb mənə baxdı. Mən məzəmmət dolu baxışlarımı onun süzgün gözlərinə dikib: – Sən axı əsgərsən, həm də səadət, qüdsiyyət, ülviyyət döyüşçüsü, niyə yerə sərələnibsən? Gəlib-gedən də səni ayaqlayır, bir özünü yığışdırsana! – dedim. O parçalanmış dodaqlarının qanını susuzluqdan yanan dililə yaladı. Sonra kinayəli gözlərinin dağınıq baxışlarını toplayıb mənə zillədi. Əsgər müdafiəyə



deyil, hücuma keçdi. O kinayəylə mənə: – Biz aylarla Qaflanguh dağlarında qaya boyda Amerika tanklarının qabağını yalnız yandırıcı mayelərlə doldurulmuş şüşələrlə saxlayırdıq. Sizdən də heç nə istəmirdik. Aclığa da, susuzluğa da, yuxusuzluğa da dözürdük. Yağışa da, küləyə də, qara da dözürdük. Təkcə bir şeyə dözə bilmədik – dedi. Mən maraqla: – Nəyə? – deyə soruşdum. Əsgər təəssüflə: – Ona dözə bilmədik ki, siz bunu da bizə çox görüb fərman verdiniz ki, sülh naminə silahı yerə qoyub geri çəkilək. Axı, biz orda, o tilsimli dağlarda qranit qayaları səngərə döndərib elə sülh naminə sinəmizi Vətən torpağına sipər etmişdik. Bəs axırı necə oldu? Belə əsgər nəinki yerə sərələnməli, lap yerə girməlidir – dedi. Sanki yatmışdım. Qulaqlarımda cingildəyən haqlı ittihamdan diksinib ayıldım. Bəli! İş tərsinə olmuşdu. Mən yorğunluqdan sustalmış əsgəri özünə gətirmək istədiyim halda o, məni özümə gətirmişdi. Mən susdum. Təəssüflə düşündüm ki, bu keçiddə uzanmış əsgər yerə sərələnmiş adi bir adam deyil, qələbə ilə məğlubiyyət, hücum ilə müdafiə, birliklə ayrılıq arasında canlı bir körpüdür...

Dəmir yolu boyu səpələnmiş tək-tək çiyni tüfəngli, əli bağlamalı, paltarı toz-torpaqlı yorğun əsgərlər haradasa, hansı tufandasa öz sarbanını itirmiş, ovsarını qırmış, nərindən ayrı düşmüş dağınıq bir dəvə karvanına oxşayırdı. Bu sərkərdəsiz əsgərlər Milli hökumətin sədaqətli, cəsarətli, dəyanətli döyüşçüləri idilər. Yol uzunu yanıqlı dodaqlarında dövranın uğursuz gərdişinə lənət oxuyan əsgərlər müdafiəsiz qalıb qəsbkar

düşmənlər tərəfindən yarılan başsız cəbhələrdən qayıtmışdılar. Dünya sülhünün məsləhətilə, Milli hökumətin məşvərətilə, ordu qərargahının səlahiyyətilə qayıtmışdılar. İndi isə güllə sürətilə polad relslər üzərində şütüyən qatarın hər iki yanında uzun, canlı, nəhəng bir zəncirin qırılıb şimala doğru hərəkət edən halqalarına oxşayırdılar... Lakin mahir, cəsur, sayıq maşinist bu halqaların birini də yerdə qoymayıb hamısını vaqonlara götürə-götürə düşmən təqibindən uzaqlaşırdı... Bu halqalar gələcəkdə ədalət məhkəməsində müqəssirlərin qollarını bağlamaqçın gərəkdi...

Mərənddə düşmənin qabaqcadan möhkəmləndirilmiş döyüş istehkamıyla qarşılaşdıq. Mayor Rza adlı bir vətən xaininin başçılığı ilə qaragüruhçular dəmir yolunun kənarlarında qaynaşırdılar. Pusquda dayanmış düşmənlər qatarı mühasirəyə alıb təslim etmək xəyalında idilər. Lakin qoçaq maşinist qarşıda necə böyük bir təhlükə durduğunu iti gözlərilə hələ uzaqdan görərək bütün hünərini, bacarığını, cürətini topladı. Qatar özünü şəstlə dəmir relslər üzərində ətdən hasar çəkən izdihama vurdu. Bu zaman qəzəbdən alışıb yanan maşinistin tüstüsü sanki parovozun təpəsindən qalxırdı. Parovoz sürətlə şütüyüb keçdi. Bəli! Fədakar maşinist bu kiçik qatarı böyük bir zərbə qılıncına çevirib dəmir istehkamı yardı. Arxadan açılan güllələr hədəfə çatmaqda heç daldan atılıb topuğa dəyən daşlar qədər də ola bilmədi. Bizdən sonra "Villis"* də gələn Milli hökumətin bir generalı Mərənddə həmin qaragüruhçuların mühasirəsinə düşmüşdü. Maşında generaldan başqa bir neçə avtomatlı fədai də varmış. General fədailərin köməyi ilə qaragüruhçularla atışa-atışa birtəhər mühasirəni yarıb Culfaya doğru irəliləyə bilmişdi. Bizi də igid maşinist mənzil başına sağ-salamat çatdırdı... Lakin bu naməlum insanpərvər adamın özü neçə-neçə insanın xilası naminə öz doğma ailəsinin yaşadığı mənzildən ayrı düşmüşdü...

*hərbi minik maşını



## SAHİLDƏN-SAHİLƏ

*Sahil var, tarix boyu*
*Həsrət qalır görüşə.*
*Sahil var, ayrılıqdan*
*Körpü salır görüşə...*

Bəzən sakit bir göl haradansa axıb sinəsinə tökülən sellərin təkanı ilə təlatümə gəlir. Culfa da belə bir gölə bənzəyirdi. Şəhər çaxnaşırdı. Yollarda gəlmələr sakinlərə qarışırdı. Kimi şeylərini dalına şələləyib, kimi malını, davarını qabağına qatıb, kimi əzizlərini yanına salıb doğma məskənini tərk etməyə tələsirdi. Başqa çarə yox idi. Dəhşətli fəlakət anbaan Culfaya yaxınlaşırdı. Bir yandan şəhərin üstə qaranlıq çökürdü. Sanki bu qaranlıq gələcək fəlakətin oğrun kölgəsi idi. Özündən qabaq gəlib çıxmışdı. Bir yandan da Arazın şaxtalı tiyəsi sazaqla suvarılmış, dəstəsi buzla naxışlanmış iti qılıncıyla hücuma keçirdi. Sanki gözlənilən fəlakəti sınanmış cəsarətlə qarşılayırdı...

Hacı Xanməmmədov o taydakı Culfadan bu taydakı Culfaya zəng etdi. Generalla danışdı. Qatarla Təbrizdən Culfaya yüzlərlə adam gəldiyini dedi. Onların taleylərinin necə olacağını soruşdu. General Hacı Xanməmmədova dedi ki, biz Moskva ilə danışacağıq, sərhədlər açılacaq. O taydan bu taya keçmək istəyən adamlar heç bir maneəylə qarşılaşmayacaq. Generalın bu qəti sözlərindən sonra Hacı Xanməmmədov dərindən nəfəs alıb nisbətən rahatlandı.

Biz Araz üstdəki dəmir körpünün üstündə dayanmışdıq. İntizarla bu taya baxırdıq. Mən əllərimlə körpünün qapısının dəmir şəbəkələrindən tutub əynində gödək, isti kürk, döşündə zağlı avtomat, başında qulaqlı papaq olan sovet sərhədçisiylə danışırdım. Sərhədçi rus idi. Biz rus dilində söhbət edirdik. O bizə ürək-dirək verirdi. Mən onun dediklərini yanımda cavaba müntəzir dayanmış yoldaşlarıma tərcümə edirdim. Sərhədçi mənə dedi ki, narahat olmayın, bu saat başçılarımız Moskva ilə danışır. İcazə verilən tək qapıları açacağıq...

Araz sırsıralar arasından başını qaldırıb buz nəfəsilə altdan-yuxarı aramsız ayaz-şaxta püskürürdü. Biz isə ayaz-şaxta təlatümündə donurduq. Səbrimiz də donurdu. Donduqca da daralırdı. Mən Yaqub dayının xəstələnəcəyindən təşvişə düşüb əynimdəki qalın paltomu çıxarıb ona verdim. Özüm isə başaçıq, nazik kostyumda qaldım... Bir qədər də gözlədik. Nəhayət, sərhədçi dəmir qapıları açdı. Biz Arazın o tayından bu tayına adladıq. O sahildən bu sahilə keçdik. Ancaq bu son sahil deyildi. Bu sahildən yeni bir ümman başlanırdı. Bəli!



Ümman! Özü də dağ boyda dalğaları mübarizə nəğmələri oxuyan bir ümman!

Naxçıvanda o taydan gələn adamları yerləşdirmək üçün boş otaqlar çatışmadığına görə idarələr, müəssisələr, məktəblər, klublar, kitabxanalar boşaldılmışdı. Mən də bizim üçün ayrılmış məktəb otaqlarından birində gecələyirdim. Ancaq ətrafımda yorğunluqdan yerə sərələnən, yuxusuzluqdan gözləri axan, ağrıdan ürəyində ufuldayan insanlar içində özümü çox narahat hiss edirdim. Halbuki bu insanlar cərgəsində Təbrizdəki Azərbaycan Dövlət Filarmoniyasının işçilərindən də vardı. Sanki doğma insanlar arasında da darıxırdım. Ətrafımdakıları ayağa qaldırıb döyüşən Vətənə qaytarmaq istəyirdim. Deyirlər ki, guya yara isti olanda ağrısı çox duyulmur. Mən isə yaramın ağrısını elə isti-isti də duyurdum. Sanki isti ürəyimə dammışdı ki, indi isti yarama dəyən Vətənin isti nəfəsi zaman keçdikcə soyuyub məndən uzaqlaşacaqdır. Elə uzaqlaşacaqdır ki, mən isti qollarımı yer kürəsinin sonsuz qurşağına dolandırsam da, yenə də Vətənin boynuna çatmayacaqdır. Ona görə də isti yaramla isti nəfəsli Vətənə qayıdıb dəmiri isti-isti döymək xəyalında idim. Təəssüf ki, bu mümkün deyildi. Adətən inqilab əsgərlərinin silahı bir olur. Yaraq! İstər odlu olsun, istər odsuz. Ancaq xoşbəxtlikdən inqilab şairinin silahı iki olur. Nişanlayan yaraq! Yazan qələm! Hər ikisi də odlu! İnqilab şairi yarağı yerə qoyanda qələmdən yapışır. Mən də daha qələmdən yapışıb bu tayda ilk şeirimi yazmaq istədim. Əlimi cibimə saldım ki, qələmimi çıxardım. Qızıl zəncirli saatım əli-

mə dəydi. Saatı cibimdən çıxartdım. Çıraq işığına tutub ovcumda baxdım. Bəli! Yanılmamışdım. Bu qızıl zəncirli saat mənim idi. Qızıl zəncirini Naxışla birlikdə almışdım. Öz maaşımla! Qəribədir! Bəs niyə qaragüruhçular bu qızıl zəncirli saatı mənim pencəyimin cibində görməmişdilər? (Qaragüruhçular bizi mühasirəyə alanda gözə dəyməsin deyə qızıl zəncirli saatı qolumdan açıb pencəyimin cibinə qoymuşdum). Bəlkə möcüzə baş vermişdi? Bəlkə halal əməyimin parıltısı qaragüruhçuların gözlərini qamaşdırmışdı ki, bu qiymətli şeyi görə bilməsinlər? Bəlkə Naxışın qəzəbli baxışları şimşəyə dönüb bir görüşün yadigarı olan bu əziz zəncirə uzanan əlləri yandırmışdı? Bəlkə... Bəlkə... Birdən mənə elə gəldi ki, ovcumdakı qızıl zəncirli saat deyil. Naxışın əksidir. Qızın yanaqları saralmışdır. Şikayətlə dolu gözlərilə mənə baxır. Solğun dodaqları titrəyə-titrəyə mənə: – Siz hara getdiniz? Niyə getdiniz? Bəs mən? Mən nə edim? – deyir.

Mən qızıl zəncirli saatı qoluma bağladım. Bu qızıl zəncir indi də mənim evimdədir. Bəli! O boyda Təbrizdən mənə yalnız o qızıl zəncir yadigar qalmışdır. O qızıl zəncir mənə Təbriz qədər doğma, Naxış qədər əzizdir! Əlimi yenidən cibimə salıb qələm axtardım. Qələmim yoxdu. Yadıma düşdü ki, o tayda qaragüruhçular başqa şeylərimlə birlikdə qələm-dəftərimi də aparıblar. Otaqda heç kəsdən qələm-kağız istəməyə üzüm gəlmədi. Düşündüm ki, mənim yersiz ilhama gəldiyimi zənn edib bu istəyimə istehza edənlər olar. Üzümə deməsələr də, ürəklərində deyərlər ki, sənin nə laqeyd,



soyuq, ərköyün ilhamın varmış? Xalq nə hayda, sən nə hayda? Mən şeiri qələmsiz-kağızsız xəyalımda yazmaq qərarına gəldim. Şeiri hardan başlayıb harda qurtaracağımı qət etdikdən sonra forması haqda düşündüm. Həm də çox düşündüm. Düşündüm ki, qələm yox, kağız yox, gərək şeiri elə "yazam" ki, həm yığcam, həm aydın, həm də dolğun olsun. Düşündüm ki, aşıq poeziyasının dillər əzbəri olan nümunələrinin qoşma formasında yaranması təsadüfi deyildir. Qoşmada söz də, musiqi də, nəqarət də var! Bəli! Qoşmanın hər bəndinin sonundakı misra öz rədifli qiyafəsilə şaqraq bir nəqarətdir! Sanki bu nəqarət öz gümrah nəfəsilə sənət yolunda aşığın arzusunun qızılgül topası tək açılmasına, pardaxlanmasına, şəfəqlənməsinə kömək edir...

Şair Vətən kəlməsini yazdığı şeirlərin hamısında nəqarət tək təkrarlayır. Günəş də ilin bütün fəsillərinin nəğmələrində əbədi nəqarətdir. O, nəğmələri odlu məşəl tək isidir. Əlvan çələng tək bəzəyir. Ancaq Günəş zamanın bitib-tükənmyən axarında təkrar deyil, təkrir sayıldığı tək, şairin şeirlərindəki Vətən kəlməsi də qədim sənətdə təkrar deyil, təkrir adlanır. Yəni nəqarət! Nə isə... Mən də yanğılı sözlərimi nidalı nəqarətlə demək istədim. Adını ürəyimdə "Mən nə gətirdim" qoyduğum şeirimi otaqda var-gəl edə-edə xəyalımda qoşma formasında "yazmağa" başladım. Bu zaman narahat beynimdə qəribə proses gedirdi. Belə ki, mən əvvəl "yazdığım" misraları yadımdan çıxmasın deyə hafizəmdə möhkəmlədib, sonra dalını "yazırdım". Nəhayət, şeir belə tamamlandı:

## MƏN NƏ GƏTİRDİM

**Mən öz qardaşıma mehman gələndə**
**Bir qələm, bir dəftər, bir can gətirdim.**
**Dağların döşünü toplar dələndə**
**Bir ləkə düşməyən vicdan gətirdim.**

**Mən onu günəşdən təmiz saxladım,**
**Canımdan, gözümdən əziz saxladım,**
**Bu kiçik qəlbimdə dəniz saxladım,**
**Bir xilqət görmədi, pünhan gətirdim.**

**Ucuz tutmasınlar bu sovqatımı,**
**Hissimi, duyğumu, ehsasatımı,**
**Mən öz varlığımı, öz həyatımı**
**Doğma qardaşıma qurban gətirdim.**

**Ürək dağ deyildir, bir parça ətdir,**
**Bəs onu yaşadan hansı qüdrətdir?**
**Bir arzu, bir ümid, bir məhəbbətdir,**
**Mən o məhəbbətdən nişan gətirdim.**

**Qardaşım! İllərlə istədin ki, sən,**
**Öz ana yurdumda azad olum mən...**
**Lakin çəlalımı dağıtdı düşmən,**
**Tək sənə, tək sənə güman gətirdim.**

**Yenə Azərbaycan qan ağlayır, qan,**
**O azad olmasa yaşamam, inan!**
**Gərək mən Təbrizə qayıdan zaman**
**Deyəm ki, təzə bir dövran gətirdim!**



Şeirin "yazılma" tarixini də xəyalımda qoydum: Naxçıvan, 12 dekabr, gecə, 1946-cı il.

Sən demə, mən o zaman bu şeiri "yazanda" bizim vəziyyətimizi yoxlamaq üçün otağa girib-çıxan bu taylı vəzifəli adamlar da mənim nəsə düşünə-düşünə narahat gəzdiyimi görürmüşlər. Ancaq mənim kim olduğumu bilmirmişlər. Sonralar öyrənibmişlər.

Təkrar edirəm ki, mən gələndə qələmsiz-dəftərsiz gəlmişdim. Şeirin ikinci misrasındakı qələm-dəftəri də xəyalımda yaratmışdım. Ancaq qələmsiz-dəftərsiz yaranan bu şeir mənim yaradıcılığımda yeni bir səhifə oldu. Gələcəkdə həm inqilab, həm də sənət yolundakı mübariz, gərgin, uzun fəaliyyətimdə həyat məramnaməm yazılmış bir səhifə! Təvazökarlıqdan uzaq olsa da yeri gəlmişkən deyim ki, bu şeir çap olunandan sonra az bir zaman içərisində minlərlə oxucunun dərin məhəbbətini qazana bildi. Sovet Azərbaycanında yaşayan qələm qardaşlarım bu həsrətlə dolu şeirə ümidlə dolu şeirlərlə cavab verdilər. Bu şeir cansız kağızlar üstə qalmadı. Toylara, nişanlara, ziyafətlərə getdi. Yox! Özü getmədi. Çağrılmamış yerə getməzlər. Onu özlərilə masabəyilər, natiqlər, müğənnilər apardılar. Bu şeir nişanlarda, toylarda, ziyafətlərdə ülfətə, nəğməyə, çağrışa çevrildi. Bu sənət məhəbbətindən mənim başqa şeirlərim qısqanmadı. Əksinə həmin şeir mənim digər şeirlərimin əziz, kövrək, yanıqlı müsahibi oldu...

Keşməkeşlərlə dolu illər keçdi. Yox! Sanki keçmədi, qanadlanıb uçdu. Tehran zindanından qaçıb Bakıya

pənah gətirən məslək yoldaşım Əli Aton mənə dedi ki, bu şeir Tehran zindanlarına sorğu-sualsız daxil oldu. Azadlığa inamları gözlərində ulduz-ulduz yanan mübariz dustaqları hörmətlə salamladı. Yanğı dolu dillərdə dalğa-dalğa çağladı... Ankaradan qayıdan şair Rəfiq Zəka mənə dedi ki, bu şeir Ankara məcəllələrinin səhifələrində minnətsiz-xahişsiz məskən saldı. Bakı məcəllələri bu haqda iftixarla yazdı. Bu şeir gedib Vaşinqtona çıxdı. Mənə "bu şeir o taydan bu taya keçən siyasi mühacirlərin şəxsiyyətlərinin məğrur himnidir" deyən əvvəl tələbəlik dostum, sonra məşhur ictimai-xadim olan Vəli Məmmədovun yolu 1970-ci illərdə Amerikaya düşdü. O, Amerikadan qayıdandan sonra bizə gəldi. Dedi ki, Sovet nümayəndə heyətinin tərkibində Amerikaya getmişdim. Bizi böyük bir məclisə dəvət etdilər. Məclisdə amerikalılarla yanaşı ordakı azərbaycanlılar da əyləşmişdilər. Biz həm amerikalıların, həm də azərbaycanlıların suallarına cavablar verirdik. Mən ayağa qalxıb Azərbaycana aid suallara cavablar vermək istəyəndə bir nəfər azərbaycanlı da ayağa qalxdı. Dedi mən Azərbaycan şairi Əli Tudənin "Mən nə gətirdim" adlı şeirini oxudum. Təəssüfdən, məhəbbətdən, ehtiramdan, yanğıdan, inamdan yoğrulmuş o şeir məni yaman sarsıtdı. O şeir yalnız bir şairin yox, bir xalqın, özü də ikiyə bölünmüş bir xalqın alovlu fəryadıdır. Siz Əli Tudəni tanıyırsınızmı? Dedim mən universitetdə beş il Əli Tudə ilə bir sinifdə oxumuşam. Əvvəl dost, sonra qardaş olmuşuq. O şeir isə dillər əzbəri olub.



Şeiri əzbərdən dedim. Ancaq arada bir misranı yadıma sala bilmədim. Bir an susub xəyalımda o misranı aradım... Həmin azərbaycanlı dərhal unutduğum misranı dedi. Mən də təkrar edib şeirin ardını söylədim. Məclisdəki azərbaycanlılar məni hərarətlə alqışlayanda amerikalılar da onlara qoşuldular. Sən demə, mənim dediyim misraların mənasını azərbaycanlılar yanlarında əyləşmiş amerikalılara tərcümə ediblərmiş. Şeiri söyləyib yerimdə əyləşdim. Ancaq məni alqışlayan hərarətli əllər hələ də havada qanad çala-çala – Vətən! – Vüsal! – Səadət! – deyə-deyə hayqıran qartal balalarını xatırladırdı...

## EPİLOQ

*Qəfildən doğulan həsrət sinədə*
*Nə qədər qalacaq? Bilməyir insan.*
*Qürbətdə qocalır... Ancaq yenə də*
*Görüş ümidiylə yaşayır, inan!*

Biz Təbrizdə Azərbaycan Dövlət Filarmoniyasını yaradanda dəmir intizamlı bir incəsənət ordusuyduq. Bu orduda hər kəsin öz gündəlik vəzifəsi vardı. Bütün vəzifələr bir məqsədə yönəlmişdi: insanlara canla-başla mədəni xidmət etmək! Xalqın fikirlərini təzələmək, duyğularını zənginləşdirmək, arzularını qanadlandırmaq! Təkcə siyasətdə, iqtisadiyyatda, maarifdə, ədliyyədə, səhiyyədə deyil, mədəniyyətdə də nələrə qadir olduğumuzu nümayiş etdirmək!

Əgər filarmoniya möhkəm bir sənət sarayı idisə, biz o sarayın tikintisində fədakarlıqla çalışan usta, şagird, fəhlə, dülgər, suvaqçı, rəngsaz idik. Biri o sarayın bünövrəsinə daş qoyanda, biri də palçıq gətirirdi. Biri divarına suvaq çəkəndə, biri də rəng vururdu. Biri pəncərə açanda, biri şüşə salırdı. Nəhayət, saray hazır oldu. Sevinclə, qürurla, əzəmətlə ucaldı. Öz qapılarını qədirbilən insanların üzünə taybatay açdı. Azad xalq bu sarayın ulduzlarla dolu geniş səhnəsində özünün yaratmış olduğu qədim, zəngin, əlvan mədəniyyət çələnglərinə dönə-dönə baxdı. Özü öz hünərinə, istedadına, zövqünə heyran qaldı. Lakin arxasını Amerika tanklarına söykəyən şah sərbazları qanlı sərnizələrilə bu sarayı uçurub dağıdaraq daşını daş üstə qoymadılar. O sarayı ucaldanların bəziləri zindana salındı, bəziləri sürgünə göndərildi, bəziləri Vətəndən didərgin düşdü. Mən vaxtı ilə məslək, döyüş, sənət dostlarımla birlikdə yaratdığım bu sevimli sənət ocağının unudulmaz hekayətini isə təkbaşına yazmalı oldum. Yazdım ki... Cəmi dörd ay yaşayan, dörd ay alovlanan bu sənət ocağının istisi-tüstüsü bugünkü nəslə çatsın, gələcək nəsillərə yadigar qalsın. Doğrudur, Təbrizdəki Azərbaycan Dövlət Filarmoniyasının hekayəti Milli hökumətin çoxsahəli fəaliyyətində Vətənimizin qədim, zəngin, əlvan həyat salnaməsinə həmişəlik daxil olmuşdur. Ömrün mənası uzunluğu-gödəkliyi ilə ölçülmür. Bələkdə boğulmuş Təbrizdəki Azərbaycan Dövlət Filarmoniya-



sının da ömrü Vətənin, xalqın, tarixin nəzərində dörd ayla ölçülməmiş, ölçülmür, ölçülməyəcək də! Dörd ay ərzində dörd qərinənin işinin gördüyü ilə xatırlanacaq! Mən də mədəniyyət tariximizin o səhifəsini oxucuların gözləri qarşısında tamam işıqlandırım deyə bu hekayəti yana-yana yazdım!..

***Bakı, 1982-1984.***

## KİTABIN İÇİNDƏKİLƏR


Əli Tudə . . . . . . . . . . . . . . . . . . . . . . . . . .5
**Proloq** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .9

Sərab yolunda . . . . . . . . . . . . . . . . . . . . . 11
Salam, Təbriz . . . . . . . . . . . . . . . . . . . . . . 21
Məhrəm məktub . . . . . . . . . . . . . . . . . . . . 39
“Şairlər məclisi” . . . . . . . . . . . . . . . . . . . 50
Sarı sim . . . . . . . . . . . . . . . . . . . . . . . . . 56
Məsuliyyət hissi . . . . . . . . . . . . . . . . . . . 68
İlhamlı məşqlər . . . . . . . . . . . . . . . . . . . . 74
İranda ilk dəfə . . . . . . . . . . . . . . . . . . . . 81
Əks-səda . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95
“Azərbaycan” qəzeti . . . . . . . . . . . . . . . . . 102
Oxşar zövqlər . . . . . . . . . . . . . . . . . . . . . 111
Uzanan yol . . . . . . . . . . . . . . . . . . . . . . . 122
Sənətkar nüfuzu . . . . . . . . . . . . . . . . . . . 129
Minnətdar qələmlər . . . . . . . . . . . . . . . . . 135
Məzəli adam . . . . . . . . . . . . . . . . . . . . . . 145
Söz günəşi . . . . . . . . . . . . . . . . . . . . . . . 149
“Qəzəl dükanı” . . . . . . . . . . . . . . . . . . . . 158
Nadir İqbal . . . . . . . . . . . . . . . . . . . . . . . 162





Qardaş pişvazı . . . . . . . . . . . . . . . . . . . . . 167
Filarmoniyanın yardımı . . . . . . . . . . . . . . . 173
Yaxşı yol . . . . . . . . . . . . . . . . . . . . . . . . . 175
Mümkünsüz xahişlər . . . . . . . . . . . . . . . . . 180
Heyrətli baxışlar . . . . . . . . . . . . . . . . . . . 186
İki hədiyyə . . . . . . . . . . . . . . . . . . . . . . . 193
Əlvan nemətlər . . . . . . . . . . . . . . . . . . . . 204
“Bayraqdar”ın taleyi . . . . . . . . . . . . . . . . . 213
Çağlayan inam . . . . . . . . . . . . . . . . . . . . . 219
Nəğməli səfərlər . . . . . . . . . . . . . . . . . . . 224
Gizli ədavət . . . . . . . . . . . . . . . . . . . . . . 231
Ulduzlar altında . . . . . . . . . . . . . . . . . . . . 240
Gülün bülbülü . . . . . . . . . . . . . . . . . . . . . 249
Sağlamlıq xoşbaxtlıqdır . . . . . . . . . . . . . . 254
Sərhəddə təhlükə . . . . . . . . . . . . . . . . . . . 266
Ülfətli istirahət . . . . . . . . . . . . . . . . . . . . 271
Həssas duyğular . . . . . . . . . . . . . . . . . . . 294
Gözəllər arasında . . . . . . . . . . . . . . . . . . . 308
Alovlu xitab . . . . . . . . . . . . . . . . . . . . . . 321
Son gecə . . . . . . . . . . . . . . . . . . . . . . . . 329
Təlatümlü səhər . . . . . . . . . . . . . . . . . . . 355
Əlvida, Təbriz . . . . . . . . . . . . . . . . . . . . . 362
Sahildən-sahilə . . . . . . . . . . . . . . . . . . . . 369
**Epiloq** . . . . . . . . . . . . . . . . . . . . . . . . . 377

| | |
|---|---|
| **Redaktor** | *Natiq Cavadzadə* |
| **Rəssam** | *Nazim Rzaquliyev* |
| **Kompüter yığımı** | *Yaqut Rəhimova* |
| **Kompüter işləri** | *Sevda Allahverdiyeva* |

**ƏLİ TUDƏ**

# HƏYATIM, XATİRƏLƏRİM...
*(İkinci hissə)*
XVII cild

Kitab Natiq Əli Tudə oğlu Cavadzadənin
şəxsi vəsaiti ilə çap olunub.

SON VARIANT - 2020

Çapa imzalanmışdır 20.08.2020. Kağız formatı $60x90^{1}/_{16}$.
Fiziki çap vərəqi 24,0. Şərti çap vərəqi 24,0. Qarnituru Times.
Sifariş 384. Tiraj 500.

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Az 1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.
Tel.: (99412) 5380010. Faks: (99412) 5389085.
E-mail:azerb_nesch@mail.ru